URXAN ƏLƏKBƏROV

# İNSAN İNKİŞAFININ ƏSASLARI

***(Ali məktəblər üçün dərslik)***

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 133 nömrəli 07 mart 2016-cı il tarixli əmri əsasında dərc edilmişdir.*

**«Aspoliqraf»**
**BAKI – 2016**

R e d a k t o r:

**Akif Əlizadə,**

*akademik, geologiya-mineralogiya elmlər doktoru, professor*

R ə y ç i l ə r:

**Əlikram Abdullayev,**

*fəlsəfə elmləri doktoru, professor*

**Qorxmaz İmanov,**

*iqtisadi elmləri doktoru, professor*

**Etibar Nəcəfov,**

*fəlsəfə elmləri doktoru, professor*

**Çingiz İsmayılov,**

*coğrafiya elmləri doktoru, professor*

**Ələkbərov Urxan**

Ə 45 **İnsan inkişafının əsasları.** Ali məktəblər üçün dərslik. Bakı, «Aspoliqraf», 2016, 280 səh.

Davamlı inkişaf XXI əsrin prioritetidir. Davamlı inkişaf naminə insan potensialının formalaşdırılması və daim təkmilləşdirilməsi Azərbaycan Respublikasında dövlət siyasətinin başlıca tərkib hissəsidir. Təqdim olunan dərslikdə insan inkişafının planlaşdırılması və idarə edilməsi, bu istiqamətin sahələrarası elm kimi formalaşması, əsas anlayışları, nəzəri mənbələri barədə müfəssəl məlumat verilib. Dərslik davamlı inkişaf, insan potensialının təkmilləşdirilməsi sahəsində, xüsusilə idarəçilik kadrlarında, çağdaş bilik və bacarıqların formalaşdırılmasına yönəldilib. İşıqlandırılan mövzular yeni səpkidə, yeni siyasi və iqtisadi reallıqlar nəzərə alınmaqla təhlil edilib. Ali məktəblərin müxtəlif pillələrində və müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələr, fasiləsiz təhsil prosesinə cəlb olunan dövlət qulluqçuları üçün tövsiyə olunur.

Birləşmiş Millətlər Təşkilatının inkişaf agentliyi olan BMT-nin İnkişaf Proqramı (BMTİP) yoxsulluğun ləğvinə nail olmaq, eləcə də bərabərsizlik və ayrı-seçkiliyin azaldılmasına yardım etmək üçün 170-ə yaxın ölkədə fəaliyyət göstərir. Biz əldə olunan inkişaf nəticələrini saxlamaq naminə siyasət, liderlik qabiliyyəti, tərəfdaşlıq bacarıqları, institusional imkanların inkişafında və dayanıqlığın yaradılmasında ölkələrə kömək edirik. www.az.undp.org

Azerbaijan

Bu dəslik BMTİP-nin maliyyə dəstəyi ilə dərc edilmişdir.

Bu dərslikdə dərc edilən məlumat və fikirlər müəllifin özünə məxsusdur və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) rəsmi mövqeyini əks etdirmir. Ona görə də nə BMT agentlikləri və ya BMTİP, nə də bu qurumları təmsil edən hər hansı şəxs yazılan məlumat və fikirlərə görə məsuliyyət daşımır.

**Ə $\frac{0201000000}{053}$ 2016**

**© Urxan Ələkbərov, 2016**

# GİRİŞ

Hazırkı nəsillərin rifahını təmin edən və gələcək nəsillərin maraqlarına xidmət edən davamlı inkişafın təmin edilməsi dünya üçün XXI əsrdə əsas prioritet kimi müəyyənləşdirilmişdir. Bu barədə qərar 2015-ci ilin sentyabrında keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 70-ci Yubiley Sessiyasında və eyni tarixlərdə baş tutmuş və dünya liderlərinin iştirakı ilə keçirilmiş Dünya Sammitində qəbul edilmişdir. Eyni zamanda bu forumların qərarları əsasında XXI əsrin əsas hədəfi kimi 2015–2030-cu illər üçün "Davamlı İnkişaf Məqsədləri" adlı sənəd formalaşdırılmışdır.

Çağdaş və gələcək nəsillərin maraqlarına xidmət edən davamlı inkişafın hədəflənmiş məqsədlərinə nail olunması, ilk növbədə, insanların bilik və bacarığından, bu sahədə onların imkanlarının genişləndirilməsindən keçir. Azərbaycan Respublikasının iqtisadi və sosial sahədə əldə etdiyi, BMT, Dünya Bankı, digər nüfuzlu beynəlxalq təşkilatların rəsmi sənədlərində yüksək dəyərləndirilən nailiyyətlərin əsasında biliyə hesablanmış inkişaf durur. Ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyası, ilk növbədə, insan inkişafına xidmət edən təhsil, sağlamlıq və iqtisadi sahələrin yenilənməsinə yönəldilmişdir. Ölkədə təhsil, sağlamlığa xidmət edən səhiyyə və idman sahələrinin yenidən qurulması, iqtisadiyyatın modernləşməsi bilavasitə insanların imkanlarının genişlənməsi, onların inkişafına yol açır.

Təhsil Nazirliyinin təsdiq etdiyi proqram əsasında hazırlanmış "İnsan inkişafının əsasları" davamlı inkişafın planlaşdırılması və idarəedilməsi, bəşəriyyətin gələcək inkişafında yeni mərhələ olan ekoloji sivilizasiya sahəsində tələbə və müdavimlərin sistemli biliklərə yiyələnməsinə xidmət edir.

İnsan inkişafına dair sistemli biliklər hazırkı dərslikdə 9 bölmədə təqdim olunmuşdur. Bunlar ardıcıl olaraq inkişaf prosesinin qiymətləndirilməsi və planlaşdırılmasında istifadə edilən ənənəvi və ən yeni yanaşmaları əks etdirməklə eyni zamanda insan inkişafının təmin olunmasına yönəlik çağırışlara cavabları da özündə ehtiva edir. Bunların sırasında yoxsulluq və kəskin qeyri-bərabərliklə mübarizə, gender

bərabərliyinin təmin olunması, ətraf mühitin vahid sistem kimi idarə edilməsi və s. məsələlər qeyd oluna bilər. Dərslikdə həmçinin insan potensialının inkişafı sahəsində və bunun nəticəsi olaraq Azərbaycan Respublikasında iqtisadi və sosial göstəricilərin təhlili, bu istiqamətdə qazanılmış uğurlara xüsusi diqqət ayrılmışdır.

İnsan inkişafı konsepsiyası və müvafiq olaraq kursu tam yeni yanaşmalar əsasında formalaşdırılmışdır. Dərslikdə bu zamana qədər az təsadüf olunan terminlərin izahlı lüğəti də yer alıb. Lüğətdə terminlərin ingilis dilində qarşılıqlarının verilməsi oxucularda dünyagörüşünün genişlənməsi, bu sahədə əlavə ədəbiyyat axtarışını sürətləndirmək məqsədi daşıyır. Dərslik idarəetmə, davamlı inkişafın planlaşdırılması, iqtisadiyyat, politologiya, beynəlxalq münasibətlər, hüquqşünaslıq ixtisasları üzrə bakalavriatura və magistratura səviyyələrində təhsil alan tələbələr, doktorantlar və bütövlükdə geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. İnsan inkişafına həsr olunmuş tədris vəsaitinin dövlət qulluqçularının hazırlanması və fasiləsiz təhsili prosesində də istifadəsi zəruridir.

# 1. İNKİŞAF GÖSTƏRİCİLƏRİ

*İnkişaf anlayışı. Ölkə və ərazilərin inkişaf göstəricilərinin qiymətləndirilməsi. Müxtəlif ölkələrin inkişaf səviyyəsi və bu inkişafın tarixi və təbii amillərdən asılılığı. Fərqli təbii sərvətlərə və insan potensialına malik olan ölkələrin əldə etdiyi nailiyyətlərin müqayisəsi. Texnoloji nailiyyətlər əmsalı innovativ inkişafın göstəricisi kimi. Biliyə əsaslanan inkişafın planlaşdırılması, idarə edilməsi və qiymətləndirilməsi. İnkişafda insan amilinin rolu.*

**Mündəricat:**


1.1. Bölmənin məqsədi
1.2. Açar anlayışlar
1.3. İnkişaf anlayışı. Ölkə və ərazilərin inkişaf göstəricilərinin qiymətləndirilməsi
1.4. İnkişaf sahəsində əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsində insan amili
1.5. Tərəqqi göstəriciləri və milli xoşbəxtlik əmsalı
1.6. İnsan potensialı inkişafın əsas amili kimi
1.7. Biliyə əsaslanan inkişafın və texnoloji nailiyyətlərin qiymətləndirilməsi
1.8. İnsan potensialının formalaşması siyasəti və əmək bazarı


## *1.1. Bölmənin məqsədi*

İnsan inkişafına həsr olunmuş hazırkı kitabın birinci fəslində təqdim olunan bilgilər inkişaf prosesləri haqqında müasir anlayışları təsvir və təhlil etmək, tərəqqi proseslərini şərtləndirən amilləri aşkarlayaraq sadalamaq və izahlı təsvirini vermək məqsədinə xidmət edir. Müxtəlif amillərin inkişaf prosesi çərçivəsində əhəmiyyətini müqayisəli şəkildə qiymətləndirmək və fərqləndirmək, uğurlu inkişaf prosesini təmin edən amilləri müəyyənləşdirmək hazırkı bölmənin məqsədlərindəndir. Uğurlu inkişafın tarixi, təbii, milli xüsusiyyətlərdən asılı olmaması və insanların bilik və bacarığı ilə müəyyən edilməsi bölümün digər məqsədidir. Bu istiqamətdə toplanmış biliklər ölkə və hər hansı bir ərazinin,

eləcə də fəaliyyəti nəzərdə tutulan və yaxud artıq fəaliyyət göstərən dövlət, ictimai və fərdi qurumların inkişafının optimal idarəedilməsi üçün olduqca əhəmiyyətlidir. Bölmədə təqdim olunmuş məlumatların öyrənilməsi, nəticədə əldə edilmiş bilik və bacarıqlar inkişaf prosesinin planlaşdırılma mərhələsinin düzgün təşkili və idarəedilməsi baxımından önəmlidir. Əldə ediləcək biliklər insan potensialına əsaslanan inkişafın təşkili, monitorinqi və auditi üçün zəruridir.

## *1.2. Açar anlayışlar (bax: Terminlər lüğəti)*

***– Ali məktəblərdə təbiət elmləri, riyaziyyat, texniki elmlər və mühəndisliyi öyrənən tələbələr; – Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP); – İnkişaf; – Ümumi Daxili Məhsul (ÜDM); – Ümumi Milli Məhsul (ÜMM); – Davamlı inkişaf; – İqtisadi azadlıqlar əmsalı; – İnsan İnkişafı Əmsalı (İİƏ); – Məhbub ül Haq; – Qlobal rəqabət qabiliyyəti əmsalı; – Təhsilə dövlət xərcləri; – Tərəqqinin Həqiqi Göstəricisi (THG); – Texnoloji Nailiyyətlər Əmsalı, TNƏ; – Minilliyin inkişaf məqsədləri; – Davamlı inkişaf məqsədləri; – Vanderford-Rileyin Rifahın Planlaşdırılması və Həyatın Keyfiyyəti Əmsalı; – Vətəndaş cəmiyyəti; – Yüksək texnologiya məhsullarının ixracı.***

## *1.3. İnkişaf anlayışı. Ölkə və ərazilərin inkişaf göstəricilərinin qiymətləndirilməsi*

Hər hansı bir prosesin, o cümlədən inkişaf prosesinin idarə edilməsi, onun planlaşdırılması və monitorinqi, bu istiqamətdə qərarların qəbulu mövcud vəziyyətin təhlili və qiymətləndirilməsinə əsaslanır. Tərəqqini təmin edən inkişaf prosesinin optimal planlaşdırılması ilkin vəziyyətin düzgün qiymətləndirilməsindən asılıdır. Belə yanaşma idarəetmənin bütün istiqamətlərinə, o cümlədən dövlət idarəetmə strategiyasına, ərazilərin, müxtəlif müəssisə və təşkilatların idarə olunması proseslərinə də şamil edilə bilər. İlkin vəziyyətin qiymətləndirilməsi üçün seçilən və istifadə edilən göstəricilər, onların müasir tələblərə cavab verməsi planlaşdırma, idarəetmə və monitorinq prosesləri çərçivəsində qəbul edilən qərarların səmərəliliyini, mövcud ehtiyatların optimal səfərbərliyini təmin edən vacib amildir.

Ölkələr və onların tərkibinə daxil olan ərazilər öz inkişaf səviyyələrinə görə fərqlidirlər və yaxud fərqli ola bilərlər. Bu, bir faktdır və o da bəllidir ki, bəzi hallarda müxtəlif ölkələr, ərazilər və yaxud bu yerlərdə məskunlaşan əhali qruplarının inkişaf səviyyələrində müşahidə edilən fərqlər çox kəskin ola bilir. Beynəlxalq statistik təhlillərə əsasən ölkələr arasında iqtisadi inkişafın səviyyəsinə görə fərqlər bəzi hallarda 40 dəfə və ondan da çox ola bilər. Məsələn, BMT-nin və Dünya Bankının dərc etdiyi hesabatlara əsasən dünya əhalisinin 72 faizi aşağı gəlirləri olan ölkələrdə yaşayırlar. Lakin onların payına dünya istehlakının yalnız 10 faizindən azı düşür. Bu o deməkdir ki, digər yüksək gəlirləri olan ölkələrdə yaşayan 28 faiz əhalinin payına dünya istehlakının təxminən 90 faizi düşür. 2015-ci ildə dərc olunmuş hesabatlara əsasən Avropanın şimalında yerləşən və heç də əlverişli iqlimi olmayan Norveç öz iqtisadi və sosial inkişaf səviyyəsinə və onu xarakterizə edən göstəricilərə görə Mərkəzi Afrikada yerləşən Çad Respublikasından kəskin şəkildə fərqlənir. Norveçdə adambaşına düşən ***Ümumi Daxili Məhsulun (ÜDM)*** həcmi Çad Respublikasından 31 dəfə çoxdur. Eyni zamanda qeyd edilməlidir ki, Norveçdə yaşayan əhali orta hesabla Çad Respublikasının əhalisindən 20 il daha çox yaşayır. Dünyada müşahidə edilən digər kəskin qeyri-bərabərliyin örnəyi kimi Asiya ölkəsi olan Sinqapur və Afrika qitəsində yerləşən Burundi Respublikası arasındakı fərqlər göstərilə bilər. Sinqapurda ÜDM-in adambaşına düşən həcmi 2015-ci ilin məlumatlarına görə 76 629 ABŞ dolları təşkil edir və Burundi Respublikasında qeydə alınan səviyyədən (adambaşı ildə 758 ABŞ dolları) 100 dəfə çoxdur. Burundi Respublikasının əhalisinin ömür müddəti orta hesabla 56 il təşkil etdiyi zaman, Sinqapurda bu rəqəm 83-ə bərabərdir.

Belə vəziyyət tez-tez müşahidə edilir və inkişaf göstəricilərinə görə müxtəlif qitə, ölkə və ərazilər kəskin surətdə bir-birindən fərqlənə bilirlər. Eyni zamanda qeyd olunduğu kimi, inkişaf səviyyəsindəki fərqlər bir ölkə və ya ərazi daxilində məskunlaşan müxtəlif sosial, irqi və etnik qruplar arasında da müşahidə edilməkdədir. Təsadüfi deyil ki, BMT-nin təklifi ilə 194 ölkənin rəhbər və nümayəndələri, bir sıra nüfuzlu ictimai təşkilatlar tərəfindən 2000-ci ildə dünya sammitində qəbul olunmuş və 2015-ci ilə qədərki dövrü əhatə edən Minilliyin İnkişaf Məqsədləri (MİM) inkişaf səviyyəsinə görə kəskin fərqlərin aradan qal-

dırılmasını və yaxud əhəmiyyətli dərəcədə azaldılmasını nəzərdə tuturdu. MİM-in icrasının təhlili göstərmişdir ki, keçmiş dövr ərzində bu istiqamətdə dünyada bir sıra nəzərəçarpan nailiyyətlər əldə edilmişdir. Bu istiqamətdə müxtəlif ölkələr tərəfindən qazanılan nailiyyətlər beynəlxalq təşkilatlar tərəfindən xüsusilə qeyd olunmaqdadır. Buna misal olaraq, son illərdə Azərbaycan Respublikasında yoxsulluq həddinin 49 faizdən 5 faizə enməsi, yəni səkkiz dəfə azalması göstərilə bilər. Qeyd edilməlidir ki, 2000-ci ildə qəbul edilmiş MİM-də hədəf kimi on beş ildə yoxsulluğun iki dəfə azalması məqsədi qoyulmuşdur. Azərbaycan Respublikasında isə beynəlxalq təşkilatların hesabatına əsasən yoxsulluğun azalmasında daha yüksək nəticələr əldə edilmişdir.

Lakin qlobal miqyasda 2000–2015-ci illər üçün MİM-də irəli sürülmüş bütün məqsədlərə nail olunmamışdır. Eyni zamanda 2015-ci ildən sonra bəşəriyyət inkişaf sahəsində bir sıra yeni çağırışlara da cavab verməlidir. Artıq aydındır ki, bu istiqamətdə bir sıra nailiyyətlər qazanılsa da, qlobal səviyyədə 2015-ci il üçün nəzərdə tutulan bütün məqsədlərə nail olunmayıb və əldə edilmiş uğurlar yalnız bəzi ölkələrdə müşahidə edilmişdir və məhdud hədəflərə aid edilə bilər.

Bu səbəbdən 2015-ci ilin sentyabr ayında Nyu-Yorkda keçirilən BMT-nin 70-ci Yubiley Sessiyasında aparılan müzakirələr və qəbul edilən qərar və tövsiyələr davamlı insan potensialına əsaslanan inkişafın planlaşdırılması və idarəedilməsinə həsr edilmişdir. BMT-nin təşəbbüsü ilə eyni zamana təsadüf etmiş Dünya Sammitində 2015–2030-cu illər üçün qlobal çağırışlar müzakirə edilib və 2015–2030-cu illərdə dünya üçün ən çox əhəmiyyət daşıyan hədəflər müəyyənləşdirilib. Sammitdə müzakirə edilən hədəflər insan potensialına əsaslanan ***davamlı inkişafın*** təmin edilməsinə yönəldilmişdir. Bu səbəbdən Nyu-Yorkda 25–27 sentyabr 2015-ci ildə keçirilən sammit "Davamlı inkişaf sammiti" adlandırılmışdır. BMT-nin Sessiyasında və Dünya Sammitində aparılan müzakirələrin nəticəsi kimi 2015–2030-cu illər üçün qlobal səviyyədə inkişafı müəyyən edən sənəd qəbul edilmişdir. Bu sənəd "Davamlı inkişaf məqsədləri" adlandırılmışdır.

Davamlı inkişaf məqsədlərinə nail olmaq üçün hazırda qlobal miqyasda ən aktual olan 17 müxtəlif hədəf müəyyən edilmişdir. Göstərilən hədəflər 2030-cu ilə qədər yoxsulluq və aclığın tam ləğvini,

dünya əhalisinə keyfiyyətli təhsil və sağlamlıq xidmətlərinin təqdim edilməsini, ekoloji problemlərin zamanında qarşısının alınması, hazırda müşahidə edilən qeyri-bərabərliyin, o cümlədən gender qeyri-bərabərliyinin aradan qaldırılmasını nəzərdə tutur. Göstərilən nailiyyətlərin əldə edilməsini təmin etmək üçün BMT və Dünya Sammiti tərəfindən 2030-cu il üçün müəyyənləşdirilmiş digər hədəflər qrupu iqtisadiyyatın, o cümlədən yaşıl iqtisadiyyatın inkişaf etdirilməsini nəzərdə tutur. İqtisadi göstəricilərin artması ilə yanaşı, planlaşdırılmış dövrdə uğurlu inkişafın təmin edilməsi üçün innovativ ekoloji problemləri, o cümlədən iqlim dəyişmələri riskini nəzərə alan istehsal və xidmət sahələrinin inkişafı hədəflər arasındadır. Bunlarla yanaşı, sosial məsuliyyətli istehlakın təmin edilməsi səmərəli inkişafın vacib şərti kimi qəbul edilir. Bütün bunlara nail olmaq üçün beynəlxalq əməkdaşlığın güclənməsi, bilik və bacarıq mübadiləsi hədəflər sırasındadır.

Hər hansı bir ölkənin inkişaf səviyyəsini qiymətləndirmək, ölkələr arasında müqayisə aparmaq üçün ilk növbədə, ***inkişaf*** anlayışının müasir məna çalarının təhlil edilməsinə ehtiyac var. Bu termin müxtəlif obyekt və subyektlərə şamil edilə bilər və göstərilən səbəbdən onun müxtəlif tərifləri məlumdur. Ümumiləşdirilmiş şəkildə qeyd etmək olar ki, inkişaf mahiyyət etibarilə dinamik bir prosesdir və bir vəziyyətdən digərinə keçid kimi də səciyyələndirilə bilər. İnkişaf prosesi nəticəsində yeni vəziyyətin əmələ gəlməsi, yeni xassələrin üzə çıxması müşahidə olunur. Bəzi hallarda inkişaf, məsələn, xəstəliyin inkişafı mənfi bir proses kimi dəyərləndirilə bilər. İqtisadi böhranlar, hərbi münaqişələr və yaxud təbii fəlakətlərin inkişafı da eyni yanaşma tələb edir və mənfi bir prosesin baş verməsindən xəbər verir. Lakin əksər hallarda inkişaf dedikdə, əsasən, müsbət bir hadisənin baş verməsi, tərəqqinin əldə edilməsi və bu prosesin davamlı olması nəzərdə tutulur.

Ölkələrin inkişaf prosesinin qiymətləndirilməsində hər zaman müxtəlif göstəricilərdən istifadə olunub və olunmaqdadır. Bunlara, əsasən, aşağıdakılar aid edilə bilər:

– Ölkənin real Ümumi Daxili Məhsulunun (ÜDM-in) həcmi;
– Ölkədə və yaxud təhlil edilən ərazi və yaxud ölkədaxili qruplarda adambaşına düşən ÜDM;

– İqtisadiyyatın sahələr üzrə strukturu, diversifikasiya və rəqabətə davamlılıq göstəriciləri;
– Əsas növ məhsulların adambaşına istehsalı və təminat təhlükəsizliyi;
– İqtisadi və təbii ehtiyatlardan səmərəli istifadə edilməsinin göstəriciləri;
– Əhalinin sosial təminatı, o cümlədən gəlirlərin müxtəlif qrup və təbəqələr arasında bölünməsi və s.

Bunlarla yanaşı, ölkələrin iqtisadi və sosial inkişafının qiymətləndirilməsində bir sıra digər göstəricilər də istifadə olunmaqdadır. Keçmişdə və müasir dövrdə istifadə olunan ənənəvi iqtisadi və sosial göstəricilər inkişafın planlaşdırılmasında və bu prosesin idarə edilməsində mühüm rol oynayıb və oynamaqdadır. Göründüyü kimi, inkişafı səciyyələndirən məlumatlar arasında ənənəvi iqtisadi göstəricilər xüsusi yer tutur. Bunlar ilk növbədə, ***Ümumi Daxili Məhsul (ÜDM)*** və onun hər hansı bir ölkə və ya ərazidə adambaşına düşən həcmidir. Bu iki əlaqəli göstərici ölkələrin inkişaf səviyyəsi və əhalinin rifah halının müqayisəli təhlilində ən çox istifadə olunan indikatorlardır.

### *1.4. İnkişaf sahəsində əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsində insan amili*

ÜDM-in ümumi həcmi və onun adambaşına düşən payı çox əhəmiyyətli göstəricilər olsalar da, onlar inkişafın vəziyyətini tam və dolğun səciyyələndirə bilməz. Bu göstərici əsas etibarilə ölkənin və yaxud hər hansı bir ərazinin inkişaf üçün mövcud iqtisadi potensialından xəbər verir. Ümumiləşdirilmiş istehsalın həcminin artımına və xidmətlərin genişləndirilməsinə aid göstəricilərdən olan ÜDM-in məbləği çox əhəmiyyətlidir və eyni zamanda əhalinin rifahının yaxşılaşdırılması üçün mövcud imkanları əks etdirir. Lakin ÜDM-in ümumi həcmi və yaxud onun adambaşına düşən payı müasir anlamda inkişafın səviyyəsini və ölkənin bu istiqamətdə həyata keçirdiyi siyasətin uğurlarını tam səciyyələndirə bilməz. Bu ondan irəli gəlir ki, qeyd edilən və bunlara bənzər digər tətbiq olunan göstəricilər orta vəziyyəti səciyyələndirir və artıq dərəcədə ümumiləşdirilmişdir. Bu tipli orta rəqəm və statistik göstəri-

cilər müqayisə edilə biləcək və bir sıra hallarda müqayisə edilən ölkə və regionların inkişafından, vətəndaşlarının rifahındakı fərqlərdən və cəmiyyətdə hər bir şəxsin real vəziyyətindən xəbər vermir. Ən əsas odur ki, orta ümumiləşdirilmiş iqtisadi və yaxud sosial göstəricilər hər hansı ölkə, bölgə, cəmiyyətdə və yaxud ölkədaxili qruplar arasında mövcud olan bərabərsizlikdən, bir sıra hallarda bu vəziyyətin kəskin və qəbuledilməz dərəcədə olmasından xəbər vermir. Qeyri-bərabərliyin və bu vəziyyətlə əlaqədar olan kəskin yoxsulluğun və aclığın tam ləğvi və yaxud kəskin surətdə azaldılması BMT və dünya liderləri sammitində 2015–2030-cu illər üçün nəzərdə tutulmuş ən vacib və təxirəsalınmaz məqsədlərdəndir.

Orta iqtisadi və sosial göstəricilərin vəziyyəti tam səciyyələndirə bilməməsi yeni inkişaf göstəricilərinin yaradılması, onların planlaşdırma və idarəetmədə istifadəsi zərurətini əmələ gətirmişdi. Bu göstəricilərin xüsusiyyətləri elə olmalıydı ki, onlar ölkə və yaxud ərazinin iqtisadi imkanlarını göstərməklə yanaşı, bu potensialın nə dərəcədə onların əhalisi üçün səfərbər edilməsini nümayiş etdirsin. Sözügedən şərtlərə cavab verən göstəricilərdən biri və ən əsası insanı inkişaf prosesinin mərkəzinə qoyan inkişafın dəyərləndirməsinin elə bir üsuludur ki, onun tətbiqi nəticəsində müxtəlif cəmiyyətlərdə mövcud olan iqtisadi və sosial vəziyyəti universal əks etdirsin. Belə ki, artıq hər hansı bir ölkə və yaxud ərazidə ümumiləşdirilmiş orta iqtisadi və sosial göstəricilər ilə yanaşı, həmin toplumda insanın durumu və rifahı inkişafın əsas göstəricilərini özündə əks etdirsin.

İnsanın cəmiyyətdə vəziyyətinin inkişafın hədəfi olması və insanın rifahının ən ali məqsəd kimi çıxış etməsi nəzərə alınaraq, XX əsrin son onilliyində inkişafın qiymətləndirilməsi üçün yeni bir göstəricinin tətbiqi fikri irəli sürüldü. Birləşmiş Millətlər Təşkilatı üçün çalışan və eyni zamanda ABŞ-ın bir sıra aparıcı universitetlərində, o cümlədən Nyu-Yorkda fəaliyyət göstərən Kolumbiya Universitetində (Columbia University) dəvət olunmuş professor kimi fəaliyyət göstərən Pakistan mənşəli alim ***Məhbub ül Həq*** və onun rəhbərlik etdiyi ekspert qrupu inkişafın qiymətləndirilməsi üçün yeni bir göstəricinin – insan inkişafı göstəricisinin istifadəsini və bu məqsədlə göstərilən meyarları qiymətləndirə bilən bir sıra əmsalların hesablanmasını təklif etdi. Bu göstəricilərdən ən geniş tətbiq olunanı ***İnsan İnkişafı Əmsalıdır (İİƏ)***. Həmin

əmsalın hesablanması zamanı üç qrup göstəricidən istifadə olunur: sağlamlıq, təhsil və gəlir. İnkişafın qiymətləndirilməsi üçün göstərilən qruplara aid statistik məlumatların seçilməsi tamamilə əsaslı və məntiqlidir. Bu məntiq ondan irəli gəlirdi ki, əgər ölkənin gəlirləri kifayət dərəcədə yüksəkdirsə və dövlətin inkişaf siyasəti, onun innovativliyi, sosialyönümlülüyü düzgün planlaşdırılır və səmərəli idarə edilirsə, o zaman ölkənin əhalisi sağlam və yüksək bilik və bacarığa yiyələnmək imkanlarına sahib olmalıdır. Belə vəziyyət isə öz növbəsində ölkə və ya ərazinin iqtisadi və sosial inkişafı, əhalinin maddi durumunun yüksəlməsi üçün yeni imkanlar yaradır və ümumiyyətlə, tərəqqini təmin edir. Ən əsas isə dövlət və ərazilərin idarəedilməsinin planlaşdırılması zamanı bu amilin nəzərə alınması davamlı inkişafın vacib şərtidir. Bu isə beynəlxalq təşkilatlar tərəfindən qlobal miqyasda 2015–2030-cu illər üçün hədəflənmiş əsas məqsəddir.

Əhalinin sağlamlığı, bilik və bacarıqlara malik olması və onların gəlir əldə etmə imkanları kimi göstəricilər əsasında ***İnsan İnkişafı Əmsalı* (İİƏ)** hər bir ölkə üçün hesablanır. Bəzi hallarda bu hesablamalar ölkə daxilində olan müxtəlif əraziləri və yaxud bir ölkə daxilində müxtəlif qrupları əhatə edir. Qiymətləndirmələr əsasında BMT xüsusi hesabatlar dərc edir. BMT-nin "İnsan İnkişafı haqqında Hesabat" adlanan bu sənədi ilk dəfə 1990-cı ildə dərc edilmişdir. Bu vaxtdan başlayaraq belə hesabatlar BMT tərəfindən hər il hazırlanır və yayılır. Hesabatlarda müxtəlif ölkə və bölgələrdə insan inkişafının qiymətləndirilməsinə dair məlumatlar dərc edilir. Eyni zamanda bu göstəriciyə görə hər bir ölkənin dünyada reytinqi müəyyənləşdirilir. Müxtəlif illərdə dünyanın 190-a yaxın ölkəsi üçün aparılan təhlil və müqayisə ilə yanaşı, hesabatlarda insan inkişafının planlaşdırılması və idarə edilməsi sahəsindəki nailiyyətlər, idarəetmənin bu istiqaməti üçün istifadə olunan yeniliklər də təsvir və təbliğ edilir. 2015-ci il üçün hazırlanan hesabatda 188 ölkənin bu sahədə həyata keçirdiyi fəaliyyət, əldə edilən nailiyyətlər təhlil edilir. İnsan inkişafı sahəsində nailiyyətlər sırasında insanın uzun və yaradıcı ömür sürmək hüququ, təhsil səviyyəsini yüksəltmək imkanı, biliklərin tətbiqi nəticəsində gəlirlərin artması, sosial vəziyyətin yaxşılaşdırılması kimi göstəricilər təhlil edilir. Şübhəsiz ki, bu proseslərin optimal idarəedilməsi yalnız müvafiq siyasi mühitin formalaşması və effektiv idarəetməsi şəraitində mümkün ola bilər (şəkil 1.1).




***Şəkil 1.1.*** *İnkişafın idarə edilməsi və qiymətləndirilməsində insan amili*

Milli hökumət, qeyri-hökumət təşkilatları (QHT) və beynəlxalq inkişaf institutlarının, o cümlədən BMT, Dünya Bankının iştirakı və vahid metodika əsasında hazırlanan hesabatlarda insan inkişafı sahəsindəki nailiyyətlər haqqında məlumatlar yayılır və bu istiqamətdə yüksək nəticələrin əldə edilməsi yolları tövsiyə olunur. Qeyd edildiyi kimi, bu insan inkişafı haqqında hesabatlar həm qlobal miqyasda dünya üzrə, həm də qitə və ölkələr üzrə hazırlanır.

Müasir dövrdə strateji önəm daşıyan, tükənməyən və daim təkmilləşən təbii sərvətlər arasında ən böyük əhəmiyyətə malik olanı və ən dəyərlisi insan və onun imkanlarıdır. İnsan amili hər zaman inkişafın həlledici amili kimi çıxış edib və etməkdədir. Son zamanlar isə ölkələrin inkişafının, əhalinin həyat səviyyəsi və rifahının bilik və bacarıqlardan asılı olması insan amilinin xüsusi əhəmiyyətini bir daha ön sıraya çıxarıb. Təsadüfi deyil ki, insan potensialının səfərbər edilməsi davamlı inkişafın vacib amilidir.

Bəllidir ki, idarəetmə və real iqtisadiyyat sahələrində qazanılmış nailiyyətlər, ölkənin nüfuzu və rəqabət qabiliyyəti istifadə olunan elmi yanaşmalardan və tətbiq edilən müasir innovativ texnologiyalardan asılıdır. Bu bilik və texnologiyaların yaradıcısı, onları təkmilləşdirən və tətbiq edən də insandır. Bu səbəbdən dünyada insan potensialını inkişafın mərkəzinə qoymaq, bu prosesi insana doğru yönləndirmək, göstərilən istiqamətdə mövcud olan problemləri açmaq və mənəvi dirçəlişə yol açmaq prioritetdir. Əslində, bir çox uğurlu inkişaf ideoloqları da qeyd olunan gerçəkliyi proqnozlaşdırılan innovativ inqilabın təməli kimi görürlər. Beləliklə, insan potensialının inkişafı, onu səciyyələndirən insan inkişafı əmsalı uğurlu inkişafın hədəflərinə nail olmanın vacib göstəricisi hesab edilə bilər.

### *1.5. Tərəqqi göstəriciləri və milli xoşbəxtlik əmsalı*

İnsan inkişafı əmsalı ilə yanaşı, tərəqqi prosesinin planlaşdırılması, həyata keçirilməsi və qiymətləndirilməsi üçün bir sıra digər əmsal və göstəricilərin istifadəsi təklif edilmişdir. Bunlar arasında dünya inkişafının hazırkı mərhələsində ***Tərəqqinin Həqiqi Göstəricisi (THG)*** xüsusi qeyd edilməlidir. İnsanın bilik və bacarığına əsaslanan inkişaf məqsədlərinə xidmət edən bu göstəricinin əsas xüsusiyyəti ondadır ki, idarəetmənin bu üsulu ümumi iqtisadiyyatda ***"yaşıl iqtisadiyyatın"*** payını nəzərə alan inkişaf göstəricisidir. Qeyd olunan göstəricinin tətbiqinin bir çox tərəfdarları elə hesab edirlər ki, ekoloji amilləri və ətraf təbii mühitə təsirləri nəzərə almayan və ***davamlı inkişaf*** prinsiplərinə tam cavab verməyən iqtisadi artım cəmiyyət üçün nəinki faydalı deyil, hətta mənfi nəticələrə də gətirib çıxara bilər. Bu, əsasən, ətraf mühitin keyfiyyətinin pisləşməsində, təbii ehtiyatlardan qeyri-səmərəli istifadədə, sosial gərginliyin artmasında öz əksini tapa bilir. Beləliklə, ***Tərəqqinin Həqiqi Göstəricisi*** yaşıl iqtisadiyyatı nəzərə aldığına görə dünya sammitində qəbul edilmiş Minilliyin İnkişaf Məqsədlərində 2015–2030-cu illər üçün nəzərdə tutulan davamlı inkişafın məqsədlərinə tam cavab verir. Lakin bu göstəricinin kəmiyyətcə qiymətləndirilməsi bir sıra problemlər yarada bilər.

İnkişaf prosesinin qiymətləndirilməsi üçün bir sıra digər göstəricilərin istifadəsi də təklif edilmişdir. Bunlardan biri müəlliflərinin adı ***(Vanderford və Riley)*** ilə məlum olan əmsaldır. Bu əmsalın hesablanma-

sında istifadə edilən göstəricilər arasında, əsasən, hər hansı bir ölkə, bölgə və ya müəssisədə həftədə iş saatlarının miqdarı, əhali arasında sahibkarlarla sahibkar olmayanların nisbəti nəzərdə tutulur. Digər qiymətləndirmə aləti kimi ***Rifahın Planlaşdırılması və Həyatın Keyfiyyəti Əmsalının*** istifadəsi təklif edilir. Sözügedən ikinci əmsalın hesablanması zamanı 9 amil əsas götürülür ki, bunlar işsizlikdən tutmuş iqlim xüsusiyyətlərinə qədər müxtəlif amil və təsirləri əhatə edir. Bunlarla yanaşı, daha bir göstərici – ***Milli Xoşbəxtlik Əmsalı*** da məlumdur. Lakin bu əmsalın dəqiq kəmiyyət göstəricisi olmadığından, onun tətbiqi imkanları məhduddur.

Bütün bu əmsallar inkişaf prosesi, onun planlaşdırılması, idarə edilməsi, monitorinqi üçün olduqca böyük əhəmiyyət daşısa da, insan potensialının inkişafına əsaslanan İİƏ-nin hesablanmasına ölkə və regionların inkişafının qiymətləndirilməsində daha geniş yer verilir. Bu əmsal həm ölkənin bütün əhalisi, həm də ölkə daxilində seçilmiş qruplar üçün hesablana bilər. Belə seçilmiş qruplara əhalinin müxtəlif cins, irq və dini icmalara mənsub nümayəndələri də aid edilə bilər. Eyni zamanda bu əmsal ölkənin fərqli regionları üçün də hesablana bilər. Belə tədqiqatlar adətən əhalisi sayca böyük, ərazisi isə geniş olan ölkələrdə həyata keçirilir. Beynəlxalq statistikada və beynəlxalq müqayisə və qiymətləndirmələrdə universallıq baxımından İİƏ ən geniş istifadə edilən göstəricilərdəndir.

Şəkil 1.1-də insan potensialına əsaslanan inkişafın idarə edilməsinin xüsusilə dörd əsas amildən asılılığı təsvir edilmişdir. Şəkildə eyni zamanda bu amillərin qarşılıqlı əlaqədə olması da öz əksini tapmışdır. Belə ki, bilik və bacarığa yiyələnmək üçün sağlamlıq ən vacib şərtlərdən biridir. Daim yeniləşən bilik və bacarıq isə səmərəli iqtisadiyyatın və əlverişli təbii və sosial mühitin yaradılmasının təminatçısıdır. İqtisadi imkanlar da öz növbəsində əhalinin sağlamlığının təmin edilməsi üçün şərait yaradır. Belə uğurlu inkişaf isə yalnız idarəetmə sahəsində düzgün siyasətin həyata keçirilməsi şəraitində mümkündür. Bu səbəbdən davamlı insan potensialına əsaslanan inkişafın planlaşdırılması, idarə edilməsi və monitorinqi üçün hər dörd amil və onları ifadə edən göstəricilərin nəzərə alınması olduqca vacibdir. İnkişafda yüksək nailiyyətlər əldə etmiş ölkələrin təcrübəsi göstərir ki, onların əhalisinin böyük əksəriyyəti daha sağlam və nisbətən uzun ömür sürür, sakinlərinin təhsil səviyyəsi yüksəkdir. Belə ölkələrdə bilik və yeni texnologiyalara əsaslanan iqtisadiyyat və onların əsasında duran elm və təhsil sahələrində də çox

yüksək səmərə ilə fəaliyyət göstərir. Bu isə uğurlu siyasət, innovativ və çevik idarəetmə şəraitində mümkündür. Belə bir vəziyyətdə idarəetmə sahəsində qazanılmış nailiyyətlər inkişafın yeni səviyyəyə qaldırılması və sosial mühitin təkmilləşdirilməsinə yol açır.

Qeyd etmək lazımdır ki, insan potensialına əsaslanan inkişafın planlaşdırılması və həyata keçirilməsi bir sıra ölkələrin dövlət siyasətinin əsas prioritetlərindəndir. Belə siyasətin həyata keçirilməsi nəticəsində sənaye, kənd təsərrüfatının, xidmət sahələrinin sürətlə inkişafı və modernləşməsi, onların diversifikasiyası insan potensialının inkişafı və cəmiyyətin sosial statusunun təkmilləşməsi üçün iqtisadi imkanlar yaradır. Bu amillərin inkişafın planlaşdırılması zamanı nəzərə alınması vacibdir. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında tətbiq edilən uğurlu inkişaf strategiyası insan potensialının təkmilləşdirilməsi üçün olduqca əhəmiyyətlidir.

## *1.6. İnsan potensialı inkişafın əsas amili kimi*

BMT və digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan və dünyada cəmiyyət və ayrı-ayrı fərdlərin inkişafının vəziyyətini əks etdirən məlumatları təhlil edərkən aydın olur ki, müxtəlif ölkələrdə vəziyyət eyni deyil. Bəzi ölkələr inkişafı yüksək səviyyəyə qaldırmağa nail olmuş və vətəndaşlarının layiqli və təhlükəsiz həyat sürməsi, üstün rifah üçün şərait yaratmışlar. Bir sıra ölkələrdə isə bu sahədə əldə edilmiş nəticələr nisbətən aşağıdır. Nəhayət, elə bir qrup ölkələr mövcuddur ki, onların inkişaf səviyyəsi olduqca aşağıdır, əhalinin rifahı qənaətbəxş deyildir. Son qrupa aid olan belə ölkələrin bir çoxu hərbi münaqişələrə cəlb olunublar, əhalisinin bir qismi isə qaçqın və məcburi köçkün həyatını yaşayırlar. Müxtəlif ölkələrin inkişafı və əldə etdikləri nailiyyətlər arasındakı belə kəskin fərqlərin kökündə hansı əsas amillərin durduğunu müəyyənləşdirmək olduqca vacibdir.

İnkişafın hansı amillərdən daha çox asılı olmasını müəyyən etdikdən sonra bu prosesin planlaşdırılması və idarə edilməsi ilə bağlı ən optimal qərarların qəbulu mümkündür. Bu isə inkişaf prosesinin sürəti və istiqamətinə, ölkə, region, digər idarəetmə obyektinin rəqabət qabiliyyətinə bilavasitə təsir göstərə bilər. Eyni zamanda bu proseslərin həyata keçirilməsi hər hansı bir fəaliyyətin iqtisadi səmərəliliyini yüksəldir, hazırkı

və gələcək nəsillərin sosial durumunu yaxşılaşdırır. Davamlı inkişaf, insan potensialının inkişafı prosesinin düzgün planlaşdırılması və idarə edilməsi həm milli inkişaf proqramlarındakı, həm də 2015-ci ilin sentyabr ayında keçirilən BMT-nin Baş Assambleyasının qərarlarına və eyni vaxta təsadüf etmiş Dünya Sammitində qəbul edilmiş 21-ci minilliyin 2015-2030-cu illər üçün hədəflənmiş məqsədlərinə tam cavab verir. Bu sənəddə hədəflənmiş məqsədlərə nail olunması bir çox qlobal çağırışlara cavab vermək, o cümlədən dünya üçün gündəlikdə olan iqlim dəyişmələri proseslərinin qarşısının alınması üçün də şərait yaradır. Bu fəaliyyət eyni zamanda istehlakda dövlətlər, bir sıra hallarda ölkələrin daxilində vətəndaşlar arasında müşahidə edilən kəskin fərqlərin aradan qaldırılması üçün olduqca əhəmiyyətlidir.

Qeyd edildiyi kimi, insan potensialının formalaşması və inkişafının müvəffəqiyyətlə idarə edilməsi üçün bu prosesə təsir edə bilən amillərin təhlili olduqca əhəmiyyətlidir. İnkişaf prosesinə müsbət təsir göstərə bilən, onun surətini artıran və perspektivlərini düzgün müəyyən edən amillər haqqında məlumatlar bu prosesin planlaşdırılması, tərəqqi üçün ayrılan insan resurslarının və maddi vəsaitlərin optimal idarə edilməsinə yol açır.

İnkişafın sürəti və istiqamətinə təsir göstərən müxtəlif amillərin əhəmiyyətinin qiymətləndirilməsi zamanı, ilk növbədə, bu prosesdə ölkə tarixinin əhəmiyyətinin təhlili anlama gəlir. Ölkənin tarixi baxımdan yaşının çox olması eyni zamanda zəngin dövlət idarəetmə təcrübəsinin mövcudluğundan xəbər verir. Göstərilən faktor eyni zamanda bu sahədə uğurlu çalışmaq ənənəsi olan dövlət qulluqçularının və onların hazırlanması üçün şəraitin olması deməkdir.

Ölkələrin inkişafının tarixi nailiyyətlərdən, ölkənin «yaşından» asılı olmasının təhlili cədvəl 1.1.-də əksini tapıb. Cədvəldə qədim və zəngin tarixə malik, bəşəriyyətin inkişafında mühüm rol oynamış, dünya sivilizasiyasına əvəzsiz töhfələr vermiş və müxtəlif qitələrdə yerləşən İtaliya, Yunanıstan (Avropa), Hindistan (Asiya) və Misir (Afrika), bəzi digər ölkələrdə, eyni zamanda bir sıra yeni, planetimizin müxtəlif kontinentlərində yaranmış ölkələrdə: Kanada, Avstraliya, Yeni Zelandiyada inkişafın səviyyəsi və ölkə vətəndaşlarının rifahı müqayisə edilir. Bu müqayisə göstərir ki, bəzi gənc, təqribən iki-üç yüz il tarixə malik ölkələrdə inkişafın səviyyəsi min illəri arxada qoyan ölkələrlə müqayisədə daha yüksəkdir. Göstərilən qanunauyğunluq yalnız sabiq müstəmləkə

dövlətləri olan Hindistan və Misirə aid deyil. Şübhəsiz ki, uzun müddət müstəmləkəçilik siyasəti ilə üzləşmiş bu ölkələr öz inkişafında itkilərə məruz qalmışlar. Lakin cədvəl 1.1.-dən göründüyü kimi, heç zaman müstəmləkə olmamış və eyni dərəcədə qədim tarix və ənənələrə malik Yunanıstan və İtaliya da inkişaf göstəricilərinə görə, hazırda yalnız yüzlərlə yaşı olan Avstraliya, Yeni Zelandiya və Kanadadan geridədir. Bu onu göstərir ki, tarixi amil vacib olsa da, inkişaf üçün həlledici rol oynamır. Cədvəl 1.1.-dən aydın olur ki, həm iqtisadi baxımdan (adambaşı ÜDM-in həcmi), həm sağlamlıq göstəricilərinə (ömür müddəti) görə yeni yaradılmış ölkələr qədim tarixi olan ölkələri üstələyirlər. Bu eyni zamanda innovativ inkişaf üçün önəmli olan və yüksək rəqabət qabiliyyətini təmin edən təhsil göstəricilərinə də aiddir. Nisbətən cavan olan ölkələrin vətəndaşlarının təhsilə cəlb olunması daha geniş, orta hesabla təhsilə sərf edilən müddət isə daha çoxdur. Məsələn, Kanadanın əhalisi daha qədim tarixə malik olan Hindistan və Misir əhalisi ilə müqayisədə təhsilə 2–3 dəfə artıq zaman ayırır.

*Cədvəl 1.1. Ölkə tarixinin inkişafa təsiri**

| Ölkə | ÜDM adambaşına, ABŞ dolları | Orta təhsil müddəti, il | Gözlənilən ömür müddəti | Dünya ölkələrinin arasında insan inkişafı əmsalına görə tutduğu yer |
|---|---|---|---|---|
| Hindistan | 5 497 | 5,4 | 68 | 130 |
| Misir | 10 512 | 6,6 | 71,1 | 108 |
| Yunanıstan | 24 524 | 10,3 | 78,6 | 29 |
| İtaliya | 33 030 | 10,1 | 83,1 | 27 |
| Kanada | 42 155 | 13,0 | 82 | 9** |
| Avstraliya | 42 261 | 12,8 | 82,4 | 2 |
| Yeni Zelandiya | 32 689 | 12,5 | 81,8 | 9** |

* *Mənbə: Human Development Report, New York, UNDP, 2015*

** *Kanada və Yeni Zelandiya eyni İİƏ malikdirlər. Bu səbəbdən hər iki ölkə 9-cu yerdə qərarlaşıb.*

Ölkədə təbii ehtiyatların mövcudluğu və təbii ehtiyatlarla zənginlik inkişafı şərtləndirən digər bir amil kimi çıxış edə bilər. Şübhəsiz ki, öl-

kələrin təbii sərvətlərlə zənginliyi inkişaf prosesinin optimal idarə edilməsi üçün vacib amillərdəndir. Lakin müşahidələr göstərir ki, təbii sərvətlərin zənginliyi də həlledici rol oynamır (cədvəl 1.2). Cədvəldən göründüyü kimi, bir sıra hallarda təbii sərvətlərlə zəngin olan ölkələrdə inkişaf yüksək səviyyəyə qalxır. Məsələn, məlum olduğu kimi, Norveç digər sərvətlərlə yanaşı, çox zəngin neft və qaz yataqlarına malikdir. Təbii ehtiyatlardan səmərəli istifadə və onlardan əldə olunan gəlirlərin cəmiyyətin xidmətinə yönəldilməsi nəticəsində bu ölkə inkişaf göstəricilərinə və əhalinin rifahı üçün yaradılmış şəraitə görə insan inkişafı əmsalı göstəricisinə görə dünyada birinci yeri tutur. Norveçdə ölkə əhalisinin təhsil səviyyəsi olduqca yüksək, orta yaş həddi və vətəndaşların gözlənilən ömür müddəti isə 81 ildən artıqdır.

Təbii sərvətlərin zənginliyi və ölkənin inkişafı arasında əlaqələrin təhlili göstərir ki, bu amil də müvafiq və məqsədli idarəetmə siyasəti yürütmədən və müasir idarəetmə texnologiyaları tətbiq olunmadan müvəffəqiyyətli inkişafın təminatçısı kimi çıxış edə bilməz. Araşdırmalar göstərir ki, təbii sərvətlərin zənginliyi uğurlu inkişafı ancaq o halda təmin edə bilər ki, bərpa olunan və yaxud bərpa olunmayan təbii sərvətlər düzgün idarə olunsun. Bu isə öz növbəsində yalnız müvafiq bilik və bacarığa malik olan insan potensialının formalaşması və bu potensialın düzgün idarə edilməsi şəraitində mümkündür.

*Cədvəl 1.2. Təbii sərvətlərin idarə edilməsinin inkişafa təsiri**

| Ölkə | Əhalinin gözlənilən ömür müddəti, illər | ÜDM adambaşına, ABŞ dolları ilə | Dünya ölkələri arasında insan inkişafı göstəricilərinə görə tutduğu yer |
|---|---|---|---|
| Nigeriya | 52,8 | 5 341 | 152 |
| Botsvana | 64,4 | 16 646 | 106 |
| Meksika | 77,5 | 16 056 | 74 |
| Rumıniya | 74,7 | 18 108 | 52 |
| Ekvatorial Qvineya | 57,6 | 21 056 | 138 |
| İsveçrə | 82,2 | 45 636 | 14 |
| Yaponiya | 83,5 | 36 927 | 20 |
| Norveç | 81,6 | 64 992 | 1 |

**Mənbə: Human Development Report, New York, UNDP, 2015*

Cədvəl 1.2.-də təqdim edilmiş misallar da bunu təsdiqləyir. Təbii sərvətlərlə zəngin üç Afrika ölkəsində (Nigeriya, Botsvana, Ekvatorial Qvineya) inkişafın vəziyyəti, çağdaş və gələcək nəsillərin rifahının təmin edilmə səviyyəsi cədvəldə göstərilən digər ölkələrdən tamamilə fərqlidir. Bu, müqayisə edilən ölkələrin vətəndaşlarının orta yaş həddinin və gözlənilən ömür müddətinin təhlilindən də aydın görünür. Müqayisələr nəticəsində bəlli olur ki, təbii sərvətləri bol olan və sosial baxımdan məsuliyyətli siyasət yürüdən ölkələrdə əhalinin sağlamlıq göstəriciləri daha yüksəkdir. Bu faktı təsdiqləyən əsas göstərici isə orta yaş həddidir. Nigeriya, Botsvana, Ekvatorial Qvineyanın zəngin təbii sərvətlərə malik olmalarına baxmayaraq, bu ölkələrdə əhalinin uzun və layiqli ömür sürmək imkanları nisbətən məhduddur.

Cədvəl 1.2.-dən aydın olur ki, adambaşına düşən təbii sərvətlərin miqdarı çox az olan Yaponiya və ya İsveçrədə orta yaş həddi yuxarıda göstərilən zəngin Afrika ölkələrindəkindən təxminən 1,5 dəfə çoxdur. Qeyd edilməlidir ki, ölkənin təbii sərvətlər hesabına formalaşan makroiqtisadi göstəricisi olan ümumdaxili məhsulun (ÜDM-in) həcmi də uğurlu inkişafı və əhalinin müvafiq rifahını təmin edə bilmir. Məsələn, Rumıniyada hər bir vətəndaşa düşən ÜDM-in həcmi Ekvatorial Qvineyada adambaşına düşən orta gəlirlərdən əhəmiyyətli dərəcədə azdır. Belə ki, Rumıniyada adambaşı ÜDM ildə 18 108 ABŞ dolları təşkil etdiyi halda, Ekvatorial Qvineyada bu göstərici 21 056-ya bərabədir. Bu o deməkdir ki, uğurlu inkişafı təmin etmək üçün Ekvatorial Qvineyanın iqtisadi imkanı Rumıniyadan 1,2 dəfə çoxdur. Buna baxmayaraq, BMT-nin İnsan İnkişafı Haqqında 2015-ci il üçün dərc edilmiş hesabatına əsasən dünya reytinqində Rumıniya 52-ci, Ekvatorial Qvineya isə 138-ci yerdədir. Daha aşağı iqtisadi göstəriciyə malik Rumıniyada vətəndaşların orta ömür müddəti 74 yaşa yaxın olduğu halda, Ekvatorial Qvineyada bu rəqəm yalnız 57,6 ilə bərabərdir (cədvəl 1.2). Bu misal bir daha göstərir ki, hər hansı bir ölkədə təbii sərvətlərin zənginliyi və bunun hesabına əldə edilmiş daha yüksək iqtisadi göstəricilər uğurlu inkişafın təminatçısı kimi çıxış edə bilməz. Təbii ehtiyatlardan səmərəli istifadə edilməsi optimal planlaşdırma və idarəetmə şəraitində və istehsal sahəsində müasir texnologiyaların tətbiqi ilə uğur gətirər. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında innovativ inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində ölkə qısa müddətdə iqtisadi və sosial sahələrdə

yüksək nəticələr əldə etmişdir. Ölkənin zəngin təbii ehtiyatlarının optimal idarəedilməsi bu nailiyyətləri şərtləndirən amillərdəndir. Beynəlxaq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən bu nailiyyətlər xüsusi bölmədə təhlil edilir.

Göründüyü kimi, təbii sərvətləri məhdud olan bir sıra ölkələrdə inkişaf prosesi daha səmərəlidir və vətəndaşların rifahı yüksək səviyyədə təmin edilib. Əksinə, bəzi hallarda təbii sərvətlərlə zəngin bir sıra ölkələrdə belə müsbət göstəricilər müşahidə olunmur. Bu o deməkdir ki, təbii sərvətlərin yalnız effektiv və sosial baxımdan məsuliyyətli idarə olunması ölkənin uğurlu inkişafını və vətəndaşların yüksək rifahını təmin edə bilər.

Yuxarıda hər iki cədvəldə təqdim edilmiş məlumatlar və onların təhlilindən aydın olur ki, ölkənin zəngin tarixi, onun keçmiş nailiyyətləri, vaxtilə əldə edilmiş uğurları və eyni zamanda təbii sərvətlərlə zəngin olması müvəffəqiyyətli inkişafı və əhalinin yüksək rifahını təmin etmək üçün kifayət deyil. Bu prosesdə həlledici rol insan amilinə məxsusdur. İnkişaf prosesinin idarə edilməsi sahəsində qərar qəbul edən şəxslərin və bu qərarları yerinə yetirən icraçıların biliyi və bacarığı qazanılan müvəffəqiyyətlərin təminatçısıdır.

Cəmiyyətdə insanlar müxtəlif irqlərə və millətlərə mənsubdurlar və fərqli dinlərə ibadət edirlər. Göstərilən səbəbdən digər müqayisə olunan amillər kimi irqi, milli və ya dini xüsusiyyətlərin də uğurlu inkişafla əlaqəsi təhlil edilə bilər. Bu istiqamətdə həyata keçirilən təhlillər göstərir ki, uğurlu inkişafın, bu sahədə əldə edilmiş nailiyyətlərin milli xüsusiyyətlərdən, irqi, yaxud dini mənsubiyyətdən asılılığı, demək olar ki, yoxdur. Sübut üçün inkişaf etmiş ölkələrin bir çoxunun uğurlarında mühacirlərin rolunu araşdırmaq kifayətdir. Bu təhlillər göstərir ki, yüksək nailiyyətlər əldə etmiş ölkələrdə digər ölkələrdən köçənlər, yəni mühacirlər çox böyük fəallıq sərgiləyirlər. Özü də bir çox hallarda mühacirət etmiş şəxslər inkişafda geridə qalmış ölkələrin vətəndaşlarıdır. Eyni zamanda onlar fərqli irq və millətlərin nümayəndələridirlər, müxtəlif dinlərə ibadət edirlər. Lakin buna baxmayaraq, əlverişli iqtisadi, sosial və mədəni mühitə düşdüyü zaman, insan potensialının düzgün idarə edildiyi şəraitdə onlar həyatın fərqli istiqamətlərində – elm, texnologiya, idarəetmə, idman, mədəniyyət, incəsənət və digər sahələrdə yüksək nəticələr qazanıblar. Uğurlu şəxsi karyera qurmaqla yanaşı, onlar müha-

cirət etdikləri ölkələrin inkişafına dəyərli töhfələr veriblər. Bu səbəbdən irqi, milli və yaxud dini mənsubiyyət inkişafın müvəffəqiyyətini müəyyənləşdirən amil hesab edilə bilməz. Bütün sadalananlar bir daha təsdiq edir ki, uğurlu inkişafın yeganə təminatçısı optimal idarəetmədir, o cümlədən insan potensialının formalaşması və optimal səfərbər edilməsidir.

İdarəetmənin uğurlu inkişafın təmin edilməsində həlledici rolunu, bu prosesin irqi, dini və milli mənsubiyyətdən asılı olmadığını Cənubi Koreyanın timsalında müşahidə etmək mümkündür. BMT-nin 2015-ci il üçün hesabatına əsasən, cəmi 60 ilə yaxın tarixi olan Cənubi Koreya (Koreya Respublikası) davamlı insan potensialına əsaslanan inkişafın göstəricilərinə görə dünyada 17-ci yerdədir və Fransa, Yaponiya, Belçika, Finlandiya, İtaliya, Avstriya kimi bəlli dünya liderlərini belə geridə qoyub. Şimali Koreya (Koreya Xalq Demokratik Respublikası) isə eyni millətin dövləti olması, oxşar məkanda yerləşməsi və təxminən eyni təbii ehtiyatlara malik olmasına baxmayaraq, inkişaf səviyyəsinə görə Cənubi Koreyadan xeyli geridədir. Bu müqayisə idarəetmənin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha sübut edir.

Təqdim edilmiş misallardan aydın olur ki, insan potensialının formalaşdırılması və səfərbər edilməsi sürətli və innovativ inkişafın təminatçısıdır. Bu istiqamətdə məqsədyönlü siyasət isə şərtsiz olaraq cəmiyyətdə bilik və bacarıqların formalaşdırılmasına, daim yeniləşdirilməsinə və təkmilləşdirilməsinə əsaslanır. Belə siyasəti formalaşdırmaq və həyata keçirmək üçün insan potensialının inkişafı və səfərbər edilməsi sahəsində bilik və bacarıqlara yiyələnmək olduqca vacibdir. Çağdaş və gələcək nəsillərin davamlı inkişafının planlaşdırılması, idarə edilməsi və monitorinqi ilə bağlı biliklər eyni zamanda uğurlu şəxsi karyera qurulmasında da xüsusi əhəmiyyətə malikdir.

Demoqrafik və ekoloji tələblərə cavab verən yüksək səviyyəli inkişaf üçün həm müasir biliklərin, həm də etnik və ənənəvi yerli biliklərin əhəmiyyəti olduqca böyükdür. Ənənəvi yerli bilik və bacarıq dedikdə, ilk növbədə, tarixən toplanmış xalq təcrübəsi, o cümlədən qədim əlyazmalarda və folklor nümunələrində əksini tapan, illərin sınağından çıxan bilik və bacarıqlar nəzərdə tutulur. Başlıca olaraq insan potensialına, yerlərdə mövcud olan və bərpa edilə bilən təbii ehtiyatların istifadəsinə əsaslanan iqtisadi fəaliyyət uğurlu inkişafın təmin olunmasının vacib amilidir. Müasir biliklər və yüksək texnologiyalarla yanaşı, bu əvəzsiz

bilik və bacarıq xəzinəsinin ölkə və regionların inkişafında rolu böyükdür. Son dövrdə ənənəvi biliklərin əhəmiyyəti xüsusilə artmışdır. UNESCO-nun təşəbbüsü ilə yaradılmış, iqtisadi fəaliyyəti və həyat tərzi, əsasən, ənənəvi biliklər üzərində qurulmuş yeni ***«biosfer rezervatlar»*** adlanan yaşayış məskənlərinin salınması buna bir misaldır. Dünyanın müxtəlif qitə və ölkələrində yaradılmış bu ***biosfer məskənlərinin*** sayı artmaqdadır. UNESCO-nun 2016-cı il üçün dərc edilmiş məlumatlarına əsasən hazırda dünyanın 119 ölkəsində 631 biosfer rezervatları fəaliyyətdədirlər. Bunların sayı ildən-ilə artmaqdadır. Biosfer rezervatlarda ənənəvi və ən müasir biliklərin vəhdətindən ibarət texnologiyaların yaradılması, yayılması və tətbiqi təbii ehtiyatların səmərəli istifadəsinə zəmanət verir və eyni zamanda ətraf mühitin mühafizəsinə xidmət edir.

Yerli biliklərlə müasir texnologiyaların bir araya gəlməsi nəticəsində iqtisadi baxımdan çox gəlirli sahələr meydana çıxıb. Bunlara misal olaraq, müasir farmakologiya, kənd təsərrüfatı məhsullarının emalı, ekoloji təmiz və ya üzvi qidaların və qida əlavələrinin istehsalı sahələrini göstərmək olar. Sözügedən istiqamətlərin inkişafı sağlam həyat tərzi keçirmək, uzun və sağlam ömür sürmək üçün vacibdir. Bu isə insan inkişafına yönəlik siyasətin istiqamətindən xəbər verir. İstehsal olunan qida məhsullarının və tibbi profilaktikada istifadə olunan dərman vasitələrinin keyfiyyətinin yüksəldilməsi bilavasitə bu istiqamətin inkişafına yönəldilmiş siyəsətin həyata keçirilməsi şəraitində mümkündür.

### *1.7. Biliyə əsaslanan inkişafın və texnoloji nailiyyətlərin qiymətləndirilməsi*

Müasir dövrdə müvəffəqiyyətli və davamlı xarakter daşıyan inkişafın əsasında insan, onun bilik və bacarıqları durur. Yeni biliklərin yaradılması, bu biliklərin bacarığa çevrilməsi və onların əsasında yaradılmış məhsulların, o cümlədən yeni texnologiyaların daxildə tətbiqi, müxtəlif ölkələrə ixrac edilməsi iqtisadiyyatın çox gəlirli bir istiqamətinə çevrilib. Artıq bir sıra şirkətlər və hətta ölkələr öz iqtisadiyyatının böyük bir payını yeni biliklərin əldə edilməsi və bu biliklər sayəsində yaradılan ən müasir texnologiyaların istifadəsi və xaricə ixrac edilməsi əsasında qurur. Bu prinsip bəzi beynəlxalq səviyyədə fəaliyyət göstərən şirkətlərə də aiddir. Məsələn, dünyada məşhur olan “Microsoft” şirkətinin gəlir-

ləri, əsasən, kompüter proqramlarının yaradılması və onların dünyada yayılmasından əldə edilir. Şirkətin yaradıcısı və sahibkarı olan Bill Qeyts isə dünyanın ən zəngin adamlarındadır. Ən zəngin adamlar sırasına daxil olmaqla yanaşı, o, dünyanın ən tanınmış xeyriyyəçilərindəndir və varidatının 90 %-dən çoxunu dünyada həyata keçirilən inkişaf proqramlarına və humanitar proqramlara yönəltmək niyyətindədir.

Qeyd edilməlidir ki, yeni bilik və texnologiyalar yaradan ölkələr eyni zamanda bu istiqamətdə qlobal miqyasda təhsilin təşkili ilə də məşğuldurlar. Göstərilən istiqamətdə gerçəkləşdirilən fəaliyyət və müxtəlif ölkələrdən tələbələrin cəlb edilməsi öz-özünə iqtisadi baxımdan çox gəlirli bir sahəyə çevrilmişdir. Bununla yanaşı, bu istiqamətdə fəaliyyət inkişaf etmiş ölkələrə dünyanın müxtəlif regionlarından təhsil almaq üçün gələn istedadlı gənclərin seçilməsi və cəlb edilməsi üçün yeni imkanlar yaradır. Nəticədə bu siyasəti həyata keçirən ölkələr insan potensialının formalaşması və səfərbər edilməsi hesabına yüksək səmərəli iqtisadiyyat və əlverişli sosial mühitin yaradılmasına nail olurlar.

Biliyə və innovativ texnologiyalara əsaslanan inkişaf bir sıra inkişafda yüksək nəticələr əldə etmiş ölkələrdə dövlət, uğurla inkişaf edən şirkətlərdə isə korporativ siyasətin başlıca məqsədlərindəndir. Ən müasir və yüksək texnoloji nailiyyətlərin həm qazanılması, həm də istifadəsi insan potensialından asılıdır. Bu səbəbdən insan potensialının inkişafı, yəni bilik və bacarıqların artırılması, kreativ şəxslərin formalaşması tərəqqinin əsas amilidir. Biliyə əsaslanan inkişafa yönəldilmiş siyasəti dəyərləndirmək üçün müxtəlif üsullardan istifadə oluna bilər. Bu üsullardan biri ümumdaxili məhsuldan (ÜDM-dən) elm və təhsil üçün ayrılan payın qiymətləndirilməsidir. Hər hansı bir ölkə və yaxud bölgədə bu məqsədlər üçün lazımi qədər vəsaitin ayrılması, həmin vəsaitin məqsədli idarə edilməsi innovativ inkişaf sahəsində aparılan siyasətin düzgün və məqsədyönlü olmasından xəbər verir. Bunlarla yanaşı, innovativ inkişafın göstəriciləri kimi digər indikatorlardan da istifadə edilməkdədir. Bunlara hər min nəfərə düşən fərdi kompüterlərin sayı, internet istifadəçilərinin miqdarı, ali savadlı əhali arasında təbii və texniki sahə mütəxəssislərinin nisbəti və s. aiddir.

Lazımi miqdarda maddi vəsaitin ayrılması yüksək texnoloji nailiyyətlərin tətbiqi və innovativ cəmiyyətin formalaşması üçün vacib şərt olsa da, bu nailiyyətlərin əldə edilməsi üçün kifayət deyil. Bu istiqamət-

də nəzərəçarpan irəliləyişə nail olmaq üçün vəsait ayırmaqla yanaşı, müvafiq siyasətin aparılması və məqsədli idarəetmə texnologiyalarının tətbiqi də vacibdir. Həmin siyasətin əsas istiqamətlərindən biri cəmiyyəti bu yeniliklərə yiyələnməyə hazırlamaq və bu istiqamətdə məqsədli tədbirlər həyata keçirməkdir.

İnsan potensialının inkişafı və kreativ şəxslərin formalaşmasına yönəldilmiş siyasət, ilk növbədə, peşəkarlar tərəfindən yeni elmi biliklərin yaradılmasını təmin etməlidir. Bununla yanaşı, kreativ şəxslər yeni biliklər əsasında yaradılmış innovativ texnologiyaların sənaye və kənd təsərrüfatında, xidmət sahələrində tətbiqinə, onların əsasında yeni yüksək rəqabət qabiliyyətinə malik məhsul və xidmətlərin istehsalına və tətbiqinə hazır olmalıdırlar. Eyni zamanda bütün əhali, bütövlükdə cəmiyyət üzvləri innovativ inkişafın imkanları barəsində məlumatlandırılmalı, bu yenilikləri istehlakçı və iştirakçı kimi qəbul etməlidirlər. Cəmiyyətin innovativ tərəqqiyə hazır olması insan inkişafının əsas məqsədlərindən biridir. Göstərilən istiqamətdə aparılan siyasətin planlaşdırılması və həyata keçirilməsində dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyətinin, o cümlədən, QHT-lərin və fərdi sektorun imkanlarından istifadə edilməsi vacibdir. Sözügedən fəaliyyət vahid milli strategiya kimi çıxış edir və tədbirlərin səmərəliliyini artırır. Ümumiyyətlə qeyd edilməlidir ki, milli və beynəlxalq əhəmiyyətli layihələrin tətbiqində hökumət təşkilatları ilə yanaşı, vətəndaş cəmiyyətinin nümayəndələrinin, o cümlədən qeyri-hökumət təşkilatlarının və fərdi sektorun koordinasiya olunan layihələr əsasında çalışmaları bu layihələrin səmərəliliyinə nəzərəçarpan dərəcədə müsbət təsir göstərir. Bu prinsip Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi və sosial layihələrin icrasında geniş istifadə olunur. Belə yanaşma nəticəsində resursların, o cümlədən insan potensialının səfərbərliyinin səmərəsinin artırılmasına nail olunur (şəkil 1.2). Vətəndaş cəmiyyəti dedikdə, Azərbaycan Respublikasında Heydər Əliyev Fondunun fəaliyyəti xüsusilə qeyd edilməlidir. Fond, onun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyəti Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inkişafı, ölkənin qədim və müasir nailiyyətlərinin dünyada tanınması üçün olduqca əhəmiyyətlidir.




***Şəkil 1.2.*** *İnkişaf naminə əməkdaşlığın planlaşdırılması*

Azərbaycan Respublikasında inkişaf naminə əməkdaşlığın optimal idarəedilməsi nəticəsində həyata keçirilən hökumət proqramları milli proqramlara çevrilirlər. Bu istiqamətdə ölkənin inkişaf modeli digər ölkələr üçün nümunə ola bilər. Məsələn, beynəlxalq təşkilatlar ölkənin bir sıra göstəricilərinin yüksək olmasından xəbər verir. Belə ki, Dünya İqtisadi Forumunun 2014–2015-ci il üçün hazırlanmış hesabatında göstərilir ki, ***Qlobal Rəqabət Qabiliyyəti Əmsalına*** görə Azərbaycan Respublikası 186 ölkə arasında 38-ci yerdədir. Müqayisə üçün qeyd etmək olar: bu hesabata görə Qazaxıstan 50-ci, Rusiya 54-cü, Ukrayna 76-cı, Qırğızıstan 108-ci yerdə qərarlaşıblar. Bu nailiyyətlərin əldə edilməsi ölkədə işgüzar mühitin ardıcıl təkmilləşməsinin nəticəsi kimi qəbul edilə bilər. ABŞ-ın "Wall Street Journal" və Beynəlxalq "Heritage" Fondunun 2014-cü ildə hazırladığı "***İqtisadi azadlıq əmsalı*** – 2014" hesabatında Azərbaycan Respublikası 100 mümkün baldan 61 bal toplayaraq 186 ölkə arasında 81-ci yerə nail olmuşdur. ***İqtisadi azadlıq əmsalı*** göstəricilərinə görə Azərbaycan Respublikası İtaliya, Yunanıstan, Serbiya, Xorvatiya, Rusiya, Ukrayna, Hindistan və digər, o cümlədən "böyük yeddilik" (G 7) və "böyük iyirmilik" (G 20) qruplarına aid olan bir sıra ölkələri iqtisadi azadlıq göstəricisinə görə qabaqlamışdır. Bu biliyə əsaslanan inkişafın düzgün planlaşdırılması, insan potensialının optimal idarəetməsinin nəticəsidir.

Biliyə əsaslanan inkişafı qiymətləndirmək üçün BMTİP (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı) XXI əsrin əvvəllərində yeni bir göstəricinin istifadəsini təklif etmişdir. Bu göstərici ***Texnoloji Nailiyyətlər Əmsalıdır (TNƏ)***. Beynəlxalq təşkilatlar tərəfindən inkişafın qiymət-

ləndirilməsi üçün bu əmsaldan ilk dəfə 2001-ci ildə istifadə edilmişdir. TNƏ bir neçə göstərici əsasında hesablanır. Bunların arasında ölkədə qeydə alınan yeni ixtiralar və onlardan istifadə, o cümlədən bu ixtiraların xaricdə tətbiq edilməsi üçün bağlanmış müqavilələrin həyata keçirilməsi nəticəsində ölkəyə daxil olan vəsaitlər xüsusi yer tutur. Əmsalın hesablanması zamanı ölkədə yüksək səviyyəli mütəxəssislərin sayı da nəzərə alınır. Oxuyan tələbələrin seçdikləri ixtisaslar da ***Texnoloji Nailiyyətlər Əmsalına*** təsir göstərir. Təbiət və texniki elmlər, mühəndislik, memarlıq və inşaat, aqronomluq, zootexniklik, meşəçilik, balıqçılıq və digər praktiki biliklər sahəsində ali təhsil alan tələbələrin sayı, onların bütün tələbələr arasında faizi də bu əmsalın hesablanması zamanı istifadə olunur. Təbii və texniki elmləri öyrənən tələbələrin payının çox olması texnoloji nailiyyətlərin əldə edilməsinin vacib bir amili kimi qiymətləndirilir və beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qaydalara görə TNƏ-nin yüksəlməsinə müsbət təsir göstərir.

BMT-nin hesablamalarına əsasən, TNƏ göstəricilərinə görə dünya ölkələri dörd qrupa bölünürlər: bu sahənin liderləri, potensial liderlər, yeni texnologiyalardan və biliklərdən geniş istifadə edən ölkələr və bu sahədə geridə qalan ölkələr. Beynəlxalq təşkilatların fərqli mənbələrində yer alan qiymətləndirmələrinə görə, dünyanın 18–20 ölkəsi bu sahədə lider hesab edilə bilər. Bu ölkələr arasında ən qabaqcıl yerləri ABŞ, Yaponiya, Böyük Britaniya, Norveç, İsveç və başqaları tuturlar. Bu ölkələrdə elm və yeni texnologiyalara xüsusi diqqət yetirilir. Məsələn, İsveçdə ölkənin ümumdaxili məhsulunun (ÜDM) 3,4 faizi elm və texnologiyaların inkişafına yönəldilir. Digər yüksək texnoloji nailiyyətlər qazanmış ölkələrdə də elmin və texnologiyaların inkişafına ÜDM-in təxminən 2–4 faizi ayrılır. Bəzi ölkələrdə bu rəqəm daha yüksəkdir. Məsələn, İsrail elm və texnologiyaların inkişafına ÜDM-in 4,4 faizini ayırır. Nəzərə alınmalıdır ki, yuxarıda adı çəkilən və ümumiyyətlə, lider qrupuna aid olan ölkələr iqtisadi baxımdan da çox zəngindirlər və onlarda ÜDM-in həcmi də digər ölkələrlə müqayisədə xeyli yüksəkdir. Bu o deməkdir ki, həmin ölkələrdə elmin inkişafı və yeni biliklər əldə edilməsi üçün kifayət qədər vəsait ayrılır.

Təhsilin inkişafına yönəldilmiş vəsaitin həcmi də texnoloji nailiyyətlərin əldə edilməsinin vacib şərtidir. Cədvəl 1.3.-də müxtəlif ölkələrdə elm və texnologiyalara ayrılan vəsait (ÜDM-in faizi kimi), həmin

ölkələrdə insan potensialının inkişaf səviyyəsi və bu istiqamətdə dünyada tutduğu yer haqqında məlumatlar təqdim edilmişdir. Göründüyü kimi, BMT-nin təsnifatına uyğun olaraq, cədvəldə hər dörd qrupa (insan potensialının inkişafına görə çox yüksək, yüksək, orta nəticələr əldə etmiş və bu sahədə geridə qalmış) aid ölkələr barədə məlumatlar verilmişdir. Cədvəlin təhlilindən aydın olur ki, inkişafda yüksək nəticələrə nail olmaq üçün yeni biliklərin əldə edilməsi və bu məqsədlə elm və təhsilin inkişafı dövlət siyasətinin vacib bir istiqamətidir. Qeyd etmək lazımdır ki, son illər sürətlə inkişaf edən ölkələr arasında Azərbaycan Respublikasında təhsilə, elm və texnologiyaların inkişafına yönəldilən vəsait artmaqdadır. Tədris müəssisələrinin yeniləşməsi və modernləşməsi bu siyasətin təzahürüdür.

*Cədvəl 1.3. İnsan potensialının inkişafı sahəsində müxtəlif nəticələr qazanmış ölkələrdə təhsilə yönəldilmiş vəsait*

| **İnsan potensialının inkişafı göstəriciləri** | **Ölkələr** | **Təhsilə ayrılan vəsait, ÜDM-in faizi*** | **İİƏ** görə dünyada tutduğu yer** |
|---|---|---|---|
| Çox yüksək nəticələr əldə etmiş ölkələr | Avstraliya | 5,1 | 2 |
| | İsrail | 5,6 | 18 |
| | Yaponiya | 3,8 | 20 |
| Yüksək nəticələr əldə etmiş ölkələr | Serbiya | 0,1 | 66 |
| | **Azərbaycan** | **2,4** | **78** |
| | Gürcüstan | 2,0 | 79 |
| | Türkiyə | 2,9 | 72 |
| Orta nəticələr əldə etmiş ölkələr | İndoneziya | 3,6 | 110 |
| | Hindistan | 3,8 | 130 |
| Aşağı nəticələr əldə etmiş ölkələr | Pakistan | 2,5 | 147 |
| | Efiopiya | 4,7 | 174 |

**Mənbə: Human Development Report, UNDP, New York, 2015*
***İnsan İnkişafı Əmsalı*

Elmin inkişafı və texnoloji nailiyyətlərin əldə edilməsi üçün vəsaitlər həm dövlət büdcəsindən, həm də özəl şirkətlərin fondlarından ayrılır. Bir çox özəl şirkətlərin uğurlu fəaliyyəti elmə, yeni texnologiyalara, eləcə də onların yaradıcısı və daşıyıcısı olan insana, onun potensialının inkişafına ayrılan diqqətin nəticəsidir. Elmi nailiyyətlərin əldə edilməsi və istifadəsi sayəsində bu şirkətlərin rəqabət qabiliyyəti getdikcə yüksəlir. Eyni zamanda tərəqqiyə diqqət ayıran şirkətlərin cəmiyyətdə nüfuzu da artır. Bu da öz növbəsində rəqabət qabiliyyətini yüksəldir, milli və beynəlxalq şirkətlərə əlavə gəlir əldə etmək imkanları yaradır.

Göründüyü kimi, insan potensialının formalaşması və bu tükənməz sərvətin optimal səfərbərliyi müasir idarəetmənin ən vacib elementlərindəndir. Bu sahədə elm və texnologiyaları lazımi dərəcədə inkişaf etdirmədən, mükəmməl bilik qazanmaq üçün şərait yaratmadan hər hansı bir sahədə uğurlu fəaliyyət göstərmək və yüksək rəqabət qabiliyyəti ilə nailiyyət əldə etmək mümkün deyil. Davamlı insan potensialının formalaşması və səfərbər edilməsi sahəsində biliklərə yiyələnmək şəxsi karyeranın qurulması üçün də vacib şərtdir.

## *1.8. İnsan potensialının formalaşdırılması siyasəti və əmək bazarı*

Aparılan tədqiqatlardan aydın olur ki, yüksək səviyyəli elm və təhsil uğurlu inkişafın vacib şərtidir. Qlobal səviyyədə təhlillər göstərir ki, iqtisadi və sosial inkişafda uğurlar qazanmış və əhalisinin rifahını yüksək səviyyədə təmin etmiş bütün ölkələrdə tədris və elm müəssisələri səmərəli fəaliyyət göstərirlər və əhalinin təhsil səviyyəsi olduqca yüksəkdir. Göstərilən qanunauyğunluq bu bölmədə təqdim edilmiş cədvəl 1.1.–1.3.-də və həmən cədvəllərdə təqdim edilmiş məlumatların müqayisələrindən də aydın olur. Bu səbəbdən insan potensialının inkişafının planlaşdırılması və idarə edilməsi siyasətində təhsil xüsusi əhəmiyyət daşıyır. Bu istiqamət üzrə fəaliyyəti planlaşdırarkən təhsilə cəlb edilən vətəndaşların sayının artırılması, onların təhsilinin daha uzunmüddətli olması, ömürboyu təhsilin təmin edilməsi nəzərdə tutulmalıdır. İqtisadi baxımdan yüksək iqtisadi inkişafa nail olmuş, öz vətəndaşları üçün yüksək sosial standartları təmin etmiş bütün ölkələrdə əhalinin təhsilə cəlb edilməsi, onların təhsilə həsr etdiyi illər daha yüksəkdir.




***Şəkil 1.3.*** *Müxtəlif ölkələrdə ən azı tam orta təhsili olan əhali, %**

**Mənbə:Human Development Report, UNDP, New York, 2015*

Şəkil 1.3.-də insan potensialının inkişafında mühüm rol oynayan təhsil göstəricilərindən olan müxtəlif ölkələrdə orta təhsil ilə əhatə olunmuş əhali barəsində statistikası təqdim edilmişdir. Şəkildə 25 və bundan yuxarı yaşda olan əhalinin ən azı tam orta təhsil ilə əhatə olunması öz əksini tapmışdır. İnsan potensialının inkişafının səviyyəsinə görə fərqlənən hər dörd qrupa (insan inkişafında çox yüksək, yüksək, orta nailiyyətlər əldə etmiş və bu sahədə geridə qalanlar) aid olan ölkələrin nümayəndələri haqqında məlumatlar təqdim edilmişdir. Təhlillər göstərir ki, ölkələrdə insan potensialının inkişafı və təhsilin səviyyəsi arasında əlaqə mövcuddur.

Lakin təhsilə cəlb olunan əhalinin sayının daim artması və ömürboyu təhsilin təmin edilməsi ilə yanaşı, təhsilin istiqamətlərinə də xüsusi diqqət ayrılmalıdır. Qeyd edildiyi kimi, bilik və bacarığın, müvafiq olaraq təhsil və təlimin innovativ inkişafda və insan potensialının təkmilləşdirilməsində rolunu nəzərə alaraq, bir sıra ölkələrdə yeni təhsil müəssisələri tikilir, mövcud olan təhsil ocaqları yenidən qurulur, ən müasir avadanlıq və tədris vasitələri ilə təchiz edilir.

Azərbaycan Respublikasında bu proses xüsusi miqyasda həyata keçirilir. Son illərdə ölkədə yüzlərlə məktəb və məktəbəqədər təhsil müəssisələri tikilib, yenidən qurulub və ən müasir avadanlıq və dərs vəsaitləri ilə təchiz ediliblər. Təhsilin bazasının müasirləşdirilməsi prosesində həm dövlət təşkilatları, həm də beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti də iştirak edir. Bu prosesdə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yeniləşmiş Azərbaycana yeni məktəb" proqramı bunun yalnız bir nümunəsidir.

İnsan potensialının formalaşması prosesində prioritet istiqamətlərin nəzərə alınması da olduqca vacibdir. Davamlı inkişafın hədəflərinə çatmaqda təhsilin xüsusi əhəmiyyət daşımasını nəzərə alaraq, BMT və UNESCO 2005–2014-cü illəri dünya üzrə davamlı inkişaf sahəsində tədris onilliyi elan etmişdir. Bu barədə sənəd o zaman BMT-nin Baş katibi Kofi Annan və UNESCO-nun Baş direktoru Koişiro Matsura tərəfindən 1 mart 2005-ci ildə Nyu-Yorkda imzalanıb. Ulu öndər Heydər Əliyevin təsdiq etdiyi milli təhsil strategiyasına görə Azərbaycan Respublikasında bu proses 5 il öncə – 2000-ci ildə başlanmışdır. Bu konsepsiyaya uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyinin əmri ilə davamlı insan inkişafı fənninin tədrisi 2001-ci ildə ölkənin orta ümumtəhsil məktəblərinin proqramlarına daxil edilmişdir. Bu fənnə aid orta ümumtəhsil məktəblər üçün dünyada ilk dərs vəsaiti Azərbaycan Respulikasında dərc edilmişdir (cədvəl 1.4). Bu yenilik və nailiyyət haqqında məlumatı BMT-nin Baş Qərargahı (Nyu-York) 2005-ci ildə bütün dünyaya yaymışdır. BMT-nin göstərilən məlumatında Azərbaycan Respublikasında əldə edilmiş bu nailiyyət "innovativ ideya və fəaliyyət" kimi təqdim edilmişdir. Bu istiqamətdə fəaliyyət bu gün də uğurla davam edir. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə bakalavr, magistr və doktorluq səviyyəsində "davamlı inkişafın idarə edilməsi" yeni ixtisas və elm istiqaməti kimi nomenklaturaya daxil edilmişdir. Bu göstərilən istiqamətdə dünyada ilk təşəbbüsdür.

*Cədvəl 1.4. Davamlı insan potensialına əsaslanan inkişafın (Dİ) tədrisinin xronologiyası: Azərbaycan Respublikası və dünya*

| İl | Dünya | Azərbaycan |
|---|---|---|
| 2001 | Məlumat yoxdur | Dİ fənni orta ümumtəhsil məktəblərinin tədris proqramlarında |
| 2003 | Məlumat yoxdur | Dünyada Dİ fənninə dair orta ümumtəhsil məktəbləri üçün ilk dərs vəsaiti dərc edildi |
| 2005 | BMT və UNESCO 2005–2014-cü illəri Dİ sahəsində tədris onilliyi elan etdi | Dİ fənninin əsasları bütün orta ümumtəhsil məktəblərində və ali məktəblərdə tədris edilir |
| 2010 | Məlumat yoxdur | Peşə məktəblərində "yaşıl" tədrisi haqqında qərar |
| 2015 | Məlumat yoxdur | "Davamlı inkişafın idarə edilməsi" ixtisası bakalavr, magistr səviyyəsində ali təhsilə daxil edilir, bu sahədə doktorluq elmi dərəcəsinin verilməsi haqqında Nazirlər Kabinetinin qərarları |

İnsan potensialının inkişafının formalaşma prosesinin planlaşdırılması və idarəedilməsində, bu məqsədlə kadr potensialının hazırlanmasında əmək bazarının tələbatları xüsusi ilə nəzərə alınmalıdır. Gələcək əmək bazarının proqnozları əsasında insan potensialının formalaşdırılması həm yaxın gələcək, həm də daha uzaq perspektivlərin nəzərə alınması insan inkişafının müvəffəqiyyətli idarə edilməsinin vacib şərtidir.

İnsan potensialının formalaşmasının idarə edilməsində yeni biliklər yaradanlar, bu biliklər əsasında yüksək rəqabətli məhsullar istehsal edənlər və bu prosesləri idarə edənlər arasında optimal nisbətin əldə edilməsi vacib şərtlərdəndir. Bu ixtisaslaşmalar arasında optimal nisbət şəkil 1.4.-də təqdim edilib. Şəkil industrial və postindustrial cəmiyyətdə müxtəlif istiqamətdə kadr potensialının optimal idarəedilməsini əks piramida şəklində əks etdirir.




***Şəkil 1.4.*** *İnsan potensialının formalaşmasında ixtisaslaşma*

Şəkil 1.4.-dən göründüyü kimi, piramidanın əsasını və müvafiq olaraq ən çoxsaylı hissəsini yeni bilik və innovativ məhsullar yaradan təbiət, texniki və aqrar elmlər sahəsində çalışanlar təşkil edir. Bu istiqamətdə elm və texnologiyaların inkişafı sahəsində yaradılmış yüksək rəqabətqabiliyyətli innovativ məhsul və xidmətlərin kütləvi istehsalını və istifadəçiyə çatdırılmasını təmin edən mühəndis, memar, aqronom, zootexnik və digər oxşar sahələrdə fəaliyyət göstərə bilən mütəxəssislər piramidanın əsasını təşkil edir. İqtisadçılar və idarəetmə sahəsində çalışan digər mütəxəssislər piramidanın daha yüksək, lakin dar seqmetində yer alıblar. Onların funksiyası piramidanın birinci səviyyəsində yaradılmış yeni bilik və onların əsasında istehsal olunmuş məhsulların istehsal və istifadəsi proseslərini ən səmərəli şəkildə təşkil etməkdir. Piramidanın birinci səviyyəsində əldə edilmiş elmi və texnoloji nailiyyətlər nə qədər zəngin və innovativ olarsa, ikinci səviyyədə idarəetmə imkanları bir o qədər də genişlənər.

Hüquqşünaslar isə piramidanın üçüncü və ən dar seqmentini təşkil edir. Onların funksiyası inkişaf üçün əlverişli hüquqi mühitin yaradılması və bu mühitin hər cür risklərdən mühafizəsidir. Əmək bazarında da iş yerləri təxminən eyni nisbətdə formalaşır və bu xüsusiyyətin ixtisas seçimi zamanı nəzərə alınması olduqca əhəmiyyətlidir.

Şəkil 1.4.-də təqdim edilən piramidanın tələblərinin nəzərə alınması insan potensialının formalaşması ilə yanaşı, eyni zamanda gənc mütəxəssislərin məşğulluğunun təmin edilməsinin vacib şərtidir. Əmək bazarının gələcək tələbatlarının nəzərə alınması eyni zamanda hər bir fərdin karyerası baxımından olduqca vacibdir. İxtisasın düzgün seçilməsi, ömürboyu təhsilin genişləndirilməsi və diversifikasiyası, təhsilə cəlb olunanların gözləntilərinin idarə edilməsi əhəmiyyətlidir. Bu həm iqtisadi, həm də sosial və siyasi təhlükəsizliyin təmin edilməsi baxımından olduqca önəmlidir. Göstərilən xüsusiyyətlərin nəzərə alınmaması bir çox riskləri şərtləndirir. Məsələn, 2015-ci ilin məlumatlarına əsasən bəzi inkişaf etmiş, o cümlədən Avropa İttifaqına daxil olan ölkələrdə ali təhsilli gənclərin yarısından çoxu ixtisasına uyğun iş tapa bilmir. Bunun bir səbəbi də həmin gənclərin təhsil aldığı zaman ixtisasını düz seçməməsidir.

Beləliklə, insan amili və onun potensialının formalaşdırılması və təkmilləşdirilməsi inkişaf prosesinin ən vacib amillərindəndir və bu prosesin planlaşdırılması, idarəedilməsi və monitorinqi dövlət idarəçiliyində, fərdi sektorun fəaliyyətində geniş istifadə edilməkdədir.

## *1.9. Özümüzü sınayırıq*

### 1.9.1. Özümüzü sınayırıq suallar:

1. İnkişafın qiymətləndirilməsində hansı əsas göstəricilərdən istifadə edilir?
2. İnkişaf prosesinə hansı amillər daha çox təsir edə bilir?
3. İnkişaf prosesində uğurlu idarəetmənin həlledici rolunu hansı ölkələrin misallarında göstərmək olar?
4. Biliyə əsaslanan inkişafın qiymətləndirməsində hansı göstəricilər istifadə edilir?
5. Təhsildə ixtisaslaşma və əmək bazarı arasında əlaqə necə qurulmalıdır?

## 1.9.2. Özümüzü sınayırıq cavablar:

### 1. İnkişafın qiymətləndirilməsində hansı əsas göstəricilərdən istifadə edilir?

İqtisadi və sosial göstəricilər inkişafın planlaşdırılmasında və idarə edilməsində mühüm rol oynayır. Cəmiyyətin iqtisadi durumunun dəyərləndirilməsi zamanı ən çox istifadə edilən göstəricilər ölkədə istehsal olunmuş məhsulların dəyərləri ilə bağlıdır. Bunlar, ilk növbədə, ***Ümumdaxili Məhsul (ÜDM), Ümumilli Məhsul (ÜMM)*** və onların hər hansı bir ölkə və ya ərazidə adambaşına düşən həcmidir. Bu göstəricilər ölkələrin inkişaf səviyyəsinin təhlilində ən çox istifadə olunurlar. Lakin ÜDM və ÜMM-in ümumi həcmi və adambaşına düşən payı inkişafın səviyyəsini tam səciyyələndirə bilməz. Mümkün və bir çox ölkələrdə mövcud olan gəlirlərin qeyri-bərabər paylanması şəraitində orta gəlir real vəziyyəti səciyyələndirmir. Qeyd edilən göstəricilər yalnız orta vəziyyəti əks etdirir və regionların inkişafından, vətəndaşlarının rifahındakı möcud vəziyyətindən xəbər vermir. Həm ÜDM, həm də ÜMM yalnız vətəndaşların rifahının yaxşılaşdırılması üçün mövcud olan potensialı səciyyələndirə bilər.

Bununla əlaqədar yeni inkişaf göstəricilərinin yaradılması, onların planlaşdırma və idarəetmədə istifadəsi zərurəti əmələ gəlmişdi. Bu göstəricilərdən biri və ən əsası insanı inkişaf prosesinin mərkəzinə qoyan və onun müxtəlif cəmiyyətlərdə vəziyyətini universal göstəricilər əsasında əks etdirən bir qiymətləndirmə üsuludur. Bu məqsədlə, BMT inkişafın qiymətləndirilməsi üçün yeni bir göstəricinin – ***İnsan İnkişafı Əmsalının (İİƏ)*** istifadəsini təklif etdi. Bəzi hallarda insan inkişafı insan potensialının inkişafı kimi də təqdim edilir. Həmin əmsalın hesablanması zamanı üç qrup göstəricidən istifadə olunur: sağlamlıq, təhsil və gəlir. Göstərilən qruplara aid məlumatların seçilməsi tamamilə əsaslı və məntiqlidir. Bu məntiq ondan irəli gəlirdi ki, əgər ölkənin gəlirləri kifayət dərəcədə yüksəkdirsə və dövlətin inkişaf siyasəti, onun sosialyönümlülüyü düzgün planlaşdırılır və səmərəli idarə edilirsə, o zaman ölkənin əhalisi sağlam və yüksək bilik və bacarığa yiyələnmək imkanlarına sahib olur. Göstərilən bu iki amildən bəhrələnən cəmiyyət uğurlu fəaliyyət göstərən iqtisadiyyatı qurmaq və onu daimi inkişaf etdirmək

imkanı qazanır. Bu isə öz növbəsində yenə də inkişafın davamlı olmasını təmin edən amil kimi çıxış edir və insan inkişafı əmsalının yüksəlməsinə xidmət edir.

İnsan inkişafı əmsalı ilə yanaşı, inkişafın dəyərləndirilməsi üçün bir sıra digər göstəricilər istifadə olunmaqdadır. Bunlara ***"yaşıl iqtisadiyyatın"*** payını nəzərə alan ***Tərəqqinin Həqiqi Göstəricisi (THG)*** aid edilə bilər. Bir sıra digər göstəricilər də məlumdur ki, onların arasında müəlliflərinin adı (Vanderford və Riley) ilə məlum olan ***Rifahın Planlaşdırılması və Həyatın Keyfiyyəti Əmsalı*** qeyd edilə bilər. Yuxarıda göstərilən birinci əmsalın hesablanmasında istifadə edilən göstəricilər arasında həftədə iş saatlarının miqdarı yer almışdır. Bu əmsalın hesablanması zamanı əhali arasında sahibkarlarla sahibkar olmayanların nisbəti də nəzərə alınır. Sözügedən ikinci əmsalın hesablanması zamanı 9 amil əsas götürülür ki, bunlar işsizlikdən tutmuş iqlim xüsusiyyətlərinə qədər müxtəlif amil və təsirləri əhatə edir. Bunlarla yanaşı, daha bir göstərici – ***Milli Xoşbəxtlik Əmsalı*** da məlumdur. Lakin bu əmsalın dəqiq kəmiyyət göstəricisi olmadığından, onun tətbiqi üçün imkanlar məhduddur.

Bütün bu əmsallar inkişaf prosesi, onun planlaşdırılması, idarə edilməsi, monitorinqi üçün olduqca böyük əhəmiyyət daşısa da, İİƏ-nin hesablanmasına ölkə və regionların inkişafının qiymətləndirilməsində daha geniş yer verilir.

## 2. İnkişaf prosesinə hansı amillər daha çox təsir edə bilir?

Ölkələrin inkişafı və əldə etdikləri nailiyyətlər arasındakı fərqlərin kökündə hansı əsas amillərin durduğunu müəyyənləşdirmək olduqca vacibdir. İnkişafın hansı amillərdən daha çox asılı olmasını müəyyən etdikdən sonra bu prosesin planlaşdırılması və idarə edilməsi ilə bağlı ən optimal qərarların qəbulu mümkündür.

İnkişafın surəti və istiqamətinə təsir göstərən amillər arasında, ilk növbədə, ölkələrin tarixən formalaşmış idarəetmə təcrübəsi, onların təbii sərvətlərlə zənginliyi diqqəti cəlb edə bilər. Təhlillər göstərir ki, qədim və zəngin tarixə malik, bəşəriyyətin inkişafında mühüm rol oynamış, dünya sivilizasiyasına əvəzsiz töhfələr vermiş və müxtəlif qitələrdə yerləşən Yunanıstan (Avropa), Hindistan (Asiya) və Misir (Afrika) inkişaf

səviyyələri və ölkə vətəndaşlarının rifahı göstəricilərinə görə bir sıra yeni yaranmış, cəmi bir neçə yüz il tarixi olan ölkələrdən, məsələn, Kanada, Avstraliya, Yeni Zelandiyadan geridədir. Bu onu göstərir ki, tarixi amil vacib olsa da, inkişaf üçün həlledici rol oynamır.

Müşahidələr göstərir ki, təbii sərvətlərin zənginliyi də inkişafı şərtləndirmir. Təbii ehtiyatlar zənginliyi yalnız düzgün idarəetmə şəraitində inkişafa müsbət təsir göstərə bilər. Bir sıra hallarda təbii sərvətlərlə zəngin olan ölkələrdə inkişaf yüksək səviyyəyə qalxır. Məsələn, çox zəngin neft və qaz yataqlarına malik Norveçdə. Təbii ehtiyatlardan səmərəli istifadə və onlardan əldə olunan gəlirlərin düzgün idarəedilməsi nəticəsində bu ölkə inkişaf göstəricilərinə və əhalinin rifahı üçün yaradılmış şəraitə görə dünyada birinci yeri tutur. Azərbaycan Respublikasında da təbii ehtiyatlardan optimal istifadə edilir. Ölkənin zəngin neft və qaz ehtiyatlarının səmərəli istifadəsi nəticəsində ölkə paytaxtı və bütün regionlar köklü surətdə dəyişib, qeyri-neft sektorunun inkişafı üçün zəmin yaradılıb, tədris və səhiyyə müəssisələri modernləşib, yeni müasir infrastruktur yaradılıb. Ən vacibi isə odur ki, Azərbaycan Respublikasında əhalinin sosial durumu yüksəlib, yoxsulluq dünyada ən aşağı səviyyəyə saldırılıb.

Təbii sərvətlərlə olduqca zəngin Nigeriya, Botsvana, Ekvatorial Qvineyada isə inkişaf səviyyəsi olduqca aşağıdır və bu ölkələrdə əhalinin uzun və layiqli ömür sürmək imkanları, demək olar ki, məhduddur. Bununla yanaşı, adambaşına düşən təbii sərvətlərin miqdarı çox az olan Yaponiyada və ya İsveçrədə inkişaf göstəriciləri daha yüksəkdir. Bu misallar göstərir ki, təbii sərvətlərin zənginliyi uğurlu inkişafın təminatçısı kimi çıxış edə bilməz. Təbii ehtiyatlardan səmərəli istifadə edilməsi yalnız idarəetmə sahəsində müasir və sosialyönümlü siyasətin həyata keçirilməsi şəraitində uğur gətirə bilər. Bu isə yüksək bilik və bacarıq, zəngin insan potensialının mövcudluğu şəraitində mümkündür.

### 3. İnkişaf prosesində uğurlu idarəetmənin həlledici roluna dair hansı misallar göstərmək olar?

İdarəetmənin uğurlu inkişafın təmin edilməsində həlledici rolunu Şimali (Koreya Xalq Demokratik Respublikası) və Cənubi Koreyanın (Koreya Respublikası) timsalında müşahidə etmək mümkündür. Cənubi

Koreyanın (Koreya Respublikası) tarixi yalnız 60 ilə yaxındır. Yarandığı dövrdə bu ölkə müharibədən çıxmış çox yoxsul və geridə qalmış ölkə idi. Hazırda isə BMT-nin 2015-ci il üçün dərc etdiyi hesabatına əsasən Cənubi Koreya öz iqtisadi nailiyyətləri, əhalisinin sosial statusuna, insan potensialına əsaslanan inkişaf göstəricilərinə görə dünyada 17-ci yerdədir və Fransa, Yaponiya, Belçika, Finlandiya, İtaliya, Avstriya kimi bəlli dünya liderlərini belə geridə qoyub. Şimali Koreya isə eyni millətin dövləti olmasına, oxşar məkanda yerləşməsinə və eyni təbii ehtiyatlara malik olmasına baxmayaraq, fərqli yolla idarə edilir və insan inkişafı, iqisadi və sosial göstəricilərinə görə geridədir. Bu müqayisə idarəetmənin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha sübut edir.

Digər bir misal kimi, Rumıniya və Ekvatorial Qvineyanı göstərmək olar. Rumıniyada adambaşına düşən orta gəlirlər Ekvatorial Qvineyadan əhəmiyyətli dərəcədə azdır. Buna baxmayaraq, daha aşağı iqtisadi göstəriciyə malik Rumıniya BMT-nin təsnifatına əsasan davamlı insan potensialına əsaslanan inkişaf göstəricilərinə görə dünyada 54-cü, Ekvatorial Qvineya isə 144-cü yerdədir. Müqayisə edilən ölkələrin əhalisinin təhsil və sağlamlıq göstəriciləri də çox fərqlidir. Ekvatorial Qvineyada adambaşı düşən ÜDM-in həcmi Rumıniyadan 1,2 dəfə çox olmasına baxmayaraq, Rumıniya əhalisi daha sağlam və biliklidir. Bu misal bir daha göstərir ki, uğurlu inkişafın əsasında idarəetmə sahəsində müasir və sosialyönümlü siyasətin həyata keçirilməsi durur.

**4. Biliyə əsaslanan inkişafın qiymətləndirilməsində hansı göstəricilər istifadə edilir?**

Biliyə əsaslanan inkişafa yönəldilmiş siyasəti dəyərləndirmək üçün əsasən ÜDM-dən elm, texnologiya və təhsil üçün ayrılan pay təhlil edilir. Hər hansı bir ölkədə bu məqsədlər üçün lazımi qədər vəsaitin ayrılması innovativ inkişaf sahəsində aparılan siyasətin düzgün və məqsədyönlü olmasından xəbər verir. Bu ölkələr arasında ən qabaqcıl yerləri ABŞ, Yaponiya, Böyük Britaniya, Norveç, İsveç və başqaları tuturlar. Bu ölkələrdə elm və yeni texnologiyalara xüsusi diqqət yetirilir. Məsələn, İsveçdə ölkənin ümumdaxili məhsulunun (ÜDM) 3–4 faizi elm və texnologiyaların inkişafına yönəldilir. Bəzi ölkələrdə bu rəqəm daha yüksəkdir. Məsələn, İsrail elm və texnologiyaların inkişafına ÜDM-in 4,4 faizini

ayırır. Nəzərə alınmalıdır ki, yuxarıda adı çəkilən ölkələrdə ÜDM-in həcmi yüksəkdir. Bu o deməkdir ki, həmin ölkələrdə elmin inkişafı və yeni biliklər əldə edilməsi üçün kifayət qədər vəsait ayrılır. Azərbaycan Respublikasında son illərdə elm və texnologiyalara ayrılan vəsaitlər artmaqdadır.

İnnovativ inkişafın göstəriciləri kimi digər indikatorlardan da istifadə edilməkdədir. Bunlara hər min nəfərə düşən fərdi kompüterlərin sayı, internet istifadəçilərinin miqdarı, ali savadlı əhali arasında təbii və texniki sahə mütəxəssislərinin nisbəti və s. aiddir. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında bu göstəricilər inkişaf etmiş ölkələr səviyyəsindədir.

Biliyə əsaslanan inkişafı qiymətləndirmək üçün XXI əsrin əvvəllərində yeni bir göstəricinin istifadəsi təklif edilmişdir. Bu göstərici ***Texnoloji Nailiyyətlər Əmsalıdır (TNƏ).*** TNƏ bir neçə göstərici əsasında hesablanır. Onlara ölkədə qeydə alınan yeni ixtiralar və onların xaricdə istifadəsi nəticəsində ölkəyə daxil olan vəsaitlər, yüksək səviyyəli mütəxəssislərin sayı, təbiət və texniki elmlər, mühəndislik və digər praktiki biliklər sahəsində ali təhsil alan tələbələrin sayı və s. aiddir. TNƏ göstəricilərinə görə dünya ölkələri dörd qrupa bölünürlər: bu sahənin liderləri, potensial liderlər, yeni texnologiyalardan və biliklərdən geniş istifadə edən ölkələr və bu sahədə geridə qalan ölkələr. Beynəlxalq təşkilatların fərqli mənbələrdə yer alan qiymətləndirmələrinə görə, dünyanın 18–20 ölkəsi bu sahədə lider hesab edilə bilər. Beynəlxalq təsnifata görə Azərbaycan Respublikası potensial liderlər qrupuna aiddir. Müstəqilliyini təzə bərpa edən ölkə üçün bu, yüksək nailiyyətdir.

**5. Əmək bazarı və təhsildə ixtisaslaşma əlaqəsi necə qurulmalıdır?**

Təhsil uğurlu inkişafının planlaşdırılması və idarə edilməsində xüsusi əhəmiyyət daşıyır. Təhsilə cəlb olunanların sayının daim artması və ömürboyu təhsilin təmin edilməsi ilə yanaşı, təhsilin istiqamətləri də çox önəmlidir. Ali təhsil sahəsində ixtisasların düz seçimi zamanı real iqtisadiyyatın və əmək bazarının tələbatları xüsusi nəzərə alınmalıdır. Təhsil ilə əmək bazarı arasında münasibətlər və ixtisasların optimal nisbəti piramida şəklində təqdim edilə bilər. Piramidanın əsasını və müvafiq olaraq ən çoxsaylı hissəsini mütəxəssis tələb edən yeni bilik və

innovativ məhsullar yaradan təbiət, texniki və aqrar elmlər sahəsində çalışan, yaradılmış yüksək rəqabətqabiliyyətli innovativ məhsul və xidmətlərin kütləvi istehsalını və istifadəçiyə çatdırılmasını təmin edən mühəndis, aqronom, zootexnik və digər mütəxəssislər təşkil edir. İqtisadçılar və idarəetmə sahəsində çalışan digər mütəxəssislər piramidanın daha yüksək, lakin dar seqmetində yer alıblar. Onların funksiyası piramidanın birinci səviyyəsində yaradılmış yeni bilik və onların əsasında istehsal olunmuş məhsulların istehsal və istifadəsi proseslərini ən səmərəli şəkildə təşkil etməkdir. Piramidanın birinci səviyyəsində əldə edilmiş elmi və texnoloji nailiyyətlər nə qədər zəngin və innovativ olarsa, ikinci səviyyədə idarəetmə imkanları bir o qədər də genişlənər

Hüquqşünaslar isə piramidanın üçüncü və ən dar seqmentini təşkil edir. Onların funksiyası inkişaf üçün əlverişli hüquqi mühitin yaradılması və bu mühitin mühafizəsidir. Əmək bazarında da iş yerləri təxminən eyni nisbətdə formalaşır və bu xüsusiyyətin ixtisas seçimi zamanı nəzərə alınması olduqca əhəmiyyətlidir. Belə bir şəkildə əmək bazarının gələcək tələbatlarının nəzərə alınması eyni zamanda hər bir fərdin karyerası baxımından olduqca vacibdir. İxtisasın düzgün seçilməsi, ömürboyu təhsilin genişləndirilməsi və diversifikasiyası, təhsilə cəlb olunanların gözləntilərinin idarə edilməsi əhəmiyyətlidir. Bu həm iqtisadi, həm də siyasi təhlükəsizliyin təmin edilməsi baxımından da önəmlidir.

# 2. İNSAN POTENSİALININ FORMALAŞDIRILMASI

*İnsan inkişafı anlayışı. İnsanın tarixi və fərdi inkişafı. İnsan inkişafı anlayışı və onu səciyyələndirən amillər. "Gələcəksiz inkişaf"ın və "bərabərsizliklə səciyyələnən inkişafın" tərəqqiyə mənfi təsiri. "Texnoloji geriləmə ilə inkişafın" qarşısının alınmasında insan potensialının formalaşmasının rolu. İnkişaf proseslərinin optimal idarə edilməsində davamlı inkişafın və inkişaf üçün bərabər imkanların yaradılması. İstehlak mədəniyyəti və insan inkişafı. İnsanın təhlükəsizliyi davamlı inkişafın amili kimi.*

**Mündəricat:**


2.1. Bölmənin məqsədi
2.2. Açar anlayışlar
2.3. İnsan inkişafı anlayışı
2.4. İnsanın tarixi inkişafı
2.5. İnsanın fərdi inkişafı
2.6. Davamlı inkişafın mahiyyəti
2.7. Davamlı inkişafın indikatorları
2.8. Davamlı inkişafın idarə edilməsində enerji effektivliyi
2.9. Dünyada enerji effektivliyinin dəyişmə dinamikası
2.10. Bərpa olunan enerji mənbələri
2.11. İnsan potensialı və gələcəksiz inkişafın qarşısının alınması
2.12. İnsan potensialı və bərabərsizliklə müşayiət olunan inkişafın qarşısının alınması
2.13. Davamlı inkişaf göstəriciləri haqqında maarifləndirmə və məlumatlandırma
2.14. Davamlı inkişafda insan təhlükəsizliyi və sosial məsuliyyətli fəaliyyət
2.15. Özümüzü sınayırıq

## *2.1. Bölmənin məqsədi*

Dərsliyin ikinci bölməsində təqdim olunan bilgilər insan inkişafına əsaslanan davamlı, çağdaş və gələcək nəsillərin maraqlarına xidmət edən tərəqqi prosesləri haqqında müasir anlayışları təsvir və təhlil etmək məqsədinə xidmət edir. İnsan inkişafı termininin müxtəlif məna daşıya biləcəyi ehtimalı nəzərə alınaraq, bölmədə insanın tarixi və fərdi inkişafı və yeni anlayış olan insan potensialının inkişafından nə ilə fərqlənməsi barədə ətraflı bilgi verilir. Cəmiyyət üçün təhlükəli ***"gələcəksiz inkişaf"***ın və ***"bərabərsizliklə səciyyələnən inkişafın"*** tərəqqi prosesinə mənfi təsiri təsvir edilir. İnkişafda belə mənfi tendensiyaların, eləcə də ***"texnoloji geriləmə ilə inkişafın"*** və onların qarşısının alınmasında və fəsadlarının aradan qaldırılmasında insan potensialının formalaşmasının rolu izah edilir. Davamlı inkişaf göstəricilərinin təsviri və təhlili əsasında tərəqqi prosesinin optimal planlaşdırılması və idarəedilməsi yolları göstərilir. Bu prosesdə təbii ehtiyatların, o cümlədən enerjinin effektiv idarəedilməsinin əhəmiyyəti xüsusi ilə qeyd edilir. Müxtəlif amillərin inkişaf prosesindəki əhəmiyyətini müqayisəli şəkildə qiymətləndirmək və fərqləndirmək, uğurlu inkişaf prosesini təmin edən amilləri müəyyənləşdirmək bölümün məqsədlərindəndir. Qazanılan biliklər uğurlu idarəetmə üçün əlverişli şəraitin yaradılmasının əsas şərtlərindəndir.

## *2.2. Açar anlayışlar*
## *(bax: Terminlər lüğəti)*

***– Biomüxtəliflik; – Bərpa olunan enerji; – Biokonversiya; Bioyanacaq; – Cini İndeksi; – Elmi-tədqiqat və layihə-konstruktor fəaliyyəti ilə məşğul olanlar; – Fərdi inkişaf; – Enerjidən istifadə ÜDM vahidinə görə; – İstixana effekti; – İnsan hüquqları (əsas konvensiyalar); – Korporativ sosial məsuliyyət; – Korporativ idarəetmə; – Kvintil gəlir əmsalı; – Məhsul və xidmətlərin ixracı; – Təkamül; Gələcəksiz inkişaf; – Texnoloji geriləmə ilə inkişaf; – Alıcılıq Qabiliyyəti Pariteti (AQP).***

## *2.3. İnsan inkişafı anlayışı*

XX əsrin son onilliyində dövriyyəyə buraxılmış insan inkişafı anlayışı, müvafiq olaraq bu prosesi xarakterizə edən termin nisbətən yenidir və ilk dəfə həmin dövrdə BMT tərəfindən beynəlxalq hesabat, statistika, milli və ekspert təhlillərdə istifadə üçün təklif olunmuşdur. 1-ci bölmədə göstərildiyi kimi, bu anlayış hər bir fərdin imkanlarının genişlənməsi və eyni zamanda bütövlükdə cəmiyyətdə gedən inkişaf proseslərinin optimal planlaşdırılması və idarə edilməsinə xidmət edir. Anlayışın əsasını təşkil edən nəzəriyyənin yaranması ondan irəli gəlirdi ki, artıq iqtisadi artım inkişafın vacib şərti olsa da, bu prosesin vahid təminatçısı kimi qəbul edilmirdi. İnsan inkişafı nəzəriyyəsinə görə, iqtisadi artım ancaq davamlı, çağdaş və gələcək nəsillərin inkişafı üçün şərait yaradan bir amil kimi çıxış edə bilər. Başqa sözlə, iqtisadi artım vasitə, bilavasitə cəmiyyətin inkişafı, cəmiyyət üzvlərinin rifahının yüksəlməsi isə məqsəddir.

Göstərilən prinsip qədim dövrlərdə də səsləndirilib. Məsələn, qədim yunan alimi Aristotelə görə, varidat məqsəd kimi çıxış edə bilməz və toplanmış dövlət yalnız hansısa məqsədə nail olmaq üçün vasitədir. Bu məqsədi Aristotel «çiçəklənən həyat tərzi» kimi səciyyələndirirdi. Əslində, təxminən 2500 il öncə Aristotel tərəfindən irəli sürülən insanlar üçün "çiçəklənən həyat tərzi" ali məqsədi ilə XX əsrin sonunda BMT tərəfindən təklif olunmuş və dünya ictimaiyyətinin prioritet seçdiyi insan potensialına əsaslanan davamlı inkişaf konsepsiyasının məqsədləri arasında bir çox oxşarlıqlar mövcuddur. İnsan inkişafının ümumi vəziyyətinin, bu istiqamətdə həyata keçirilən fəaliyyətin qiymətləndirilməsinin həmin prosesin idarə edilməsinin səmərəliliyinin meyarı olması tarixən müşahidə edilməkdədir. Hazırda BMT-nin təklifi ilə Dünya Sammiti tərəfindən 21-ci minilliyin məqsədləri kimi qəbul olunmuş və 2015–2030-cu illər üçün qlobal miqyasda planlaşdırılmış "Davamlı inkişaf məqsədləri" eyni hədəflərə xidmət edir.

Artıq qeyd edildiyi kimi, uzun zaman hər hansı bir ölkə və ya ərazidə adambaşına düşən gəlir inkişaf səviyyəsinin, onun artımı isə ənənəvi olaraq uğurlu inkişafın ən əsas və bir çox hallarda yeganə göstəricisi kimi qəbul olunub və hazırda da geniş istifadə edilməkdədir. Bu göstərici ***Ümumdaxili məhsulun (ÜDM)*** və yaxud ***Ümummilli***

***məhsulun (ÜMM)*** adambaşına düşən həcmi və onun dəyişmə dinamikası əsasında müəyyən olunur. Aydındır ki, ÜDM-in və ÜMM-in artımları, bu artımların həcmi və dinamikası inkişafa müsbət təsir göstərə bilən vacib şərtdir. Əksinə ümumdaxili və ya ümummilli məhsulların həcminin azalması mənfi tendensiya kimi qəbul edilir. Bu tamamilə doğru yanaşmadır – iqtisadi imkanların artması insan potensialının inkişafı, cəmiyyət üzvlərinin bilik və bacarıqlarının artması, bunun əsasında onların rifahının yüksəlməsi üçün yeni imkanları yaradan bir şərtdir. Ümumdaxili və ümummilli məhsulların azalmaları ilə müşayiət olunan iqtisadi durğunluq və hətta geriləmə davamlı insan inkişafına və bununla əlaqədar olan proseslərə mənfi təsir göstərə bilər. Birinci halda əgər insan potensialına əsaslanan davamlı inkişafın uğuru üçün müvafiq məqsədyönlü siyasətin həyata keçirilməsi vacib şərtdirsə, ikinci halda vəsaitin olmaması bu siyasət haqqında hətta düşünmək imkanını çox məhdudlaşdırır. Bu səbəbdən iqtisadi imkanların genişlənməsi insan potensialına, onun bilik və bacarığına əsaslanan inkişafın təmin olunmasına şərait yaradan başlıca amil kimi qəbul edilə bilər.

Qeyd etmək lazımdır ki, son illər "artımsız inkişaf" konsepsiyası irəli sürülmüşdür. 2015-ci ilin "Davamlı inkişaf sammitində" müzakirə edilən bu konsepsiyaya görə, hətta iqtisadi artım olmadığı şəraitdə də mövcud potensial ehtiyatların istifadə səmərəliliyini artırmaqla davamlı insan potensialına əsaslanan inkişaf üçün zəmin yaratmaq mümkündür. Bu məqsədlərə nail olmaqda elmi yanaşmaların, innovativ istehsalat və idarəetmə texnologiyalarından istifadənin əhəmiyyəti çox yüksəkdir.

ÜDM və ÜMM həcmləri planlaşdırma və idarəetmədə çox qiymətli göstəricilərdir və onların iqtisadi təhlil və qiymətləndirilmələrə cəlb edilməsi olduqca vacibdir. Hazırkı dövrdə də bu göstəricilər iqtisadi inkişafı səciyyələndirmək baxımından böyük əhəmiyyət daşıyır. İqtisadi artımın məqsəd olmaması və yalnız insana xidmət edən, maddi, sosial və mədəni artım üçün vasitə kimi çıxış etməsi barədə nəzəriyyələr get-gedə daha çox tərəfdar qazanıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlət strategiyası da iqtisadi inkişafı məqsəd kimi deyil, cəmiyyətin tərəqqisi və əhalinin sosial durumunun artırılması kimi qəbul edir. Bu səbəbdən

beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsasən ölkəmiz iqtisadiyyatın idarəedilməsi və sosial məsələlərin həlli sahəsində olduqca yüksək nəticələr əldə etmiş ölkələr qrupuna aid edilir.

Qeyd edilməlidir ki, inkişafın mahiyyəti ilə bağlı baxışlar da dəyişib. Artıq iqtisadi imkanların yüksəlməsi və sosial göstəricilərin artmasını əks etdirən orta göstəricilər inkişafın mütləq təzahürü kimi qəbul olunmur. Hazırda inkişaf, onun uğurlu olması daha çox insanların imkanlarının genişləndirilməsi prosesi kimi dəyərləndirilir. Başqa sözlə, inkişafın məqsədi istehsalın genişləndirilməsi və iqtisadi göstəricilərin artması deyil, insanlara seçim üçün geniş imkanlar yaradılmasıdır. Bu imkanlara daha məzmunlu, yaradıcı və məhsuldar fəaliyyət göstərmək, uzun, sağlam və dolğun həyat sürmək, tarix boyu toplanmış biliklərə yiyələnmək imkanları, qaçıla bilən xəstəliklərdən azad olmaq və s. aiddir. Başqa sözlə, insan inkişafı anlayışı azadlıq deməkdir. Bu azadlıq insan inkişafı prosesində çox geniş çevrəni əhatə edə bilər – yoxsulluğun aradan qaldırılmasından tutmuş cəmiyyətin hər bir üzvünə öz istedadını üzə çıxarmaq üçün tam şəraitin yaradılmasına qədər. Bunlara nail olmaq üçün iqtisadi imkanlar vacib şərtdir. Lakin iqtisadi imkanlarla yanaşı, göstərilən azadlıqları təmin edəcək siyasətin də həyata keçirilməsi zəruridir. Bu isə uğurlu insan potensialına əsaslanan inkişafın planlaşdırılması, idarə edilməsi və monitorinqi sahəsində müvafiq bilik və bacarığa əsaslanmalıdır.

## *2.4. İnsanın tarixi inkişafı*

İnsan inkişafı anlayışının nisbətən yeni yarandığını nəzərə alaraq, insanla bağlı inkişafa aid digər proseslərin və bunlarla əlaqədar olan terminlərin təhlili olduqca vacibdir. İnkişaf, ümumiyyətlə, dinamik bir proses olmaqla sadədən mürəkkəbə və müasirləşməyə yönələn və imkanların genişləndirilməsinə xidmət edən, yeni keyfiyyətlərin üzə çıxmasına şərait yaradan bir prosesdir. Qeyd edildiyi kimi, inkişaf, əsasən, müsbət bir hadisə kimi səciyyələndirilsə də, bəzi hallarda neqativ bir hadisə kimi də çıxış edə bilir. Məsələn, xəstəlik, siyasi və ya iqtisadi böhranlar, hərbi münaqişələr də inkişaf edə bilər. Son illərdə dünyanın müxtəlif qitələrində müşahidə edilən və iqlim dəyişmələri prosesləri ilə əlaqələndirilən müxtəlif təbii böhranların yaranmasını və

inkişafını və bunların nəticələri kimi bir sıra məhrumiyyətləri göstərmək kifayətdir.

BMT tərəfindən XX əsrin sonunda təklif edilmiş insan inkişafı termini o zaman üçün yeni idi və bu səbəbdən onun cəmiyyət tərəfindən qəbul edilməsi üçün vaxt və müvafiq tədbirlərin həyata keçirilməsi tələb olunurdu. Anlayışın yeni olması onu "insanın inkişafı" və bununla əlaqədar digər inkişaf proseslərindən fərqləndirmək zərurətini yaradırdı. Hər bir yeni termin kimi, insan inkişafı üçün təklif olunan məfhum da həm mütəxəssislər, həm də geniş kütlələr tərəfindən uzun müzakirələrdən sonra qəbul edilməliydi. Ancaq bu halda insan inkişafı nəzəriyyəsinin mənası və mahiyyəti anlaşıla və tədqiq oluna bilərdi. İnsan inkişafı məfhumu ilkin olaraq ingilis dilində təklif edilmişdi və onun tərifi ilə yanaşı, bu yeni terminin digər dillərdə qarşılığının verilməsinə zərurət vardı.

Göstərilən yeni termin ilə tanışlıq və insan inkişafına aid terminlərin təhlili həmin prosesin bir neçə ənənəvi meyarı və istiqamətini gündəmə gətirir. Onlardan birincisi insanın canlı varlıq kimi tarixi inkişafı və yaxud insan təkamülüdür. Qəbul olunmuş nəzəriyyələrə görə, insanın canlıların bir növü kimi təkamülü və yaxud tarixi inkişafı prosesi təxminən 4 milyon ilə yaxın bir dövrü əhatə edir. Bu zaman kəsiyinin 3 milyon ili insanabənzər varlıqların əmələ gəlməsi ilə tarixə düşüb. Həmin varlıqların mövcudluğu Afrikada aparılan qazıntılarla sübuta yetirilmişdir. Elmi və tədris mənbələrində bu varlıqlar avstralopitek, yəni cənub meymunu kimi qeyd olunub. Ən geniş yayılmış nəzəriyyələrə görə, təxminən 1 milyon il bundan əvvəl isə müasir insanın əcdadları əmələ gəlmişdir. Sonralar isə təkamül prosesi nəticəsində müasir insanlar yaranmışdır. Son zamanlara qədər müasir insanın 35–40 min il bundan əvvəl əmələ gəldiyi iddia edilirdi. Lakin XXI əsrin birinci onilliyində aparılmış tədqiqatlardan sonra aydın olmuşdur ki, müasir insanın əmələ gəlməsi, yəni insanın bir canlı varlıq kimi tarixi inkişafı daha qədim dövrə aiddir. Belə bir qənaətə alimlər qazıntılar zamanı aşkarlanmış və 700 000 yaşı olan insan qalıqları ilə müasir insanlardan götürülmüş DNT molekullarının müqayisəsi nəticəsində gəlmişlər. Müqayisələr göstərmişdir ki, 700 000 ildən çox yaşı olan insan qalıqlarının və müasir insanın DNT molekullarının quruluşu və tərkibi eynidir və bu canlılar eyni bioloji növə

aiddir. Bu o deməkdir ki, müasir insanların bir növ kimi formalaşmasının tarixi 35–40 min deyil, ən azı 700 min ildən çox bir müddəti əhatə edir.

### 2.5. İnsanın fərdi inkişafı

İnsanın tarixi inkişafı, yaxud təkamülü onun canlıların bir növü kimi inkişafını əks etdirir. Tarixi inkişafla yanaşı, insanın fərdi inkişafı prosesi də məlumdur. Hər bir insanın fərdi inkişafı rüşeym dövründən tutmuş ölənə kimi bütün mərhələləri əhatə edir. Artıq məlum olduğu kimi, fərdi inkişaf rüşeym və körpəlik, uşaqlıq, gənclik, cavanlıq, yetkinlik və qocalıq dövrlərindən ibarətdir.

Beləliklə, insana aid inkişafdan bəhs edərkən ənənəvi olaraq insanın bir növ kimi tarixi inkişafı, yaxud hər bir şəxsin fərdi inkişafı düşünülür. Lakin bu iki növ inkişaf insanın bir bioloji növ və canlı varlıq kimi inkişafına aiddir. İnkişafı əks etdirən bu iki istiqamət və onları səciyyələndirən mənalar BMT tərəfindən təklif olunmuş insan inkişafı terminindən fərqlidir. Son halda söhbət insan potensialının inkişafından gedir. İnsanın tarixi və fərdi inkişafı insan potensialının inkişafı üçün mühüm rol oynasa da, bu prosesin uğurlu olması və hər bir fərdin şəxsi qabiliyyətini tam həcmdə həyata keçirməsi, uzun, yaradıcı və məhsuldar həyat sürməsi üçün kifayət deyil.

İnsan ilə əlaqədar inkişafı təhlil edərkən, insan cəmiyyətinin tarixi inkişafı da xatırladıla bilər. İnsan cəmiyyəti ibtidai icma quruluşu dövründən müasir, yüksək dərəcədə inkişaf etmiş cəmiyyət səviyyəsinə çatmışdır. İnsan cəmiyyətinin inkişafını xarakterizə edən digər amillər də məlumdur. Bunlardan iqtisadi, texnoloji, elmi, mədəni, sosial inkişafı və s. göstərmək olar. Lakin qeyd edildiyi kimi, insan inkişafı və yaxud insan potensialının inkişafı anlayışı digər anlayışlardan fərqlidir.

### 2.6. Davamlı inkişafın mahiyyəti

Qeyd edildiyi kimi, müasir anlamda ***davamlı inkişaf*** anlayışı və onunla bağlı nəzəriyyələr XX əsrin sonunda dövriyyəyə buraxılmışdır. Sözügedən konsepsiyanın formalaşması, ilk növbədə, iqtisadi və sosial

tərəqqinin ətraf mühitin mühafizəsi və təbii ehtiyatların səmərəli istifadə edilməsi ilə balanslaşdırılmış şəkildə həyata keçirilməsi zərurətindən irəli gəlmişdir. Bu səbəbdən insan potensialına, onun bilik və bacarığına əsaslanan inkişaf "davamlı inkişaf" kimi səciyyələndirilir, XXI əsrin əsas prioritetlərindən sayılır. Məlum olduğu kimi, bu səbəbdən BMT və UNESCO 2005–2014-cü illəri davamlı inkişafın tədrisi onilliyi elan etmiş və bu barədə xüsusi qərar vermişdir. Bununla bağlı rəsmi sənəd (UNİS/İNF/63) 1 mart 2005-ci ildə BMT-nin Baş Qərargahında BMT Baş katibi Kofi Annan və UNESCO-nun Baş direktoru Koişiro Matsuura tərəfindən imzalanmışdır. Azərbaycan Respublikasında bu proses daha erkən başlamışdır və ümummilli lider Heydər Əliyevin təsdiq etdiyi milli təhsil konsepsiyasına görə, ölkədə davamlı insan potensialına əsaslanan inkişafa aid fənnin orta ümumtəhsil məktəblərində tədrisi barəsində qərar 2001-ci ildə verilmişdir. Dünyada bu təhsil səviyyəsi üçün ilk dərslik Azərbaycan Respublikasında 2003-cü ildə dərc edilmişdir. BMT 2005-ci ildə göstərilən təşəbbüsü innovativ ideya və təqdirəlayiq fəaliyyət kimi dəyərləndirmiş və bu barədə məlumatı qlobal miqyasda yaymışdır. Hazırda bu innovativ təhsil siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Bu siyasətin nəticəsi olaraq, 2015-ci ildə isə Azərbaycan Respublikasında Nazirlər Kabinetinin sərəncamı əsasında davamlı inkişafın idarəedilməsi ixtisasları bakalavr və magistr səviyyələrində ali məktəblərin tədris proqramlarına daxil edilmişdir. Siyasi elmlər sahəsində bu yeni istiqamətdə elmlər doktorlarının hazırlanması da nəzərdə tutulmuşdur.

Davamlı inkişafın dünya üçün əsas qlobal prioritet olması XXI əsrin ikinci onilliyində keçirilmiş bir sıra beynəlxalq tədbirlərdə öz əksini tapmışdır. Qeyd edildiyi kimi, 2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin 70-ci Yubiley Sessiyası, əsasən, davamlı inkişafın müzakirəsinə həsr edilmişdir. Eyni vaxtda BMT-nin təşəbbüsü ilə Nyu-Yorkda keçirilən Dünya Sammiti də tarixə davamlı inkişaf sammiti kimi daxil olmuşdur. Nəhayət, bəlli olduğu kimi, 2015–2030-cu illər üçün hədəflənən məqsədlər "Davamlı inkişaf məqsədləri" adlandırılmışdır. Ardıcıl olaraq XXI əsr və minillik üçün bu problemin hədəflənməsi ondan irəli gəlir ki, müxtəlif inkişaf konsepsiyaları arasında ən müasir, universal və gələcək nəsillərin maraqlarına cavab verəni davamlı inkişaf konsepsiyasıdır.

İnsan potensialına əsaslanan davamlı inkişaf konsepsiyasının formalaşmasında 1987-ci ildə BMT-nin təklifi ilə beynəlxalq ekspert qrupu tərəfindən məruzə şəklində hazırlanmış «Bizim ümumi gələcəyimiz» adlı sənədin xüsusi əhəmiyyəti olmuşdur. Bu məruzənin məqsədi dünyanın inkişafı siyasətinin idarə edilməsini köklü surətdə dəyişmək idi. Belə bir sənədin hazırlanması zərurəti dünya əhalisinin sayının surətlə artması fonunda təbii ehtiyatların, xüsusən bəzi bərpa olunmayan ehtiyatların tükənməsi və ətraf mühitin həddən artıq çirklənməsi və pozulmasından irəli gəlirdi. Məruzədə insanların həyatının yaxşılaşdırılmasına, ətraf mühitin qorunmasına dair strategiya təklif edilmişdi. Strategiyada, eyni zamanda dünya iqtisadiyyatının uzunmüddətli inkişafı və bu inkişaf vasitəsilə qlobal iqtisadi və sosial problemlərin həlli yolları da irəli sürülmüşdü.

Komissiyanın gəldiyi nəticələr və irəli sürdüyü təkliflər dünya ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilmişdir. Bu, həm BMT-nin Baş Assambleyasının qərarlarında və həm də 1992-ci ildə Rio-de-Janeyroda 179 ölkənin nümayəndələrinin iştirakı ilə keçirilmiş qlobal sammitin sənədlərində də öz əksini tapmışdır. Bu problemin aktuallığı eyni zamanda 2012-ci ildə keçirilmiş “Rio + 20” dünya sammitində də bir daha təsdiqlənmişdir.

Ümumi gələcəyimizə həsr olunmuş məruzə və sonrakı əlaqəli sənədlərdə təklif edilən yeni tipli iqtisadi artım ***davamlı inkişaf*** kimi səciyyələndirilirdi. Hazırda elmi ədəbiyyatda ***davamlı inkişafın*** 60-dan çox müxtəlif tərifi məlumdur. Ümumiləşdirilmiş şəkildə isə davamlı inkişaf iqtisadiyyatın artımının, onun optimal səviyyədə saxlanılmasının, insan fəaliyyətinin idarə edilməsinin, sosial problemlərinin çözülməsinin elə bir üsuludur ki, o, çağdaş nəsillərin tələblərini ödəməyə qadirdir və eyni zamanda gələcək nəsillərin də öz tələbatlarını ödəməsi üçün əngəllər yaratmır. Bərpa olunan ehtiyatlardan, o cümlədən enerji mənbələrindən istifadənin artırılması, onların ümumi enerji və xammal dövriyyəsində payının daim çoxalması bu tələblərə cavab verir.

Aydındır ki, göstərilən şərtlərin təmin edilməsi, ilk növbədə, müxtəlif səviyyələrdə həyata keçirilən idarəetmənin elə üsullarından istifadəsini tələb edirdi ki, o zaman ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə sığortalansın. Eyni zamanda davamlı inkişaf insan üçün əlverişli iqtisadi və sosial mühitin yaradılması, onun rifahının təmin edilməsinə əsaslanır.

Bütün bu şərtlərin yerinə yetirilməsi bir sıra amillərlə bağlıdır. İlk növbədə, təbii ehtiyatlardan səmərəli istifadə yeni, qənaətlə işləyən və yüksək effektivliyə malik texnologiyaların yaradılması və geniş tətbiqi nəticəsində gerçəkləşə bilər. Eyni zamanda gələcək nəsillərin maraqlarının nəzərə alınması bərpa olunan təbii mənbələrdən daha geniş istifadəni tələb edir. Bu texnologiyaların yaradılması və istifadəsi isə insan amili, insan inkişafı ilə əlaqədardır. Göstərilən məqsədə nail olmaq yalnız insan potensialının inkişafı, genişlənməsi şəraitində mümkündür. Digər tərəfdən insanın təbii ehtiyatlardan hətta fərdi istehlakçı kimi səmərəli və qənaətlə istifadə etməsi müvafiq bilik və bacarığa, bu istiqamətdə formalaşmış mədəniyyətə əsaslanır. Hər bir şəxs üçün əlverişli sosial mühitin yaradılması və bu mühitin qorunması da məhz insan potensialı ilə bağlıdır. Beləliklə, davamlı inkişaf yalnız insan inkişafını, onun potensialının yüksəlməsini təmin etməklə həyata keçirilə bilər. Davamlı inkişaf dedikdə mütləq insan inkişafı da nəzərdə tutulur. Bu səbəbdən davamlı inkişaf eyni zamanda davamlı insan inkişafı və yaxud insan inkişafı kimi də anlaşılır.

2012-ci ildə keçirilmiş Rio + 20 konfransında davamlı və insan potensialına əsaslanan inkişafın planlaşdırılması və idarə edilməsi məsələləri də müzakirə edilmişdir. Müzakirələrin gedişində yoxsulluğun aradan qaldırılmasında insan potensialının inkişafına xüsusi diqqət yetirilmişdir. Dünya liderləri, biznes və vətəndaş cəmiyyəti institutlarının minlərlə nümayəndəsi dünyada inkişaf prosesinin vəziyyətini müzakirə etmiş, bu prosesin insan potensialının inkişafına, hər bir şəxsin layiqli və təhlükəsiz həyat sürmək imkanlarına və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsinə dair tövsiyələr hazırlamışlar. Ətraf mühitin mühafizəsi, ***biomüxtəlifliyin*** qorunması sahələrində mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparılmış, ***yaşıl iqtisadiyyatın*** təbii sərvətlərdən balanslı istifadəyə və insan inkişafına təsiri qiymətləndirilmişdir. Konfransın nəticələri "Bizim istədiyimiz gələcək" sənədində əksini tapmışdır. Bu məqsədlərin aktual olması 2015-ci ildə keçirilmiş BMT-nin Baş Assambleyası və Dünya Sammitinin qərarları ilə bir daha təsdiqlənmişdir.

Göründüyü kimi, davamlı insan inkişafı son dövrün əsas prioritetlərindən birinə çevrilmişdir. Davamlı inkişaf məqsədlərinə nail olmaqda təhsilin rolu olduqca yüksəkdir. Davamlı, insan potensialına əsaslanan və ayrılıqda hər bir şəxsin marağını diqqət mərkəzinə çəkən inkişaf bir çox ölkələr-

də dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Hazırda yüzdən artıq ölkədə dövlət səviyyəsində davamlı inkişaf üzrə Milli və İctimai Şuralar fəaliyyət göstərir və bu sahədə milli proqramlar həyata keçirilir. Azərbaycan Respublikasında qəbul edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf strategiyası bu prosesin davamlı olmasını nəzərdə tutur.

## *2.7. Davamlı inkişafın əsas indikatorları*

Davamlı insan potensialına əsaslanan inkişafı səciyyələndirən və bu istiqamətdə baş verən prosesləri təhlil etmək, onların planlaşdırılması və idarə edilməsini qiymətləndirmək, göstərilən fəaliyyətin effektivliyini yüksəltmək üçün xüsusi göstərici – indikatorlardan istifadə olunur. Beynəlxalq statistikada bu məqsədlər üçün bir neçə göstəricinin xüsusi əhəmiyyəti var. Bunlara enerjidən səmərəli istifadə, xammal qənaəti, tullantıların idarəedilməsi, o cümlədən təkrar istifadəsi, qorunan ərazilərin mövcudluğu, onların ölkə ərazisində payı və bir sıra digər göstəricilər aid edilə bilər. Bütün bu göstəricilər və bu sahədə əldə edilən nailiyyətlər bilavasitə insan inkişafından asılıdır.

Enerjinin istehsalı hazırkı dövrdə bir çox hallarda üzvi mədən ***("fossil")*** yanacağının yandırılması hesabına gerçəkləşdirilir. Bu isə həm bərpa olunmayan təbii ehtiyatların istifadəsini genişləndirmək, həm də ətraf mühiti çirkləndirmək deməkdir. Elektrik istehsal edən istilik stansiyaları enerjini bir çox hallarda bərpa olunmayan təbii yanacaq ehtiyatlarının yandırılması hesabına alırlar. Bu halda enerjidən səmərəli istifadə etmədikdə bir yandan da xammalın qeyri-səmərəli istifadəsi baş verir. Digər tərəfdən bu stansiyalarda hətta ən müasir texnologiyalar istifadə edildiyi halda da ətraf mühitə küllü miqdarda istixana effekti törədən qazlar buraxılır. Bu tullantıların atmosferə atılması həm lokal miqyasda ekoloji vəziyyəti gərginləşdirir, həm də qlobal problem olan iqlim dəyişiklikləri prosesinin artmasına və sürətlənməsinə təsir göstərir.

Bərpa olunmayan təbii ehtiyatların daha az istifadəsini tələb edən atom elektrik stansiyalarının ətraf mühitə qlobal və lokal səviyyədə gündəlik ekoloji təsiri bir o qədər yüksək hesab edilmir. Lakin texnoloji qəzalar baş verdiyi zaman və bəzi hallarda təbii fəlakətlərin təsiri nəticəsində atom elektrik stansiyalarının istismarının riski çox yüksək ola

bilir. Texnoloji qəzaya misal kimi Ukraynadakı Çernobıl atom stansiyasında 1986-cı ildə baş vermiş hadisəni göstərmək olar. Bu qəza nəticəsində 8 milyondan artıq insan radioaktiv şüalanmaya, 155 min kvadrat kilometr ərazi radioaktiv çirklənməyə məruz qalmış, 400 mindən çox insan ən çox çirklənmiş ərazilərdən köçürülmüşdür. Bu zamana qədər həyata keçirilmiş tədbirlərə, hazırkı intensiv və çoxtərəfli fəaliyyətlərə baxmayaraq, bu qəzanın fəsadları bu gün də özünü büruzə verməkdədir. Bu öz əksini əhalinin sağlamlığının pisləşməsi və həyat üçün risklərin artmasında, sənaye müəssisələrinin və kənd təsərrüfatı torpaqlarının dövriyyədən çıxarılmasında, yaşayış məntəqələrinin tərk edilməsində tapmışdır. Hesablamalara görə, bu qəzanın nəticəsində dəyən zərər 235 milyard ABŞ dolları təşkil edir. Bu qəza nəticəsində yer almış mənəvi itkiləri isə hesablamaq mümkün deyil.

Yaponiyada Fukusima atom elektrik stansiyasında 11 mart 2011-ci ildə baş vermiş qəza isə təbii fəlakətin nəticəsidir. Bu qəzada zəlzələ və bunun sonucunda əmələ gəlmiş sunami böyük ərazilərin radioaktiv çirklənməsinə gətirib çıxarmış, on minlərlə insan daimi yaşayış yerlərini itirmiş və nisbətən təhlükəsiz ərazilərə köçmək məcburiyyəti ilə üzləşmişdir. Bu hadisə bir daha nümayiş etdirdi ki, hətta texnoloji baxımdan yüksək imkanlar sahibi olan və ənənəvi olaraq əhalisi yüksək intizamla seçilən ölkələr də qəza risklərindən sığortlanmayıblar. Bu səbəbdən davamlı inkişaf prinsiplərinin təmin olunması bir tərəfdən tərəqqinin, digər tərəfdən lokal və qlobal təhlükəsizliyin vacib şərtidir.

Atom elektrik stansiyalarında baş vermiş və verməə ehtimalı olan qəzalardan ekoloji, iqtisadi və sosial risklərin idarə edilməsi baxımından, sığortalanmanın ən yaxşı vasitəsi kimi alternativ enerji mənbələrindən istifadənin genişlənməsi gündəmdədir. Məsələn, Yaponiyada baş vermiş qəza bərpa olunan enerji mənbələrinin istifadəsinə yönəldilmiş layihələrin çoxalması, surətlənməsinə və gücləndirilməsinə yol açıb. Bununla yanaşı, Yaponiyada mövcud olan 55 atom elektrik stansiyasının təhlükəsizliyi, onlar üçün mövcud olan potensial iqtisadi və ekoloji risklərlə bağlı problemlər yenidən qiymətləndirilib. Qiymətləndirmə və ardınca aparılan təhlillər əsasında energetika sənayesini təhlükəsiz idarə etmək məqsədi ilə Yaponiyada mövcud olan atom elektrik stansiyalarının tədricən istismardan çıxarılmasına qərar verilmişdir.

Yuxarıda təqdim olunmuş atom elektrik stansiyalarda baş vermiş qəza hadisələri bu mənbələrdən enerjinin alınması prosesində dünyada ən irimiqyaslı qəza və onlarla əlaqədar risklərdən xəbər verir. Əslində isə bu risklər daha çoxdur və onlar təkcə qəza hadisələri ilə məhdudlaşmır. Hətta iri miqyaslı qəzalar baş vermədiyi təqdirdə də bu mənbələrin istifadəsi ilə enerjinin istehsalı prosesində risklər mövcuddur. Bu risklər atom elektrik stansiyalarda istifadə olunan texnologiyalar düzgün idarəedilmədiyi halda müşahidə edilir və daha kiçik miqyaslı qəzaların baş verməsinin səbəbi kimi çıxış edir. Bununla bağlı sivilizasiyanın hazırkı mərhələsində enerjinin istehsalı və istehlakı proseslərində optimal planlaşdırma və idarəetmənin xüsusi əhəmiyyəti var. Göstərilən səbəbdən enerjinin mənbəyi və onun səmərəli istifadəsi davamlı inkişafın əsas indikatoru kimi istifadə edilməkdədir. Təbii ehtiyatların səmərəli istifadəsi isə bilavasitə insan inkişafının səviyyəsi ilə müəyyən edilir.

Davamlı inkişafın qiymətləndirilməsində digər indikatorlardan da istifadə olunmaqdadır. Bunlara, əsasən, iqtisadi fəaliyyət nəticəsində ətraf təbii mühitə və sosial vəziyyətə təsiri səciyyələndirən müxtəlif göstəricilər aid edilə bilər. Qeyd edildiyi kimi, tullantıların optimal idarəedilməsi, o cümlədən təkrar istifadəsi, ***biomüxtəlifliyin*** mühafizəsi, qorunan ərazilərin vəziyyəti və onların ölkənin ümumi ərazisində tutduğu ərazinin faizi davamlı inkişafın göstəricilərindəndir. Sadalanan və əsasən, ekoloji vəziyyəti səciyyələndirən bu göstəricilərlə yanaşı, bir sıra sosial göstəricilər də davamlı inkişafın indikatorları kimi istifadə edilə bilər. Bunlara ***Cini əmsalı***, ***Kvintil əmsalı***, Palma əmsalı və digərləri aiddir. Bunlar haqqında məlumatlar sonrakı bölmələrdə təqdim olunur.

### *2.8. Davamlı inkişafın idarə edilməsində enerji effektivliyi*

Enerjidən səmərəli istifadə sahəsində qərar qəbul edərkən, ilk növbədə, iqtisadi və ekoloji effektivliyin əldə edilməsi əsas məqsəd kimi diqqəti cəlb edir. Enerjidən istifadə etmə proseslərinin idarəedilməsinin effektivliyini qiymətləndirmək üçün bir neçə göstəricinin (indikatorun) böyük əhəmiyyəti var. Onlardan biri sərf edilmiş enerji vahidinin istifa-

dəsi nəticəsində istehsal olunmuş məhsulun və ya xidmətlərin qiymətidir. Şübhəsiz ki, bu sahədə səmərəli fəaliyyət insan inkişafından, onun bilik və bacarıq səviyyəsindən asılıdır. Bu səbəbdən davamlı inkişaf indikatorları eyni zamanda insan inkişafı göstəricisi kimi də dəyərləndirilə bilər. Enerjidən istifadənin səmərəliliyini qiymətləndirmənin bir yolu miqdarca bir kiloqram neftdə olan enerjinin istifadəsi nəticəsində istehsal olunmuş malların və yaxud təqdim edilmiş xidmətlərin qiymətidir. Müxtəlif ölkələrdə və ölkələr daxilində enerji fərqli mənbələrdən alına bilər. Lakin enerjinin ekvivalenti kimi miqdarca bir kq neftdə olan enerji həcminin seçilməsi ondan irəli gəlir ki, dünyada hər hansı bir zaman kəsiyində neftin orta illik qiyməti eyni olur. Bu isə müxtəlif ölkələrdə enerjinin səmərəli idarəedilməsinə dair beynəlxalq müqayisələr aparmaq üçün imkan yaradır.

BMT, Dünya Bankı və digər beynəlxalq təşkilatların qəbul etdiyi və qlobal miqyasda müqayisələr imkanı yaradan standart yanaşma əsasında ÜDM istehsal olunmuş məhsul və göstərilmiş xidmətlərin dəyəri ABŞ dolları ilə müəyyənləşdirilir. Lakin ABŞ dollarının müxtəlif ölkələrdə alıcılıq qabiliyyəti fərqli olur. Bu səbəbdən beynəlxalq təşkilatların rəsmi sənədlərində hər hansı bir ölkədə ÜDM çərçivəsində istehsal olunmuş məhsul və ya təqdim edilmiş xidmətlər ABŞ dolları ilə göstərilsə də, bu rəqəm ***Alıcılıq Qabiliyyəti Pariteti (AQP)*** nəzərə alınmaqla təqdim olunur. AQP xüsusi əmsal kimi Dünya Bankı tərəfindən eyni həcmli beş yüzdən çox zəruri mal və xidmətlərdən təşkil edilmiş istehlak səbətinin müxtəlif ölkələrdə qiymətləndirmələrinin müqayisəsi əsasında müəyyən edilir. İstehlak səbətin qiymətinin vahidi kimi onun ABŞ-da dəyəri əsas kimi qəbul edilir. Məsələn, tutaq ki, ABŞ-da təklif edilən istehlak səbətinin dəyəri 1 000 ABŞ dolları təşkil edir. Digər bir ölkədə isə eyni həcmli istehlak səbəti cəmi 250 ABŞ dollarına başa gəlir. Bu o deməkdir ki, ikinci ölkənin alıcılıq qabiliyyətinə görə əmsalı 4-də bərabərdir. Həmən ölkənin adambaşına düşən real ÜDM-in həcmi dördə vurulur və AQP ilə ABŞ dolları və yaxud beynəlxalq ABŞ dolları kimi təqdim edilir. Bu əmsalın istifadəsi nəticəsində alınmış rəqəm beynəlxalq dollar kimi təqdim olunur. Beləliklə, enerji səmərəliliyi göstəricilərindən biri olan hər enerji vahidinin (miqdarca 1 kq neftdə olan enerji qədər) istifadəsi ilə istehsal olunmuş ÜDM-in (ABŞ dolları, AQP nəzərə alınmaqla) həcmi davamlı inkişafın indikatoru və insan

potensialının səviyyəsinin göstəricisi kimi geniş istifadə edilməkdədir. Aydındır ki, insan potensialının inkişaf səviyyəsi hər iki amilə təsir göstərir.

Enerjinin səmərəli istifadəsini dəyərləndirmək üçün istifadə edilən digər üsul da mövcuddur. Bu göstəricinin hesablanması dəyəri 1000 ABŞ dolları olan məhsulun istehsalı və yaxud xidmətin təqdim edilməsi üçün sərf olunan enerji miqdarının hesablanmasına əsaslanır. Hər iki indikator eyni məna daşıyır və eyni məqsədə xidmət edir: enerjinin nisbətən az miqdarından istifadə etməklə daha çox dəyərə malik məhsulların istehsalı və yaxud daha qiymətli xidmətlərin təqdim edilməsi. Qeyd edildiyi kimi, enerjinin səmərəli istifadəsi iqtisadi əhəmiyyəti ilə yanaşı, eyni zamanda milli və ya yerli səviyyədə ətraf mühitin çirklənməsinin qarşısının alınmasına və yaxud azalmasına xidmət edir. Bununla yanaşı, enerjinin səmərəli istifadəsi istiqamətində həyata keçirilən fəaliyyət həm də qlobal miqyaslı problem olan istixana qazlarının atmosferi çirkləndirməsinin minimuma endirilməsi və müvafiq olaraq iqlim dəyişmələrinin qarşısının alınması üçün əhəmiyyətlidir. Bu gün dünyada bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş ÜDM-in həcmi artmaqdadır. Bu göstəricilər arasında enerjidən istifadənin səmərəliliyinin artırılmasının xüsusi önəmi var.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında davamlı inkişaf naminə insan potensialının inkişafı dövlət siyasətinin tərkib hissəsidir. Bu siyasətin uğurlu olması Azərbaycan Respublikasında ÜDM-in istehsalı üçün enerji sərfiyyatının yüksək olmasını nümayiş edir (şəkil 2.5). Şəkildən göründüyü kim, son on ildə ölkədə enerjinin istifadəsinin səmərəliliyi kəskin artmışdır. Belə ki, Dünya Bankının rəsmi hesabatlarına görə əgər 2003-cü ildə Azərbaycan Respublikasında miqdarca 1 kq neftdə olan enerjinin istifadəsi nəticəsində 4,0 ABŞ dolları dəyərində məhsul istehal olunur və ya xidmətlər təqdim edilirdisə, 2013-cü ildə bu rəqəm 11,3 ABŞ dolları təşkil etmişdir, yəni 2,8 dəfə artmışdır. Dünya ilə müqayisə şəkil 2.6-da təqdim edilib.




*Şəkil 2.5. Azərbaycan Respublikasında miqdarca 1 kq neftdə olan qədər enerjinin istifadəsi ilə istehsal olunmuş məhsul və xidmətlərin (ÜDM) dəyəri, ABŞ dolları (AQP).*

*Mənbə: World Development Indicators & Global Development Finance. World Bank/data, 15 yanvar, 2016)*




*Şəkil 2.6. Dünya və Azərbaycan Respublikasında miqdarca 1 vahid enerjinin istifadəsi ilə istehsal olunmuş məhsul və xidmətlərin (ÜDM) dəyəri, ABŞ dolları (AQP).*

*Mənbə: World Development Indicators & Global Development Finance. World Bank/data, 15 yanvar, 2016)*

Şəkil 2.6.-dan göründüyü kimi, 2004-cü ildə Azərbaycan Respublikasında enerjidən istifadənin səmərəliliyi dünyada müşahidə edilən orta göstəricilərdən 33 % az idi. Davamlı insan potensialına əsaslanan inkişafın planlaşdırılması və idarəedilməsi sahəsində həyata keçirilən tədbirlərin nəticəsində hazırda ölkəmizdə enerjidən istifadənin səmərəliliyi orta dünya göstəricilərindən 44 % yüksəkdir. Təhsil və təlimlərin keçirilməsi, mövcud olan ehtiyatların səmərəli idarəedilməsi sahəsində insan inkişafı, onun potensialının artırılması alınmış nəticələri müəyyən edən əsas səbəbdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "qara qızılı" "insan qızılına" çevirməsi konsepsiyası, bu sahədə həyata keçirilən siyasət və praktiki fəaliyyət əldə edilmiş uğurların əsasında durur.

Qeyd edilməlidir ki, davamlı insan potensialına əsaslanan və enerji istifadəsinin səmərəliliyinə görə Azərbaycan Respublikasında əldə edilmiş nailiyyətlər "böyük yeddilik" (G 7) qrupuna daxil olan ölkələrlə rəqabət aparmaq imkanı yaradıb (şəkil 2.7). Məlum olduğu kimi, "böyük yeddilik"




***Şəkil 2.7.*** *Azərbaycan Respublikasında və G 7 ölkələrində enerji effektivliyi: 1 vahid enerjinin istifadəsi ilə istehsal olunmuş məhsul və xidmətlərin (ÜDM) dəyəri, beynəlxalq ABŞ dolları.*

*Mənbə: World Development Indicators & Global Development Finance. World Bank/data, 15 aprel, 2016)*

qrupuna dünyanın aparıcı ölkələri: ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Kanada və Yaponiya daxildilər. Bu ölkələr eyni zamanda insan inkişafı sahəsində də yüksək nəticə əldə etmiş ölkələrdir və dünyada baş verən texnoloji tərəqqiyə və eyni zamanda siyasi proseslərə güclü təsir göstərirlər.

Şəkil 2.7.-dən aydın olur ki, Azərbaycan Respublikasında enerjidən istifadənin səmərəliliyi göstəriciləri dünyanın aparıcı iqtisadiyyatları olan "böyük yeddilik" (G 7) ölkələri ilə rəqabət apara bilər. Dünya Bankının 2016-cı ildə dərc edilmiş rəsmi hesabatlarına əsasən G 7 ölkələri orta hesabla bir vahid enerjinin istifadəsi nəticəsində alıcılıq qabiliyyətini nəzərə almaqla 9,9 ABŞ dollar dəyərində ümumdaxili məhsul (ÜDM) istehsal edirlər. Azərbaycan Respublikasında isə bu rəqəm 11,3 ABŞ dolları təşkil edir. Kanada, məsələn, eyni iqtisadi nəticəni əldə etmək üçün Azərbaycan Respublikasından təxminən iki dəfə çox enerji sərf edir. Bu ölkədə 1 vahid enerjinin istifadəsi nəticəsində cəmi 5,9 ABŞ dolları dəyərində məhsul istehsal olunur və ya xidmətlər təqdim edilir. Bir daha qeyd edilməlidir ki, nisbətən az enerji sərfi nəticəsində daha çox dəyəri olan məhsulun istehsalı və ya xidmətlərin təqdim edilməsi yalnız iqtisadi səmərə ilə məhdudlaşmır. Enerjidən nisbətən az istifadə edilməsi eyni zamanda istixana qazlarının atmosferə atılmasının azaldılması deməkdir. Atmosferdə istixana qazlarının artması isə qlobal iqlim dəyişmələrini şərtləndirir. Qlobal iqlim dəyişmələri ilə mübarizə isə beynəlxalq prioritetdir və bu prosesin qarşısının alınması üçün bir sıra beynəlxalq müqavilə və konvensiyalar qüvvədədir. Azərbaycan Respublikası bu konvensiya və müqavilələrin iştirakçısıdır. Bu səbəbdən Azərbaycan Respublikasında enerji istifadəsinin səmərəliliyinin yüksək olması eyni zamanda ölkəmizin öz beynəlxalq öhdəliklərinə məsuliyyətlə yanaşmasından xəbər verir.

Enerji effektivliyini səciyyələndirən göstəricilər istehsal olunan ÜDM-in həcmindən, hər hansı bir ölkənin istehsal etdiyi və yaxud təqdim etdiyi və bazara çıxardığı məhsulun qiymətinin dəyişməsindən də asılı ola bilər. Bu səbəbdən davamlı insan potensialına əsaslanan inkişafın göstəricisi olan bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş ÜDM dəyişə bilir. Azərbaycan Respublikasında, məsələn, bu göstərici dünya bazarında neftin qiymətinin dəyişməsindən asılı ola bilər. Neftin qiyməti isə dəyişən bir göstəricidir və hazırda azalmaqdadır.




***Şəkil 2.8.*** *Dünya bazarında bir barrel neftin qiymətlərinin dəyişmə dinamikası, ABŞ dolları.*

*Mənbə: World Development Indicators & Global Development Finance. World Bank/data, 5 aprel, 2016.*

2016-cı ilin yanvarında neftin qiyməti 2008-ci illə müqayisədə 4 dəfəyə yaxın aşağı düşmüşdür (şəkil 2.8). Bu dünyada baş verən böhran prosesləri ilə əlaqədardır.

Belə vəziyyət neft və qaz istehsalçıları və xüsusən bu məhsulların ixracçıları üçün enerjinin istifadəsinin səmərəliliyinin göstəricisinin azalması ilə müşahidə edilə bilər. Bu azalmanın dərəcəsi neft və qaz ixracçılarının öz ölkələrinin iqtisadiyyatlarının diversifikasiyasından və mövcud olan ehtiyatlardan, ilk növbədə, insan potensialından, optimal idarəetməsindən asılı ola bilər. Təhlillər göstərir ki, Azərbaycan Respublikası bu potensialdan daha səmərəli istifadə edir (cədvəl 2.5).

Beynəlxalq statistikanın 2016-cı ilin əvvəlinə mövcud olan son məlumatları əsasında tərtib edilmiş cədvəl 2.5.-dən aydın olur ki, son on ildə bir sıra neft və qaz ixrac edən ölkələr enerji səmərəliliyinin artırılmasında nəzərə çarpan nailiyyət əldə edə bilməmişlər. Bu ölkələr arasında Birləşmiş Ərəb Əmirliyini, Küveyti, Norveçi və Səudiyyə Ərəbistanını göstərmək olar. Digər ölkələr isə (Qətər, Rusiya Federasiyası, Venesuela, Türkmənistan) öz enerji səmərəliliyini 18,4–66,6 % arasında yüksəldiblər. Azərbaycan Respublikası bu istiqamətdə ən yüksək nəticə əldə

etmişdir və ölkənin enerji effektivliyi 270 % artmışdır. Bu onu göstərir ki, Azərbaycan Respublikası neftin qiymətinin aşağı olması şəraitində də inkişafa nail olmaq potensialına malikdir. Bu, ilk növbədə, insan potensialının inkişafı və onun səfərbər olması şəraitində mümkün olmuşdur.

*Cədvəl 2.5. Neft və qaz ixrac edən ölkələrdə bir vahid enerjinin sərfi nəticəsində istehsal olunmuş ümumdaxili məhsul (ÜDM, ABŞ dolları)*

| Ölkə | 2003* | 2013* | Səmərəliliyin artırılması, % |
|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **4,0** | **11,3** | **285** |
| **Bəhreyn** | 3,8 | 4.3 | 13 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | 9.2 | 8,0 | – |
| **Qazaxıstan** | 4,6 | 4,8 | 4 |
| **Küveyt** | 7,9 | 7,6 | – |
| **Qətər** | 5,3 | 7,1 | 34 |
| **Norveç** | 10,2 | 9,8 | – |
| **Rusiya Federasiyası** | 3,5 | 4,4 | 26 |
| **Səudiyyə Ərəbistanı** | 7,3 | 7,2 | – |
| **Türkmənistan** | 1,5 | 2,5 | 66,6 |
| **Venesuela** | 5,8 | 6,9 | 18,9 |

*Mənbə: World Development Indicators & Global Development Finance. World Bank/data, Yanvar, 2016.*

**Dünya Bankının 4 aprel 2016-cı il üçün mövcud olan son məlumatıdır.*

Enerjidən səmərəli istifadə davamlı insan inkişafının çox parlaq təzahürüdür və göstərilən istiqamətdə müxtəlif ölkələrdə qazanılan nailiyyətlər bu sahədə aparılan milli inkişaf siyasətinin, tətbiq edilən idarəetmə texnologiyalarının uğurundan xəbər verir. Cədvəl 2.6.-da insanın inkişaf potensialının təmin edilməsi sahəsində fərqli nailiyyətlər əldə etmiş bəzi ölkələrdə davamlı, insan potensialına əsaslanan inkişafı səciyyələndirən göstəricilərlə bağlı məlumatlar təqdim olunmuşdur.

*Cədvəl 2.6. İnsan potensialının inkişafı sahəsində müxtəlif nəticələr qazanmış ölkələrdə ÜDM-in istehsalı üçün sərf edilən enerji və istixana qazlarının atmosferə tullanması*

| İnsan potensialının inkişafına görə fərqlənən ölkələr qrupu | Dünyada reytinqi | Ölkələr | İstixana qazlarının atmosferə tullanması adambaşı, ildə ton[1] | ÜDM-in istehsalına sərf edilən enerji[3] (AQP[2] ilə ABŞ dolları 1 enerji vahidinə görə) | ÜDM adambaşı, ABŞ dolları (AQP ilə)[1] |
|---|---|---|---|---|---|
| Çox yüksək nəticələr əldə etmiş ölkələr | 1 | Norveç | 9,2 | 9,8 | 64 992 |
| | 6 | Almaniya | 8,9 | 11,1 | 43 919 |
| | 26 | İspaniya | 5,8 | 11,8 | 32 045 |
| | 48 | Küveyt | 29,1 | 7,6 | 83 961 |
| Yüksək nəticələr əldə etmiş ölkələr | 90 | Çin | 6,5 | 5,1 | 12 547 |
| | 72 | Türkiyə | 4,2 | 11,4 | 18 677 |
| | **78** | **Azərbaycan** | **3,6** | **11,3** | **17 500** |
| | 75 | Braziliya | 2,2 | 10,7 | 15 175 |
| Orta nəticələr əldə etmiş ölkələr | 110 | İndoneziya | 2,3 | 10,8 | 9 788 |
| | 130 | Hindistan | 1,7 | 7,8 | 5 497 |
| | 108 | Misir | 2,8 | 11,0 | 10 512 |
| | 116 | C. Afrika | 9,3 | 4,8 | 12 122 |
| Aşağı nəticələr əldə etmiş ölkələr | 147 | Pakistan | 0,9 | 9,1 | 4 866 |
| | 174 | Efiopiya | 0,1 | 2,5 | 1 428 |
| | 152 | Nigeriya | 0,5 | 6,7 | 5 341 |
| | 145 | Nepal | 0,2 | 5,8 | 2 311 |

*Mənbə:* [1] *Human Development Report, UNDP, New York, 2015*
[2] *AQP – Alıcılıq Qabiliyyəti Pariteti*
[3] *World Development Indicators & Global Development, Washington, World Bank, mart, 2016*

BMT, Dünya Bankı və digər beynəlxalq inkişaf təşkilatlarının rəsmi hesabatları əsasında tərtib edilmiş bu cədvəldən göründüyü kimi, təhlillər dörd qrup ölkə timsalında aparılmışdır. Bunlar insan potensialının inkişafı sahəsində çox yüksək, yüksək, orta səviyyəli və aşağı nailiyyətlər qazanmış ölkələrdir. Cədvəldən göründüyü kimi, təqdim olunmuş ölkə-

lərin iqtisadi potensialı çox fərqlidir. Məsələn, Küveyt və Norveç kimi iqtisadi cəhətdən çox inkişaf etmiş ölkələrin göstəriciləri olduqca yüksəkdir. Bu ölkələrdə, alıcılıq qabiliyyəti (AQP) nəzərə alınmaqla, adambaşı ÜDM-in həcmi, müvafiq olaraq, ildə 83 961 və 64 992 ABŞ dolları təşkil edir. Bunlarla yanaşı, cədvəldə adambaşı ÜDM-ləri daha aşağı olan ölkələr haqqında da məlumatlar təqdim olunur. Müqayisələr göstərir ki, insan inkişafı və davamlı inkişafın idarəedilməsi baxımından Norveçin nailiyyətləri daha yüksəkdir. XXI əsrdə 2015–2030-cu illər üçün əsas prioritet kimi müəyyən edilmiş davamlı inkişafın bir göstəricisi də odur ki, ölkədə bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş ÜDM-in dəyəri 9,8 ABŞ dolları təşkil edir. Küveytdə isə bu rəqəm yalnız 7,6 ABŞ dollarına bərabərdir, yəni təxminən 30 % azdır. Eyni zamanda Küveytdə adambaşına düşən ümumdaxili məhsulun (ÜDM) həcmi Norveçdən təxminən 30 % çoxdur. Dünya üçün qlobal problem olan iqlim dəyişmələrinə təsir edən istixana qazlarının atmosferə atılması davamlı inkişafın digər çox əhəmiyyətli göstəricisidir. İstixana qazlarının ətraf mühitə atılması Küveytdə Norveçdən az qala 3 dəfə çoxdur (cədvəl 2.6).

Təqdim olunmuş məlumatdan aydın olur ki, iqtisadi imkanların daha yüksək olması davamlı inkişafın təminatçısı kimi çıxış edə bilməz. Davamlı, hazırkı və gələcək nəsillərin maraqlarına xidmət edən inkişafın təminatçısı kimi yalnız insan potensialı, onların bilik və bacarığı durur. Bu, Norveçin və Küveytin təhsil göstəricilərinin müqayisəsindən aydın olur. BMT-nin 2015-ci il üçün dərc edilmiş hesabatlarından aydın olur ki, Norveçdə əhali orta hesabla 12,6 illik təhsilə malikdir. Küveytdə isə bu göstərici yalnız 7,2 il təşkil edir. Bu onu göstərir ki, insan potensialına əsaslanan inkişafın planlaşdırılması və idarəedilməsi, buna xidmət edən təhsil sahəsində Norveçdə əldə edilmiş nailiyyətlər daha yüksəkdir. Bu səbəbdən BMT tərəfindən 2015-ci ildə dünyada insan inkişafına dair dərc edilmiş hesabatda Norveç dünyada birinci, Küveyt isə 46-cı yerdədir.

İnsan inkişafının çağdaş və gələcək nəsillərin maraqlarında və qlobal problemlərin həllində əsas amil olması Norveç və Cənubi Afrika göstəricilərinin müqayisəsindən də aydın olur. Cədvəl 2.6.-da təqdim olunmuş məlumatlardan aydın olur ki, Norveçin iqtisadiyyatı və bunu səciyyələndirən adambaşına düşən ümumdaxili məhsul (ÜDM) Cənubi Afrikanın iqtisadiyyatından təxminən 5 dəfə çoxdur. Buna baxmayaraq,

hər iki ölkədə adambaşına atmosferə atılan və iqlim dəyişməsinə mənfi təsir göstərən istixana qazlarının miqdarı eynidir. Bu o deməkdir ki, eyni dəyərə malik olan məhsulun istehsalı və ya xidmətlərin təqdim edilməsi prosesində Cənubi Afrika Respublikası Norveçlə müqayisədə ətraf mühiti 5 dəfə çox çirkləndirir. Bu fərqin yaranmasında hər iki ölkədə insan inkişafının vəziyyəti və müvafiq olaraq, əhalinin bilik və bacarığının fərqli olması şübhəsizdir. Qeyd edildiyi kimi, BMT-nin məlumatlarına görə Norveç əhalisinin orta hesabla 12,8 illik təhsili olduğu halda, Cənubi Afrikada bu rəqəm 9 ildən bir qədər çoxdur. Bu məlumatlar bir daha insan inkişafının əsasını təşkil edən bilik və bacarığın, onların əsasında duran təhsilin ölkə əhalisinin rifahı üçün nə dərəcədə əhəmiyyətli olmasından xəbər verir.

Cədvəl 2.6.-da bir il ərzində adambaşına ÜDM-in çox aşağı olduğu ölkələr haqqında da məlumat verilmişdir. Məsələn, Efiopiyada adambaşına ÜDM ildə cəmi 1428 ABŞ dolları təşkil edir ki, bu da Küveytdən 58 dəfə, Norveçdən isə 45 dəfə azdır. Hazırda sürətlə inkişaf edən Hindistanda da adambaşına gəlir Küveytdən 15 dəfə, Norveçdən isə 12 dəfə azdır. Buna baxmayaraq, enerjidən istifadə səmərəliliyi Hindistan və Küveytdə təxminən eyni səviyyədədir. Bu onu göstərir ki, iqtisadi imkanlar insan potensialına əsaslanan inkişaf prinsiplərinin tətbiqi üçün kifayət deyil. Başqa sözlə, iqtisadi imkanlar yalnız optimal idarəetmə şəraitində təbii ehtiyatların səmərəli istifadəsini təmin edə bilən bir amildir. Bu isə insan inkişafının təmin edilməsində nə dərəcədə əhəmiyyətli olmasını bir daha təsdiq edir.

## *2.9. Dünyada enerji effektivliyinin dəyişmə dinamikasında insan inkişafının rolu*

Cədvəl 2.7. insan inkişafı üçün digər vacib bir göstəricini də səciyyələndirir. Bu, enerjidən effektiv istifadə və atmosferə tullanan istixana qazlarının miqdarıdır. Eyni zamanda bu göstəricilərin təhsilin səviyyəsindən asılılığı da təqdim olunmuşdur. Təhsil göstəricisi kimi həmin ölkələrdə müvafiq yaşda olan əhalinin neçə faizinin ali təhsilli olması verilmişdir. Məlum olduğu kimi, qlobal problem olan iqlim dəyişmələrinin həlli istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər arasında beynəlxalq konvensiyalar, sazişlər, milli proqramlar da var.

Qeyd edilən problem bir çox beynəlxalq konfrans, dünya sammitlərinin, o cümlədən 2015-ci ilin noyabr ayında Parisdə keçirilən dövlət başçılarının zirvə görüşünün mövzusu olmuşdur. Müasir dövrün bu qlobal çağırışının qarşısının alınmasının başlıca yolu da atmosferə atılan qazların miqdarının azalmasıdır. Cədvəldən göründüyü kimi, bəzi hallarda iqtisadi səmərəlilik nisbətən aşağı olduğu şəraitdə atmosferə kifayət qədər çox qazlar tullanır. Bu barədə təsəvvür yaratmaq üçün cədvəl 2.7.-də təqdim edilmiş məlumatlar kifayətdir. Məsələn, artıq qeyd edildiyi kimi, Norveçdə miqdarca bir kq neftdə olan enerjini istifadə etməklə 9,8 ABŞ dolları dəyərində məhsul istehsal olunur və ya xidmət təqdim edilir. Eyni zamanda bu ölkədə iqtisadi və məişət məqsədləri üçün fəaliyyət nəticəsində ildə adambaşına ətraf mühitə 9,2 ton istixana qazı tullanır. Birinci rəqəmi ikinciyə böləndə, yəni səmərə ilə fəsadların nisbətini müqayisə etdikdə alınmış əmsal 1,06 təşkil edir.

*Cədvəl 2.7. Enerji effektivliyi, ətraf mühitə atılan istixana qazları və əhalinin təhsil səviyyəsi**

| İnsan inkişafına görə dünyada reytinqi | Ölkə | Bir vahid enerjiyə istehsal olunmuş ÜDM (AQP ilə ABŞ dolları) | İstixana qazlarının atmosferə tullanması adambaşı, ildə ton | Enerji səmərəliliyinin istixana qazların tullanması nisbəti | Ali təhsilli əhali, müvafiq yaşlılar arasında, % |
|---|---|---|---|---|---|
| 1 | Norveç | 9,8 | 9,2 | 1,06 | 74 |
| 6 | Almaniya | 11,1 | 8,9 | 1,24 | 62 |
| 48 | Küveyt | 7,6 | 29,1 | 0,26 | 28 |
| 90 | Çin Xalq Respublikası | 5,1 | 6,5 | 0,78 | 27 |
| 116 | Cənubi Afrika | 4,8 | 9,3 | 0,52 | 20 |

* *Mənbə: Human Development Report, New York, UNDP, 2015*

Adambaşına ÜDM göstəricisi yüksək olan Küveytdə bu əmsal cəmi 0,26-ya bərabərdir. Almaniyada bu əmsal 1,24-ə bərabərdir. Adambaşına ətraf mühitə Almaniya ilə təxminən eyni miqdarda istixana qazları tullayan Cənubi Afrikada bu nisbət az qala iki dəfə azdır və 0,52 təşkil edir. BMT və Dünya Bankının hesabatlarına əsasən aparılmış təhlillər göstərir ki, Azərbaycanda isə bu rəqəm 3,0-ə bərabərdir. Bu rəqəmin yüksək

olması ölkənin iqtisadiyyatının strukturu və hasilat sənayesinin payının yüksək olması ilə əlaqədardır. Bu əmsalın bəzi ölkələrdə yüksək olması göstərilən ölkələrdə iqtisadiyyatın strukturunun təsiri ilə yanaşı, eyni zamanda ətraf mühitin idarəedilməsi sahəsində siyasətin düzgün aparılması və iqlim dəyişmələrinə aid qoşulduqları konvensiyalara və qəbul edilmiş öhdəliklərə məsuliyyətlə yanaşmadan xəbər verir. Bu isə insan inkişafının səviyyəsi ilə müəyyənləşdirilir. Təhlil edilən göstərici insan inkişafı naminə idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi üçün xüsusi əhəmiyyət daşıyır. Qeyd edilməlidir ki, bu göstərici ölkədə insan potensialının inkişaf səviyyəsindən asılıdır. Ali savadlı əhalinin faizlərində müşahidə edilən fərqlər bunu sübut edir.

Bəlli olduğu kimi, dünyada enerji istifadəsi artmaqdadır və bu artım əsasən inkişafda olan və bu prosesi sürətlə həyata keçirən ölkələrin payına düşür. Enerjinin istehlakının artması ilə yanaşı, onun istifadəsinin səmərəliliyi də artmaqdadır. Dünya Bankının 2016-cı ildə dərc edilmiş məlumatlarına əsasən, 2004–2013-cü illər arasında enerjinin istifadəsinin səmərəliliyi 10 faizdən çox artmışdır (cədvəl 2.8). Lakin bu artım müxtəlif ölkələrdə fərqli sürətlə baş vermişdir. Göstərilən zaman kəsiyində müqayisə edilən ölkələr arasında ən sürətli artımlardan biri Azərbaycan Respublikasında qeydə alınmışdır. Ölkədə 2004-cü ildən sonra enerjidən istifadənin səmərəliliyi 2 dəfədən çox artmışdır.

*Cədvəl 2.8. Müxtəlif ölkələrdə fərqli mənbələrdən alınmış, miqdarca bir vahid enerjinin istifadəsi ilə istehsal olunmuş ÜDM, ABŞ dolları (AQP), 2004–2013**

| Ölkə | 2004 | 2006 | 2008 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|
| Norveç | 10,7 | 11,0 | 10,3 | 9,4 | 11,1 | 10,9 | 9,8 |
| Almaniya | 8,9 | 9,3 | 9,8 | 9,8 | 10,8 | 11,1 | 11,1 |
| Türkiyə | 11,8 | 11,9 | 11,8 | 11,5 | 11,6 | 11,4 | 12,0 |
| **Azərbaycan** | **4,2** | **6,9** | **9,4** | **11,5** | **11,5** | **10,8** | –* |
| Çin | 4,0 | 4,2 | 4,8 | 4,9 | 5,0 | 5,1 | –* |
| Hindistan | 6,6 | 7,2 | 7,4 | 7,7 | 7,8 | 7,8 | –** |
| Pakistan | 7,8 | 8,3 | 8,5 | 8,7 | 8,9 | 9,1 | –** |
| Nigeriya | 5,5 | 5,9 | 6,4 | 7,1 | 6,7 | 6,7 | –** |
| Dünya (orta) | 6,5 | 6,9 | 7,2 | 7,2 | 7,4 | 7,5 | –** |

**Mənbə: World Development Indicators & Global Development, Washington, World Bank, 4 yanvar, 2016.*

*** 2013-cü il üçün məlumat yoxdur*

## 2.10. Bərpa olunan enerji mənbələri və insan inkişafı

Bərpa olunan enerji mənbələrindən istifadənin artırılması üçün insan inkişafının səviyyəsi olduqca əhəmiyyətlidir. Bərpa olunan enerji dedikdə ilk növbədə günəş, külək, geotermal, hidro, biokütlədən alınmış enerji başa düşülür. BMT-nin 2015-ci ildə dərc edilmiş hesabatlarına əsasən bərpa olunan mənbələrdən alınmış enerji qlobal miqyasda elektrikin alınmasında 18,6 % təşkil etmişdir. Bəzi digər dəyərləndirmələrə görə, bu rəqəm 21 %-dir. Nəqliyyat vasitələrinin yanacaqla təminatında bərpa olunan mənbələrdən alınmış enerjinin payı dünyada orta hesabla 3 %-ə bərabər olub.

Son dövrdə bərpa olunan mənbələrdən alınan enerjinin payının daim artması müşahidə edilməkdədir. Məsələn, 2000-ci illə müqayisədə 2015-ci ildə günəş enerjisindən istifadə 25 %-dən çox artmışdır. Hazırda qlobal miqyasda bərpa olunan enerjidən ən çox istifadə edən Latın Amerikası və Cənubi Asiya ölkələridir. Bu ölkələrdə bərpa olunan mənbələr ümumi enerjinin müvafiq olaraq 25,8 və 23,7 faizini təşkil edir. İnsan inkişafı göstəricilərinin, onların bilik və bacarığının artırılması bərpa olunan enerjinin istifadəsinin artmasının səbəblərindəndir.

Nəqliyyat vasitələrində istifadə edilmək üçün ***bioyanacağın*** istehsalında da dünyada irəliləyişlər müşahidə edilməkdədir. 2000-ci ildə dünyada maye bioyanacağın istehsalı 16 milyard litr təşkil edirdi. 2015-ci ildə dərc olunmuş məlumatlara görə, bu rəqəm 100 milyard litri keçmişdir. Ümumiyyətlə, bioyanacağın nəqliyyat vasitələri üçün istifadəsi fərqlidir. Məsələn, Braziliyada nəqliyyat üçün istifadə olunan yanacağın 23 %-ni bioloji yanacaq təşkil edir. ABŞ-da bu rəqəm 4 %, Avropada isə 3 %-ə yaxındır.

Qeyd etmək lazımdır ki, bir sıra hallarda bioyanacağın alınması üçün xammal kimi ərzaq əhəmiyyətli kənd təsərrüfatı bitkilərindən istifadə edilir. Belə kənd təsərrüfatı bitkiləri arasında şəkər, bitki yağları, heyvan və quşlar üçün yemlərin alınması, digər məqsədlər üçün istifadə edilən kənd təsərrüfatı məhsulları mövcuddur. Bunların ərzaq bazarından çıxarılması və enerji bazarına yönəldilməsi əhalinin ərzaq təminatına, ərzaq mallarının qiymətinə, hətta ərzaq təhlükəsizliyinə mənfi təsir göstərə bilər. Bu səbəbdən son illər kənd təsərrüfatı əhəmiyyəti olmayan və eyni zamanda kənd təsərüfatı üçün yararsız torpaqlarda becərilə bilən bitkilərdən bioyanacaq alınması üçün xammal kimi istifadə edilməsi istiqamətində tədqiqatlar xeyli sürətlə aparılır. Bu istiqamətdə İsraildə aparılan

tədqiqatlarda alınan nəticələr çox əhəmiyyətlidir. Bu tədqiqatlar ərzaq əhəmiyyəti olmayan bitkilərdən istifadəni bioyanacaq alınmasına yönəldilib. Bununla yanaşı, onların becərilməsi üçün kənd təsərrüfatı üçün yararsız və ya az yararlı torpaqların istifadəsini nəzərdə tutur. Bu sahədə alınmış uğurların əsasında insan inkişafı durur. Azərbaycan Respublikasının təbii-iqlim şəraiti və insan inkişafının vacib istiqaməti olan təhsil və təlim sahəsində həyata keçirilən siyasət ölkədə ***bioyanacağın*** istehsalı üçün şərait yaradır. Bu isə ***yaşıl iqtisadiyyatın*** inkişafı üçün böyük imkanların olmasından xəbər verir.

Bərpa olunan enerjinin istifadəsinin genişləndirilməsi və bu mənbələrə keçid təbii ehtiyatların səmərəli istifadəsinin və ətraf mühitin mühafizəsinin əsas istiqamətlərindəndir. Bu siyasət müasir idarəetmənin də prioritetidir və onun həyata keçirilməsi hər hansı bir ölkənin ənənəvi yanacaq mənbələrilə təmin olması səviyyəsindən asılı deyil. Məsələn, Norveç Krallığı neft və qaz ilə çox zəngindir və bu üzvi yanacaqları bir çox ölkələrə ixrac edir. Lakin buna baxmayaraq, bu ölkə bərpa olunan enerjinin istehsalı və istifadəsi sahəsində uğurlu siyasət gerçəkləşdirməkdədir. Qeyd edək ki, Norveç dəniz qabarmalarının enerjisindən istifadə sahəsində əhəmiyyətli nailiyyətlər əldə etmişdir.

### *2.11. İnsan inkişafı gələcəksiz inkişafa qarşı*

Qeyd edildiyi kimi, davamlı inkişaf çağdaş nəsillərin rifahının yaxşılaşdırılmasını, eyni zamanda gələcək nəsillərin inkişaf imkanlarının məhdudlaşdırılmamasını nəzərdə tutur. Davamlı inkişafın əsasını bilik, bacarıq və onların daşıyıcısı olan insan təşkil edir. Bu səbəbdən insan inkişafı davamlı inkişaf prosesinin ayrılmaz hissəsidir. Davamlı inkişaf insan inkişafını təmin etmədən gerçəkləşə bilməz. Digər tərəfdən isə yalnız davamlı inkişaf şəraitində yüksək imkanların sahibi olan insan inkişafı prosesinin formalaşdırılması mümkündür. İnsan inkişafı eyni zamanda tərəqqi prosesində mənfi tendensiya kimi səciyyələnən ***"gələcəksiz inkişafın"*** qarşısının alınmasının ən optimal yoludur.

***Gələcəksiz inkişaf*** anlayışı ilk dəfə BMT tərəfindən XX əsrin sonunda təklif edilib və inkişaf prosesində müşahidə edilə bilən mənfi tendensiyaların mənbəyi kimi çıxış edir. Davamlı inkişafdan fərqli olaraq, gələcəksiz inkişaf planlaşdırma və idarəetmənin elə bir üsuludur ki, o

əsasən çağdaş nəsillərin maraqlarına xidmət edir, onların tələblərinin təmin edilməsini nəzərdə tutur. Bu arada gələcək nəsillərin imkanları məhdudlaşır. Belə qüsurlu planlaşdırma və idarəetmə prinsipləri bir çox hallarda nəinki gələcək nəsilləri, hətta çağdaş nəsillərin inkişaf perspektivlərini də nəzərə almır. Təsvir edilən və ya oxşar hadisənin baş verməsinin bir səbəbi də cəmiyyətin istehlak mədəniyyətinin aşağı səviyyədə olması, bəzi ölkələr və ölkədaxili qruplarda istehlak səviyyəsinin həddən artıq yüksək, hətta israfçılıq səviyyəsində formalaşmasıdır. Eyni zamanda hər hansı bir ölkədə reallaşdırılan siyasətin kifayət dərəcədə sosialyönümlü olmaması, insan inkişafına lazımi diqqət ayırmamaq, vətəndaş cəmiyyətinin və fərdi sektorun sosial məsuliyyət prinsiplərini əsas məram kimi qəbul etməməsi gələcəksiz inkişaf ehtimalını artırır.

Bir sıra hallarda iqtisadiyyatın düzgün planlaşdırılmaması da gələcəksiz inkişafa təkan verə bilər. Belə hadisələrə ***"texnoloji geriləmə ilə inkişaf"*** da aiddir. Bu zaman hər hansı bir ölkə və ya region üçün yeni texnologiyalar tətbiq edilir, həmin texnologiyalar bu məkan üçün yenidir, lakin perspektivdə yüksək rəqabət qabiliyyətinə malik deyillər. ***Texnoloji geriləmə ilə inkişaf*** inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında fərqlərin aradan qaldırılmasını əngəlləyən amillərdəndir. Bu növ gələcəksiz inkişafın qarşısının alınmasında insan inkişafı, elm, təhsil xüsusi əhəmiyyət daşıyır. İnkişafda olan ölkələrin iqtisadi və insan potensialı çox zaman onlara qısa vaxt kəsiyində elm və texnologiyaları ən müasir səviyyəyə qaldırmaq imkanı yaratmır. Bu səbəbdən BMT-nin təşəbbüsü ilə keçirilmiş Dünya Sammitində minilliyin 2015–2030-cu illər üçün qəbul edilmiş "Davamlı inkişaf məqsədləri" ölkələr arasında bilik və texnologiyaların bölüşməsini nəzərdə tutur. Bu zaman nəzərdə tutulur ki, ölkələr arasında bilik və texnologiyaların bölüşməsi qlobal miqyasda insan inkişafına təkan verməli və dünyada gələcəksiz inkişafın ehtimalını azaltmalıdır.

Qeyd edildiyi kimi, gələcəksiz inkişaf riskini kifayət dərəcədə nəzərə almayan idarəetmə texnologiyalarının tətbiqi bir çox hallarda təbii ehtiyatlardan qeyri-səmərəli istifadəyə gətirib çıxarır, müxtəlif ekoloji və sosial problemlər törədir. Gələcəksiz inkişafın qarşısının alınmasının əsas yolları isə ekoloji sivilizasiyanın vacib amillərindən olan yeni "yaşıl" istehsal, "yaşıl" həyat tərzindən və "yaşıl" davranışdan keçir ki, bu da öz növbəsində davamlı inkişaf naminə ətraf mühitin keyfiyyətinin qorunmasını və təbii sərvətlərdən səmərəli istifadəni təmin edir. Son illər

"artımsız inkişaf" konsepsiyası irəli sürülmüşdür. Bu konsepsiyaya görə, hətta iqtisadi artım olmadığı şəraitdə də mövcud potensial ehtiyatların istifadə səmərəliliyini artırmaqla gələcəksiz inkişafın qarşısının alınması mümkündür. Bu məqsədlərə nail olmaqda innovativ istehsalat və idarəetmə texnologiyalarından istifadənin əhəmiyyəti çox yüksəkdir. Bu idarəetmə texnologiyaları eyni zamanda dünyada müşahidə edilən ***qeyri-bərabər inkişaf*** fenomeninin aradan qaldırması üçün çox əhəmiyyətlidir.

İnsan inkişafının təmin edilməsi, eyni zamanda istehlakın həcmi və strukturundan, istehsal olunan nemətlərin ölkələr arasında və ölkə daxilində ədalətli paylanmasından çox asılıdır. XX və XXI əsrlər istehlakın sürətlə artması ilə səciyyələnir. Beynəlxalq təşkilatların dərc etdiyi məlumatlara əsasən, XXI əsrin əvvəllərində adambaşına istehlakın səviyyəsi 1975-ci illə müqayisədə ən azı iki dəfə artmışdır. 1950-ci ilin səviyyəsi ilə müqayisədə isə hazırkı adambaşına istehlak beş dəfədən çoxdur. Belə artım bir çox insanların həyat səviyyəsinin yüksəlməsini təmin etmişdir. Yüz milyon, hətta milyardlarla adam rahat həyat şəraiti əldə etmiş, nəqliyyat və rabitə xidmətlərinin köklü surətdə yaxşılaşdırılmasından bəhrələnmiş, məlumatlandırılmaq, bilik almaq və bacarığı artırmaq üçün yeni imkanlar qazanmışdır. İstehlakın yüksəlməsi istehsalın artırılmasına, xidmətlərin həcminin yüksəlməsinə və çeşidinin genişlənməsinə müsbət təsir göstərmişdir. Bu tendensiya yeni iş yerlərinin açılmasına müsbət təsir göstərmişdir. Belə şəraitdə bir çox ölkələrdə yüksək səviyyədə fəaliyyət göstərən təhsil, səhiyyə və sosial müdafiə sistemləri sürətlə inkişaf etmişdir, insanların ömrü uzanmış, rifahı yüksəlmişdir. Bu həmin ölkələrdə insan potensialının yüksəldilməsinə və davamlı inkişaf prosesinə müsbət təsir göstərmişdir.

Lakin belə müsbət irəliləyişlə yanaşı, dünyada müşahidə edilən istehlakın qeyri-bərabərliyi bir sıra ölkələrdə inkişaf prosesinə mənfi təsir göstərmişdir və göstərməkdədir. İqtisadi fəsadlarla yanaşı, inkişafda qeyri-bərabərlik eyni zamanda siyasi və sosial risk kimi qiymətləndirilir. Bu isə milli və beynəlxalq təhlükəsizlik üçün arzuolunmaz amil kimi çıxış edir. Hazırda dünyanın müxtəlif regionlarında müşahidə edilən bir çox münaqişə və hətta hərbi qarşıdurmaların kökündə inkişafda ölkələr arasında və ölkələr daxilindəki kəskin qeyri-bərabərlik amili də mövcuddur. BMT-nin 2015-ci ildə dərc etdiyi məlumatlara əsasən dünya əhalisinin təxminən 12 faizi (842 milyon insan) xroniki aclıqdan əziyyət

çəkir və 870 milyon insanın isə ərzaq təhlükəsizliyi təmin edilməmişdir. 1,2 milyard insan kəskin yoxsulluq şəraitində yaşayır və onların gündəlik təminatı 1,25 ABŞ dollarından azdır.

Ölkələrin inkişaf səviyyəsi və müvafiq olaraq əhalilərinin rifahında müşahidə edilən kəskin fərqlər bir çox qlobal çağırışların həllini də əngəlləyir. Məsələn, qlobal səviyyədə iqlim dəyişmələrinin qarşısının alınması üçün istehsal və idarəetmə texnologiyalarının təkmilləşməsi ilə yanaşı, istehlakın tənzimlənməsi də olduqca əhəmiyyətlidir. İnkişaf etmiş və əhalisinin istehlakını hazırkı zamanda yüksək səviyyədə təmin etmiş ölkələr inkişafda olan ölkələr üçün nümunə kimi çıxış edirlər. Onlar öz iqtisadi inkişafında, əhalisinin təminatında eyni səviyyəyə çatmaq və ya ona yaxınlaşmaq üçün can atırlar. Bu səbəbdən inkişafda olan ölkələr inkişaf etmiş ölkələrin istehsalın və istehlakın məhdudlaşdırılması haqqında çağırışlarını qəbul etmirlər. Bu ölkələr göstərilən məsələləri yalnız özləri inkişafın müəyyən səviyyəsinə qalxdıqdan sonra müzakirə etməyə hazır olduqlarını bildirirlər. Bu səbəbdən iqlim dəyişmələrinə həsr olunmuş dünya sammitlərində, bu problemləri müzakirə edən digər beynəlxalq forumlarda çox zaman hamı tərəfindən bəyənilmiş və icrası məcburi olan qərarlar qəbul edilə bilmir. Bununla əlaqədar belə möhtəşəm tədbirlər çox zaman öz işini yalnız bəyanat qəbulu və çağırış etməklə yekunlaşdırır. Qeyd edilməlidir ki, 2015-ci ilin noyabr ayında Parisdə keçirilən və iqlim dəyişmələrinə həsr olunmuş Dünya sammitində aparılan müzakirələr və qəbul edilmiş qərarlar bu istiqamətdə əldə edilmiş nailiyyətlərdən xəbər verir.

Ölkələr arasında müşahidə edildiyi kimi, ölkələr daxilində də gəlirlər əhalinin müxtəlif təbəqələri arasında qeyri-bərabər bölünür. Bir sıra hallarda bu qeyri-bərabərlik kəskin şəkildə özünü büruzə verir. Belə vəziyyət idarəetmənin optimal şəkildə təşkili üçün gəlirlərin sosial baxımdan ədalətli bölünməsinin monitorinqi zərurətini yaradır. Belə məlumatların olmadığı halda, davamlı inkişafın idarə olunmasına dair qərarların qəbul edilməsi çətinləşir. Ölkə daxilində gəlirlərin ədalətli bölünməsi səviyyəsi və insan inkişafının tələblərinə cavab verməsinə dair monitorinqin keçirilməsi müxtəlif üsullarla həyata keçirilir. Bu üsullardan biri və ən geniş istifadə edilənі ***Cini İndeksi (əmsalı)*** hesablanmasına əsaslanır. Cini İndeksi ölkə daxilində gəlirlərin ayrı-ayrı şəxslər, yaxud ev təsərrüfatları arasında ədalətli paylanmasını xarakterizə edir. Bu əmsalın qiyməti 0 (tam bərabərlik) – 100 arasında (kəskin qeyri-bərabərlik)

dəyişə bilər. Cini İndeksi qiyməti nəzəri baxımdan mümkün olan tam bərabərlik göstəriciləri ilə gəlirlərin faktiki müşahidə edilən paylanması əsasında müəyyən edilir. Ölkə daxilində gəlirlərin ədalətli bölünməsi insan inkişafı sahəsində siyasətin həyata keçirilməsi üçün çox önəmlidir.

Aydındır ki, gəlirlərin bölünməsində tam bərabərliyə nail olmaq hətta nəzəri baxımdan da mümkün deyil. Digər tərəfdən istehlakda tam bərabərlik insanları daha məhsuldar çalışmaq stimulundan məhrum və rəqabətə əsaslanan inkişafa mənfi təsir edə bilər. Tam bərabərlik mümkün olmadığından, beynəlxalq statistikaya görə, heç bir ölkədə Cini İndeksi sıfıra bərabər deyil. Müşahidə edilən ən aşağı əmsallar 25-ə yaxındır. Bu rəqəmlər və müvafiq olaraq gəlirlərin nisbətən daha ədalətli bölünməsi Şimali Avropa ölkələrində, o cümlədən İsveç, Norveç, Finlandiya və bir neçə digər ölkədə müşahidə edilir. Bu ölkələrdə Cini İndeksi 25–27 arasında dəyişir. Asiya ölkələrində ən aşağı Cini İndeksi Yaponiyada qeydə alınıb. Bu ölkədə də əmsalın qiyməti 28-ə yaxındır. Şərqi Avropa ölkələrindən olan Çexiya və Macarıstanda da gəlirlərin paylanması əmsalları eyni səviyyədədir. Gəlirlərin nisbətən ədalətli bölünməsinə görə dünyada ən yüksək göstəricilərə sadalanan və bəzi digər ölkələr nail olublar.

Qeyd etmək lazımdır ki, bu rəqəm sürətlə inkişaf edən ölkələrdə də fərqlidir. Məsələn, göstərilən rəqəm Azərbaycanda 33,7; Türkiyədə 39,0; Çində 42,1; Braziliyada 54,7; Cənubi Afrikada isə 63,1 təşkil edir (şəkil 2.9).




***Şəkil 2.9.*** *Müxtəlif ölkələrdə Cini İndeksi. Mənbə: UNDP, New York, 2015*

Qeyd edildiyi kimi, bir sıra ölkələrdə Cini İndeksi yüksəkdir və bu da gəlirlərin nəzərəçarpan dərəcədə qeyri-bərabər paylanmasından xəbər verir. Bu ölkələrdə Cini İndeksi 60-a yaxın və hətta ondan da yüksəkdir. Gəlirlərin qeyri-bərabərliyi Braziliya, Kolumbiya, Paraqvayda, Cənubi Afrika Respublikasında və Afrikanın, Asiyanın, Cənubi Amerikanın bəzi digər ölkələrində müşahidə edilməkdədir.

Cini İndeksi (Əmsalı) ilə yanaşı, ölkə daxilində gəlirlərin paylanmasında qeyri-bərabərliyin təzahürü olan digər göstəricilər də mövcuddur. Bu ***Quintil göstəricisidir*** və yaxud ***Quintil nisbəti*** göstəricisidir. Sosial siyasətin vəziyyətini və bu siyasətin real nəticələrini sərgiləyən bu əmsalın hesablanması zamanı hər hansı bir ölkə və yaxud ölkənin ərazisində  20 faiz ən varlı əhali və ya ev təsərrüfatlarının orta gəlirinin 20 faiz ən yoxsul əhali və ya ev təsərrüfatlarının gəlirlərinə nisbəti müəyyən edilir. Bu nisbəti səciyyələndirən rəqəm nə qədər az olsa, sosial siyasət bir o qədər uğurlu hesab edilə bilər. Bu fərqin az olması eyni zamanda maksimal və minimal gəlirləri olan qruplar arasında orta yer alan 60 faiz əhalinin gəlirlərinin sosial baxımdan qənaətbəxş və ədalətli olmasından xəbər verir.

Müxtəlif ölkələrdə ***Quintil Nisbətini*** səciyyələndirən məlumatlar şəkil 2.10.-da təqdim olunub. Şəkildən göründüyü kimi, dünyada bu göstəricinin ən aşağı göstəricisi Finlandiyada qeydə alınmışdır. BMT-nin hesabatlarına görə, bu ölkədə 20 faiz ən zəngin əhalinin orta gəliri ən yoxsul 20 faiz əhalinin orta gəlirindən cəmi 3,8 dəfə çoxdur. Quintil göstəricisinin maksimal göstəricisi isə Cənub Afrika Respublikasında qeydə alınmışdır. Bu ölkədə varlı 20 faiz əhalinin orta gəlirləri yoxsul 20 faiz əhalinin orta gəlirlərini 25 dəfədən çox üstələyir.

Müxtəlif ölkələrdə sosial siyasətin vəziyyətini nümayiş etdirən şəkil 2.9. və 2.10.-da təqdim olunmuş məlumatlar BMT tərəfindən 2015-ci illərdə ictimaiyyətə təqdim olunmuşdur. Təqdim olunmuş məlumatların təhlili göstərir ki, gəlirlərin qeyri-bərabər paylanması həm yüksək iqtisadi göstəricilərə nail olmuş ölkələrdə, həm də yoxsulluqdan əziyyət çəkən ölkələrdə müşahidə edilir. Bu onu göstərir ki, gəlirlərin ədalətli paylanması ölkələrin iqtisadi imkanlarından deyil, bu istiqamətdə müvafiq siyasət aparılmasından və istifadə olunan idarəetmə texnologiyalarından asılıdır.




***Şəkil 2.10.*** *Müxtəlif ölkələrdə Kvintil gəlir göstəricisi. Mənbə: BMT, New York, 2015.*

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası iqtisadi və sosial sahədə yüksək nəticələrin əldə edilməsini təmin etmişdir. Ölkənin müstəqilliyi bərpa ediləndən sonra inkişaf tarixinin nisbətən qısa olmasına baxmayaraq, Azərbaycan Respublikasında həyata keçirilən uğurlu sosial yönümlü siyasəti bizim respublikamızı bir sıra yüksək inkişaf etmiş ölkələr sırasına gətirmişdir. Şəkil 2.9. və 2.10.-dan aydın olur ki, sosial siyasətin uğurlarını səciyyələndirən Cini və Quintil göstəricilərinə görə Azərbaycan Respublikasının nailiyyətləri bir sıra inkişaf etmiş, o cümlədən "böyük yeddilik" (G 7) qrupuna aid və Avropa İttifaqına daxil olan ölkələri üstələmişdir.

Bu səbəbdən gəlirlərin ədalətli paylanmasında və istehlakda kəskin və hətta ifrat qeyri-bərabərliyin aradan qaldırılmasından danışarkən, ilk növbədə, insanların əsas tələbatlarının tam şəkildə təmin edilməsi nəzərdə tutulur. Bununla əlaqədar insan potensialına, onun bilik və bacarığına əsaslanan inkişafı ən səmərəli səviyyədə təmin etmək və istehlakdakı qeyri-bərabərliyi aradan qaldırmaq məqsədi ilə BMT və digər beynəlxalq təşkilatlar aşağıdakı prinsiplərin və həmin prinsiplərə əsaslanan tədbirlərin həyata keçirilməsini zəruri hesab edirlər:

– bütün insanların əsas tələbatları tam şəkildə təmin edilməlidir;
– istehlak insan sağlamlığını və təhsil səviyyəsini təmin etməlidir;
– bir qrup insanların istehlakı digərilərinin istehlakına mənfi təsir göstərməməlidir;
– istehlak gələcək nəsillərin imkanlarını məhdudlaşdırmamalıdır.

Çağdaş nəsillərin istehlakının gələcək nəsillərin imkanlarını məhdudlaşdırmaması səviyyəsində təmin edilməsi davamlı insan inkişafının əsas tələblərindəndir. Bu səbəbdən istehlakın hər zaman əsasən zəruri tələblər səviyyəsində saxlanılması prinsipi davamlı inkişafın səmərəli planlaşdırılması və optimal şəkildə idarəedilməsi xüsusi əhəmiyyət daşıyır.

Davamlı inkişafın təmin edilməsinin yuxarıda sadalanan şərtlərinin yerinə yetirilməsi insan inkişafı və onun potensialının yüksəldilməsinin ən vacib amillərindəndir. Bu istiqamətdə təbii ehtiyatlardan səmərəli istifadə edilməsi biliyə, müasir texnologiyalara əsaslanır və bu səbəbdən davamlı inkişafın vacib şərtidir. Son illərdə əldə edilmiş elmi nailiyyətlər və texnoloji imkanlar təbii ehtiyatlardan daha səmərəli istifadə etmək üçün müvafiq imkanlar yaradır. Belə imkanların olması enerjinin nə dərəcədə səmərəli istifadəsi misalından aydın görünür.

### *2.12. İnsan inkişafı haqqında maarifləndirmə və məlumatlandırma*

İnsan inkişafı prosesini uğurlu idarə etmək üçün peşəkar səviyyədə müvafiq iqtisadi və sosial siyasətin həyata keçirilməsi kifayət deyil. Eyni zamanda əhalidə müvafiq vərdişlərin və həyat tərzinin formalaşması da çox əhəmiyyətlidir. Bu məqsədlərə nail olmaq üçün peşəkarlar müvafiq bilik və bacarığa, əhali isə zəruri məlumata malik olmalıdırlar. Belə yanaşma hər zaman və bütün ölkələr üçün keçərlidir. Müxtəlif sahələrdə baş verə biləsi böhranların qarşısının alınmasına və yaxud bu vəziyyətin fəsadlarının azaldılmasına xidmət edə bilər.

Bəllidir ki, hər bir müvəffəqiyyətli idarəetmə optimal planlaşdırmaya əsaslanır. Öz növbəsində səmərəli planlaşdırma üçün bir tərəfdən mövcud vəziyyət haqqında dəqiq məlumatların toplanması və təhlili, digər tərəfdən inkişafın məqsədi olan hədəflərin aydın müəyyənləşdirilməsi vacibdir. Yalnız bu halda insan inkişafının idarə edilməsi sahəsində qəbul edilən qərarlar effektli ola bilər.

İnsan inkişafının planlaşdırılması və idarə edilməsi üçün indikatorlar kimi bir sıra digər göstəricilərin də istifadəsi təklif edilib. İlk növbədə, yuxarıda təqdim edilmiş misallardan aydın olur ki, bu indikatorların əksəriyyəti istehlak səviyyəsinin qiymətləndirilməsi ilə əlaqədardır. İstehlak səviyyəsi isə öz növbəsində əsasən iki amildən daha çox asılıdır. Bu amillərdən biri cəmiyyətdə istifadə edilən texnologiyalardır, onların nə dərəcədə müasir olması və qənaətlə işləməsindən asılıdır. Hazırda belə texnologiyalar mövcuddur, onlar daimi yeniləşir, sənaye və məişət avadanlığının istehsalı və istehlakı zamanı geniş istifadə edilir və gələcəkdə də istifadə ediləcək. İkinci amil isə insanların istehlak mədəniyyətidir və bu mədəniyyəti formalaşdıran və inkişaf etdirən mühitdir. Hər iki amil insan potensialından, onun bilik, bacarıq və mədəniyyətindən asılıdır. Bu səbəbdən insan inkişafı hər zaman aktual problem olub və gələcəkdə də olacaq.

İnsan inkişafı haqqında məlumatın mövcudluğu bir tərəfdən istehlakın tənzimlənməsi vasitəsi ilə mövcud ehtiyatların və ətraf təbii mühitin uzunmüddətli inkişaf naminə idarə olunması üçün şərait yaradır. Digər tərəfdən real iqtisadiyyatın əsasını təşkil edən istehsalatın müxtəlif sahələrində də davamlı inkişaf göstərici və hədəflərinin nəzərə alınması bu prosesin idarə edilməsinin vacib şərtidir. Yalnız belə yanaşma təbii ehtiyatlara qənaət etmək və ətraf mühitə mənfi təsirlərin qarşısının alınması, gələcək nəsillərin maraqlarının qorunması üçün şərait yaradır. Bu məqsədlərə nail olmaq üçün ən yeni elmi və texnoloji nailiyyətlərin, eləcə də ənənəvi, əsrlərlə sınaqdan keçmiş etnik və yerli biliklərin birgə istifadəsi çox əhəmiyyətlidir. Əhalinin bu istiqamətdə vaxtında və məqsədli məlumatlandırılması uğurlu inkişafın təminatçısıdır.

Göstərilən prinsiplərə əsaslanan idarəetmə sahəsində düzgün qəbul edilən qərarlar eyni zamanda gələcəksiz inkişafın bir istiqaməti olan ***"texnoloji geriləmə ilə inkişafın"*** qarşısının alınması üçün əhəmiyyətlidir. Texnoloji geriləmə ilə inkişaf termininin istifadəsi və ümumiyyətlə, bu anlayışın ilk dəfə BMT-nin terminologiyasına daxil edilməsi Azərbaycan ilə bağlıdır. Bu haqda bilgi 1996-cı ildə Azərbaycanda hazırlanmış və ümummilli lider Heydər Əliyev tərəfindən ölkə və beynəlxalq ictimaiyyətə təqdim edilən Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabatda öz əksini tapmışdır. Terminin mənası ondan ibarətdir ki, bəzən şirkətlər və hətta bir sıra hallarda ayrı-ayrı ölkələr

real iqtisadiyyatın seçilmiş bir istiqamətində texnoloji tərəqqiyə nail olmaq üçün dünyada həmin an bu sahə üçün ən müasir texnologiyanı tətbiq etmək haqqında qərar qəbul edirlər. Məlumdur ki, hər hansı bir yeni texnologiyanın tətbiqi üçün zaman tələb olunur. Həmin dövrdə müvafiq təşkilati və texnoloji hazırlama işləri həyata keçirilir. Tətbiqə sərf olunan zaman çərçivəsində dünyada daha yeni texnologiya və yaxud məhsulun yaradılması və bazara çıxarılması ehtimalı mövcuddur. Rəqiblər tərəfindən daha yeni texnologiyanın və məhsulların bazara çıxarılması həyata keçirilən layihənin əhəmiyyətini azaldır. Qeyd etmək lazımdır ki, hətta belə bir vəziyyət baş verdiyi halda, şirkət və yaxud ölkə üçün real iqtisadiyyatda yenilik yaradılır, lakin onun qlobal miqyasda rəqabət qabiliyyəti nisbətən aşağı düşür. Bu səbəbdən idarəetmə və istehsalatda yeni texnologiyaların tətbiqi haqqında qərar qəbuletmə prosesində dünyada həmin an üçün ən müvəffəqiyyətli təcrübəyə əsaslanmaq hər zaman gözlənilən uğuru təmin etmir. Bu sahədə ən optimal qərarın qəbul edilməsi ancaq elmi proqnozlara əsaslana bilər. Bunun üçün qərar qəbul edilməsindən öncə müvafiq alim və ekspertlərin, yaxud bu istiqamətdə ixtisaslaşmış məsləhətçi şirkətlərin rəyinin nəzərə alınması vacib şərtdir. Qərar qəbul edən şəxslərin, iş adamlarının bu istiqamətdə məlumatlandırılması innovativ inkişafın planlaşdırılması prosesində səmərəliliyin artırılmasına töhfə verə bilər. Bu istiqamətdə uğurlu fəaliyyət insan inkişafından asılıdır.

İnsan inkişafı baxımından enerjinin effektiv istifadəsi ilə yanaşı, onların hansı mənbədən əldə edilməsi də əhəmiyyətlidir. Enerji balansında yandırılan mədən (fossil) mənbələrinin azalması bərpa olunmayan təbii ehtiyatların səmərəli istifadəsini təmin edir. Qeyd olunan yanaşma eyni zamanda ətraf mühitə atılan karbon qazının miqdarını azaldır. Bu isə qlobal miqyasda istixana effekti törədən qazların atmosferə atılmasını azaldır və müvafiq olaraq iqlim dəyişmələri proseslərinə təsirləri zəiflədir.

Bərpa olunan enerji bir sıra hallarda "yaşıl" enerji də adlandırılır. Bərpa olunan enerji mənbələri kimi ətraf mühitdə daim baş verən proseslər durur. Günəş şüaları, su cərəyanları və axınları, külək, geotermal enerji, mikroorqanizmlər, bitki və heyvan obyektləri, məişət tullantıları bərpa olunan enerjinin mənbəyi kimi çıxış edirlər. Bəzi hallarda atom enerjisi də bərpa olunan enerji mənbələrinə aid edilir. Lakin bu zaman bərpa olunan enerjinin alınması mənbələri arasında atom enerjisinin olması beynəlxalq sənədlərdə xüsusi qeyd edilir. Hər hansı ölkədə isti-

fadə olunan enerji mənbələri arasında bərpa olunan enerjinin payının çox olması eyni zamanda ***mədən (fossil) yanacağının*** payının azalması deməkdir. Bu isə hazırkı və gələcək nəsillərin maraqlarına xidmət edən insan inkişafının planlaşdırılması və idarəedilməsi üçün çox əhəmiyyətlidir. ***Mədən (fossil)*** enerjinin istifadəsinin azalması bərpa olunmayan enerji mənbələrinin gələcək nəsillər naminə səmərəli istifadəsi deməkdir. Eyni zamanda istismar olunan enerji mənbələri arasında bərpa olunan enerjinin payının artması ətraf mühitə atılan və qlobal miqyasda iqlim dəyişmələrinə təsir göstərən istixana qazlarının azalması deməkdir. İnsan inkişafı bu istiqamətdə uğurlu fəaliyyətin vacib şərtidir.

Müxtəlif ölkələrdə enerji mənbələri və eyni zamanda atmosferə istixana qazlarının tullanması haqqında məlumat cədvəl 2.9.-da verilmişdir. Bu məlumatlar eyni zamanda ölkələrdə insan inkişafı sahəsində qazanılmış nailiyyətlərin göstəriciləri kimi də qiymətləndirilə bilər.

*Cədvəl 2.9. Müxtəlif ölkələrdə istifadə edilən enerji mənbələri və istixana qazlarının atmosferə tullanması*

| Ölkə | İlkin enerji, %[1] | | Karbon (istixana) qazının tullanması (ildə adambaşı, ton)[2] |
|---|---|---|---|
| | Mədən yanacağı (fossil) | Bərpa olunan enerji | |
| **Norveç** | 52,2 | 47,8 | 9,2 |
| **ABŞ** | 83,7 | 16,3* | 17,0 |
| **Koreya Respublikası** | 82,8 | 17,2* | 11,8 |
| **Səudiyyə Ərəbistanı** | 100 | 0 | 39,0 |
| **Küveyt** | 100 | 0 | 29,1 |
| **Yaponiya** | 94,8 | 5,2* | 9,3 |
| **Rusiya Federasiyası** | 91 | 9* | 12,6 |
| **Qətər** | 100 | 0 | 43,9 |
| **Türkiyə** | 89,5 | 10,5 | 4,2 |
| **Azərbaycan** | **97,4** | **2,6** | **3,6** |
| **Efiopiya** | 5,7 | 94,3 | 0,1 |

*Mənbə: (1) İnternational Energy Agency, World Development Indicators, 2014;*
*(2) Human Development Repor, UNDP, New York, 2015.*
**Atom elektrik stansiyaları daxil olmaqla*

Cədvəl 2.9.-da mədən yanacağı (fossil) ilə zəngin olan ölkələr haqqında da statistik məlumatlar təqdim edilmişdir. Təqdim edilmiş məlumatlar göstərir ki, bir sıra neft və qaz ilə zəngin ölkələrdə (Küveyt, Səudiyyə Ərəbistanı, Qətər) enerji balansında mədən yanacaqları (fossil) istifadə olunan enerjinin təxminən 100 faizini təşkil edir. Eyni zamanda neft və qazla zəngin olan və bu məhsulları ixrac edən Norveçin enerji balansında mədən yanacaqları cəmi 52,2 faiz təşkil edir. Qeyd edilməlidir ki, Küveyt, Səudiyyə Ərəbistanı və Qətərin təbii şəraiti bərpa olunan enerjinin istifadəsini genişləndirmək üçün çox əlverişlidir. Norveçin də təbii-coğrafi vəziyyəti bərpa olunan enerjinin istifadəsinin genişlənməsi üçün şərait yaradır. Lakin göründüyü kimi, imkanların olması həlledici deyil və bu, cədvəl 2.9.-da təqdim olunmuş məlumatlardan aydın olur. Bu sahədə nailiyyətlərin əldə edilməsi əsas etibarı ilə insan potensialına əsaslanan inkişafın ölkə siyasətinin prioriteti olmağının nəticəsidir.

Bu siyasət mədən mənşəli enerji mənbələri ilə zəngin olan bəzi digər ölkələr üçün də səciyyəvidir. Məsələn, müstəqilliyini cəmi iyirmi beş il bundan əvvəl bərpa edən Azərbaycan Respublikasında 2013-cü ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılmışdır. Agentliyin yaradılması və onun fəaliyyəti davamlı inkişafın və onun naminə bərpa olunan təbii ehtiyatların istifadəsinin genişləndirilməsinin dövlət siyasəti olmasının göstəricisidir.

## *2.13. İnsan inkişafında insan təhlükəsizliyi və sosial məsuliyyət*

Çağdaş və gələcək nəsillərin maraqlarına xidmət edən və beynəlxalq təşkilatlar tərəfindən 2015–2030-cu illər üçün əsas qlobal məqsəd kimi müəyyən edilmiş davamlı inkişafın təmin edilməsi, ilk növbədə, insan potensialına, onun bilik və bacarığına əsaslanır. İnsan inkişafının əsas konseptual prinsipi ondan ibarətdir ki, hər bir şəxsin fərdi qabiliyyətlərinin inkişaf etdirilməsi üçün şərait yaradılsın. Bu konsepsiyaya görə, insanın həyatı ən böyük prioritetdir və hər bir şəxsin həyatı eyni dərəcədə qiymətlidir. Heç bir fərd öz irqi, milli, dini, cinsi, sinfi və ərazi mənsubiyyətinə görə uzun, dolğun, yaradıcı və ləyaqətli həyat sürmək imkanlarından məhrum edilə bilməz. Davamlı insan potensialına əsasla-

nan və insanı bu prosesin mərkəzinə qoyan inkişaf konsepsiyasına görə, hər bir şəxsə fərdi qabiliyyətlərini maksimum dərəcədə inkişaf etdirmək üçün şərait yaradılmalıdır. Bu şərait onun müxtəlif istiqamətlərdə – iqtisadiyyatda, sosial sahədə, mədəniyyətdə, siyasətdə inkişafına ən əlverişli mühit yaratmağa xidmət etməlidir. Belə şəraitin yaradılması isə öz növbəsində hər hansı bir ölkənin və yaxud ərazinin inkişafının uğurlu və uzunmüddətli olmasının əsas təminatçısı kimi çıxış edir.

İnsan inkişafının bir xüsusiyyəti ona əsaslanır ki, insanın təhlükəsizliyi onun əsas şərti kimi qəbul edilir. Bu zaman təhlükəsizliyin bütün istiqamətləri, o cümlədən iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, qida təhlükəsizliyi, ekoloji təhlükəsizlik, ictimai təhlükəsizlik və s. nəzərdə tutulur. Başqa sözlə desək, insan inkişafının təmin edilməsi üçün insan hüquqlarının qorunması vacib şərtdir.

İnsanın təhlükəsizliyi onun əsas hüquqlarına aiddir və cəmiyyət tərəfindən şərtsiz təmin edilməlidir. Eyni zamanda insan inkişafının prinsiplərinin təmin edilməsi insanın təhlükəsizlik hüquqlarının təmin edilməsi ilə yanaşı, onun cəmiyyət qarşısında məsuliyyətini də nəzərdə tutur. Bu məsuliyyət müxtəlif sahələri əhatə edir və bir çox hallarda hüquqi tənzimlənir. Lakin hüquqi tənzimlənən məsuliyyətlə yanaşı, insanın özündən asılı olan və könüllü həyata keçirilən ***sosial məsuliyyət*** anlayışı da məlumdur. Bazar iqtisadiyyatı şəraitində ***korporativ sosial məsuliyyət*** anlayışı daha çox istifadə olunmaqdadır və müasir idarəetmənin vacib elementidir. Qeyd edilməlidir ki, hər bir insanın cəmiyyət qarşısında daşıdığı sosial məsuliyyət də cəmiyyətin hədəflədiyi insan inkişafının başlıca şərtlərindəndir.

***Sosial məsuliyyətli*** fəaliyyət və sosial məsuliyyətli həyat tərzinə müasir elm və təhsil baxımından yanaşma ən son illərin prioritetlərindən biridir. Bu, insan potensialının inkişafının təmin edilməsinin əsas şərtlərindəndir**.** Elmi istiqamət kimi son illər formalaşsa da, sosial məsuliyyətli həyat tərzi haqqında anlayışlar, onun vacib şərtlərindən biri olan istehlak mədəniyyəti qədim dövrlərdən məlumdur. Bir çox dinlərdə, o cümlədən islam, xristian və yəhudi dinlərində istehlak mədəniyyəti, israfçılığın yolverilməzliyi, şüurlu qənaətçilik, nemətlərin cəmiyyət üzvləri arasında ədalətli bölünməsi və bunun könüllü olaraq həyata keçirilməsi, xeyriyyəçilik və s. prinsiplər qədim dövrlərdən tətbiq və təbliğ olunur.

Sosial məsuliyyətli fəaliyyət və həyat tərzi son illər bir sıra şirkət və korporasiyalar tərəfindən yalnız könüllü yox, eyni zamanda daxili qaydalar, yəni korporasiyalar, şirkətlər və ya hər hansı vətəndaş birliyi üçün qanun gücünə malik olan prinsiplər kimi qəbul edilir. Müasir anlamda korporasiyalar, şirkət və digər birliklər üçün sosial məsuliyyətli fəaliyyət ən əsas prioritetlərdəndir. Çox vacibdir ki, ən müasir inkişaf və idarəetmə nəzəriyyə və praktikaya görə sosial məsuliyyət prinsipləri hər hansı bir şirkət və korporasiya üçün gəlir əldə etməkdən daha üstündür.

## *2.14. Özümüzü sınayırıq*

### 2.14.1. Özümüzü sınayırıq suallar:

1. İnsan inkişafı konsepsiyası hansı zərurətdən yarandı?
2. Gələcəksiz inkişaf və bərabərsizliklə səciyyələnən inkişaf tərəqqi prosesinə necə təsir edir?
3. Davamlı insan potensialına əsaslanan inkişafın mahiyyəti və göstəriciləri haqqında nə bilirsiniz?
4. Enerjinin səmərəli istifadəsində insan inkişafının rolunu hansı misallarla göstərə bilərsiniz?
5. Cini və Kvintil əmsalları sosial siyasətin monitorinqində necə istifadə edilir?

### 2.14.2. Özümüzü sınayırıq cavablar:

### 1. İnsan inkişafı konsepsiyası hansı zərurətdən yarandı?

Müxtəlif ölkə və ya ərazilərdə inkişaf sahəsində nailiyyətlərin qiymətləndirilməsi zamanı, bir qayda olaraq, ümumiləşdirilmiş iqtisadi və sosial göstəricilərdən istifadə edilir. Bunlar arasında ən geniş istifadə edilən il ərzində adambaşına düşən ***ümumi daxili məxsul (ÜDM)*** və ***ümummilli məhsuldur (ÜMM)***. Bu göstəricilər çox əhəmiyyətlidir, lakin orta və ümumiləşdirilmiş olduğundan inkişafın vəziyyəti haqqında və əhalinin rifahının durumu barəsində dolğun təsəvvür yarada bilmir. Cəmiyyətdə kimlərsə olduqca yüksək, digərləri isə olduqca aşağı gəlir

əldə etdiyi halda orta göstəricilər vəziyyət haqqında real təsəvvür yaratmır. Bu səbəbdən ölkələrin tərəqqisinin qiymətləndirilməsi üçün XX əsrin sonunda yeni göstəricinin – İnsan İnkişafı Əmsalının istifadəsi zərurəti yaranmışdır. Bu yanaşmaya görə inkişafın göstəricisi kimi ümumiləşdirilmiş orta iqtisadi və sosial göstəricilərlə yanaşı, inkişafın planlaşdırılması və idarəedilməsi sahəsində əldə edilmiş nailiyyətlər daha çox ölkə və ya ərazidə insanların vəziyyətinin qiymətləndirilməsi əsasında dəyərləndirilməlidir. Bu qiymətləndirmədə üç göstərici nəzərə alınır: əhalinin sağlamlığı, təhsil səviyyəsi və iqtisadi durumu. Göstərilən yanaşma tam əsaslıdır: əgər ölkədə inkişaf strategiyası düzgün planlaşdırılır və idarəedilir, yürüdülən siyasət isə innovativ və sosial yönümlüdürsə, o zaman həmin ölkədə əhali sağlam, yüksək bilik və bacarığa malik olmalıdır. Bu iki amil isə iqtisadiyyatda da yüksək nəticələrin əldə edilməsi üçün şərait yaratmış olur. Belə qiymətləndirmələr BMT tərəfindən aparılır və hər il qlobal miqyasda hesabat şəklində dərc edilir. BMT-nin insan inkişafına dair ilk hesabatı 1990-cı ildə dərc edilmişdir. O zamandan insan inkişafı haqqında hesabatlar BMT tərəfindən qlobal miqyasda hər il dərc edilir. Bütün dünyada insan inkişafı haqqında vəziyyəti səciyyələndirən qlobal hesabatlar ilə yanaşı, bir çox ölkələrdə insan inkişafı haqqında milli hesabatlar da dərc edilir. Azərbaycan Respublikasında insan inkişafı haqqında ilk hesabat 1995-ci ilə təsadüf edir. İnsan inkişafının monitorinqi üçün insan inkişafı haqqında hesabatların əhəmiyyəti olduqca yüksəkdir. Eyni zamanda insan inkişafı haqqında hesabatlar bu sahədə vəziyyətin təkmilləşməsi üçün təsirli vasitədir.

### 2. Gələcəksiz inkişaf və bərabərsizliklə səciyyələnən inkişaf tərəqqi prosesinə necə təsir edir?

İnkişaf, bir qayda olaraq, müsbət proses kimi qəbul edilir və bir vəziyyətdən digərinə keçid kimi də səciyyələndirilə bilər. Lakin inkişafın mənfi istiqamətə yönəlməsi də mümkündür. Buna misal olaraq xəstəliyin və yaxud hər hansı bir böhranın inkişafını göstərmək olar. Cəmiyyətin inkişafına gəldikdə isə bu prosesin mənfi istiqaməti kimi ***gələcəksiz inkişafı*** və ***bərabərsizliklə səciyyələnən inkişafı*** qeyd etmək yerinə düşər. Gələcəksiz inkişaf anlayışı ilk dəfə BMT tərəfindən təklif edilib. Gələcəksiz inkişaf planlaşdırma və idarəetmənin elə bir üsuludur ki, o əsasən

çağdaş nəsillərin maraqlarına xidmət edir, gələcək nəsillərin inkişaf perspektivlərini nəzərə almır. ***Texnoloji geriləmə ilə inkişaf*** gələcəksiz inkişafın bir fenomeni kimi səciyyələndirilə bilər. Texnoloji geriləmə ilə inkişaf elə hallarda baş verir ki, o zaman hər hansı bir ölkə və ya region üçün yeni texnologiyalar tətbiq edilir, həmin texnologiyalar bu məkan üçün yenidir, lakin perspektivdə yüksək rəqabət qabiliyyətinə malik deyillər. Bu vəziyyət inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqtisadi və sosial durumda müşahidə edilən fərqlərin aradan qaldırılmasını əngəlləyən amillərdəndir. Bu növ gələcəksiz inkişafın qarşısının alınmasında elm, təhsil, insan inkişafı xüsusi əhəmiyyət daşıyır. Bərabərsizliklə səciyyələnən inkişaf dünyada bir çox hallarda müşahidə edilən ölkələrarası və ölkələr daxilində istehlakda müşahidə edilən kəskin qeyri-bərabərliyin nəticəsidir. İnsan inkişafı müşahidə edilən bu neqativ proseslərin qarşısının alınmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, son illər "artımsız inkişaf" konsepsiyası irəli sürülmüşdür. Bu konsepsiyaya görə, hətta iqtisadi artım olmadığı şəraitdə də mövcud potensial ehtiyatların istifadə səmərəliliyini artırmaqla davamlı insan inkişafı üçün zəmin yaratmaq mümkündür. Bu məqsədlərə nail olmaqda innovativ istehsalat və idarəetmə texnologiyalarından istifadənin əhəmiyyəti çox yüksəkdir. Bu idarəetmə texnologiyaları eyni zamanda dünyada müşahidə edilən ***qeyri-bərabər inkişaf*** fenomeninin aradan qaldırılması üçün çox əhəmiyyətlidir. İnkişafda qeyri-bərabərlik ölkələr arasında müşahidə edilməkdədir. BMT-nin məlumatına görə ən varlı ölkələrdə yaşayan dünya əhalisinin təxminən 20 faizi dünyada mövcud olan varidatın 80 faizinə sahibdir. Dünya əhalisinin qalan 80 faizinə mövcud olan varidatın yalnız 20 faizi, ən yoxsul ölkələrdə yaşayan və sayca dünya əhalisinin təxminən 20 faizini təşkil edən insanlara isə dünyada mövcud olan varidatın 1 faizi qalır. Bu vəziyyət dünyada müşahidə edilən müxtəlif, o cümlədən hərbi münaqişələrin səbəbi kimi çıxış edir, əhalinin miqrasiyasını gücləndirir. Qeyri-bərabərlik ilə mübarizə üçün insan potensialının inkişafı vacib amildir. Bu səbəbdən BMT tərəfindən 2015–2030-cu illər üçün müəyyənləşdirilmiş Minilliyin inkişaf hədəflərində kəskin qeyri-bərabərliyin aradan qaldırılması, bu məqsədlə insan inkişafı üçün təhsilin güclənməsi və elmi nailiyyətlərin və texnologiyaların ölkələr arasında mübadiləsinin güclənməsi nəzərdə tutulmuşdur.

### 3. Davamlı insan potensialına əsaslanan inkişafın mahiyyəti və göstəriciləri haqqında nə bilirsiniz?

Davamlı inkişaf çağdaş nəsillərin rifahını təmin edən və gələcək nəsillərin imkanlarını məhdudlaşdırmayan inkişaf yoludur. İnsan potensialının inkişafı və yeni biliklərin səfərbər edilməsi davamlı inkişafın əsas şərtlərindəndir. Digər tərifə görə, davamlı inkişaf iqtisadiyyatın artımının, onun optimal səviyyədə saxlanılmasının, insan fəaliyyətinin idarə edilməsinin elə bir üsuludur ki, o, çağdaş nəsillərin tələblərini ödəməyə qadirdir və eyni zamanda gələcək nəsillərin də öz tələbatlarını ödəməsi üçün əngəllər yaratmır. Bərpa olunan ehtiyatlardan, o cümlədən enerji mənbələrindən istifadənin artırılması, onların ümumi enerji və xammal dövriyyəsində payının daim çoxalması bu tələblərə cavab verir.

İnsan inkişafı davamlı inkişafın əsas şərtidir. Davamlı inkişafın uğurlu planlaşdırılması və idarəedilməsi üçün eyni zamanda üç – iqtisadi, sosial və ekoloji amilin nəzərə alınması tələb olunur. Beynəlxalq təşkilatlar davamlı inkişaf sahəsində aparılan siyasətin uğurlu olmasını müəyyən etmək məqsədilə bir sıra indikatorlardan (göstəricilərdən) istifadə edir. Bunlardan hər istifadə edilmiş enerji vahidinə istehsal olunmuş ümumdaxili məhsulun dəyəri, adambaşı ətraf mühitə atılan tullantıların, o cümlədən istixana qazlarının miqdarı, qorunan ərazilərin ölkənin ümumi ərazisində pay faizi, gəlirlərin əhali arasında ədalətli paylanması (Cini, Kvintil əmsalı) və s. qeyd oluna bilər. Davamlı inkişaf XXI əsrin əsas prioritetlərindəndir. Beynəlxalq təşkilatların təhlilləri və dərc edilmiş rəsmi hesabatlarına görə Azərbaycan Respublikasında sosial siyasətin keçirilməsi sahəsində yüksək nailiyyətlər əldə edilmişdir. Beynəlxalq statistikaya əsasən Azərbaycan Respublikasında Cini Əmsalı və Quintil göstəricilərinə görə müəyyənləşdirilən sosial göstəricilər bir sıra inkişaf etmiş, o cümlədən bəzi Avropa Birliyi üzvü olan ölkələrdən yüksəkdir.

### 4. Enerjinin səmərəli istifadəsində insan inkişafının rolunu hansı misallarla göstərə bilərsiniz?

Enerjinin səmərəli istifadəsi iqtisadi baxımdan daha əlverişli olmaqla yanaşı, təbii ehtiyatların gələcək nəsillər üçün qorunması və onların rifahının təmin edilməsi baxımından da önəmlidir. Bununla yanaşı, eyni

iqtisadi səmərə almaq üçün daha az enerjinin istifadəsi ətraf mühitə atılan istixana qazlarının azalmasına xidmət edir. Bu isə qlobal iqlim dəyişmələrinin qarşısının alınması üçün olduqca əhəmiyyətlidir. Bu səbəbdən enerjidən səmərəli istifadə davamlı inkişafın vacib elementidir və insan inkişafının səviyyəsindən asılıdır. Bu səbəbdən müxtəlif ölkələr tərəfindən əldə edilən nailiyyətlər fərqlidir. Məsələn, adambaşına olduqca yüksək gəlir əldə edən Küveytdə miqdarca 1 kq neftdə olan enerjinin istifadəsi nəticəsində 7,9 ABŞ dolları dəyərində ÜDM (ümumdaxili məhsul) istehsal olunur. Bununla yanaş, bu ölkə adambaşına ətraf mühitə ildə 31,3 ton istixana qazları atır. Yüksək adambaşına gəlirlərə malik digər ölkə Norveçdə isə miqdarca 1 kq neftdə olan enerjinin istifadəsi zamanı Küveytdən 1,5 dəfə çox ÜDM istehsal olunur. Eyni zamanda bu ölkədə adambaşına ətraf mühitə atılan istixana qazlarının miqdarı Küveytdəkindən 3 dəfə azdır. Aydındır ki, Norveç Küveytlə müqayisədə insan potensialına əsaslanan davamlı inkişafın tələblərinə daha yaxındır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının davamlı inkişaf baxımından əhəmiyyətli olan bu göstəriciləri kifayət qədər yüksəkdir. BMT-nin hesabatlarına əsasən Azərbaycan Respublikası miqdarca 1 kq neftdə olan enerjinin istifadəsi nəticəsində 10,8 ABŞ dolları dəyərində ÜDM istehsal edir və ətraf mühitə adambaşına yalnız 3,6 ton istixana qazları atır. Bu göstərir ki, ölkəmizdə insan inkişafının planlaşdırılması və həyata keçirilməsi istiqamətində ciddi nailiyyətlər əldə etmişlər.

Davamlı inkişaf baxımından bərpa olunan enerji mənbələrdən istifadənin artırılması olduqca əhəmiyyətlidir. Bərpa olunan enerji mənbələrinə, ilk növbədə, günəş, külək, geotermal, hidro, biokütlədən alınmış enerji aiddir. BMT-nin 2015-ci ildə dərc edilmiş hesabatlarına əsasən bərpa olunan mənbələrdən alınmış enerji qlobal miqyasda elektrikin alınmasında 18,6 % təşkil etmişdir. Nəqliyyat vasitələrinin yanacaqla təminatında bərpa olunan mənbələrdən alınmış enerjinin payı yalnız 3 %-dir. Hazırda qlobal miqyasda bərpa olunan enerjidən ən çox istifadə edən Latın Amerikası və Cənubi Asiya ölkələridir. Bu ölkələrdə bərpa olunan mənbələr ümumi enerjinin, müvafiq olaraq, 25,8 və 23,7 faizini təşkil edir.

Nəqliyyat vasitələrində istifadə edilmək üçün bioyanacağın istehsalında da dünyada irəliləyişlər müşahidə edilməkdədir. 2000-ci ildə dün-

yada ***bioyanacağın*** istehsalı 16 milyard litr təşkil edirdi. Son 2015-ci ildə dərc olunmuş məlumatlara görə bu rəqəm 100 milyard litri keçmişdir. Ümumiyyətlə, bioyanacağın nəqliyyat vasitələri üçün istifadəsi fərqlidir. Məsələn, Braziliyada nəqliyyat üçün istifadə olunan yanacağın 23 %-ni bioloji yanacaq təşkil edir. ABŞ-da bu rəqəm 4 %, Avropada isə 3 %-ə yaxındır. Təbii ehtiyatların səmərəli istifadəsi hər hansı bir ölkədə insan inkişafının səviyyəsi ilə bilavasitə əlaqədardır. İnsan inkişafının səviyyəsi ehtiyatların səmərəli istifadəsinin vacib şərtidir.

**5. Cini və Kvintil göstəriciləri sosial siyasətin monitorinqində necə istifadə edilir?**

Ölkələr daxilində gəlirlərin əhali arasında qeyri-bərabər bölünməsi müşahidə edilir və bu amil insan inkişafına mənfi təsir göstərir. Qeyri-bərabərlik təbii olsa da, bir sıra hallarda bu vəziyyət kəskin şəkildə müşahidə olunur. Ölkə daxilində gəlirlərin əhali və yaxud ev təsərrüfatları arasında ədalətli bölünməsi vəziyyətini qiymətləndirmək üçün bir neçə üsul məlumdur. Bu üsullardan biri və ən geniş istifadə ediləni ***Cini göstəricisinin*** hesablanmasına əsaslanır. Cini göstəricisi ölkə daxilində gəlirlərin ayrı-ayrı şəxslər, yaxud ev təsərrüfatları arasında ədalətli paylanmasını xarakterizə edir. Bu göstəricinin qiyməti 0 (tam bərabərlik) – 100 arasında (kəskin qeyri-bərabərlik) dəyişə bilər.

Aydındır ki, gəlirlərin bölünməsində tam bərabərliyə nail olmaq, hətta nəzəri baxımdan da mümkün deyil. İstehlakda tam bərabərlik insanları daha məhsuldar çalışmaq stimulundan da məhrum və rəqabətə əsaslanan inkişafa mənfi təsir edə bilər. Tam bərabərlik hətta nəzəri baxımdan mümkün olmadığından beynəlxalq statistikaya görə, heç bir ölkədə Cini İndeksi (Əmsalı) sıfıra bərabər deyil. Müşahidə edilən ən aşağı əmsallar 25-ə yaxındır. Bu rəqəmlər və müvafiq olaraq gəlirlərin nisbətən daha ədalətli bölünməsi Şimali Avropa ölkələrində, o cümlədən İsveç, Norveç, Finlandiya və bir neçə digər ölkədə müşahidə edilir. Asiya ölkələrində ən aşağı Cini İndeksi Yaponiyada qeydə alınıb. Bu ölkədə də əmsalın qiyməti 28-ə yaxındır. Bu rəqəm Azərbaycanda 33,0; sürətlə inkişaf edən ölkələr qrupuna aid olan Türkiyədə 39,0; Çində 37,0; Braziliyada 52,7; Cənubi Afrikada isə 65,0 təşkil edir.

Qeyd edildiyi kimi, bir sıra ölkələrdə Cini İndeksi yüksəkdir və bu da gəlirlərin nəzərəçarpan dərəcədə qeyri-bərabər paylanmasından xəbər verir. Bu ölkələrdə Cini göstəricisi 60-a yaxın və hətta ondan da yüksəkdir. Gəlirlərin qeyri-bərabərliyi Braziliya, Kolumbiya, Paraqvayda, Cənubi Afrika Respublikasında və Afrikanın, Asiyanın və Cənubi Amerikanın bəzi digər ölkələrində müşahidə edilməkdədir.

Cini İndeksi ilə yanaşı, əhali arasında gəlirlərin paylanmasında qeyri-bərabərliyin təzahürü olan digər göstəricilər də mövcuddur. Bu Quintil göstəricisi və yaxud Quintil nisbəti göstəricisidir. Quintil nisbətinin hesablanması zamanı hər hansı bir ölkə və yaxud ölkənin ərazisində 20 faiz ən varlı əhalinin orta gəlirinin 20 faiz ən yoxsul əhalinin orta gəlirinə nisbəti müəyyən edilir. Bu rəqəm nə qədər az olsa, sosial siyasət bir o qədər uğurlu hesab edilə bilər. Bu fərqin az olması eyni zamanda maksimal və minimal gəlirləri olan qruplar arasında yer alan 60 faiz orta təbəqəyə aid olan əhalinin gəlirlərinin sosial baxımdan nə dərəcədə qənaətbəxş və ədalətli olduğundan xəbər verir.

Təhlillər göstərir ki, gəlirlərin qeyri-bərabər paylanması həm yüksək iqtisadi göstəricilərə nail olmuş ölkələrdə, həm də yoxsulluqdan əziyyət çəkən ölkələrdə müşahidə edilir. Bu onu göstərir ki, gəlirlərin ədalətli paylanması ölkələrin iqtisadi imkanlarından deyil, bu istiqamətdə müvafiq siyasət aparılmasından və istifadə olunan idarəetmə texnologiyalarından asılıdır. Dünyada Quintil indeksinin ən aşağı göstəriciləri Şimali Avropa ölkələrində, ən yuxarı isə Latın Amerikası ölkələrində və Cənubi Afrikada qeydə alınmışdır. Dövlət idarəetməsində ölkədə əldə edilən gəlirlərin ədalətli bölünməsi, bunun üçün müvafiq siyasətin həyata keçirilməsi davamlı inkişafın vacib şərtlərindəndir və insan potensialının daim təkmilləşdirilməsinə əsaslanır. İnsan inkişafı sahəsində əldə edilən nailiyyətlər ədalətli sosial siyasətdən asılıdır.

# 3. İNSAN İNKİŞAFI TƏRƏQQİNİN GÖSTƏRİCİSİ KİMİ

*İnsan inkişafının qiymətləndirilməsinin əsas meyarları. Qiymətləndirmədə istifadə olunan əmsallar. İnsan inkişafının qiymətləndirilməsində təhsil göstəriciləri. Savadsızlıq və funksional savadsızlıq. Sağlamlıq göstəriciləri və onların insan inkişafına təsiri. İnsan inkişafının qiymətləndirilməsində iqtisadi göstəricilər. İnsan inkişafı əmsallarının hesablanması.*

**Mündəricat:**


3.1. Bölmənin məqsədi
3.2. Açar anlayışlar
3.3. İnsan inkişafının qiymətləndirilməsi
3.4. İnsan inkişafının qiymətləndirilməsində sağlamlıq göstəriciləri
3.5. İnsan inkişafının qiymətləndirilməsində təhsil göstəriciləri
3.6. İnsan inkişafının qiymətləndirilməsində iqtisadi göstəricilər
3.7. İnsan inkişafı əmsalının hesablanması


## *3.1. Bölmənin məqsədi*

Öndəki bölmələrdə təsvir edilmiş bilgilərdən aydın olur ki, hər hansı bir ölkə, ərazi və yaxud şirkətin uğurlu tərəqqisi insan inkişafı, bu sahənin idarəedilməsini planlaşdıran və bu prosesi həyata keçirən personalın bilik və bacarığından asılıdır. İnkişaf sahəsində qazanılmış uğurların açarı olan insan potensialının formalaşdırılma və təkmilləşdirilmə proseslərinin uğurlu planlaşdırılması və idarəetməsi ilk növbədə bu sahədə real vəziyyətin qiymətləndirilməsi və daimi monitorinqindəm çox asılıdır. Hazırkı bölmədə insan inkişafının vəziyyətinin tədqiqi və qiymətləndirilməsi zamanı istifadə edilən üsullar və onların tətbiqi yolları təsvir edilir. Bu zaman insan inkişafını müəyyən edən təhsil, sağlamlıq və iqtisadi göstəricilərin monitorinqi prosesinə cəlb edilən göstəricilər (indikatorlar) sadalanır, onların əlaqəli təsirləri izah edilir. Bu göstəricilərin ümumiləşdirilməsinə əsaslanan insan potensialının inkişafı prosesinin qiymətləndirilməsində istifadə edilən əmsallar, o cümlədən

***İnsan İnkişafı Əmsalı, Gender İnkişafı Əmsalı, Qadınların İmkanlarının Genişləndirilməsi Əmsalı*** və digərlərinin müəyyən edilməsi yolları təsvir edilir. İnsan inkişafını müəyyən edən sağlamlıq göstəriciləri arasında gözlənilən ömür müddəti, körpə və uşaqların sağlamlıq və inkişaf göstəricilərindən, əhalinin tibbi xidmətlərlə təmin edilməsi səviyyəsi təhlil olunur və müvafiq izahlar verilir. Təhsilin biliyə əsaslanan inkişafın təmin edilməsində xüsusi əhəmiyyətini nəzərə alaraq, bu sahədə olan çağırışların qarşılaşdırılması yolları göstərilir. İnsan inkişafı üçün önəmli problem olan məşğulluğun əhəmiyyəti və xüsusən gənclər arasında dünyada bir sıra hallarda müşahidə edilən işsizliklə əlaqədar çağırışlara cavab üsullarının tətbiqi kimi təhsil, təlim və əmək bazarında baş verən proseslərin qarşılıqlı əlaqələndirilməsinin vacibliyi əsaslandırılır. BMT-nin təşəbbüsü ilə 2015-ci ilin sentyabr ayında Nyu-York şəhərində keçirilmiş Dünya Sammitində XXI əsrin məqsədləri kimi 2015–2030-cu illər üçün qəbul edilmiş "Davamlı inkişaf məqsədləri" sənədində yer almış hədəflərə nail olmaq üçün insan inkişafının vacib şərt olması müzakirə edilir.

## *3.2. Açar anlayışlar*
## *(bax: Terminlər lüğəti)*

***– Əhalinin Yoxsulluq Əmsalı (ƏYƏ); – Elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə ayrılan xərclər; – Enqel qanunu; – Funksional savadsızlığın səviyyəsi; – Qadın hərəkatı; – Qadınların parlamentdə təmsil olunması; – Qadınların imkanlarının genişləndirilməsi əmsalı (QİGƏ); – Qeyri-hökumət təşkilatları (QHT); – Gender; – Gender İnkişafı Əmsalı (GİƏ); – Gender qeyri-bərabərliyi əmsalı; – İqtisadi fəal əhali; – İnsan inkişafı; – Orta gəlir; – Real iqtisadiyyat və ya iqtisadiyyatın real sektoru; – Ümummilli gəlir (ÜMG).***

## *3.3. İnsan inkişafının qiymətləndirilməsi*

İnkişaf prosesinin planlaşdırılması və idarə edilməsini optimallaşdırmaq, onun uzunmüddətliliyini və davamlılığını təmin etmək üçün iki vacib xüsusiyyətin nəzərə alınması çox əhəmiyyətlidir. Onlardan birincisi inkişafın hazırkı vəziyyətinin qiymətləndirilməsidir. Bu məlumat

xüsusilə idarəetmənin planlaşdırma mərhələsi üçün önəmlidir. Hər hansı prosesin, o cümlədən həmin sahədə olan inkişafın ilkin vəziyyəti haqqında məlumat olmadığı və yaxud tam olmadığı halda planlaşdırma mərhələsində bu proseslərin idarə edilməsi barədə optimal qərar qəbulu mümkün deyil. İkinci və çox vacib amil planlaşdırma prosesində innovativ yanaşmaların tətbiqidir. I və II fəsillərdə göstərildiyi kimi, inkişafın qiymətləndirilməsi üçün ənənəvi olaraq cəlb edilən göstəricilərin təkmilləşdirilməsi məqsədi ilə XX əsrin son illərində yeni təşəbbüslər irəli sürüldü. Bu təşəbbüslərin əsas məqsədi ondan ibarət idi ki, hər hansı bir ölkə və ya ərazidə inkişafın səviyyəsinin qiymətləndirilməsi yalnız orta iqtisadi göstəricilərin, o cümlədən əhalinin orta gəlirlərinin səviyyəsi ilə məhdudlaşmasın. Orta gəlirlərin həcmi ilə yanaşı, mövcud olan iqtisadi imkanların hər hansı bir ölkə və yaxud ərazidə yaşayan əhalinin həyat səviyyəsinə, onların rifahına təsirini qiymətləndirmək də olduqca vacibdir. Yeni yanaşmaya görə, nəzərdə tutulurdu ki, inkişafın əsas meyarı iqtisadi göstəricilər yox, insanın cəmiyyətdə vəziyyətidir. Bu məqsədlə inkişafın qiymətləndirilməsi üçün iqtisadi göstəricilərlə yanaşı, xüsusi əmsalların hesablanması da təklif edilmişdir. Bu insan inkişafını səciyyələndirən müxtəlif əmsallardır.

İnsan inkişafının qiymətləndirilməsi üçün hazırda müxtəlif göstəricilər əsasında hesablanan bir sıra əmsallardan istifadə olunur. Bu əmsallar insan inkişafının müxtəlif istiqamətlərini və yaxud müxtəlif qrupların cəmiyyətdə vəziyyətini səciyyələndirir. Əmsalların arasında ən ümumiləşdirilmişi və ən geniş istifadə olunanı ***İnsan İnkişafı Əmsalıdır (İİƏ).*** Həmin əmsal bütün əhali üçün hesablanır və ölkədə insanların vəziyyətini ümumiyyətlə xarakterizə edir. Lakin bir çox ölkənin əhalisi təbiət və mənşə etibarilə eyni deyil. Ölkə və yaxud hər hansı bir ərazinin əhalisinin tərkibində müxtəlif qrupların nümayəndələri ola bilər. Bu qruplara ölkədə yaşayan müxtəlif irqlər, millətlər, cinslər, fərqli dini və sosial qruplar və s. aid edilə bilər. Göstərilən xüsusiyyətləri nəzərə alaraq, hər hansı bir ölkə və yaxud regionda cəmiyyətin müxtəlif qruplarının inkişafının vəziyyətini qiymətləndirən əmsallardan da istifadə olunur. Belə təhlillər, bir qayda olaraq, ərazisi böyük, əhalisinin sayı isə yüksək olan ölkələrdə tətbiq edilir. Oxşar qiymətləndirmələr fərqli qruplara aid olan cəmiyyətin hər bir üzvünün fərdi potensialının inkişafı üçün bərabər imkanların yaranmasından xəbər verir.

Məlumdur ki, ölkələrin əhalisi cinsi mənsubiyyətə görə iki böyük qrupa – kişi və qadınlara bölünür. Həmin qruplar arasında inkişaf fərqlərinin müəyyən edilməsi üçün bir neçə əmsal hesablanır. Bunların arasında ***Gender İnkişafı Əmsalı (GİƏ)*** xüsusi yer tutur və cəmiyyətdə cinslərin, yəni qadın və kişilərin inkişafı üçün mövcud fərqlər, bu fərqlərin nəticəsi kimi müşahidə edilə bilən qeyri-bərabərliyi üzə çıxarmaq mümkün olur. Qeyd etmək lazımdır ki, qadın və kişilər arasında inkişaf göstəricilərində fərqlərin müşahidə edildiyi hallarda həmin fərqlərin aradan götürülməsi imkanı da qiymətləndirilə bilər. Qadınların cəmiyyətdə tutduğu mövqeyi yaxşılaşdırmaq, yaxud daha da gücləndirmək üçün onların təhsil səviyyəsini və peşə bacarıqlarını nəzərə alan digər xüsusi əmsal hesablanır. Bu ***Qadınların İmkanlarının Genişləndirilməsi Əmsalıdır (QİGƏ).*** Göstərilən əmsalın hesablanması sosial cinslərin inkişaf imkanları arasında mövcud olan fərqlərin müəyyən edilməsi və aradan qaldırılmasına, onların sosial baxımdan bərabərliyinin təmin edilməsinə xidmət edir. Bu məlumatların olmaması və ya natamamlığı şəraitində davamlı inkişafın həlledici amili olan insan potensialının formalaşma və təkmilləşdirilmə proseslərinin planlaşdırılması və idarə edilməsi imkanları məhduddur, bu sahədə siyasətin optimal şəkildə təşkili isə mümkün deyil.

Yuxarıda sadalanan əmsallar insan inkişafının ümumi vəziyyətini (İİƏ) və yaxud cinslər arasında müşahidə edilən fərqləri (GİƏ) və onların aradan qaldırılması üçün mövcud potensialı (QİGƏ) əks etdirir. Gender ilə əlaqədar əmsallar arasında **Gender Qeyri-bərabərliyi Əmsalı** da məlumdur ki, bu göstəricinin hesablanmasında üç amil nəzərə alınır. Bu amillərə qadın və kişilər arasında reproduktiv sağlamlıq göstəriciləri, imkanlarının genişlənməsi və əmək bazarında təmsil olunma səviyyələri aiddir.

Yuxarıda sadalanan göstəricilər ilə yanaşı, insan inkişafını xarakterizə edən digər əmsallar da hesablanır. Bir qrup əmsallar, əsasən, insan məhrumiyyətlərindən xəbər verir. Onların təhlilinin əsas məqsədi bəzi cəmiyyətlərdə müşahidə edilən kəskin qeyri-bərabərliyi aradan qaldırmaq və hər hansı bir fərdin öz potensialını inkişaf etdirməsi üçün şərait yaratmaqdır.

Məhrumiyyətlərə gəldikdə, bəşəriyyətin ən əsas problemlərindən biri yoxsulluqdur. Yoxsulluğun tam aradan qaldırılması və yaxud kəskin surətdə azaldılması məqsədilə müvafiq tədbirlərin planlaşdırılması

üçün ilkin vəziyyət haqqında məlumatın olması çox əhəmiyyətlidir. İnsan potensialının inkişafına yönəldilmiş tədbirlərin planlaşdırılması üçün bir neçə əmsal əsas götürülür. Onların arasında ən geniş istifadə olunanı ***"Əhalinin Yoxsulluq Əmsalı"***dır ***(İYƏ)***. Yoxsulluğun monitorinqi, azaldılması və ləğv edilməsi üçün bu məlumat xüsusi əhəmiyyət daşıyır. Yoxsulluq bütün, hətta ən zəngin ölkələrdə də müşahidə olunur. Bu səbəbdən yoxsulluqla bağlı əmsalların hesablanması bütün ölkələr üçün keçərlidir.

Yoxsulluq davamlı inkişafın təmin edilməsi, bu məqsədlərə xidmət edən tədbirlərin qlobal və yerli səviyyədə həyata keçirilməsini əngəlləyən ən önəmli amillərdəndir. Bu səbəbdən XX əsrin əvvəlində BMT-nin təklifi ilə dünya sammitində 193 ölkə və ən azı 23 beynəlxalq təşkilat tərəfindən qəbul edilmiş Minilliyin İnkişaf Məqsədləri sənədində 8 əsas hədəf arasında 2015-ci ilə qədər kəskin yoxsulluğun tam aradan götürülməsi və yaxud əhəmiyyətli dərəcədə azaldılması nəzərdə tutulmuşdur. Beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə Azərbaycan Respublikasında yoxsulluq ilə mübarizədə yüksək nəticələr əldə edilmişdir və yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə enmişdir. Hazırda yoxsulluqla mübarizədə bir sıra nailiyyətlərin əldə edilməsinə baxmayaraq, bu problem öz aktuallığını itirməyib. 2000-ci ildə BMT tərəfindən 2015-ci ilə qədər bütün ölkələr üçün hədəflənən yoxsulluğun 2 dəfə azalmasına nail olunmamışdır. Bu səbəbdən 2015-ci ildə BMT-nin təşəbbüsü ilə keçirilmiş Dünya sammitində yoxsulluq ilə mübarizə yenə də 2015–2030-cu illər üçün müəyyən edilmiş 17 ən əhəmiyyətli hədəflərin arasındadır. Yoxsulluqla mübarizə davamlı inkişafın vacib şərti kimi bəşəriyyət qarşısında duran ən aktual məsələ kimi qalmaqdadır. Bu səbəbdən yoxsulluğa aid əmsalların hesablanması, bu göstəricinin dinamikasının mütəmadi monitorinqi yoxsulluq ilə mübarizə və qoyulmuş məqsədlərə nail olmaq baxımından xeyli əhəmiyyətlidir.

İnsan inkişafının qiymətləndirilməsi üçün göstərilən vahid əmsalların istifadə edilməsi, ilk növbədə, hər hansı bir ölkədə və yaxud bölgədə bu sahədə mövcud olan vəziyyətin səciyyələndirilməsi üçün böyük önəmə malikdir. Bu məlumat davamlı inkişaf yolunda insan potensialının inkişafı sahəsində müvafiq siyasətin və tədbirlərin həyata keçirilməsinin səmərəliliyi üçün olduqca vacibdir. Digər tərəfdən, insan inkişafının qiymətləndirilməsi üçün tətbiq edilən ümumi prinsiplər, eyni yolla və

vahid metodika əsasında hesablanan əmsallar beynəlxalq müqayisələrin keçirilməsi üçün imkanlar yaradır. Belə müqayisələr insan potensialının inkişafı sahəsində dünyada əldə edilmiş ən yaxşı təcrübənin öyrənilməsi və yayılmasına şərait yaradır.

Həm ümumi, həm də gender problemlərini əks etdirən və yoxsulluq ilə əlaqədar əmsalların hesablanması üçün həyatın ən önəmli tərəflərini dəyərləndirə bilən göstəricilərdən istifadə olunur. Bu göstəricilər əsasında inkişafın nə dərəcədə uğurlu olması, onun davamlı xarakter daşıması və insanların rifahının yaxşılaşmasına xidmət etməsi müəyyənləşdirilir. Əmsalın özü isə müəyyən düsturlarla hesablanır və onlara əsaslanaraq qiymətləndirilir.

Qeyd edildiyi kimi, insan inkişafının qiymətləndirilməsi insanın cəmiyyətdə qazandığı vəziyyətə və tutduğu mövqeyə əsaslanır. Hesab edilir ki, insan potensialının inkişafını təmin etmək, hər bir vətəndaşın imkanlarının genişlənməsi yolu onun sağlamlıq və biliyindən keçir. Bu iki amil isə iqtisadiyyatın səviyyəsinin inkişafına və müvafiq olaraq vətəndaşların rifahının təmin olunmasına xidmət etməlidir. Məntiq tam anlaşılandır və ona əsaslanır ki, sağlam, müasir bilik və bacarığa malik insan bu potensialı gəlirlərin əldə edilməsinə yönəltmək iqtidarındadır. Bu səbəbdən əmsalların hesablanması zamanı sağlamlıq, savad, təhsil səviyyəsi və iqtisadi imkanları əks etdirən göstəricilərin istifadəsi nəzərdə tutulur. Belə yanaşma dövlət idarəçiliyi baxımından da tamamilə düzgündür. Əgər ölkə iqtisadi imkanlara malikdirsə və aparılan siyasət gəlirlərin ədalətlə bölünməsinə və sosial proqramların həyata keçirilməsinə xidmət edirsə, bu halda həmin ölkənin vətəndaşları sağlam və savadlı olmalıdırlar. Sağlam və savadlı olmaq isə öz növbəsində onlara yeni biliklərə yiyələnməyə, biliyi bacarığa, bacarığı isə iqtisadi durumun yaxşılaşdırılmasına yönəltməyə və gəlirləri artırmağa imkan yaradır. Bu səbəbdən bu üç amilin insan potensialının qiymətləndirilməsi üçün istifadə edilməsi iqtisadi və sosial fəaliyyətin planlaşdırılması və idarəedilməsi baxımından olduqca əhəmiyyətlidir.

### *3.4. İnsan inkişafında sağlamlıq göstəriciləri*

Sağlamlıq ən böyük nemətdir və onun göstəriciləri insan potensialına əsaslanan inkişafı səciyyələndirən əsas amillərdəndir. İnsan inkişafını

səciyyələndirən əmsalların hesablanmasının məqsədlərindən və hesablanan əmsaldan asılı olaraq təhlillərə fərqli sağlamlıq göstəriciləri cəlb edilir. Sağlamlığı səciyyələndirən müxtəlif göstəricilərdən istifadə edilməsi ilk növbədə ölkələrin inkişaf səviyyəsindən və müvafiq olaraq ölkə qarşısında duran və sağlamlıqla əlaqədar problemlərdən asılıdır. İnsan potensialının inkişafını səciyyələndirən göstəricilərin seçimində və onların qiymətləndirməyə cəlb edilməsində iki əsas faktor nəzərə alınırdı. Onların biri təklif edilən göstəricinin məlumat daşımaq baxımından əhəmiyyətli olmasıdır. Digər tərəfdən bu məlumatların alınmasına əlavə vəsait tələb olunmamalıdır və onlar ənənəvi statistikada istifadə edilməlidir. Bu iki amili nəzərə almaqla, beynəlxalq təşkilatların insan inkişafını qiymətləndirmək üçün ən çox istifadə etdiyi sağlamlıq göstəriciləri aşağıdakılardır:

***Ömür müddəti.*** İnsan inkişafı baxımından həyat və ölüm arasında sosial bərabərsizlik qeyri-bərabərliyin ən qəbuledilməz təzahürüdür. Digər tərəfdən, uzunömürlülük sağlamlığın ən ümumiləşdirilmiş göstəricisidir və bu məlumatların toplanması və təhlili üçün əlavə texniki vasitələr və ya maddi xərclər tələb olunmur. Bir qayda olaraq, demoqrafik göstəricilər, o cümlədən əhalinin orta ömür müddəti haqqında məlumatlar, milli və regional statistika qurumları tərəfindən monitorinq edilir və bu məlumatın toplanması üçün əlavə vəsait tələb edilmir. Sağlamlıq göstəricisi olmaqla yanaşı, ömür müddəti, eyni zamanda bu və ya digər ölkə və regionda sosial siyasətin səmərəliliyindən və onun insan potensialının inkişafına yönəldilməsindən xəbər verir.

Son zamanlar uzunömürlülüyü səciyyələndirmək üçün orta ömür müddəti ilə yanaşı, digər göstəricidən də istifadə olunur. Bu, gözlənilən ömür müddətidir. Gözlənilən ömür müddəti hər bir konkret ildə anadan olanlar üçün hesablanır və demoqrafiyanın ən müasir statistik göstəricilərdəndir. Bu göstəricinin üstünlüyü insanın uzun və sağlam ömür sürməsi üçün müvafiq şəraitin mövcudluğundan xəbər verməsindədir. Qeyd etmək lazımdır ki, bu göstərici müxtəlif ölkələrdə fərqlidir. 2015-ci il üçün dərc edilmiş məlumatlara görə, hazırda ən çox ömür sürmək potensialına malik olanlar Yaponiya vətəndaşlarıdır. Onların orta gözlənilən ömür müddəti 83,5 ildir. Nəzərə alınsa ki, bu, orta göstəricidir, aydın olur ki, bu ölkə əhalisinin bir qismi daha çox yaşayacaq. İnkişaf etmiş Avropa ölkələrində və eləcə də Avstraliya, Kanada,

Yeni Zelandiyada bu rəqəmlər kifayət qədər yüksək, 81 və bəzi hallarda isə 82 ildən çoxdur. Qeyd edilməlidir ki, praktiki olaraq, Avropa ölkələrinin əksəriyyətində gözlənilən ömür müddəti 80 yaşdan çoxdur və ya bu rəqəmə yaxındır. İl-ildən orta yaş və gözlənilən ömür müddəti bir çox inkişaf etmiş ölkələrdə artmaqdadır. Bir nəticə kimi bir sıra ölkələrdə əhalinin yaş strukturu dəyişir. Bununla əlaqədar həmin ölkələrdə iqtisadi və sosial sahələrdə həyata keçirilən siyasətdə müvafiq uyğunlaşmanın aparılması zərurəti yaradır. Əhalinin yaş strukturunun müzakirəsi zamanı nəzərə alınmalıdır ki, hazırda inkişafda yüksək göstəricilərə nail olmuş, bu gün əhalisinin gözlənilən ömür müddəti 81 və 82 yaş olan Avropa ölkələrində XX əsrin birinci onilliyində orta ömür müddəti yalnız 41 yaşa bərabər idi.

Bunlardan fərqli olaraq, dünyanın bir sıra ölkələrində orta yaş və gözlənilən ömür müddəti olduqca aşağıdır. Məsələn, Afrika qitəsində yerləşən Syera-Leonedə orta gözlənilən ömr müddəti 50,9 il təşkil edir. Oxşar göstəricilər bu qitənin bəzi digər ölkələrində də müşahidə olunur. Bunlara Mozambik, Çad, Lesotto, Nigeriya aid edilə bilər. Digər qitədə yerləşən Əfqanıstanda da bu göstərici nisbətən aşağıdır. Bu rəqəmlər inkişaf etmiş ölkələrdə gözlənilən ömür müddətindən az qala 1,5 dəfə qısadır. Şübhəsiz ki, bu iki qrup ölkələr arasında müşahidə olunan qeyri-bərabərlik qəbuledilməzdir və ikinci qrupa aid ölkələrdə müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Təsadüfi deyil ki, 2015-ci ildə BMT-nin təşəbbüsü ilə keçirilən Dünya Sammitində qəbul edilmiş "Davamlı İnkişaf Məqsədlərində" ölkələr arasında müşahidə olunan belə kəskin qeyri-bərabərliklərin aradan götürülməsi qarşıya qoyulan 17 əsas hədəflər arasındadır. Hazırda dünya ictimaiyyətinin diqqətində olan 2015–2030-cu illər üçün qəbul edilmiş davamlı inkişaf məqsədləri ölkələr arasında və ölkələr daxilində kəskin qeyri-bərabərlik ilə mübarizəyə xüsusi diqqət yetirilir.

***Müəyyən yaşa çatmaq ehtimalı olmayan əhali.*** Bu göstərici sağlamlığa aid olsa da, eyni zamanda ölkədə aparılan sosial siyasətin təzahürü kimi də qəbul edilə bilər. Müəyyən yaşa çatmaq ehtimalı, adətən, yoxsulluğun və digər məhrumiyyətlərin müəyyən edilməsi və yoxsulluqla əlaqədar əmsalların hesablanması zamanı istifadə olunur. Bir sıra ölkələrdə yoxsulluq əhalinin bir hissəsini uzun, sağlam və yaradıcı ömür sürmək imkanından məhrum edir. İnsan inkişafının müxtəlif sahələrin-

dəki vəziyyəti qiymətləndirmək üçün istifadə edilən bu əlamətin kəmiyyət göstəricisi müəyyən yaşa çatmaq ehtimalı olmayanların ümumi əhalinin sayına nisbət faizi kimi götürülür. Beynəlxalq statistikada bu göstərici ilə əlaqədar iki fərqli yanaşma mövcuddur. Onlardan biri inkişafda olan ölkələrdə yoxsulluğun səviyyəsini müəyyən etmək üçün istifadə olunur. Bu zaman 40 yaşına çatmaq ehtimalı olmayan əhalinin faizi nəzərə alınır. İkinci halda, yəni inkişaf etmiş ölkələr üçün 60 yaşa çatmaq ehtimalı olmayan əhalinin faizi hesablanır.

Göründüyü kimi, inkişaf etmiş və inkişafda olan ölkələrdə ümumi həyat səviyyəsi ilə yanaşı, yoxsulluq və onunla əlaqədar məhrumiyyətlər də fərqlənir. İnsanların ən əsas hüquqlarından olan yaşamaq hüququ səviyyəsində inkişaf etmiş və inkişafda olan ölkələrin vətəndaşları arasında belə böyük fərqin olması qəbuledilməzdir. Bu səbəbdən dünyada yoxsulluqla mübarizə, ölkələr arasında inkişaf səviyyəsinə görə hazırda mövcud olan kəskin fərqlərin aradan qaldırılması və yaxud önəmli dərəcədə azaldılması əsas hədəflərdəndir.

Qeyd edilməlidir ki, yoxsulluq bütün ölkələrdə, o cümlədən yüksək inkişaf etmiş ölkələrdə də mövcuddur. Bu səbəbdən həmin ölkələrin əhalisinin bir hissəsinin 60 yaşa çatmaq ehtimalı azdır. Məsələn, 2015-ci ildə dərc edilmiş məlumatlara görə, Norveçdə əhalinin gözlənilən ömür müddəti orta hesabla 81,6 yaşa çatdığı halda, bu ölkənin əhalisinin 8,3 faizinin 60 yaşına çatmaq ehtimalı yoxdur. ABŞ-da bu rəqəm 12,6, Yaponiyada isə 7,5 faizə bərabərdir. BMT-nin statistikasına əsasən inkişaf etmiş ölkələr arasında ən aşağı göstərici İsveçdə qeydə alınıb. Bu ölkə əhalisinin yalnız 7,3 faizinin 60 yaşa çatmaq ehtimalı çox aşağıdır.

Bir sıra inkişafda olan ölkələrdə isə 40 yaş artıq kritik hesab edilə bilər. Məsələn, bəzi Afrika və Asiya ölkələrində əhalinin bir hissəsi bu əsas hüquqdan məhrumdur. Beynəlxalq təşkilatların məlumatlarına əsasən, bu vəziyyət Zimbabvedə, Botsvanada, Mozambikdə və bir sıra digər ölkələrdə müşahidə olunur. Nəzərə alınsa ki, insanın yaşamaq potensialı orta hesabla ən azı 100 yaşdan çoxdur, aydın olur ki, bu ölkələrin əhalisinin böyük bir hissəsi ən əsas insan hüquqlarından olan uzun və ləyaqətli ömür sürmək imkanından məhrumdur. İnkişafda olan ölkələrin bu kateqoriyaya aid olan vətəndaşları yaşamaq üçün ayrılmış uzunömürlük potensialının təxminən 30 faizindən bəhrələnə bilirlər. Bu

vəziyyət yoxsulluq ilə mübarizənin böyük əhəmiyyət daşıdığını bir daha nümayiş etdirir. Yoxsulluğun aradan qaldırılması və ya nəzərəçarpan dərəcədə azaldılması insanın əsas hüquqlarından olan uzun və yaradıcı ömür sürmək hüququnun təmin olunması istiqamətində çox əhəmiyyətli bir addımdır.

***Körpələr arasında ölüm.*** Körpə ölümünün səviyyəsinin təhlili insan inkişafının qiymətləndirilməsində istifadə edilməkdədir. Bu göstərici həm səhiyyə xidmətlərinin səviyyəsinin vəziyyətindən, həm də sosial sferada həyata keçirilən tədbirlərin məqsədyönlü olmasından, bu sahələrdə həyata keçirilən siyasətdən xəbər verir. Bu göstəricinin qiymətləndirmə vahidi kimi hər hansı bir ölkədə və ya bölgədə sağ doğulmuş hər min uşaqdan bir yaşına çatmamış ölənlərin sayı götürülür.

Digər sağlamlıq göstəriciləri kimi, körpələr arasında ölümün səviyyəsinə görə də ölkələr arasında kəskin fərqlər müşahidə olunur. Məsələn, ölüm səviyyəsinin ən aşağı göstəriciləri Norveç, İslandiya, Sinqapur, Yaponiya, Koreya Respublikasında (Cənubi Koreya) müşahidə olunur. 2015-ci ildə dərc olunmuş bilgilərə görə, bu ölkələrdə doğulmuş 1000 uşaqdan ancaq 2–3-ü bu və ya digər səbəblərdən bir yaşına çatmamış tələf olur. Bunlardan fərqli olaraq 2015-ci ildə dərc edilmiş məlumata görə, Malidə bu rəqəm 78, Əfqanıstanda 71, Konqoda 87, Syera-Leonedə isə 107 nəfər təşkil edir. Ümumiyyətlə, 2015-ci il üçün dərc edilən məlumatlara görə, dünya ölkələrində hər 1000 uşaqdan orta hesabla 34-ü bir yaşına çatmamış tələf olur. Lakin bu orta göstərici insan potensialının inkişafına görə fərqlənən ölkələrdə müxtəlifdir. İnsan potensialının inkişafında çox yüksək nəticələr əldə etmiş ölkələrdə bu rəqəm 5, yüksək nəticələr əldə etmiş ölkələrdə 12, bu sahədə orta nəticələrə nail olmış ölkələrdə isə 35 təşkil edir. İnsan potensialının inkişafı sahəsində aşağı nəticələr ölkələrdə isə 1000 doğulmuş uşaqdan 62-i bir yaşınacan tələf olur. Göründüyü kimi, insan potensialının inkişaf səviyyəsi başlıca insan hüquqlarından olan yaşamaq hüququna bilavasitə təsir edir.

İnsan inkişafının qiymətləndirilməsində ömür müddəti ilə bağlı məlumatlar ən çox və ən geniş istifadə edilən göstəricilərdəndir. Bunlarla yanaşı, bir sıra digər sağlamlıq göstəriciləri də beynəlxalq və milli statistikaya cəlb olunur ki, onlar da, əsas etibarilə, insan inkişafında yoxsulluğun səviyyəsini və bununla əlaqədar məhrumiyyətləri müəyyən edərkən nəzərə alınır. Bunlardan aşağıdakıları qeyd etmək olar:

***Tibbi xidmətlərə əli çatmayan əhali.*** Təəssüf ki, bəzi ölkələrdə bu kateqoriyaya aid olan əhali var. Bu göstərici adətən inkişafda olan ölkələrdə yoxsulluğun müəyyən edilməsi zamanı nəzərə alınır. Kəmiyyət göstəricisi kimi tibbi xidmətlərə əli çatmayan əhalinin faizi göstərilir. Bəzi Afrika və Asiya ölkələrində tibbi xidmətlərə əli çatan əhalinin faizi çox aşağıdır.

Əsas dərman preparatları ilə təminat da bu göstəricinin bir təzahürüdür. İnkişaf etmiş ölkələrdə bu rəqəm 95–100 % təşkil etdiyi halda, bir sıra inkişafda olan ölkələrdə əhalinin yarıdan çoxu üçün əsas dərmanlar əlçatmazdır. Ömür müddətinin bu ölkələrdə az olmasının bir səbəbi də əhalinin tibbi xidmətlərə əlçatmazlığı və zəruri dərmanlarla kifayət qədər təmin edilməməsidir.

***Səhiyyəyə ayrılan xərclər.*** Bu göstəriciyə həm dövlət tərəfindən səhiyyəyə ayrılan vəsaitlər, həm də ölkə vətəndaşlarının tibbi xidmətlər üçün sərf etdiyi vəsaitlər aiddir. Tibb sahəsinə ayrılan dövlət xərcləri ümumi büdcənin faizi kimi göstərilir. Bəzi ölkələrdə bu rəqəm kifayət qədər yüksəkdir. Məsələn, Norveçdə, İslandiyada, İsveçdə, Yeni Zelandiyada səhiyyəyə ÜDM-in 9%-dən çoxu istiqamətləndirilir. Bir sıra ölkələrdə səhiyyəyə ayrılan vəsaitlər bundan da çoxdur. Məsələn, ABŞ-da bu rəqəm 17,9, Niderlandda 12,9, Almaniyada 11,3 faiz təşkil edir. Nəzərə alınsa ki, qeyd olunan ölkələrin büdcəsi də kifayət qədər böyükdür, aydın olur ki, bu ölkələrdə əhalinin sağlamlığına ayrılan vəsait xeyli çoxdur. Bir sıra ölkələrdə isə səhiyyəyə ÜDM-in yalnız 3–4 faizi yönəldilir. Belə ölkələr arasında bəzi Asiya və Afrika ölkələri də var. Qeyd edilməlidir ki, sağlamlıq məqsədlərinə yönəldilən dövlət xərcləri ilə ölkənin iqtisadi imkanları arasında əlaqə müşahidə olunmur. Məsələn, Qətərdə səhiyyəyə dövlət xərclərin ümumdaxili məhsulun yalnız 2,2 faizini yönəldir. Küveytdə bu rəqəm 2,9 faiz təşkil edir. Azərbaycan Respublikasında səhiyyə məqsədlərinə dövlət xərcləri ümumdaxili məxsulun 5,6 faizinə bərabərdir.

Beynəlxalq təşkilatların statistik hesabatlarını araşdırarkən aydın olur ki, səhiyyə sahəsinə ayrılan ÜDM payı və ölkələrin insan potensialının inkişafında qazanılmış nailiyyətləri arasında bilavasitə əlaqə mövcuddur. Məsələn, insan inkişafında çox yüksək nailiyyətlər əldə etmiş ölkələr səhiyyəyə ÜDM-in orta hesabla 12,2 faizini yönəldirlər. Bu sahədə yüksək nəticələr əldə etmiş ölkələr qrupunda bu rəqəm iki

dəfədən də azdır və 6 faiz təşkil edir. İnsan inkişafı sahəsində orta nəticələrə nail olmuş və bu sahədə nisbətən aşağı nəticələr əldə etmiş ölkələrdə bu rəqəmlər, müvafiq olaraq, 4,6 və 5,2 təşkil edir. Bir daha qeyd edilməlidir ki, son iki qrupa aid olan ölkələrdə ÜDM-in həcmi də yüksək deyil.

Dövlət büdcəsi ilə yanaşı, səhiyyəyə vətəndaşların fərdi büdcələrindən vəsait sərf edilir. Bu sahədə tibbi sığorta xidmətlərinin əhəmiyyəti böyükdür. Bəzi ölkələrdə sığorta vasitəsi ilə sərf edilən vəsait fərdi xərclərdən azdır. Digər ölkələrdə isə bu nisbət əksinədir. Bu səbəbdən insan inkişafında səhiyyəyə aid daha bir göstəricidən istifadə olunur. Bu göstərici həm dövlət, həm də fərdi xərcləri əhatə edən adambaşına düşən səhiyyə xərcləridir.

Adambaşına düşən səhiyyə xərclərinə görə də ölkələr arasında kəskin fərqlər var. Bəzi ölkələrdə bu rəqəm ildə orta hesabla 3 000 ABŞ dollarından çox, digərlərində isə 15 dollardan azdır. Qeyd edilməlidir ki, bunlar orta göstəricilərdir. Müxtəlif ölkələrdə ömür uzunluğunda müşahidə olunan kəskin fərqlərin bir səbəbi də adambaşına düşən səhiyyə xərclərinin fərqlənməsidir. Bu səbəbdən adambaşına düşən səhiyyə xərcləri eyni zamanda hər hansı bir ölkədə həyata keçirilən inkişaf strategiyasının sosialyönümlü olmasından xəbər verir.

***Təmiz içməli suya əli çatmayan əhali.*** Bu göstərici də inkişafda olan ölkələrdə yoxsulluq səviyyəsini müəyyən edərkən və onunla mübarizəni planlaşdırarkan istifadə olunur. Bilavasitə sağlamlıq göstəricisi olmasa da, içməli suyun kəmiyyətinin və onun keyfiyyət göstəricilərinin sağlamlıq və uzunömürlülük ilə əlaqəsi tamamilə aydındır. Göstərilən səbəbdən bu statistik məlumat tibbi təhlükəsizlik kateqoriyasına aid edilir və sağlamlıqla əlaqədar göstərici kimi səciyyələndirilir. Beynəlxalq təşkilatların yaydığı məlumata görə, inkişaf etmiş ölkələrdə bu problem, ümumiyyətlə, mövcud deyil. İnkişaf etmiş ölkələrin əhalisinin 100 faizi, dünya əhalisinin isə 82 faizi təkmilləşdirilmiş, sanitar tələblərinə cavab verən su mənbələrindən istifadə edə bilir. Bəzi ölkələrdə isə bu rəqəm daha aşağıdır. Məsələn, Efiopiyada bu imkanlara əhalinin 25 faizi, Kambocada isə 30 faizi malikdir. Qeyd etmək lazımdır ki, bu göstərici suyun xüsusi qurğulardan, yəni su şəbəkəsi və yaxud müasir quyulardan alınmasını, suyun müəyyən dərəcədə zərərsizləşdirilməsini əhatə edir. İçməli suyun tərkibinə və onun çirklənməsinə aid məlumatlar bu gös-

təriciyə daxil deyil. Təmiz içməli su ilə yanaşı, sanitariya tələblərinə cavab verən kanalizasiya sistemlərinin mövcudluğu da beynəlxalq sağlamlıq statistikasında nəzərə alınan amildir.

İnsan potensialının inkişafını, onun sağlamlığını və bu məqsədlərə xidmət edən layihələri prioritet kimi qəbul etmiş bir sıra ölkələrdə son illərdə əhalinin təmiz içməli su ilə təminatı istiqamətində bir sıra uğurlu layihələr həyata keçirilməkdədir. Beynəlxalq təşkilatların məlumatlarına əsasən, belə layihələr müxtəlif ölkələrin iri şəhərləri və kiçik yaşayış məntəqələrini əhatə etməklə, eyni zamanda sanitar və ekoloji tələblərə cavab verən müasir kanalizasiya sistemlərinin də yeniləşməsinə yol açıb. Bu istiqamətdə fəaliyyət milli və regional səviyyələrdə inkişafın planlaşdırılması və idarəedilməsi proseslərinin vacib istiqamətidir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında əhalinin içməli su ilə təchizində son illərdə xüsusi proqramlar həyata keçirilmişdir və nəzərə çarpan uğurlar əldə edilmişdir.

***5 yaşına qədər olan uşaqlarda çəkidə və boyda geriləmə.*** Bu göstərici də inkişafda olan ölkələrdə yoxsulluğun səviyyəsinin müəyyən edildiyi zaman istifadə olunur. Aşağı çəki və boy tibbi baxımdan qidanın kəmiyyətinin və keyfiyyətinin kifayət qədər olmamasının təzahürüdür. Beynəlxalq statistikada bu vəziyyət öz yaşına görə bədən kütləsi az olan uşaqların faizi ilə müəyyən edilir. Müxtəlif illərdə dərc edilmiş məlumatlara görə, bir sıra ölkələrdə inkişafda belə geriləmə həmin yaşda olan uşaqların 25–30 faizində müşahidə olunur. Belə vəziyyət Braziliya, Peru, Qvatemala, Kamboca, Pakistan, Hindistan, Uqanda, Nigeriya, Zambiya, Efiopiya və bir sıra digər Cənubi Amerika, Asiya və Afrika ölkələrində müşahidə edilməkdədir. Kifayət qədər qida almamaq boy və çəkinin azalmasına yol açmaqla yanaşı, uşaqların zehni qabiliyyətinə də mənfi təsir göstərir. Bu isə insan inkişafı üçün ən böyük maneədir və uşaqların zəruri səviyyədə bilik almasını və tələb olunan bacarıqlara yiyələnməsini əngəlləyir. Yoxsulluğun ən kəskin təzahürü olan aclıq və bununla əlaqədar uşaqların aşağı çəkidə olması ilə mübarizə rəsmi qurumlarla yanaşı, bütün vətəndaşların borcudur. Eyni zamanda qidanın kəmiyyət və keyfiyyət baxımından hətta minimal standartlara cavab verməməsi nəticəsində bir çox ölkələrdə müşahidə edilən uşaqların fizioloji inkişafdan qalması, yəni boyu və çəkisinin qəbul olunmuş normalardan az olması qlobal bir problem kimi hər zaman gündəmdədir. Bu səbəbdən

2015-ci ildə BMT-nin Baş Assambleyası və Dünya Sammiti 2015–20130-cu illərdə yoxsulluğun aradan qaldırılmasını və aclıq ilə mübarizəni əsas qlobal hədəflər sırasına daxil ediblər.

Qeyd edilməlidir ki, 2010-cu ildən başlayaraq BMT tərəfindən sağlamlıq göstəriciləri kimi qidanın kəmiyyət və keyfiyyətcə çatmaması, hətta uşaqların çəkisi və boyunda öz mənfi təsirini büruzə vermədiyi halda, artıq məhrumiyyət hesab edilir. Bu iki göstərici yoxsulluğun qiymətləndirilməsində istifadə olunmaqdadır.

Sadalananlardan başqa müasir beynəlxalq statistikada insan inkişafına mənfi təsir göstərən sağlamlıqla bağlı bəzi digər göstəricilərdən də istifadə olunur. Bunlara təhlükəli xəstəliklərin (tuberkulyoz, malyariya, qazanılmış immun çatışmazlığı sindromu və s.) yayılması, uşaqlar arasında yoluxucu xəstəliklərin qarşısının alınması tədbirləri (peyvənd olunan uşaqların faizi), sağlamlıq üçün təhlükəli vərdişlərin yayılma dərəcəsi (narkomaniya, adambaşına istehlak olunan tütün məmulatları, spirtli içkilər) və s. aiddir

Göründüyü kimi, insan inkişafının fərqli cəhətlərini xarakterizə etmək üçün müxtəlif sağlamlıq göstəricilərindən istifadə olunur. Bütün bu göstəricilərin (indikatorların) ümumi planlaşdırma zamanı nəzərə alınması uğurların əldə edilməsi üçün olduqca əhəmiyyətlidir.

## *3.5. İnsan inkişafında təhsil göstəriciləri*

Müxtəlif ölkələrin göstəricilərinin müqayisəsi göstərir ki, müvəffəqiyyətli inkişafın əsasını bilik təşkil edir. Birinci bölmədə müxtəlif ölkələrin inkişaf amillərini təhlil etdikdə bir daha aydın oldu ki, insan potensialı tərəqqinin əvəzolunmaz şərtidir. İnkişaf etmiş və inkişafda olan ölkələrin siyasi, iqtisadi və sosial sahələrdə əldə etdiyi nailiyyət müasir bilik və bacarıqların yaradılması və istifadəsindən asılıdır. Bilik və bacarıqların yaradıcısı, daşıyıcısı və tətbiq edəni isə insandır. Bu səbəbdən biliklərin əldə edilməsi üçün ən vacib amil olan təhsil insan inkişafının qiymətləndirilməsində xüsusi rol oynayır. İnsan inkişafının qiymətləndirilməsi və bu prosesin davamlılığını müəyyən etmək üçün istifadə olunan əmsallardan asılı olaraq fərqli təhsil göstəriciləri tətbiq edilir. İnsan inkişafının qiymətləndirilməsində əsasən istifadə olunan göstəricilər aşağıdakılardır:

***Təhsil ilə əhatə.*** Bu qrupa aid olan göstəricilər ümumi insan inkişafı və gender bərabərliyi ilə əlaqədar əmsalların hesablanması və müvafiq olaraq bu proseslərin planlaşdırılmasında istifadə olunur. Ümumiyyətlə, təhsillə əhatə edilmə bu sahədəki idarəetmə siyasətinin uğurunu və insan potensialının inkişafına yönəldilməsini əks etdirən əsas göstəricilərdən biridir. Bu göstərici müvafiq yaşda olan şəxslər arasında təhsilə cəlb olunanların payıdır ki, bu zaman əhalinin 6-23 yaş qrupunda təhsil alanların faizi nəzərə alınır. Dünya üzrə bu göstərici olduqca fərqlidir və 15 faizdən 99 faizə qədər dəyişə bilər. Qeyd etmək lazımdır ki, hazırda bütün dünyada, xüsusən inkişafda yüksək nəticələr əldə etmiş ölkələrdə ömürboyu təhsil dövlət siyasətinin əsas istiqamətlərindəndir və insan potensialının formalaşmasına əsaslanan innovativ inkişafın əsas amili kimi qəbul edilir. Azərbaycan Respublikasında bu göstərici yüksəkdir və inkişafda yüksək nəticələr əldə etmiş ölkələr səviyyəsindədir.

***Təhsilin orta müddəti.*** Bu məlumat adətən əhalinin qeydə alınması prosesində və yaxud xüsusi sorğular nəticəsində əldə edilir və hər hansı bir ölkədə vətəndaşların orta hesabla neçə illik təhsilə malik olmasını göstərir. Dünyada bu göstərici çox fərqlidir. Bir sıra ölkələrdə bu göstərici çox aşağıdır. Məsələn, Burkino Faso, Çad, Qvineyada əhalinin orta hesabla təhsil alma müddəti 2–6 arasında dəyişir. Əksinə, digər inkişafda yüksək nəticələr əldə etmiş ölkələrdə bu rəqəm yüksəkdir. Məsələn, Norveçdə əhali orta hesabla 12,6 il təhsilə cəlb olunur. Avstriyada bu rəqəm 12,8, Almaniyada isə 12,9 il təşkil edir. Azərbaycan Respublikasında bu göstərici 11,2 il təşkil edir. Bu, kifayət dərəcədə yüksək nəticədir.

Təhsil müddəti ilə əlaqədar beynəlxalq statistikada digər bir göstərici də istifadə edilməkdədir. Bu göstərici hər hansı bir ölkədə 25 və daha çox yaşı olan əhali arasında ən azı orta təhsilli olanların faizidir. Bu prosesi monitorinq edən beynəlxalq təşkilatların məlumatları müxtəlif ölkələr arasında bu göstəriciyə görə böyük fərqlər mövcuddur (cədvəl 2.10). Cədvəldə təqdim olunmuş məlumatlardan aydın olur ki, müxtəlif ölkələrdə insan potensialının inkişafı sahəsində əldə edilmiş nəticələr bilavasitə əhalinin təhsil səviyyəsi ilə əlaqədardır. Bu zaman ölkədə müəllimlərin sayı və hər müəllimə düşən əhalinin sayı da insan inkişafında uğur qazanılmasının vacib şərtidir.

Dərc edilmiş və 2015-ci ilə aid olan beynəlxalq statistika göstərir ki, insan inkişafı sahəsində çox yüksək nəticələr əldə etmiş ölkələrdə müvafiq yaşa çatmış əhalinin orta hesabla 87 faizinin ən azı orta təhsili var. İnsan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş qrupa daxil olan ölkələrdə bu rəqəm 64,9 faizə bərabərdir. İnsan potensialının inkişafı sahəsində orta və nisbətən aşağı nəticələr əldə etmiş ölkələrdə bu orta rəqəmlər, müvafiq olaraq, 45,0 və 21,6 faiz təşkil edir (şəkil 3.11).

*Cədvəl 3.10. İnsan potensialının inkişafı sahəsində fərqli nəticələr əldə etmiş ölkələrin təhsil göstəriciləri*

| İnsan potensialının inkişafına görə fərqlənən ölkələr qrupu | Dünyada reytinqi | Ölkələr | 25 yaşa çatmış əhali arasında ən azı orta təhsilli olanlar, %[1] | Bir müəllimə düşən əhalinin sayı | ÜDM adambaşı, ABŞ dolları (AQP ilə)[2] |
|---|---|---|---|---|---|
| Çox yüksək nəticələr əldə etmiş ölkələr | 1 | Norveç | 97,1 | –* | 64 992 |
| | 6 | Almaniya | 96,6 | 12 | 43 919 |
| | 26 | İspaniya | 69,8 | 13 | 32 045 |
| | 48 | Küveyt | 56,0 | 14 | 83 961 |
| Yüksək nəticələr əldə etmiş ölkələr | 90 | Çin | 65,3 | 18 | 12 547 |
| | 72 | Türkiyə | 49,4 | 20 | 18 677 |
| | **78** | **Azərbaycan** | **95,5** | **12** | **17 500** |
| | 75 | Braziliya | 53,6 | 25 | 15 175 |
| Orta nəticələr əldə etmiş ölkələr | 110 | İndoneziya | 45,4 | 25 | 9 788 |
| | 130 | Hindistan | 42,1 | 35 | 5 497 |
| | 108 | Misir | 52,1 | 28 | 10 512 |
| | 116 | C. Afrika | 74,3 | 29 | 12 122 |
| Aşağı nəticələr əldə etmiş ölkələr | 147 | Pakistan | 33,2 | 43 | 4 866 |
| | 174 | Efiopiya | 12,5 | 54 | 1 428 |
| | 152 | Nigeriya | –* | 43 | 5 341 |
| | 145 | Nepal | 27,4 | 24 | 2 311 |

*Mənbə:* [1]*Human Development Report, New York, UNDP, 2015*
[2]*AQP – Alıcılıq Qabiliyyəti Pariteti*
**Məlumat yoxdur*




***Şəkil 3.11.*** *İnsan inkişafı sahəsində fərqli nəticələr əldə etmiş ölkələrdə ən azı orta təhsili olan əhali (25 yaşından çox olan əhalinin faizi)*

*Mənbə: Human Development Report, UNDP, New York, 2015.*

Təqdim edilmiş məlumatlardan artıq aydındır ki, uğurlu inkişafın əsasında insan potensialı durur və bu amil həlledici əhəmiyyətə malikdir. İnsan potensialının formalaşması və inkişafı isə təhsildə qazanılmış uğurlardan asılıdır. Bu səbəbdən davamlı inkişafın planlaşdırılmasında təhsil sahəsində fəaliyyətin optimal təşkili xüsusi yer tutmalıdır.

***Savadsızlıq.*** Savadsızlıq təhsilin ən aşağı göstəricisidir və əsasən, yoxsulluq səviyyəsinin müəyyən edilməsi zamanı nəzərə alınır. BMT-nin təsnifatına görə, iki növ savadsızlıq mövcuddur. Onlardan biri ümumi savadsızlıqdır ki, bu da hər hansı bir fərdin yazıb-oxuya bilməməsini səciyyələndirir. Dünyada tam savadı olmayan əhalinin sayı getdikcə azalır. Hazırda inkişaf etmiş ölkələrdə əhalinin 99 faizi savadlıdır. Azərbaycan Respublikasında da savadsızlıq praktiki olaraq müşahidə edilmir. İnkişafda olan bəzi Asiya və Afrika ölkələrinə aid dərc edilmiş məlumatlara görə, bu rəqəm orta hesabla əhalinin 52,5 %-ni əhatə edir. Bu, orta rəqəmdir. Bəzi ölkələrdə isə savadı olmayan əhalinin payı 80 %-dən də çoxdur. Bu, əsasən, bəzi Afrika ölkələrində müşahidə

olunur. Şübhəsiz ki, bu ölkələrin inkişafı üçün ilk növbədə, savadsızlıq aradan qaldırılmalıdır.

***Funksional savadsızlıq.*** Beynəlxalq səviyyədə qəbul edilmiş təsnifata görə, ümumi savadsızlıqla yanaşı, ***funksional savadsızlıq*** anlayışı da mövcuddur. Bu zaman funksional savadı olmayanlar yazılı mətnləri oxuya bilsələr də, bəzi hallarda onun mahiyyətini dərk edə bilmirlər. Funksional savadsızlıq müvafiq testlər əsasında müəyyən edilir. Testlər zamanı şəxslərə xüsusi tərtib edilmiş mətnləri oxumaq və təhlil etmək təklif edilir. Təhlil nəticəsində funksional savadın olub-olmaması müəyyən edilir. Funksional savadsızlıq da məhrumiyyətin göstəricisidir və onun təhlili inkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsini müəyyən etmək üçün istifadə olunur. XXI əsrin ilk illərində dərc olunmuş məlumatlara görə, ABŞ-ın 20 %, Böyük Britaniyanın 21,7 %, Almaniyanın 18,4 %, Norveçin isə 7,9 % əhalisi funksional savadsızdır. Göründüyü kimi, funksional savadsızlıq iqtisadi və sosial baxımdan yüksək nailiyyətlər əldə etmiş ölkələrdə də mövcuddur.

Son illərdə funksional savadsızlıq anlayışı yeni məna daşımağa başlamışdır. Bu onunla əlaqədardır ki, bəzi hallarda təhsil haqqında alınmış formal sənədlər onların sahiblərinin peşə qabiliyyətlərinə uyğun olmur. Funksional savadsızlıq bir sıra hallarda sənayenin müxtəlif sahələrində, inşaatda, təbabətdə və xidmət sahələrində özünü büruzə verir. Funksional savadsızlığın fəsadları çox ağır ola bilir. Bu hallar az olsa da, təhsil müəssisələrinin attestasiya prosesində nəzərə alınmalıdır. Bu onu göstərir ki, həm dövlət, həm də regional səviyyədə inkişafın planlaşdırılması və idarəedilməsində yalnız təhsilə cəlb olunma, orta təhsil müddəti deyil, eyni zamanda təhsilin keyfiyyəti də nəzərə alınmalıdır.

2010-cu ildən başlayaraq insan inkişafını əngəlləyən əsas amillərdən olan yoxsulluğun qiymətləndirilməsində bir sıra əlavə göstəricilərin istifadə edilməsi təklif edilmişdir. Bu göstəricilər əhalinin təhsil sahəsində məhrumiyyətlərini nəzərə alan göstəricilərdir. Əhalinin orta təhsilinin 5 ildən az olması və uşaqların ən azı 8 illik təhsil almaması məhrumiyyət kimi müəyyən edilib. Bu təhsil göstəriciləri iqtisadi məhrumiyyətlə məhdudlaşmayan çoxölçülü yoxsulluğun səviyyəsinin qiymətləndirilməsi zamanı istifadə olunmaqdadır.

Bəzi hallarda insan inkişafının qiymətləndirilməsi zamanı əlavə göstərici kimi ölkədə elmi fəaliyyətlə məşğul olanların sayı da nəzərə alına

bilər. Bu göstəricilərdən istifadə etməklə ölkə və yaxud bölgə üçün yeni biliklərin əldə edilməsinə olan diqqət qiymətləndirilir. Bu, əsasən, elm və təhsil sahəsində dövlət siyasəti barədə təsəvvür yaradır.

### *3.6. İnsan inkişafının iqtisadi göstəriciləri*

İqtisadi imkanlar insan inkişafı üçün olduqca əhəmiyyətlidir. İnsan inkişafının qiymətləndirmə prosesi zamanı aşağıdakı göstəricilər nəzərə alınır:

***Adambaşına orta gəlir.*** İnsan inkişafının vəziyyətinin qiymətləndirilməsi və bu məqsədlə müxtəlif əmsalların hesablanması zamanı istifadə olunan ən əsas göstərici ölkədə adambaşına düşən gəlirin miqdarıdır. Bu, adətən, adambaşı ***ümumdaxili məhsul (ÜDM)*** kimi göstərilir. ÜDM ilə yanaşı, təhlillərdə ***Ümummilli məhsul* da *(ÜMM)*** göstərici kimi istifadə edilə bilər.

İdarəetmə texnologiyalarına əsasən hər hansı bir inkişafın planlaşdırılması mərhələsində qərarın qəbulu həmin sahədə əldə edilmiş nailiyyətlərin, bu sahədə toplanmış təcrübənin öyrənilməsini və istifadəsini nəzərdə tutur. Bu zaman beynəlxalq təcrübənin öyrənilməsi, ölkələrin inkişaf göstəricilərinin müqayisəli təhlili xüsusi əhəmiyyət daşıyır. İqtisadi sahədə ölkələr arasında müqayisələr aparmaq üçün mövcud fərqləri müəyyən etmək və vahid bir göstərici əsasında müqayisələr aparmaq üçün beynəlxalq praktikada qəbul olunub ki, gəlirlər bütün ölkələr üçün ABŞ dolları ilə göstərilsin. Lakin, artıq məlum olduğu kimi, müxtəlif ölkələrdə dolların alıcılıq qabiliyyəti fərqlidir. Bu müqayisələrdə ABŞ dolları ***Alıcılıq Qabiliyyəti Pariteti (AQP)*** təqdim edilir. Müvafiq beynəlxalq statistik və analitik mənbələrdə bu məlumat «adambaşına gəlir ABŞ dolları və AQP nəzərə alınmaqla» kimi verilir və ya "beynəlxalq ABŞ dolları" adlandırılır. Bundan sonra ölkələr arasında müqayisələr aparmaq üçün real imkanlar yaranır. İnsan inkişafına aid hər hansı əmsalın hesablanması zamanı gəlirlərin səviyyəsi ancaq ABŞ dollarında və AQP nəzərə alınmaqla aparılır. Ümumiyyətlə, BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Evrostat və digər beynəlxalq inkişaf və maliyyə təşkilatları təhlillər aparan zaman və yaxud hesabatlar tərtib edərkən alıcılıq qabiliyyəti paritetini mütləq nəzərə alırlar.

Qeyd edilməlidir ki, qloballaşma şəraitində müxtəlif ölkələrdə alıcılıq qabiliyyətlərini müqayisə etmək üçün bir sıra daha yüngül əldə

ediləbilən əmsallardan da istifadə edilir. Məsələn, Böyük Britaniyanın iqtisadi nəşrlərdən biri hər il "Big Mak" əmsalı hesablayır və bu tədqiqatın nəticələrini dərc edir. Bu yanaşma zamanı müxtəlif ölkələrdə McDonalds restoranlarında eyni məhsula qiymətlər müqayisə edilir və müşahidə edilən fərqlər əsasında müvafiq əmsallar hesablanır. Buna oxşar "iPod" əmsalı da məlumdur ki, onun hesablanmasında "Applle" şirkətinin eyni məhsuluna müxtəlif ölkələrdə olan qiymətlər müqayisə edilir. "iPod" alıcılıq qabiliyyəti əmsalı Avstraliyanın investisiya bankı tərəfindən hazırlanır və dərc edilir. Lakin nəzərə almaq lazımdır ki, həm McDonalds, həm də iPod əmsalları yalnız köməkçi funksiya daşıyan bir indikator kimi istifadə edilə bilər. Əsas müqayisəli iqtisadi göstəricilər isə yalnız tam həcmli alıcılıq qabiliyyəti əmsalı (AQP) əsasında müəyyən edilə bilər.

***Yoxsulluq həddindən aşağı yaşayan əhali.*** Bu göstərici, adətən, inkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsini müəyyən edərkən istifadə olunur. İnkişafda ən yüksək nailiyyətlər əldə etmiş ölkələrdə belə əhalinin bir hissəsinin gəlirləri yoxsulluq həddindən aşağı ola bilir. Müxtəlif inkişaf etmiş ölkələrdə bu qrupa aid olan sakinlər ölkə vətəndaşlarının 5–17 %-ni təşkil edir. Ən aşağı göstərici Çexiya və Finlandiyada qeydə alınıb. Bu ölkələrdə, müvafiq olaraq, əhalinin 4,9 və 5,4 %-nin gəlirləri yoxsulluq həddindən aşağıdır. Norveç və İsveçdə də bu rəqəmlər nisbətən aşağıdır – 6 %-ə yaxın. ABŞ-da bu rəqəm 17 %, Fransada və Böyük Britaniyada isə 12 %-dən çoxdur. Dünyanın inkişafda olan bir sıra ölkələrində isə bu rəqəm 70 faizə yaxındır. Məsələn, beynəlxalq təşkilatların 2015-ci il üçün hesabatlarına görə, zəngin neft və qaz ehtiyatlarına malik olan Nigeriyada əhalinin 62 %-nin gəlirləri alıcılıq qabiliyyəti paritetini nəzərə almaqla 1,25 ABŞ dollarından azdır. Konqoda bu rəqəm 32,8, Pakistanda 12,7, Banqladeşdə 43,3, Çində 6,3, Hindistanda 23,6, Zambiyada 74,3 faiz əhaliyə aiddir. Çin və Hindistanda əhali sayının çox olması və eyni zamanda bu ölkələrin hər birində əhalinin 6 faizdən, digərinin isə 23 faizdən çoxunun beynəlxalq səviyyədə qəbul olunmuş 1,25 ABŞ dolları yoxsulluq həddindən aşağı yaşaması dünyada yoxsulluğun nə dərəcədə geniş yayılması barəsində təsəvvür yarada bilər. Bu səbəbdən kəskin yoxsulluq ilə mübarizə, aclığın aradan götürülməsi bəşəriyyət qarşısında duran ən əhəmiyyətli problemdir. Bununla əlaqədar 2015-ci ildə Dünya Sammitində gələcək 15 il üçün qəbul edilmiş məqsədlər yoxsul-

luğun aradan qaldırılmasını və bu istiqamətdə beynəlxalq əməkdaşlığın güclənməsini nəzərdə tutur.

İqtisadi məhrumiyyətlər və onlarla əlaqədar olan fəsadlar yoxsulluğun yalnız bir təzahürüdür. Son zamanlar çoxölçülü yoxsulluq əmsalları da hesablanır ki, bu zaman bir çox göstəricilər nəzərə alınır. Bunlara elektrik enerji ilə təminat dərəcəsi, evlərdə döşəmələrin keyfiyyəti, müxtəlif dərəcədə qida çatmazlıqları, qida hazırlanması üçün istifadə olunan yanacağın növü, təkmilləşmiş sanitar xidmətlərinin mövcudluğu və s. aiddir. Çoxölçülü məhrumiyyətlərin təhlili yoxsulluğa həsr olunmuş bölmədə müzakirə edilir.

***İşsizlik.*** Bu iqtisadi göstəricidən inkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsini müəyyən etdikdə istifadə olunur. Bəllidir ki, işsizliyin səbəbi, hər hansı bir vaxt kəsiyində əmək bazarında işçi qüvvəsinin təklifinin həmin qüvvəyə olan tələbatdan artıq olmasıdır. Qısamüddətli işsizlik bu və ya digər şəkildə hər bir ölkədə mövcuddur. Hesab edilir ki, ümumi əmək qüvvəsinin təxminən 95 faizinin əməyə cəlb olunması və qalan hissəsinin yalnız müvəqqəti işsiz olması normal bir vəziyyətdir. Belə halda ciddi iqtisadi və sosial fəsadlar törənə bilməz. Uzunmüddətli işsizlik ilə vəziyyət fərqlidir. İnkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsini müəyyən edərkən uzunmüddətli işsizlik göstəricisindən istifadə olunur. Bu zaman 12 ay və daha çox müddət işsiz qalanların qeydiyyatı aparılır. Uzunmüddətli işsizliyə aid ən aşağı göstərici Norveçdə qeydə alınıb. Bu ölkədə müvafiq yaşlı əhalinin 3,1 faizi işsiz olduğu halda, onların yalnız 0,5 %-i uzunmüddətli işsiz kimi qeydiyyata düşüb. İşsizliyin ən yüksək səviyyəsi isə Avropanın cənubunda yerləşən bəzi ölkələrdə müşahidə edilir. Məsələn, Yunanıstanda, İspaniyada ümumi işsizlər 25–30 faiz təşkil etdiyi halda, gənclər arasında buna daha tez rast gəlinir və bəzi hallarda əhalinin bu qrupunda işsizlik 50 faizdən çox olur (şəkil 3.12). Bu şəkildə inkişaf etmiş ölkələrdə ümumi və 15–24 yaşında gənclər arasında 2015-ci ildə dərc edilmiş məlumatlar təqdim edilmişdir. Bir sıra ölkələrdə gənclər arasında müşahidə edilən yüksək səviyyəli işsizlik xüsusi diqqət cəlb edir. Əhalinin bu qrupu arasında yer almış işsizliyin bir səbəbi də təhsil və əmək bazarı arasında müşahidə edilən uyğunsuzluq ola bilər. Bu bir daha insan inkişafı və onun potensialının formalaşmasının planlı şəkildə aparılmasının əhəmiyyətini göstərir.




*Şəkil 3.12. İnkişaf etmiş ölkələrdə ümumi (1) və gənclər arasında (2) işsizlik, %*

- 1 - 2

*Mənbə: Human Development Report, UNDP, New York, 2015*

Sadalanan iqtisadi göstəricilər ilə yanaşı, insan inkişafının qiymətləndirilməsində iqtisadi vəziyyəti səciyyələndirən digər məlumatlardan da istifadə olunur. Onlar insan inkişafına aid əmsal və digər oxşar göstəricilərin hesablanmasında bilavasitə istifadə olunmasalar da, ümumilikdə inkişafın uğurlu olmasından və insan maraqlarına tuşlanmasından xəbər verirlər. Məsələn, ***Engel qanunu*** mövcuddur ki, bu da xərclərin paylanmasının təhlilinə əsaslanaraq iqtisadi və sosial durumdan xəbər verir. Fərdlərin və ya ev təsərrüfatlarının ümumi xərclərinin neçə faizinin ərzaq mallarına xərclənməsi belə göstəricilərdən biridir. Müxtəlif ölkələrdə bu rəqəm fərqlidir və bir qayda olaraq, 17 %-lə 90 % arasında dəyişə bilir. Ərzaq xərclərinin payının ümumi xərclər arasında azlıq təşkil etməsi ölkə vətəndaşlarının iqtisadi durumunun daha yüksək olmasından və uğurlu inkişaf üçün şəraitin daha əlverişli olmasından xəbər verir.

## *3.7. İnsan inkişafı əmsallarının hesablanması*

Artıq məlum olduğu kimi, insan inkişafını səciyyələndirən əmsallar üç göstərici – sağlamlıq (ömür müddəti, körpələr arasında ölüm faizi,

çəkisi və boyu normadan aşağı olan uşaqların payı, təmiz içməli su ilə təmin edilmə, qida hazırlamaq üçün istifadə olunan yanacağın növü, evlərdəki döşəmənin keyfiyyəti və s.), təhsil (təhsilə cəlb olunma, təhsilin orta müddəti və savadsızlıq, o cümlədən funksional savadsızlıq), iqtisadi (adambaşına gəlir və yoxsulluq həddindən aşağı yaşayan əhali, uzunmüddətli işsizlik və s.) göstəricilər əsasında hesablanır. İnsan inkişafının vəziyyətini bir neçə əmsallar səciyyələndirir. Bunların birincisi və ən əsası bütün əhali üçün hesablanan insan inkişafı əmsalıdır. İnsan inkişafını səciyyələndirən digər göstərici gender inkişafı əmsalıdır ki, bu da kişi və qadınlar arasında müşahidə edilən və edilə bilən sosial fərqləri nümayiş etdirir. Gender inkişafında müşahidə edilən fərqlərin aradan qaldırılmasına yönəldilmiş fəaliyyəti qiymətləndirmək üçün qadınların imkanlarının genişləndirilməsini əks etdirən əmsal da hesablanır.

Yoxsulluq insan inkişafını məhdudlaşdıran əsas amillərdən biridir. Bu səbəbdən əhalinin yoxsulluğunu səciyyələndirən əmsallar da insan inkişafını əks etdirən göstəricilər sırasındadır. Davamlı insan inkişafını səciyyələndirən bütün əmsalların hesablanması üçün BMT və digər beynəlxalq təşkilatlar tərəfindən təklif olunmuş xüsusi düsturlardan istifadə olunur. İnsan inkişafının ümumi prinsiplər əsasında qiymətləndirilməsi və bunun üçün eyni yanaşmanın tətbiqi beynəlxalq müqayisələrə imkan verir və əldə edilmiş ən böyük uğurların təbliğinə şərait yaradır. BMT-nin təşəbbüsü ilə 2010-cu ildən başlayaraq çoxölçülü yoxsulluq əmsalı kimi göstərici tətbiq edilir. Çoxölçülü yoxsulluğun qimətləndirilməsinə yeni 18 göstərici daxil edilmişdir. Bu məhrumiyyətlərin üçünün eyni zamanda mövcudluğu yoxsulluq kimi qiymətləndirilir. Beynəlxalq təşkilatlar tərəfindən 2015–2030-cu illər üçün hədəflənmiş qlobal məqsədlər arasında yoxsulluq ilə mübarizə yenə də yer almışdır. Dünyada yoxsulluq müşahidə edildikcə bu halla mübarizə gündəmdə olacaq.

Hesablanan əmsallar arasında ən ümumiləşdirilmişi insan inkişafı əmsalıdır (İİƏ). Digər əmsallar kimi İİƏ-nin qiyməti 0 və 1 arasında dəyişir. Hazırkı dövr son dərc olunmuş məlumatlara görə, ən yüksək İİƏ Norveçdə qeydə alınmışdır və 0,944-ə bərabərdir. İnsan potensialının inkişafı göstəricilərinə görə, ən geridə qalmış ölkələr Mərkəzi Afrika Respublikası və Nigerdir. Bu ölkələrdə İİƏ müvafiq olaraq 0,350 və 0,348-ə bərabərdir. BMT-nin 2015-ci ildə apardığı müqayisəli təhlil və onun əsasında dərc etdiyi hesabata görə, insan inkişafı əmsalı Azərbaycan

Respublikasında 0,751-ə bərabərdir. Bu, dünya üçün orta rəqəmdən (0,711) və insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupunun orta göstəricilərindən (0,744) çoxdur.




***Şəkil 3.13.*** *İnsan İnkişafı İndeksi: Dünya (1, orta), Azərbaycan Respublikası (2), 2000 – 2014.*

*Mənbə: UNDP, New York, 2015.*

İnsan İnkişafı Əmsalı (İİƏ) hər ölkədə insan inkişafının ümumi vəziyyətini əks etdirir. Bununla yanaşı, ölkə əhalisi tərkibində ayrıca qrupların insan inkişafı üçün mövcud şəraitinin qiymətləndirilməsinə yönəldilmiş əmsallar da hesablanır ki, onlar da müxtəlif etnik və ya peşə qruplarda, yaxud regionlarda olan vəziyyəti səciyyələndirir.

Qeyd edildiyi kimi, ölkə daxilində insan inkişafı vəziyyətini qiymətləndirən əmsallar, adətən, əhalisinin sayı kifayət qədər çox və ölkənin müxtəlif əyalətlərində əhalisi fərqli iqtisadi və sosial şəraitdə yaşayan ölkələrdə həyata keçirilir. Ölkədə regionlar miqyasında insan potensialının inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün müxtəlif irqi, dini və ya milli qrupların yaşaması əsas ola bilər. Məsələn, insan inkişafı əmsallarının hesablanması əhalisi bir milyarddan artıq olan Hindistanda həyata keçirilib. Aparılmış təhlillər və müqayisələr göstərmişdir ki, insan

inkişafı əmsalları və onların hesablanması üçün əsas kimi götürülən təhsil, sağlamlıq və iqtisadi göstəricilər Hindistanın müxtəlif bölgələrində fərqlidir və bir sıra hallarda bu fərqlər kifayət dərəcədə kəskindir. Bu ölkədə aparılmış tədqiqatlar göstərmişdir ki, bu prosesin kökündə əsasən regionların iqtisadi və sosial inkişaflarında müşahidə edilən fərqlər durur. Eyni zamanda bu fərqlər Hindistan cəmiyyətində ənənəvi mövcud olan sosial qruplar arasında da müşahidə edilməkdədir. Bu məlumatlar iqtisadi inkişafa görə regionlar arasında müşahidə olunan fərqlərin aradan qaldırılmasına və sosial bərabərliyin bərqərar olmasına xidmət edir.

Məlum olduğu kimi, Hindistan XXI əsrin əvvəllərində dünyanın ən sürətlə iqtisadi inkişaf edən dörd dövlətindən biridir. İnsan inkişafına aid ölkədaxili regional tədqiqatlar dünyanın digər sürətlə inkişaf edən ölkəsi – Braziliyada da aparılmışdır. Fərqli qitədə yerləşməsinə, etnik və dini baxımdan Hindistandan kəskin şəkildə fərqlənməsinə baxmayaraq, bu ölkədə də müxtəlif regionlarda məskunlaşan əhalinin insan inkişafı göstəriciləri arasında əhəmiyyətli qeyri-bərabərlik müşahidə edilmişdi. İnsan inkişafı göstəricilərində qeyri-bərabərlik əhalinin müxtəlif regionlarda yaşaması və fərqli qəbilələrə malik olmasından da asılı idi. Braziliya və digər Cənubi Amerika ölkələrində aparılan tədqiqatların nəticələri milli inkişaf proqramlarının planlaşdırılması və həyata keçirilməsi zamanı nəzərə alınmaqdadır.

İnsan inkişafı əmsalı BMT üzvü olan ölkələr üçün hər il hesablanır. Bu göstərici hər il artmaqdadır. Bu artım həm insan inkişafının planlaşdırılmasında və idarə edilməsində ən yüksək nailiyyətlər əldə etmiş və dünyada bu sahədə birinci olan Norveçdə, həm də bu sahədə geridə qalan və dünya reytinqində sonuncu yerdə duran Nigerdə müşahidə olunur. Lakin müxtəlif ölkələrdə bu artımın sürəti fərqlidir. Müqayisələr göstərir ki, Azərbaycan Respublikasında həyata keçirilən tədbirlər nəticəsində ölkədə İİƏ sürətlə artır və dünya üzrə qeyd edilən orta artımı üstələyir (şəkil 3.13). Məsələn, 2000-ci ildən sonra on il ərzində dünya üzrə insan inkişafı əmsalı (İİƏ) orta hesabla ildə 0,85 faiz artmışdır. Həmin dövrdə Azərbaycanda bu göstəricinin illik artımı 1,46 faiz təşkil etmişdir. Bu o deməkdir ki, Azərbaycan Respublikasında aparılan iqtisadi və sosial siyasətin prioriteti insan inkişafı və bu istiqamətdə gerçəkləşdirilən tədbirlər olduqca səmərəlidir. Son illər ölkədə müşahidə olunan sürətli iqtisadi artım və sosial siyasətin uğurları insan inkişafı göstəricilərinin daha da artması üçün zəmin yarada bilər. Ölkə Prezidenti

İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən insan potensialının inkişaf strategiyası təhsilin müxtəlif pillələrində təhsilin təkmilləşməsini, müxtəlif peşə sahiblərinin ixtisaslarının artırılmasını, dövlət qulluqçularının və qərar qəbul edənlərin yenidən hazırlanmasını və digər, o cümlədən ömürboyu təhsili nəzərdə tutur. Bu vahid strategiya çərçivəsində əhalinin məlumatlandırılması da xüsusi yer tutur (şəkil 3.14).




***Şəkil 3.14.*** *Davamlı inkişaf naminə insan potensialının təkmilləşməsi*

Hər hansı bir ölkənin insan inkişafı sahəsində yüksək nailiyyətlər əldə etməsi üçün iqtisadi imkanlar mühüm əhəmiyyət daşıyır. Lakin iqtisadi imkanların mövcudluğu heç də bu tərəqqinin təminatçısı çıxış edə bilməz. Bu proses, eyni zamanda insan potensialının formalaşmasına yönəldilmiş siyasətin reallaşdırılması ilə bağlıdır. Məsələn, insan inkişafı üzrə dünyada ən yüksək nailiyyətlər əldə etmiş ölkələrdən biri olan Avstraliyada adambaşına düşən ümumdaxili məhsul digər Avropa ölkəsi olan Lüksemburqdan 1,5 dəfə, Afrika qitəsində yerləşən Küveytdən 2 dəfə azdır. Buna baxmayaraq, BMT-nin 2015-ci il üçün dərc etdiyi hesabatda Avstraliya ümumdünya reytinqində 2-ci yerdə, Lüksemburq 19-cu, Küveyt isə 48-ci yerdədir. Bu o deməkdir ki, Avstraliyada milli gəlir əhali arasında daha ədalətli bölünür və bütün cəmiyyətə daha səmərəli xidmət

edir. Bu isə ilk növbədə, optimal idarəetmənin, bu sahədə fəaliyyət göstərən insanların yüksək və müasir bilik və bacarığa malik olmasının, insan inkişafı sahəsində düzgün siyasətin nəticəsi kimi qiymətləndirilə bilər.

Yuxarıda göstərilən hər üç ölkə iqtisadi baxımdan yüksək inkişafa və yüksək ümumdaxili məhsula malikdirlər. Lakin bu qanunauyğunluq adambaşına gəlir səviyyəsi müxtəlif olan ölkələr arasında da müşahidə olunur. Məsələn, Ekvatorial Qvineyada adambaşına düşən ÜDM 22 min ABŞ dollarına yaxındır. Bu, kifayət dərəcədə yüksək göstəricidir. Lakin bu gəlirin qeyri-bərabər paylanması və sosial məsələlərə kifayət qədər diqqət ayrılmaması üzündən Ekvatorial Qvineya 2015-ci ilin hesabatlarına əsasən 188 dünya ölkələri arasında 138-ci yerdədir və insan inkişafı göstəricilərinə görə aşağı nəticələr əldə etmiş ölkələr qrupuna aiddir. Adambaşına gəliri bundan az, ildə yalnız 18 min ABŞ dolları olan, lakin insan inkişafına daha çox diqqət yetirən Rumıniya dünya reytinqində 52-ci yerdədir və insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxildir. Ekvatorial Qvineya qədər və hətta ondan az adambaşına gəliri olan Macarıstan və Xorvatiya müvafiq olaraq dünya reytinqində 44-cü və 47-ci yerdədirlər. Hər iki ölkə dünyada insan inkişafı sahəsində çox yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxildirlər. Deməli, bu iki ölkədə insan inkişafının təmin edilməsi sahəsində daha uğurlu siyasət həyata keçirilir.

Qeyd edilməlidir ki, insan potensialına əsaslanan inkişaf bütün sahələr üçün həlledici amil kimi çıxış etməkdədir. Bu səbəbdən bu sahədə bilik və bacarıq müxtəlif sahələrin planlaşdırılması və idarəedilməsi üçün olduqca əhəmiyyətlidir.

## *3.8. Özümüzü sınayırıq:*

### 3.8.1. Özümüzü sınayırıq suallar:

1. İnsan inkişafının qiymətləndirilməsində hansı əmsalların hesablanmasına üstünlük verilir?
2. Hansı sağlamlıq göstəricilərindən insan inkişafının qiymətləndirilməsi zamanı istifadə olunur?
3. Hansı təhsil göstəricilərindən insan inkişafının qiymətləndirilməsində istifadə olunur?

4. İnsan potensialının inkişafının qiymətləndirilməsində hansı iqtisadi göstəricilərdən istifadə edilir?
5. İnsan inkişafının qiymətləndirilməsində hansı köməkçi göstəricilərdən istifadə edilir?

### 3.8.2. Özümüzü sınayırıq cavablar

**1. İnsan inkişafının qiymətləndirilməsində hansı əmsalların hesablanmasına üstünlük verilir?**

İnsan inkişafının qiymətləndirilməsi üçün bir sıra əmsallardan istifadə olunur. Bu əmsallar arasında ən ümumiləşdirilmişi və ən geniş istifadə olunanı ***İnsan İnkişafı Əmsalıdır (İİƏ)***. Həmin əmsal bütün əhali üçün hesablanır və ölkədə insanların vəziyyətini ümumi şəkildə xarakterizə edir. Məlumdur ki, hər bir ölkənin əhalisi cinsi mənsubiyyətə görə iki böyük qrupa – kişi və qadınlara aiddir. Həmin qruplar arasında inkişaf fərqlərinin müəyyən edilməsi üçün ***Gender İnkişafı Əmsalı (GİƏ)*** hesablanır. Bu iki əmsalın müqayisəsi cinslər arasında mövcud fərqlər və bu fərqlərin nəticəsi kimi müşahidə edilə bilən qeyri-bərabərliyi üzə çıxarmaq üçün imkan yaradır. Müqayisələr nəticəsində qadın və kişilər arasında inkişaf göstəricilərində müşahidə edilən fərqlərin əsasında duran amillər müəyyənləşdirilir. Bu isə qeyri-bərabərliyi müəyyən amillərin aradan götürülməsi üçün imkan yaradır. Qadınların cəmiyyətdə tutduğu mövqeyi yaxşılaşdırmaq, yaxud daha da gücləndirmək üçün onların təhsil səviyyəsini və peşə bacarıqlarını nəzərə alan digər xüsusi əmsal hesablanır. Bu ***Qadınların İmkanlarının Genişləndirilməsi Əmsalıdır (QİGƏ).***

Yuxarıda sadalanan əmsallar insan inkişafının ümumi vəziyyətini (İİƏ) və yaxud cinslər arasında müşahidə edilən fərqləri (GİƏ) və onların aradan qaldırılması üçün mövcud potensialı (QİGƏ) əks etdirir. Bir qrup əmsallar isə insan məhrumiyyətlərindən xəbər verir. Onların təhlilinin əsas məqsədi bəzi cəmiyyətlərdə müşahidə edilən kəskin qeyri-bərabərliyi aradan qaldırmaq və hər hansı bir fərdin öz potensialını inkişaf etdirməsi üçün şərait yaratmaqdır.

İnsanların qarşılaşdığı məhrumiyyətlərə gəldikdə, bəşəriyyətin ən əsas problemlərindən biri yoxsulluqdur. Yoxsulluğun tam aradan qaldırılması və yaxud əhəmiyyətli dərəcədə azaldılması məqsədilə müvafiq

tədbirlərin planlaşdırılması üçün ilkin vəziyyət haqqında məlumatın olması çox əhəmiyyətlidir. İnsan inkişafına, yoxsulluğun aradan qaldırılmasına yönəldilmiş tədbirlərin planlaşdırılması üçün bir neçə əmsallar əsas götürülür. Onların arasında ən geniş istifadə olunanı ***"Əhalinin Yoxsulluq Əmsalı"***dır ***(İYƏ)***. Göstərilən əmsalların hesablanması hər hansı bir ölkədə insan potensialının inkişafı haqqında vəziyyətlə bağlı təsəvvür yaradır. Dünya ölkələrində bu istiqamətdə vəziyyəti qiymətləndirmək və qlobal miqyasda müqayisələr aparmaq məqsədi ilə BMT hər il dünyada insan inkişafını səciyyələndirən xüsusi hesabat dərc edir.

**2. Hansı sağlamlıq göstəricilərindən insan inkişafının qiymətləndirilməsi zamanı istifadə olunur?**

İnsan inkişafını səciyyələndirən əmsalların müəyyən edilməsində təhlillərə cəlb edilən göstəricilər məlumat daşımaqla yanaşı, eyni zamanda əlçatan və statistik hesabatlarda mövcud olmalıdır. Bu iki amili nəzərə almaqla, insan inkişafını qiymətləndirmək üçün ən çox istifadə olunan sağlamlıq göstəriciləri aşağıdakılardır:

***Ömür müddəti.*** Sağlamlıq göstəricisi olmaqla yanaşı, ömür müddəti hər hansı bir ölkədə sosial siyasətin səmərəliliyindən də xəbər verir. Faktiki müşahidə edilən ömür müddəti ilə yanaşı, bu prosesdə gözlənilən ömür müddəti göstəricisindən istifadə edilir. Gözlənilən ömür müddəti hər bir konkret ildə anadan olanlar üçün hesablanır və demoqrafiyanın ən müasir statistik göstəricilərdəndir. Bu göstəricinin üstünlüyü ondadır ki, insanın uzun və sağlam ömür sürməsi üçün müvafiq şəraitin mövcudluğundan xəbər verir. 2015-ci il üçün dərc edilmiş məlumatlara görə, hazırda ən çox ömür sürmək potensialına malik olanlar Yaponiya vətəndaşlarıdır və onların orta gözlənilən ömür müddəti 83,5 ildir. Avropa ölkələrinin əksəriyyətində gözlənilən ömür müddəti 80 yaşa yaxındır. Nəzərə alınmalıdır ki, hazırda inkişafda yüksək göstəricilərə nail olmuş, bu gün əhalisinin gözlənilən ömür müddəti 81 və 82 yaş olan ölkələrdə XX əsrin birinci onilliyində orta ömür müddəti 41 yaşa bərabər idi. Bu onu göstərir ki, dünyanın bu qitəsində yaşayan əhalinin orta ömür müddəti 100 il ərzində 2 dəfə artmışdır. Bu isə elmi-texniki tərəqqinin və inkişaf proseslərinin optimal idarəetməsinin nəticəsi kimi dəyərləndirilə bilər.

Bunlardan fərqli olaraq, Afrika və Asiya qitəsində yerləşən bir sıra ölkələrdə gözlənilən ömür müddəti cəmi 50 ilə yaxındır. Bu rəqəmlər

inkişaf etmiş ölkələrdə gözlənilən ömür müddətindən ən azı 1,5 dəfə azdır. Şübhəsiz ki, bu iki qrup ölkələr arasında müşahidə olunan qeyri-bərabərlik qəbuledilməzdir və ikinci qrupa aid ölkələrin insan inkişafı göstəricilərinə mənfi təsir göstərir. Azərbaycan Respublikasında gözlənilən ömür müddəti artmaqdadır və hazırda orta hesabla 74,1 təşkil edir.

***Müəyyən yaşa çatmaq ehtimalı olmayan əhali.*** Bu göstəricidən yoxsulluqla əlaqədar əmsalların hesablanması zamanı istifadə olunur. İnkişafda olan ölkələrdə yoxsulluğun səviyyəsi müəyyən edildikdə 40 yaşına çatmaq ehtimalı olmayan əhalinin faizi nəzərə alınır. İnkişaf etmiş ölkələr üçün isə 60 yaşa çatmaq ehtimalı olmayan əhalinin faizi hesablanır. Göründüyü kimi, bu sağlamlıq göstəricisinə görə inkişaf etmiş və inkişafda olan ölkələrin vətəndaşları arasında böyük fərq mövcuddur. Bu kəskin fərqlərin aradan qaldırılması və yaxud önəmli dərəcədə azaldılması beynəlxalq təşkilatların əsas hədəflərindəndir. 2015-ci ildə BMT-nin təşəbbüsü ilə Nyu-Yorkda keçirilən dünya sammitində kəskin qeyri-bərabərliyin arada qaldırılması 2015–2030-cu illər üçün hədəflənmiş əsas qlobal məqsədlərdəndir.

***Körpələr arasında ölüm.*** Bu sağlamlıq göstəricisi kimi ölkədə doğulmuş hər min uşaqdan bir yaşına çatmamış ölənlərin sayı götürülür. Hazırda körpələrin ölüm səviyyəsinin ən aşağı göstəricisi Koreya Respublikasında müşahidə olunur. 2015-ci ildə dərc olunmuş bilgilərə görə, bu ölkədə doğulmuş 1000 uşaqdan ancaq biri bir yaşına çatmamış tələf olur. İnkişafda yüksək nəticələr əldə etmiş ölkələrdən Norveç, İslandiya, Sinqapur, Yaponiya, ABŞ və bəzi digər ölkələrdə bu göstərici çox aşağıdır və 2–6 arasında dəyişir. Bunlardan fərqli olaraq eyni vaxtda dərc edilmiş məlumata görə, Malidə bu rəqəm 78, Anqolada 102, Əfqanıstanda 70, Syera-Leonedə 107 nəfər təşkil edir. Ümumiyyətlə, 2015-ci il üçün dərc edilən məlumatlara görə, dünya ölkələrində orta hesabla hər 1000 doğulmuş uşaqdan orta hesabla 34-ü bir yaşına çatmamış tələf olur. Bir sıra rəsmi məlumatlara görə, Azəbaycan Respublikasında bu rəqəm 10,8 təşkil edir. Bu, dünya üçün orta göstəricidən 3 dəfə azdır.

İnsan inkişafının monitorinqində bəzi digər göstəricilərdən də istifadə edilir. Bunlara tibbi xidmətlərə, təmiz içməli suya əli çatmayan əhalinin faizi, səhiyyəyə ayrılan xərclər, uşaqlar arasında çəkidə və boyda geriləmə, peyvənd olan uşaqların faizi, təhlükəli vərdişlərin yayılma dərəcəsi (narkomaniya, tütün və spirtli içkilərin istehlakı) və s. aid edilə bilər.

**3. Hansı təhsil göstəricilərindən insan inkişafının qiymətləndirilməsində istifadə olunur?**

Bilik və bacarıq insan inkişafını təmin edən əsas amillərdir. Bu səbəbdən insan potensialının inkişafının planlaşdırılması və idarəedilməsində təhsil göstəricilərinin monitorinqinə xüsusi diqqət yetirilir. İnsan inkişafının qiymətləndirilməsi zamanı əsas istifadə olunan təhsil göstəriciləri aşağıdakılardır:

***Təhsil ilə əhatə.*** Bu göstərici müvafiq yaşda olan şəxslər arasında təhsilə cəlb olunanların payıdır ki, bu zaman əhalinin 6–23 yaş qrupunda təhsil alanlarının faizi nəzərə alınır. Dünya üzrə bu göstərici olduqca fərqlidir və 15 faizdən 99 faizə qədər dəyişə bilər. Qeyd etmək etmək lazımdır ki, hazırda bütün dünyada, xüsusən inkişafda yüksək nəticələr əldə etmiş ölkələrdə ömürboyu təhsil dövlət siyasətinin əsas istiqamətlərindəndir, müxtəlif yaş qruplarını əhatə edir və insan potensialının formalaşmasına əsaslanan innovativ inkişafın vacib amili kimi qəbul edilir.

***Təhsilin orta müddəti.*** Bu məlumat adətən əhalinin qeydə alınması prosesində və yaxud xüsusi sorğular nəticəsində əldə edilir və hər hansı bir ölkədə vətəndaşların orta hesabla neçə illik təhsilə malik olmasını göstərir. Dünyada bu göstərici çox fərqlidir. Bir sıra ölkələrdə bu göstərici çox aşağıdır. Məsələn, Burkino Faso, Çad, Qvineyada əhalinin orta hesabla savad alma müddəti çox aşağadır. Əksinə, digər inkişafda yüksək nəticələr əldə etmiş ölkələrdə bu rəqəm yüksəkdir. Məsələn, Norveçdə əhali orta hesabla 12,6 il təhsilə cəlb olunur. Avstriyada bu rəqəm 12,8, Almaniyada isə 12,9 il təşkil edir. Azərbaycan Respublikasında bu göstərici 11,2 ilə bərabərdir.

***Savadsızlıq.*** Təhsilin ən aşağı göstəricisidir və əsasən, yoxsulluq səviyyəsinin müəyyən edilməsi zamanı nəzərə alınır. BMT-nin təsnifatına görə, iki növ savadsızılıq mövcuddur. Onlardan biri ümumi savadsızlıqdır ki, bu da hər hansı bir fərdin yazıb-oxuya bilməməsini səciyyələndirir. Dünyada tam savadı olmayan əhalinin sayı getdikcə azalır. Hazırda inkişaf etmiş ölkələrdə əhalinin 99 faizi savadlıdır. İnkişafda olan bəzi Asiya və Afrika ölkələrinə aid dərc edilmiş məlumatlara görə, bu rəqəm orta hesabla əhalinin 52,5 %-ni əhatə edir. Bəzi ölkələrdə isə savadı olmayan əhalinin payı 80 %-dən də çoxdur.

***Funksional savadsızlıq.*** Beynəlxalq səviyyədə qəbul edilmiş təsnifata görə, ümumi savadsızlıqla yanaşı, ***funksional savadsızlıq*** anlayışı

da mövcuddur. Bu zaman funksional savadı olmayanlar yazılı mətnləri oxuya bilsələr də, bəzi hallarda onun mahiyyətini dərk edə bilmirlər. Funksional savadsızlıq müvafiq testlər əsasında müəyyən edilir. XXI əsrin ilk illərində dərc olunmuş məlumatlara görə, ABŞ-ın 20 %, Böyük Britaniyanın 21,7 %, Almaniyanın 18,4 %, Norveçin isə 7,9 % əhalisi funksional savadsızdır.

Son illərdə funksional savadsızlıq anlayışı yeni məna daşımağa başlamışdır. Bu onunla əlaqədardır ki, bəzi hallarda təhsil haqqında alınmış formal sənədlər onların sahiblərinin peşə qabiliyyətlərinə uyğun olmur. Bu onu göstərir ki, həm dövlət, həm də regional səviyyədə inkişafın planlaşdırılması və idarəedilməsində yalnız təhsilə cəlb olunma, orta təhsil müddəti deyil, eyni zamanda təhsilin keyfiyyəti də nəzərə alınmalıdır.

**4. Hansı iqtisadi göstəricilərindən insan inkişafının qiymətləndirilməsində istifadə olunur?**

İnsan inkişafının qiymətləndirilməsi prosesində səhiyyə və təhsil göstəriciləri ilə yanaşı, iqtisadi göstəricilərdən də istifadə olunmaqdadır. Bu göstəricilər aşağıdakılardır:

***Adambaşına orta gəlir.*** İnsan inkişafının vəziyyətini qiymətləndirmə və bu məqsədlə müxtəlif əmsalların hesablanması zamanı istifadə olunan əsas göstəricilərdən biri ölkədə adambaşına düşən gəlirin miqdarıdır. Bu zaman adambaşına düşən ***Ümumdaxili məhsul (ÜDM), Ümummilli məhsul (ÜMM)*** və ***Ümummilli gəlir (ÜMG)*** göstəricilərindən istifadə edilə bilər. Vahid bir göstərici əsasında müqayisələr aparmaq üçün qəbul olunub ki, gəlirlər bütün ölkələr üçün ABŞ dolları ilə verilsin. Lakin müxtəlif ölkələrdə dolların alıcılıq qabiliyyəti fərqlidir. Bu səbəbdən beynəlxalq sənədlərdə ölkələr üçün adambaşına düşən gəlir ABŞ dollarında və ***Alıcılıq Qabiliyyəti Pariteti (AQP)*** adlanan əmsal nəzərə alınmaqla təqdim edilir. Beynəlxalq statistik və analitik mənbələrdə gəlirlər haqqında məlumat «adambaşına gəlir ABŞ dolları və AQP nəzərə alınmaqla» kimi verilir.

***Yoxsulluq həddindən aşağı yaşayan əhali.*** Bu göstəricidən adətən yoxsulluğun səviyyəsini müəyyən edərkən istifadə olunur. Müxtəlif inkişaf etmiş ölkələrdə bu qrupa aid olan sakinlər ölkə vətəndaşlarının 5–17 %-ni təşkil edir. Çexiya və Finlandiyada yoxsulluq həddindən aşağı yaşayanlar ümumi əhalinin, müvafiq olaraq, 4,9 və 5,4 faizini təşkil edir.

ABŞ-da bu rəqəm 17 %, Fransada və Böyük Britaniyada isə 12 %-dən çoxdur. İnkişafda olan ölkələrdə isə bu rəqəm daha yüksəkdir. Məsələn, zəngin neft və qaz ehtiyatlarına malik olan Nigeriyada əhalinin 67,98 %-nin gəlirləri, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, 1,25 ABŞ dollarından azdır.

***İşsizlik.*** Bu iqtisadi göstəricidən daha çox inkişaf etmiş ölkələrdə davamlı inkişafa mane olan amil – yoxsulluğun səviyyəsini müəyyən edərkən istifadə olunur. Qısamüddətli işsizlik bu və ya digər şəkildə hər bir ölkədə mövcuddur. İşsizlik uzunmüddətli o zaman hesab edilir ki, bu vəziyyət 12 ay və ondan çox davam edir. Yunanıstan, İspaniyada ümumi işsizlər məşğulluq yaşında olanların 25–30 faizini təşkil etdiyi halda, gənclər arasında bu hallara daha tez rast gəlinir və bəzi hallarda əhalinin bu qrupunda işsizlik 50 faizdən çox olur. Əhalinin bu qrupu arasında yer almış işsizliyin bir səbəbi də təhsil və əmək bazarı arasında müşahidə edilən uyğunsuzluq ola bilər. Bu uyğunsuzluğun aradan qaldırılması yolları peşə seçiminin düzgün aparılması, peşə diversifikasiyası və ömürboyu təhsildən keçir.

Davamlı insan potensialının formalaşdırılmasında digər iqtisadi göstəricilər də istifadə edilməkdədir. Onların arasında ev təsərrüfatlarında ərzaq məhsullarının alınmasına sərf edilən vəsaitlərin ümumi xərclərdə payı da vardır.

**5. İnsan inkişafının qiymətləndirilməsində hansı köməkçi göstəricilərdən istifadə edilir?**

Artıq məlum olduğu kimi, insan inkişafını səciyyələndirən əmsallar üç qrup – sağlamlıq, təhsil və iqtisadi göstəricilər istifadəsi nəticəsində hesablanır. Əsas sağlamlıq göstəricilərinə gözlənilən ömür müddəti, körpələr arasında ölüm səviyyəsi aiddir. Eyni zamanda qiymətləndirmə prosesində bir sıra əlavə sağlamlıq göstəriciləri də istifadə olunur. Bunlara çəki və boyu normadan aşağı olan uşaqların payı, təmiz içməli su ilə təminedilmə, qida hazırlamaq üçün istifadə olunan yanacaqların növü, evlərdəki döşəmənin vəziyyəti və s. aid edilə bilər. Təhlil edilən təhsil göstəriciləri arasında gənclərin təhsilə cəlb olunmasının vəziyyəti, əhalinin təhsilinin orta müddəti, savadsızlıq, o cümlədən funksional savadsızlıq qeyd olunmalıdır. İqtisadi göstəricilərə adambaşına düşən gəlir, yoxsulluq həddindən aşağı yaşayan əhalinin faizi, uzunmüddətli işsizlik aiddir. Bu göstəricilər əsasında insan inkişafı bir neçə əmsalla səciyyələndirilir. Bunların birincisi və ən əsası bütün əhali üçün he-

sablanan insan inkişafı əmsalıdır. İnsan potensialının inkişafını səciyyələndirən digər göstərici gender inkişafı əmsalıdır ki, bu da kişi və qadınlar arasında müşahidə edilən və edilə bilən fərqləri nümayiş etdirir. Gender inkişafında müşahidə edilən fərqlərin aradan qaldırılmasına yönəldilmiş fəaliyyəti qiymətləndirmək üçün qadınların imkanlarının genişləndirilməsini əks etdirən əmsal da hesablanır.

Yoxsulluq insan inkişafını məhdudlaşdıran əsas amillərdən biridir. Bu səbəbdən əhalinin yoxsulluğunu səciyyələndirən əmsallar da insan inkişafını əks etdirən əmsallar sırasındadır. BMT-nin təşəbbüsü ilə 2010-cu ildən çoxölçülü yoxsulluq əmsalı tətbiq edilir. Çoxölçülü yoxsulluğun qiymətləndirilməsinə yeni 18 göstərici daxil edilmişdir.

Hesablanan əmsallar arasında ən ümumiləşdirilmişi insan inkişafı əmsalıdır (İİƏ). İİƏ-nin qiyməti 0 və 1 arasında dəyişir. Son dərc olunmuş məlumatlara görə, ən yüksək İİƏ Norveçdə qeydə alınmışdır. İnsan potensialının inkişafı göstəricilərinə görə ən geridə qalmış ölkələr Mərkəzi Afrika Respublikası və Nigerdir. BMT-nin 2015-ci ildə apardığı müqayisəli təhlil və onun əsasında dərc etdiyi hesabata görə, insan inkişafı əmsalı Azərbaycan Respublikasında 0,751-ə bərabərdir. Bu, dünya üçün orta rəqəmdən (0,711) və insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupunun orta göstəricilərindən (0,744) çoxdur.

Qeyd edildiyi kimi, dünyada insan inkişafı əmsalı tədricən artmaqdadır. Məsələn, on il ərzində Azərbaycan Respublikasında İİƏ-nin artımı orta hesabla 1,46 faiz təşkil etdiyi halda dünya üzrə bu rəqəm 0,85 faiz olmuşdur. Ölkəmizdə insan inkişafı əmsalının artım sürəti daxil olduğu və bu sahədə yüksək nəticələr əldə etmiş ölkələrin orta göstəricisindən yüksəkdir. 2015-ci ilin hesabatına görə bu ölkələrdə İİƏ ildə orta hesabla 1,2 faiz artım nümayiş edib. Azəbaycan Respublikasında, yuxarıda qeyd edildiyi kimi, bu rəqəm daha yüksəkdir. Bu o deməkdir ki, ölkədə aparılan iqtisadi və sosial siyasətin prioriteti davamlı insan inkişafıdır və bu istiqamətdə gerçəkləşdirilən tədbirlər olduqca səmərəlidir.

İnsan İnkişafı Əmsalı (İİƏ) hər ölkədə insan potensialının inkişafının ümumi vəziyyətini əks etdirir. Bununla yanaşı, gender inkişafına dair və yoxsulluğu səciyyələndirən xüsusi əmsallar da nəzərə alınmalıdır. Onların hesablanmasına dair məlumatlar xüsusi bölmələrdə təqdim olunmuşdur.

# 4. İNSAN İNKİŞAFI VƏ GENDER

*Gender anlayışı. Gender probleminə müxtəlif baxışlar. İnsan inkişafında gender problemi. Gender inkişafının qiymətləndirilməsi, planlaşdırılması və idarə edilməsi. Qadınların imkanlarının genişləndirilməsinin qiymətləndirilməsi. Gender inkişafının müqayisəli təhlili. Gender inkişafı BMT-nin Baş Assambleyası və Minilliyin İnkişaf Məqsədlərində.*

**Mündəricat:**

4.1. Bölmənin məqsədi
4.2. Açar anlayışlar
4.3. Gender anlayışı
4.4. Gender probleminə müxtəlif baxışlar
4.5. Qadınların cəmiyyətdə rolu və hüquqlarının artırılması
4.6. Gender və insan inkişafı
4.7. Gender inkişafının qiymətləndirilməsi
4.8. Qadınların imkanlarının genişləndirilməsi
4.9. Gender inkişafı BMT-nin sənədlərində
4.10. Özümüzü sınayırıq

## *4.1. Bölmənin məqsədi*

İnsan inkişafının əsasını təşkil edən bilik cəmiyyətinin formalaşdırılması prosesi cəmiyyətdə təmsil olunan bütün qrupların potensialının artırılmasını və bu potensialın maksimal dərəcədə səfərbər edilməsini nəzərdə tutur. Bu baxımdan gender problemlərinin həlli olduqca əhəmiyyətlidir. Bu istiqamətdə cinslər arasında sosial bərabərliyin təmin edilməsi sahəsində səmərəli fəaliyyət insan inkişafı prosesinin vacib elementidir. Hazırkı bölmə gender haqqında anlayışların təqdim edilməsinə, bu sahədə mövcud olan vəziyyətin dəyərləndirilməsinə həsr olunub. Bölmədə gender problemlərinə müxtəlif baxışlar haqqında məlumat təqdim olunur, bu sahədə mövcud olan vəziyyətin qiymətləndirilməsində istifadə edilən əmsallardan və onların hesablanmasında istifadə edilən göstəricilərdən bəhs edilir. Bu göstəricilər arasında qadın-

ların təhsili, onların rəhbər və qərar qəbul edən vəzifələrdə, parlamentlərdə təmsil olunmaları təhlil edilir. Bölmədə qadınların cəmiyyətdə tutduğu mövqelərin gücləndirilməsi yolları müzakirə edilir. Bu istiqamətdə dünyanın müxtəlif ölkələrində qazanılmış nailiyyətlər, müsbət təcrübənin yayılması məqsədi güdülür. Gender bərabərliyinə həsr olunmuş beynəlxalq təşkilatların bəzi qərarları, bu problemin vəziyyətinin müzakirəsinə həsr olunmuş əsas beynəlxalq tədbirlər, qəbul edilmiş sənədlər haqqında məlumatlar da bölmədə diqqət mərkəzindədir.

## *4.2. Açar anlayışlar*
## *(bax: Terminlər lüğəti)*

*– Gender qeyri-bərabərliyi; – Gender statistikası.*

## *4.3. Gender anlayışı*

Artıq qeyd edildiyi kimi, BMT və Dünya Sammiti tərəfindən 2015–2030-cu illər üçün əsas prioritet kimi qəbul edilmiş davamlı inkişaf cəmiyyətin idarəedilməsinin elə yoludur ki, o hazırkı nəsillərin rifahını təmin edir və gələcək nəsillərin inkişaf imkanlarını məhdudlaşdırmır. Bu inkişaf yolunun təmin olunması və göstərilən sahədə uğurların əldə edilməsi insan potensialının inkişafından keçir. İnsan inkişafı konsepsiyasının mahiyyəti də çox sadədir və asanlıqla anlaşılır. Bu konsepsiyaya görə, cəmiyyətin idarəedilməsi o zaman uğurlu hesab oluna bilər ki, həmin toplumda irqindən, dinindən, millətindən və yaxud hər hansı bir xüsusi qrupa mənsubluğundan asılı olmayaraq hər bir şəxsin fərdi potensialını reallaşdırması üçün əlverişli şərait yaradılmışdır. Azərbaycan Respublikasında uğurla həyata keçirilən və insan inkişafı üçün olduqca önəmli olan multikulturalizm siyasəti belə yanaşmanın bariz nümunəsidir. Ölkənin bu sahədə dünyada lider olması bir çox beynəlxalq təşkilatlar tərəfindən artıq qəbul edilmişdir.

İnsan cəmiyyətində ən iri qrupları qadın və kişilər təşkil edir. Bu cəmiyyətdə təxminən eyni sayda insanı birləşdirən ən çoxsaylı qruplardır. Cinslər arasında bioloji və fizioloji fərqlər məlumdur və dəyişməzdir. Lakin bu heç də o demək deyil ki, kişi və qadının cəmiyyətdə tutduğu yer dəyişməzdir. Qadın hərəkatının tarixi, müxtəlif ölkələrdə bu sahədə

əldə edilmiş nailiyyətlər qadınların cəmiyyətdə oynadığı rolun dinamik surətdə dəyişməsindən xəbər verir.

Son əsrlərin elmi və texnoloji nailiyyətləri qadınların həm məişətdə, həm də istehsalatda oynadığı rolu dəyişdirmişdir. Qadın hərəkatının davamı olaraq, XX əsrin sonunda ***«gender»*** anlayışı formalaşmışdır ki, bunu da sosial cins kimi xarakterizə etmək olar. Qadın və kişilər arasında sosial bərabərlik isə gender bərabərliyi kimi qəbul edilir. Beynəlxalq təşkilatların, o cümlədən BMT-nin sənədlərində təqdim olunmuş «dünyanın yarısı, imkanların yarısı» və hər iki cinsə eyni imkanların yaradılması prinsipi, eləcə də bu istiqamətdə həyata keçirilən siyasət gender bərabərliyinin mahiyyətini təşkil edir. Qadın və kişilərin inkişaf göstəriciləri və inkişaf üçün yaradılan imkanları səciyyələndirən məlumat və göstəricilər qadınların hüquqlarının qorunmasına, onların iqtisadi, sosial və siyasi həyatda uğur qazanmasına, cəmiyyətdə tutduğu mövqelərinin yaxşılaşdırılmasına yönəldilmişdir. Bu, eyni zamanda və tam şəkildə kişilərə də aiddir. Gender problemi məhz qadın və kişilərin cəmiyyətdə oynadığı rolu, onların həmin toplumda tutduğu mövqeyi xarakterizə edən və bu sahədə eyni imkanların yaradılmasına xidmət göstərən bir yanaşma və elmi nəzəriyyədir. Bu səbəbdən gender qadın problemlərini araşdıran istiqamət kimi qiymətləndirilə bilməz.

Bəzi hallarda cinslərin sosial rollarının bərabərliyi, başqa sözlə, gender bərabərliyinin təmin edilməsi kişilərin rollarının artırılması ilə əlaqədar ola bilər. Bu səbəbdən gender problemi cinslərin sosial bərabərliyinə yönəldilmiş bir yanaşmadır.

Gender konsepsiyası və anlayışının yaranması, bu istiqamətdə həyata keçirilən siyasətin əsasında qadın hərəkatı durur. XVIII əsrdə yaranmış və XX əsrin ortalarında güclənmiş bu hərəkat iqtisadi, siyasi, sosial və mədəni həyatda qadınların kişilərlə bərabər hüquqlarının təmin edilməsi istiqamətində həyata keçirilən bir proqramdır. Gender hərəkatı qadın hərəkatından bəhrələnir. Gender termininin bir çox tərifi məlumdur. Ümumiləşdirilmiş şəkildə gender anlayışı altında qadın və kişilərin cəmiyyətdəki sosial rolu nəzərdə tutulur. Bu sahədə vəziyyətin qiymətləndirilməsində bir sıra amillər nəzərə alınır. Onların arasında daha əhəmiyyətliləri gender bərabərliyinin təmin edilməsi, qadın və kişilərin cəmiyyətdə tutduğu mövqenin yaxşılaşdırılması ilə əlaqədardır. Daha kəskin hallarda isə gender diskriminasiyasının qiymətləndirilməsi

və bu halın aradan qaldırılmasının aktuallığı üzə çıxır. Gender balansının təmin edilməsi ilk növbədə qərar qəbul edilməsinin bütün mərhələlərində kişi və qadınların eyni dərəcədə fəal iştirakını nəzərdə tutur. Eyni zamanda bu hər iki qrupun nümayəndələrinin cəmiyyətdə mövcud olan bütün ehtiyatların idarə olunmasında, onlara nəzarətin təmin edilməsində bərabər iştirak etməsi gender nəzəriyyəsinin əsas məqsədidir.

### *4.4. Gender probleminə müxtəlif baxışlar*

Qeyd etmək lazımdır ki, cinslərin sosial bərabərlik nəzəriyyəsini tam şəkildə qəbul etməyənlər və gender konsepsiyasının tənqidçiləri də mövcuddur. Onların əsas arqumenti odur ki, qadın və kişilərin təbiəti fərqlidir və bu fərqlər yalnız fizioloji deyil, psixoloji sahəni də əhatə edir. Belə tənqidi nəzəriyyələrin tərəfdarları iddia edirlər ki, gender problemlərinin təhlili zamanı, bu sahədə qərar qəbul etdikdə bu xüsusiyyətlərin nəzərə alınması məqsədəuyğundur. Belə baxışların tərəfdarları hesab edirlər ki, eyni vəziyyət eyni məsuliyyət yaradır. Gender bərabərliyi əleyhdarlarının fikrincə, texniki və texnoloji tərəqqiyə, bunun nəticəsi kimi kişi və qadınların fiziki imkanlarının bərabərləşməsinə baxmayaraq, fəaliyyətdə elə sahə və istiqamətlər mövcuddur ki, orada əsasən qadınların və yaxud kişilərin çalışmaları daha məqsədəuyğundur. Gender nəzəriyyəsinin tənqidçilərinə görə, cəmiyyətdə kişi və qadınlar arasında fəaliyyət sahələrinin psixoloji amillərə əsaslanan bölümü hər iki qrupu daha məhsuldar və xoşbəxt edə bilər. Tənqidçilər gender probleminin ən düzgün həlli yolunu inkişaf üçün eyni şərait yaradılmasında görürlər. Onların fikrincə, cəmiyyət üçün belə yanaşma daha əhəmiyyətlidir. Bu baxışlara görə, gender probleminin həlli qadınları qadın kimi, kişiləri isə kişi kimi xoşbəxt etməkdən keçir.

Qeyd edilməlidir ki, cəmiyyətin inkişafının hazırkı mərhələsində belə baxışların tərəfdarı çox azdır. Gender bərabərliyinin təmin edilməsinə yönəldilən fəaliyyət artmaqdadır və bu prosesin fəallaşması cəmiyyətin ümumi inkişafına və insan inkişafına müsbət təsir göstərir. Cəmiyyətin məhsuldar inkişafı və insan inkişafının innovativ əsasda formalaşması və təkmilləşməsi yalnız gender bərabərliyi şəraitində təmin oluna bilər. Təhlillər göstərir ki, bir çox ölkələrdə qazanılmış iqtisadi və sosial nailiyyətlərin əldə edilməsində gender probleminin düzgün planlaşdırılması

və həyata keçirilməsi əhəmiyyətli rol oynamışdır. Azərbaycan Respublikasında da gender problemləri uğurla həll edilməkdədir. Ölkədə artıq on ildən çox fəaliyyət göstərən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi gender problemlərinin həllində müstəsna rol oynayır.

### *4.5. Qadınların cəmiyyətdə rolunun artırılması*

Qadınların cəmiyyətdə rolu və hüquqlarının artırılmasına yönəldilmiş mübarizənin tarixi qədimdir. Cəmiyyətin inkişafı gedişində qadınların mübarizəsi bəzi hallarda feminist hərəkat kimi dəyərləndirilib. Müasir anlamda qadın hərəkatı gender hərəkatının əsas bir qolunu təşkil edir. Bu ondan irəli gəlir ki, gender hərəkatı eyni zamanda kişilərin hüquqlarının bərabərləşməsini də nəzərdə tutur. Kişilərin qadınlarla hüquqlarının bərabərləşdirilməsi zəruriyyəti nisbətən az hallarda müşahidə edilsə də, tam istina olunmur. Məsələn, bəzi hallarda işə qəbul zamanı vəzifə iddiaçıları arasında qadınlara üstünlük veriləcəyi əvvəlcədən elan olunur. Bir sıra hallarda belə tələb tamamilə əsaslıdır. Fəaliyyətlərin elə növləri mövcuddur ki, orada qadınların və ya kişilərin çalışması daha zəruridir. Lakin digər hallarda bu gender məhdudiyyətinin mahiyyəti anlaşılmır və iş verən tərəfindən bu xüsusi tələb əsaslandırılmır. Qeyd edilməlidir ki, təsvir edilən vəziyyətlərə nisbətən az rast gəlinir. Bu səbəbdən müxtəlif ölkələrdə bir sıra hallarda gender problemləri əsasən qadınların rolunun gücləndirilməsi kimi qəbul edilir və bu cür də qələmə verilir.

Qadınların siyasi və ictimai həyatda rollarının artırılması qadın hərəkatının bütün mərhələləri üçün səciyyəvidir. Bəlli olduğu kimi, feminist hərəkatının başlıca tələbi qadınların siyasi həyatda iştirakının genişləndirilməsi və ilk öncə seçki hüququnun təmin olunması ilə bağlı idi. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında qadınlar seçki hüququnu artıq XX əsrin əvvəllərində əldə etmişdilər. O da önəmlidir ki, Azərbaycanda qadınlara seçki hüququ bir çox hazırda inkişaf etmiş ölkələrdən daha erkən verilmişdir. Azərbaycanda qadınlar seçki hüququnu 1918-ci ildə qazandığı halda, ABŞ-da bu hadisə 1920-ci, Türkiyədə 1930-cu, İspaniyada 1931-ci, Yunanıstanda 1934-cü, İndoneziyada 1941-ci, Fransada 1944-cü, Yaponiyada 1945-ci, Bolqarıstanda 1944-cü, Argentinada 1947-ci, İranda 1963-cü, İsveçrədə 1971-ci illərdə baş vermişdir. Bəzi ölkələrdə qadınlar seçki hüquq-

larını yalnız XXI əsrdə qazanıblar. XXI yüzillikdə qadınlara seçki hüququ tanıyan ölkələr arasında Küveyt, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin də adları çəkilə bilər. Onlardan ilk iki dövlətdə qadınlar seçkilərdə iştirak etmə imkanını 2005-ci, üçüncüdə isə yalnız 2011-ci ildə qazanıblar.

## *4.6. Gender və insan inkişafı*

İnsan inkişafı konsepsiyasının əsas məqsədi insanın potensialının inkişafı və hər bir şəxs üçün bu məqsədə xidmət edən əlverişli mühitin yaradılmasıdır. Xüsusi qayğıya ehtiyacı olan qruplar, o cümlədən məhdud imkanlı müxtəlif cinslərə aid olan cəmiyyət nümayəndələrinin inkişafını təmin edən əlverişli şəraitin yaradılması xüsusi əhəmiyyət daşıyır. Bu qruplara aid olanlar şəxslər üçün əlavə olaraq xüsusi şərait yaradılmalı və bu şərait onların imkanlarını məhdudlaşdıran hər hansı bir amili aradan qaldırmalı və yaxud maksimum dərəcədə azaltmalıdır. Bu o deməkdir ki, cəmiyyətdə təmsil olunmuş bütün qruplar öz imkanlarını genişləndirmək və cinsi mənsubiyyətlərindən asılı olmayaraq müxtəlif sahələrdə müvəffəqiyyət qazanmaq üçün eyni hüquqlara malikdirlər və bu hüquqlar təmin edilməlidirlər. Bir sıra ölkələrdə bu istiqamətdə ardıcıl fəaliyyət həyata keçirilməkdədir. Bu istiqamətdə fəaliyyət həm dövlət qurumları, həm də qeyri-hökumət təşkilatları tərəfindən icra olunur. Belə təşkilatlara misal olaraq Azərbaycan Respublikasında qeydə alınmış, ölkədə və xaricdə bir çox humanitar sahələrdə uğurlu fəaliyyət həyata keçirən Heydər Əliyev Fondunu göstərmək olar. Belə layihələr arasında görmə qabiliyyəti zəif olan uşaqlar üçün müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanının yaradılmasına yönəldilmiş və beynəlxalq təşkilatlarla birgə həyata keçirilən layihəni qeyd etmək yerinə düşər.

Qadınların cəmiyyətdə vəziyyətinin dəyişməsi təkcə tarixi qanunauyğunluq, cəmiyyətin təkamülü kimi qəbul edilməməlidir. Bu proses, eyni zamanda hər hansı bir ölkədə və ya bölgədə mövcud olan iqtisadi, sosial və mədəni mühitdən, gender bərabərliyi sahəsində həyata keçirilən siyasətdən asılıdır. Elmi-texniki tərəqqi bəşəriyyətə bir sıra yeni texnoloji nailiyyətlər bəxş edib ki, bu da müxtəlif proseslərin həyata keçirilməsində qadın və kişilərin fiziki imkanları arasında mövcud olan təbii fərqlərin aradan qaldırılmasına və yaxud kəskin surətdə azalma-

sına xidmət edir. Yeni texnoloji nailiyyətlər, eyni zamanda qadınların ev işlərinə sərf etdiyi vaxtın qənaətini də təmin edir. Belə bir şərait gender problemlərinin həllinə xidmət edir. Son zamanlar gender bərabərliyinin təmin edilməsi prosesinin daha böyük vüsət alması, qadınların iqtisadi və ictimai fəaliyyətlərə daha geniş cəlb edilməsi müasir texnologiyaların inkişafı ilə əlaqədardır. Bu texnologiyalar qadınlara, hətta bəzi hallarda evdən çıxmamaq şərtilə, iqtisadi və ya ictimai fəaliyyətlə daha fəal məşğul olmaq imkanı qazandırır.

Qeyd olunduğu kimi, qadınların cəmiyyətdə tutduğu mövqe zamandan, milli və dini mədəniyyətdən və digər amillərdən asılıdır. Məsələn, müasir dövrdə gender inkişafında yüksək nailiyyətlər əldə etmiş bir çox Qərbi Avropa ölkələrində XX əsrin əvvəllərinə kimi qadınların evdən kənarda işləməsi, muzdla qulluq etməsi əhalinin orta və yüksək təbəqələri üçün qəbulolunmaz idi. Sosial baxımdan daha aşağı mövqe tutan və maddi ehtiyacı olan ailələrdən çıxan qadınlar isə muzdla varlı ailələrdən olan qadınlara ev işlərində kömək göstərirdilər. Lakin istisnalar da olur. Məsələn, tarixən və hazırda Afrikada məskunlaşan bəzi etnik qruplarda kişi və qadınlar ev işlərinin yerinə yetirilməsində eyni dərəcədə iştirak edirlər. Bu qruplarda qadınlar ictimai işlərə kişilərdən daha çox cəlb edilirlər. Deməli, gender bərabərliyi fenomeni yalnız müasir problem deyil və əsasən inkişafda daha yüksək nəticələr əldə etmiş ölkələrə aid edilə bilməz. Bəzi hallarda gender bərabərliyinin təmin edilməsi və bu sahədə əldə edilmiş nailiyyətlər etnik ənənə kimi müşahidə olunmaqdadır.

Bir daha qeyd edilməlidir ki, gender problemləri qadınların vəziyyətinin qiymətləndirilməsi və yaxşılaşdırılması kimi qəbul oluna bilməz. Gender məsələlərinin öyrənilməsi və bu sahədə olan problemlərin həlli həm kişilər, həm də qadınlar üçün vacibdir. Onlar qadın və kişi arasında olan əmək bölgüsü münasibətlərinin yaxşılaşmasına və insan inkişafı göstəricilərinin yüksəlməsinə xidmət edir. Bu isə XXI əsrin əsas prioriteti olan davamlı və insan potensialına əsaslanan inkişafı təmin edən başlıca amillərdəndir.

### *4.7. Gender inkişafının qiymətləndirilməsi*

İnsan inkişafının göstəricisi hesablandığı kimi, gender inkişafını da xarakterizə edən əmsallar mövcuddur və hesablanır. Müxtəlif bölgə və ölkələrdə gender inkişafının vəziyyətini səciyyələndirən bu əmsallar

mütəmadi olaraq təhlil edilir. Bu əmsalların göstəriciləri hər hansı bir ölkə və yaxud bölgədə aparılan ümumi siyasətdən, bu siyasət çərçivəsində gender problemlərinin həllinə yönəldilmiş fəaliyyətin istiqamətindən və sürətindən xəbər verir. Eyni zamanda vahid üsullarla hesablanmış əmsallar ölkələr arasında müqayisələr aparmaq, bu sahədə mövcud olan nailiyyət və problemləri aşkarlamaq, çatışmazlıqları aradan qaldırmaq üçün gender inkişafı sahəsində uğurlar əldə etmiş ölkələrin təcrübəsindən yararlanmağa xidmət edir.

Gender inkişafının vəziyyəti əksər hallarda bir neçə əmsalın hesablanması əsasında qiymətləndirilir. Qiymətləndirmə göstəricilərinin ikisi XX əsrin sonundan geniş istifadə olunmaqdadır. Onlar BMT-nin qlobal və regional hesabatlarında əsas yer tutan gender inkişafı əmsallarıdır. Birinci göstərici gender faktorunu nəzərə almaqla hesablanan insan inkişafı əmsalıdır. BMT-nin İnsan İnkişafına dair hesabatlarında əsas yer tutan bu göstərici ***Gender İnkişafı Əmsalı (GİƏ)*** adlandırılır. Əmsalı hesablayarkən insan inkişafının ümumi əmsalının eyni göstəricilərindən (sağlamlıq, təhsil, gəlir) istifadə edilir. Fərq bir ondadır ki, bu göstəricilər qadınlar üçün ayrıca hesablanır və bu hesablamalarda göstəricilərdən biri (sağlamlıq göstəricisinin biri) fərqli istifadə olunur.

Gender İnkişafı Əmsalı hesablanan zaman fərqli istifadə olunan göstərici sağlamlığa aiddir və qadınların ömür müddəti ilə əlaqədardır. Məsələn, ümumi insan inkişafını qiymətləndirmə zamanı standart yaş göstəriciləri maksimum 85 yaş, minimum isə 25 yaş qəbul olunub. Lakin, məlum olduğu kimi, qadın və kişilərin orta ömür müddəti fərqlənir. Bir qayda olaraq, qadınlar kişilərdən daha uzun ömür sürürlər. Dünyada müşahidə olunan orta ömrün artması tendensiyası da qadınlarda kişilərlə müqayisədə daha sürətlə gedir. 2015-ci ilin məlumatlarına görə, dünyada orta gözlənilən ömür müddəti artmışdır və 71,5 il təşkil edir. Lakin bu artım yenə də qadınlarda daha sürətlə gedir. Belə ki, kişilərin gözlənilən ömür müddəti dünyada orta hesabla 69,5 ilə qalxdığı halda, qadınlarda bu rəqəm 73,7 il təşkil etmişdir.

Qeyd edilməlidir ki, ömür müddətinin qadınlarda daha yüksək olması universal bir haldır və bütün ölkələrdə müşahidə olunur. Bu hal ölkənin inkişaf səviyyəsindən asılı deyil. Həm inkişafda yüksək nəticələr əldə etmiş, həm də inkişafda olan ölkələrdə bu qanunauyğunluq müşahidə olunmaqdadır (cədvəl 4.11).

*Cədvəl 4.11. Müxtəlif ölkələrdə gözlənilən ömür müddəti (orta): qadın və kişilər[1]*

| Reytinq (insan inkişafı üzrə) | Ölkə | Orta | Kişi | Qadın |
|---|---|---|---|---|
| 1 | Norveç | 81,6 | 79,5 | 83,6 |
| 20 | Yaponiya | 83,5 | 80,2 | 86,7 |
| 22 | Fransa | 82,2 | 78,3 | 84,1 |
| 36 | Polşa | 77,4 | 73,4 | 81,4 |
| 42 | Çili | 81,7 | 78,6 | 84,5 |
| 48 | Küveyt | 74,4 | 73,5 | 75,8 |
| 50 | Rusiya Federasiyası | 70,1 | 64,4 | 75,8 |
| 70 | Türkiyə | 75,3 | 72,0 | 78,5 |
| 90 | Çin | 75,8 | 74,3 | 77,3 |
| 97 | Kolumbiya | 74,0 | 70,5 | 77,7 |
| 130 | Hindistan | 68,0 | 66,6 | 69,5 |
| 187 | Mərkəzi Afrika Respublikası | 50,7 | 49,3 | 51,0 |

*Mənbə: Human Development Report, UNDP, N.Y., 2015*

Cədvəl 4.11.-dən göründüyü kimi ölkənin iqtisadi durumundan və insan inkişafı göstəricilərinə görə fərqli nəticələr əldə edən ölkələrdə qadınların ömür müddəti kişilərdən yüksəkdir. BMT-nin 2015-ci ildə dərc olunmuş məlumatlarına görə, bu fərq insan potensialının inkişafında çox yüksək nəticələr əldə etmiş ölkələrdə qadınlar orta hesabla kişilərdən 5,3 il çox ömür sürürlər. İnsan inkişafında yüksək nəticələr əldə etmiş ölkələr qrupunda bu fərq 4,6 il, orta nəticələr əldə etmiş ölkələrdə 3,8 il, aşağı nəticələr əldə etmiş ölkələrdə isə orta hesabla 2,5 il təşkil edir.

Orta yaşla yanaşı, qadın və kişilər arasında gözlənilən ömür müddətində də fərqlər mövcuddur. Beynəlxalq təşkilatların gender problemlərinə aid hazırladığı hesabatların əsasında hazırlanmış şəkil 4.15.-dən

göründüyü kimi, belə fərqlər qlobal miqyasda müşahidə edilir. Məsələn, Afrikada qadınların cəmi 20 faizə yaxınının, kişilərin isə yalnız 10 faizinin 80 yaşına çatacağı ehtimal edilir. Avropada bu rəqəm müvafiq olaraq 55 və 30 faiz təşkil edir. Ən yüksək göstəricilər Şimali Amerikada qeydə alınmışdır. Bu qitədə yaşayan qadınların 80 yaşına çatmaq ehtimalı 60 faizdən çoxdur. Eyni zamanda bu qitədə doğulmuş kişilərin 80 yaşa çatmaq ehtimalı yalnız 40 faiz təşkil edir (şəkil 4.15). Qadın və kişilər arasında ömür müddətinin fərqli olmasını nəzərə alaraq insan inkişafı və gender inkişafı indekslərinin hesablanmasında kişilər və qadınlar üçün maksimal yaş fərqli müəyyən edilir.

Ölkə və yaxud hər hansı bir ərazidə gender inkişafının vəziyyətini qiymətləndirmək üçün ilk növbədə həmin yer üçün ümumi İnsan İnkişafı Əmsalı (İİƏ), sonra isə ayrıca Gender İnkişafı Əmsalı (GİƏ) hesablanır. Alınmış hər iki əmsal müqayisə olunur. Fərqin olmaması və yaxud az olması gender problemlərinin olmamasından və ya onların uğurlu həllindən xəbər verir. Bu o deməkdir ki, belə göstəricilərə malik olan ölkədə qadın və kişilər eyni hüquqa malikdir və onların inkişafı üçün tələb olunan imkanlar eyni səviyyədədir. Belə göstəricilərə malik ölkələrdə gender problemlərinin olmaması ehtimal edilə bilər.




***Şəkil 4.15.*** *1995–2000-ci illərdə doğulmuş qadın və kişilərin 80 yaşına çatmaq ehtimalı, %-lə*

Təqdim olunmuş məlumatlar göstərir ki, müxtəlif qitələr üçün alınmış mütləq rəqəmlərin fərqlənməsinə rəğmən, qanunauyğunluq eynidir. Məsələn, XX əsrin sonunda və XXI əsrin əvvəllərində ABŞ və Kanadada doğulmuş qadın və kişilərin 80 yaşına çatmaq ehtimalı Afrikada həmin dövrdə doğulanlardan 3–4 dəfə çoxdur. Lakin buna baxmayaraq, hər iki qitədə qadınların daha üzün ömür sürmək ehtimalı danılmazdır.

Aydın olur ki, qadın və kişilərin orta ömür müddətləri hal-hazırda fərqlənir və bu fərq gələcəkdə də müşahidə olunacaq. Qadın və kişilərin orta ömür müddətində müşahidə olunan fərq bioloji və fizioloji xüsusiyyətlərin və qadınların bir sıra şəraitlərdə daha dayanıqlı olmasının nəticəsidir. Bu səbəbdən GİƏ-nin (Gender İnkişafı Əmsalının) hesablanması zamanı standart yaş kimi kişilər üçün minimal 22,5, maksimal isə 82,5 il götürüldüyü halda, qadınlar üçün bu rəqəmlər, müvafiq olaraq 27,5 və 87,5 il təşkil edir. Belə yanaşma tamamilə əsaslıdır: qadın və kişilərin orta ömür uzunluğunda hazırda müşahidə olunan fərqlər təbiidir və sosial şərait və yaxud qadınlar üçün xüsusi imtiyaz yaradılması ilə heç bir əlaqəsi yoxdur.

Qeyd edildiyi kimi, gender inkişafının qiymətləndirilməsi, əsasən, İİƏ-nin GİƏ ilə müqayisəsi əsasında aparılır. Bu iki əmsal arasında fərqin olmaması və yaxud cüzi olması hər hansı bir qitə, ölkə və ya bölgədə uğurlu gender siyasətinin həyata keçirilməsindən xəbər verir. Əksinə, bu fərqlərin kəskin olması həmin ölkə və yaxud bölgədə gender probleminin mövcudluğunu, bu istiqamətə yetərincə diqqət ayrılmağını əks etdirir. Bu problemlər mövcud olduğu zaman gender inkişafında müşahidə olunan fərqləri aradan qaldırmaq üçün xüsusi tədbirlər həyata keçirilir.

Bəllidir ki, gender bərabərliyinin təmin edilməsi beynəlxalq prioritetlər sırasındadır. 2015-ci ildə BMT-nin təşəbbüsü ilə Dünya Sammitində Minillik üçün qəbul edilmiş Davamlı İnkişaf Məqsədləri adlı sənəddə gender bərabərliyinə xüsusi diqqət ayrılıb. Problemin aktuallığı ondan irəli gəlir ki, 2000-ci ildə 2000–2015-ci illər üçün qəbul olunmuş Minilliyin İnkişaf Məqsədləri adlı sənəddə gender bərabərliyinin təmin edilməsi hədəflənmişdi. Lakin beynəlxalq təşkilatlar tərəfindən aparılan təhlillərdən aydın oldu ki, əgər bir sıra ölkələrdə gender problemləri uğurla həll olunubsa, digər ölkələrdə gender bərabərliyi tam təmin olunmayıb. 2015-ci ildə Minilliyin Məqsədlərinə həsr olunmuş hesabatlara

görə, gender inkişafında ən yüksək göstəricilər Kanada, Avstraliya, Danimarka, İsveçrə, Norveç və bir sıra digər ölkələrdə qeyd olunmuşdur. Bu ölkələrdə qadın və kişilərin cəmiyyətdə tutduğu mövqelər sosial baxımdan təxminən eynidir. Bu ölkələrin parlamentlərində, seçkili və təyinatlı rəhbər vəzifələrdə qadın və kişilər eyni dərəcədə təmsil olunublar. Bu səbəbdən hesab etmək olar ki, bir sıra ölkələrdə gender bərabərliyi problemi, demək olar ki, həll edilmişdir. Bu istiqamətdə gələcək nailiyyətlərin əldə edilməsi məqsədi ilə gender bərabərliyinin təmin edilməsi 2015–2030-cu illər üçün nəzərdə tutulmuş qlobal məqsədlər sırasındadır. Azərbaycan Respublikasında gender problemlərinin həllində nəzərəçarpan nailiyyətlər əldə edilmişdir. Dünyada GİƏ orta hesabla 0,924 təşkil etdiyi halda Azərbaycan Respublikasında bu rəqəm 0,942 təşkil edir.

### *4.8. Qadınların imkanlarının genişləndirilməsi*

Gender inkişafı əmsalı (GİƏ) ilə yanaşı qadınların sosial vəziyyətinin təkmilləşməsinə xidmət edə bilən imkanların olmasını, bu istiqamətdə mövcud potensialı qiymətləndirmək üçün digər bir əmsal hesablanır. Bu, xüsusi bir əmsaldır və qadınların imkanlarının genişlənməsi üçün onların mövcud bilik və bacarıqlarını əks etdirən bir göstəricidir. Hər hansı bir ölkə və yaxud ərazidə gender inkişafının təcəssümü olan bu göstərici ***Qadınların İmkanlarının Genişləndirilməsi Əmsalı (QİGƏ)*** adlanır. QİGƏ-nin hesablanmasında məqsəd qadınların təhsil və bacarıqlarının onların iqtisadi, sosial və siyasi həyatda tutduğu mövqelərinə hansı dərəcədə uyğun olmasının müəyyənləşdirilməsi ilə bağlıdır. Bu əmsalın hesablanması üçün istifadə olunan göstəricilər elə seçilib ki, onlar aydın şəkildə qadın və kişilərin cəmiyyətdə tutduğu mövqeləri səciyyələndirir. Məsələn, QİGƏ-nin hesablanması zamanı istifadə olunan göstəricilərdən biri qadınların qanunvericilik qurumlarında təmsil olunmasıdır. Dünyanın müxtəlif ölkələrində bu rəqəm çox fərqlidir. Dünyada ən yüksək göstəricilərdən biri İsveçdə müşahidə olunur. 2015-ci ildə dərc olunmuş məlumatlara əsasən, bu ölkənin parlament üzvlərinin 43 %-dən çoxunu qadınlar təşkil edir. Şimali Avropanın digər ölkələrində də qadınlar qanunverici qurumlarda kifayət qədər geniş təmsil olunublar. Məsələn, Finlandiyada deputatların 42,5, Norveçdə isə 39,6 %-ni qadınlar təşkil edir. Bununla yanaşı, digər ölkələrdə bu rəqəm olduqca aşağı-

dır: 0,7 % (Yəmən), 3,5 % (Haiti) və s. Beynəlxalq təşkilatların məlumatlarına görə, bəzi ölkələrdə, o cümlədən bir sıra Asiya və Afrika ölkələrində qadınlar qanunverici qurumlarda, ümumiyyətlə, təmsil olunmayıblar. Qonşu Türkiyə və İran İslam Respublikasında qadınlar qanunverici qurumlara seçilənlərin müvafiq olaraq 14,2 və 3,1 %-ni təşkil edirlər. Azərbaycanda Milli Məclisə seçilmiş millət vəkillərinin 16 %-ni qadınlar təşkil edir. Bu, dünya və eyni zamanda insan potensialının inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna aid dövlətlərdə müşahidə edilən orta rəqəmlərə yaxındır.

QİGƏ-nin hesablanmasında istifadə olunan digər göstərici qadınların rəhbər vəzifələrə cəlb edilməsidir. Rəhbər vəzifələr dedikdə, qadınların nazir, nazir müavini, xarici ölkələrdə səfir vəzifələrində çalışmaları, rayon, yaxud şəhər, ya digər yaşayış məntəqələrinin rəhbəri, onun müavini seçilmələri və s. nəzərdə tutulur. Qadınların mütəxəssis vəzifələrində çalışması da bu əmsalın hesablanmasında istifadə olunur. Müxtəlif ölkələr üçün hesablanmış QİGƏ-nin müqayisəsi göstərir ki, qadınların bilik və bacarıq potensialından ən səmərəli istifadə və onların rəhbər vəzifələrə irəli çəkilməsi Norveç, İsveçrə, İslandiya, Finlandiya, Almaniya, Kanada və bir sıra digər ölkələrdə müşahidə olunur. Azərbaycan Respublikasında qadınlar rəhbər vəzifələrdə layiqli təmsilçiliyə nail olublar. Bunun bir misalı kimi ölkənin bütün administrativ bölgələrində icra başçısının bir müavini qadındır. Ölkədə qadınlar nazir, nazir müavini, ixtisasçı vəzifələrdə də geniş təmsil olunublar.

Təhlillər göstərir ki, gender inkişafında yüksək nəticələr əldə etmiş ölkələrdə qadınların təhsil göstəriciləri yüksəkdir və praktiki olaraq kişilər ilə eyni səviyyədədir. Təhsil sahəsində kişi və qadınların fərqli nailiyyətlərə nail olması gender qeyri-bərabərliyinin bir səbəbi kimi çıxış edir. Şəkil 4.16.-da təqdim edilmiş məlumatlar insan inkişafında fərqli nəticələr əldə etmiş ölkələr qruplarında təhsil göstəriciləri təqdim olunmuşdur.

Gender problemlərinə həsr olunmuş xüsusi sənədlərlə yanaşı, bu problemin dünyada və müxtəlif ölkələrdə vəziyyəti, onun təhlilinin və monitorinqinin nəticələri BMT tərəfindən hər il hazırlanan və dərc edilən insan inkişafı haqqında hesabatlarda təqdim edilir. Bu hesabatlar eyni zamanda müsbət təcrübənin yayılmasına xidmət edirlər.




***Şəkil 4.16.*** *İnsan inkişafı sahəsində fərqli nəticələr əldə etmiş ölkələrdə orta hesabla ən azı tam orta təhsil almış qadın və kişilər, %. 1 – çox yüksək, 2 – yüksək, 3 – orta, 4 – aşağı nəticələr əldə etmiş ölkələr qrupları*

*Mənbə; Human Development Report, UNDP, NewYork, 2015*

### *4.9. Gender inkişafı BMT-nin sənədlərində*

Gender inkişafında müşahidə edilən müsbət dəyişikliklərdə beynəlxalq inkişaf qurumlarının rolu olduqca yüksəkdir. Beynəlxalq təşkilatlar gender inkişafına və bu sahədə mövcud olan qeyri-bərabərliyin aradan qaldırılmasına daim diqqət yetirirlər. 2000-ci ilin iyun ayında keçirilən BMT-nin Baş Assambleyasının sessiyası məhz gender problemlərinə həsr edilmişdi. Baş Assambleyanın sessiyası: «Gender bərabərliyi, XXI əsr üçün inkişaf və sülh» şüarı altında keçirilmişdi. Sessiya gender bərabərliyinin təmini üçün, qadınlar və kişilər arasında mövcud olan sosial bərabərsizliyin aradan qaldırılması istiqamətində əsas məqsədləri müəyyən etmişdir. Dünya liderləri, bu sahədə tanınmış ekspertlərin iştirakı ilə keçirilmiş bu sessiyada gender bərabərliyinin təmin edilməsi sahəsində aktual problemlər müzakirə edilmiş və müvafiq tövsiyələr səsləndirilmişdir. Qəbul edilmiş qərara əsasən gender sahəsində qeyri-bərabərliyin aradan qaldırılmasına nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə edilmişdir:

***Yoxsulluqla mübarizə.*** BMT-nin təhlillərinə əsasən bu sahədə bir sıra nailiyyətlər əldə edilməsinə baxmayaraq, insan inkişafını əngəlləyən yoxsulluq sahəsində gender qeyri-bərabərliyi mövcuddur və bu məhrumiyyətdən əziyyət çəkənlərin 70%-ni qadınlar təşkil edir. Yoxsulluğun ümumiyyətlə və xüsusilə qadınlar arasında azaldılması insan inkişafı sahəsində ən mühüm problemlərdəndir. Bu məqsəd beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bir sıra digər sənədlərdə, o cümlədən 2015-ci ildə keçirilmiş BMT-nin Baş Assambleyası və Dünya sammiti 2015-2030-cu illər üçün inkişaf məqsədlərində də yoxsulluq ilə mübarizə öz əksini tapmışdır.

***Qadınların təhsil və təlimi.*** Təhsil sahəsində gender qeyri-bərabərliyi bir sıra ölkələrdə mövcuddur və aradan qaldırılmalıdır. 2015-ci ilin sonunda dərc edilmiş hesabatlarda göstərilir ki, orta hesabla dünyada kişilərin təhsilə cəlb edilməsi və onların təhsil aldığı illər qadınlardan 27 faiz çoxdur. İnsan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələrdə belə fərqlər çox azdır (cədvəl 4.12.).

*Cədvəl 4.12. İnsan inkişafının səviyyəsinə görə fərqlənən ölkələrdə qadın və kişilərin təhsil aldığı illər**

| **İnsan inkişafının səviyyəsinə görə ölkələr qrupu** | **Təhsilə cəlb olunması, il** | |
|---|---|---|
| | **Qadın** | **Kişi** |
| Çox yüksək nəticələr əldə etmiş ölkələr | 11,7 | 12,0 |
| Yüksək nəticələr əldə etmiş ölkələr | 7,7 | 8,5 |
| Orta nəticələr əldə etmiş ölkələr | 4,9 | 7,3 |
| Aşağı nəticələr əldə etmiş ölkələr | 3,4 | 5,5 |
| Dünya (orta) | 6,2 | 7,9 |

**Mənbə: Human .Development Report, New York, UNDP, 2015.*

Qeyd edilməlidir ki, bəzi ölkələrdə, məsələn, Norveçdə və Böyük Britaniyada qadınlar kişilərə nisbətən təhsilə daha çox cəlb olunurlar. Belə şəraitdə gender bərabərliyinin təmin edilməsi kişilərin qadınlarla eyni səviyyədə təhsilə cəlb edilməsindən gedə bilər. Cədvəl 4.12.-də təqdim olunmuş məlumatlardan göründüyü kimi, insan potensialının

inkişafında orta və aşağı nəticələr əldə etmiş ölkələrdə təhsil göstəricisi olan ən azı tam orta təhsil almış qadın və kişilər arasında hazırda müşahidə edilən fərq yüksəkdir. İnsan inkişafı göstəriciləri aşağı olan ölkələrdə tam orta təhsilli kişilərin sayı qadınlardan iki dəfə çoxdur. Bu fərqin aradan götürülməsi qadınların imkanlarının genişlənməsinə xidmət edə bilər. 2015-ci ildə qəbul edilmiş davamlı inkişaf məqsədlərində bu istiqamətdə fəaliyyət xüsusi ilə hədəflənib.

***Qadınların sağlamlığı.*** Bu sahədə bir sıra ölkələrdə gender bərabərsizliyi müşahidə olunmasına baxmayaraq, qadınların orta ömür uzunluğu kişilərin ömür uzunluğundan, bir qayda olaraq, çoxdur. Lakin buna baxmayaraq, qadınların sağlamlıq problemləri mövcuddur və onlar aradan götürülməlidir. İnsan inkişafı üçün vacib amil olan ana ölümünün səviyyəsinin təhlili bu problemin aktual olmasının bir təzahürüdür (cədvəl 4.13).

*Cədvəl 4.13. İnsan potensialının inkişafı sahəsində fərqli nəticələr əldə etmiş ölkələrdə ana ölümü (hər 100 000 uşaq dünyaya gəldikdə)*

| İnsan potensialının inkişafına görə fərqlənən ölkələr qrupu | Dünyada reytinqi | Ölkələr | Ana ölümü | ÜDM adambaşı, ABŞ dolları (AQP ilə) |
|---|---|---|---|---|
| **Çox yüksək nəticələr əldə etmiş ölkələr** | 1 | Norveç | 4 | 64 992 |
| | 8 | ABŞ | 31 | 52 947 |
| | 17 | Koreya | 27 | 33 890 |
| | 40 | Argentina | 69 | 22 050 |
| **Yüksək nəticələr əldə etmiş ölkələr** | 52 | Rumıniya | 31 | 18 108 |
| | 72 | Türkiyə | 20 | 18 677 |
| | **78** | **Azərbaycan** | **26** | **17 500** |
| | 88 | Ekvador | 87 | 10 605 |
| **Orta nəticələr əldə etmiş ölkələr** | 110 | İndoneziya | 190 | 9 788 |
| | 130 | Hindistan | 190 | 5 497 |
| | 136 | Konqo | 410 | 10 512 |
| | 140 | Qana | 380 | 3 852 |
| **Aşağı nəticələr əldə etmiş ölkələr** | 147 | Pakistan | 170 | 4 866 |
| | 162 | Toqo | 450 | 1 228 |
| | 169 | Cənubi Sudan | 730 | 2 332 |
| | 181 | Sierra-Leone | 1 100 | 1 780 |

*Mənbə: Human Development Report, New York, UNDP, 2015.*

Ana ölümü haqqında beynlxalq təşkilatlar tərəfindən toplanmış statistik məlumatlar göstərir ki, bu sahədə dünyada vəziyyət bir mənalı deyil. Bəzi ölkələrdə 100 min uşağın dünyaya gəlməsi zamanı yalnız 4 ana ölümü baş verir. Belə yüksək nəticə Norveçdə qeydə alınmışdır və həmən ölkədə təbabətin və sosial sahənin yüksək səviyyədə olmasından xəbər verir. Cənubi Sudanda və Syera-Leonada Norveçlə müqayisədə müvafiq olaraq 182 və 275 dəfə çoxdur. İnsan potensialının inkişafı sahəsində bu ölkələr fərqli nailiyyətlər əldə etmişlər. Ümumiyyətlə, qeyd edilməlidir ki, qadınların sağlamlıq göstəriciləri insan inkişafı səviyyəsindən asılıdır (şəkil 4.17.).




***Şəkil 4.17.*** *İnsan potensialının inkişafı sahəsində fərqli nəticələr əldə etmiş ölkələrdə ana ölümü (hər 100 000 uşaq dünyaya gəldikdə).*
*1 – insan inkişafında çox yüksək nəticələr, 2 - yüksək nəticələr, 3 - orta nəticələr, 4 – aşağı nəticələr əldə etmiş ölkələr qrupunun orta göstəriciləri*

*Mənbə: Human Development Report, New York, UNDP, 2015.*

Şəkil 4.17.-dən aydın olur ki, müxtəlif ölkələrdə qadınların sağlamlıq göstəriciləri bilavasitə həmin ölkələrdə insan potensialının inkişaf səviyyəsindən asılıdr. Yalnız iqtisadi göstərici olan Ümumdaxili məhsul (ÜDM) ana ölümü səviyyəsində həlledici rol oynamır. Məsələn, Argentinada adambaşı ÜDM Rumıniya və Türkiyədən 1,2 dəfə çoxdur. Buna

baxmayaraq, Argentinada ana ölümü Rumıniyadan iki, Türkiyədən isə üç dəfə çoxdur. Deməli, qadınların sağlamlıq sahəsində nailiyyətlərin əldə edilməsi yalnız iqtisadi imkanlar ilə şərtləndirilə bilməz. Bu problemin həlli üçün insan inkişafı sahəsində kompleks tədbirlər həyata keçirilməlidir. BMT-nin 2015-ci ildə davamlı inkişafa həsr olunmuş Baş Assambleyasında və həmən dövrə təsadüf etmiş Dünya sammitində 17 qlobal məqsədlər arasında gender qeyri-bərabərliyinin ləğvi və bu zaman onların sağlamlığının yaxşılaşdırılması yaxın 15 il üçün hədəflənmişdir.

BMT-nin Baş Assambleyasının sessiyalarında və bu təşkilatın digər tədbirlərində qəbul edilən qərarlarda və təklif edilən tövsiyələrdə fərqli gender məsələləri də müzakirə olunmuşdur. Bunların arasında qadınlara qarşı zorakılıq, qadınlar və hərbi münaqişələr, qadınlar və iqtisadi inkişaf və digər məsələlər müzakirə edilmiş, müvafiq qərarlar qəbul edilmişdir. Habelə qadınlar və təbii mühit, qadın və mətbuat məsələlərinə dair təkliflər də irəli sürülmüşdür. Bu sənədlərdə gender problemlərinin kəskinləşməsinin acınacaqlı səbəbi kimi hərbi münaqişələrin baş verməsi, qaçqın və köçkün əhalinin mövcudluğu xüsusi qeyd edilmişdir. Azərbaycan Respublikası Azərbaycan–Ermənistan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qaçqın və məcburi köçkün problemləri ilə üzləşib. BMT-nin Təhlükəsizik Şurasının işğal altında olan Azərbaycan torpaqlarının dərhal və qeyd-şərtsiz azad edilməsi barədə 4 qətnamənin olmasına baxmayaraq, bu qərar Ermənistan və onların havadarları tərəfindən bu günə qədər yerinə yetirilmir. Hazırda da mümkün qərarlar Ermənistan tərəfində yerinə yetirilmir. Bir milyona yaxın həmvətənlərimiz hazırda da qaçqın və köçkün həyatını yaşayır. Onların əksəriyyəti qadın, uşaq və yaşlılardır. Münaqişənin həlli və beynəlxalq hüququn bərpası bu istiqamətdə yaranmış gender probleminin həllinə vacib töhfə ola bilər. Hazırda bir sıra Yaxın Şərq ölkələrini əhatə edən hərbi münaqişə və bunun nəticəsində yaranmış humanitar faciə nəticəsində qaçqınların sayı bir neçə milyon təşkil edir. Onları çoxu qadın və uşaqlardır. Bu hadisələr gender probleminin kəskinləşməsi ilə müşayiət olunur.

Gender bərabərliyi istiqamətində fəaliyyəti müvəffəqiyyətlə həyata keçirmək, bu əhəmiyyətli sahəni planlaşdırıb idarə etmək üçün xüsusi bilik və bacarığa malik olmaq vacibdir. Dünyanın aparıcı ölkələrində həm dövlət, həm də vətəndaş cəmiyyəti və fərdi sektorda gender bə-

rabərliyi sahəsində əldə edilmiş nəticələr və bu sahənin idarə edilməsində əhəmiyyətli biliklərin toplandığını sübut edir. Bu vacib sahəyə aid olan biliklərin kifayət qədər olmaması davamlı insan inkişafı sahəsində siyasətin həyata keçirilməsi üçün böyük əngəldir.

## *4.10. Özümüzü sınayırıq:*

### 4.10.1 Özümüzü sınayırıq suallar:

1. Qadın hərəkatının tarixi və gender anlayışının yaradılması barəsində nə bilirsiniz?
2. Gender probleminə fərqli baxışlar varmı?
3. Gender sahəsində vəziyyət necə dəyəndirilir?
4. Qadınların imkanlarının genişləndirilməsi potensialı necə müəyyən edilir?
5. Gender inkişafı hansı beynəlxalq təşkilatların sənədlərində daha çox öz əksini tapmışdır?

### 4.10.2. Özümüzü sınayırıq cavablar

**1. Qadın hərəkatının tarixi və gender anlayışının yaradılması barəsində nə bilirsiniz?**

Qadınların cəmiyyətdə tutduğu mövqe zamandan, milli və dini mədəniyyətdən və digər amillərdən asılı olmuşdur. Hazırda yüksək inkişaf səviyyəsinə qalxmış Avropa ölkələrində hələ XIX əsrin sonu – XX əsrin əvvəllərinə kimi qadınların evdən kənarda işləməsi, muzdla qulluq etməsi əhalinin orta və yüksək təbəqələri üçün qəbulolunmaz idi. Sosial baxımdan daha aşağı mövqe tutan və maddi ehtiyacı olan ailələrdən çıxan qadınlar isə muzdla varlı ailələrdən olan qadınlara ev işlərində kömək göstərirdilər. Son əsrlərin elmi və texnoloji nailiyyətləri qadınların həm məişətdə, həm də istehsalatda oynadığı rolu dəyişdirmişdir və qadın hərəkatı formalaşmışdır. Bunun davamı olaraq, XX əsrin sonunda «*gender*» anlayışı formalaşmışdır ki, bunu da sosial cins kimi xarakterizə etmək olar. Qadın və kişilər arasında sosial bərabərlik isə gender bərabərliyi kimi qəbul edilir. Beynəlxalq təşkilatların, o cümlədən BMT-nin sənədlərində təqdim olunmuş «dünyanın yarısı, imkanların yarısı» və

hər iki cinsə eyni imkanların yaradılması prinsipi, bu istiqamətdə həyata keçirilən siyasət gender bərabərliyinin mahiyyətini təşkil edir. Gender problemi qadın və kişilərin cəmiyyətdə oynadığı rolu, onların həmin toplumda tutduğu mövqeyi xarakterizə edən və bu sahədə eyni imkanların yaradılmasına xidmət, insan inkişafını təmin edən bir yanaşmadır. Bu səbəbdən gender yalnız qadın problemlərini araşdıran istiqamət kimi qiymətləndirilə bilməz. Bəzi hallarda gender bərabərliyinin təmin edilməsi kişilərin rollarının artırılması ilə əlaqədar ola bilər. Məsələn, bəzi hallarda vakant iş yerləri haqqında elanlarda işə yalnız qadınların dəvət olunduğu bildirilir. Təbii ki, elə fəaliyyət növləri mövcuddur ki, orada yalnız qadın və ya kişilərin çalışması zəruridir. Lakin bir çox hallarda işverənlər belə tələbləri əsaslandırmırlar və bu hal gender bərabərliyinin pozulması kimi qəbul edilə bilər. Bu səbəbdən gender cinslərin sosial bərabərliyi problemi kimi qəbul olunmalıdır.

### 2. Gender probleminə fərqli baxışlar varmı?

İnkişaf prosesinin davamlı olmasının təmin edilməsi üçün hər hansı bir problemə fərqli baxışların mövcudluğu olduqca əhəmiyyətlidir. Bu baxımdan gender problemini qəbul etməyənlər və həmən konsepsiyasının tənqidçiləri də mövcuddur. Tənqidin əsasında qadın və kişilərin təbiətinin fərqli olması və bu fərqlər yalnız fizioloji deyil, psixoloji sahəni də əhatə etməsidir. Müasir anlamda gender bərabərliyi əleyhdarlarının fikrincə, texniki və texnoloji tərəqqiyə, bunun nəticəsi kimi kişi və qadınların fiziki imkanlarının bərabərləşməsinə baxmayaraq, iqtisadi və sosial sahədə fəaliyyətlərin elə istiqamət və xüsusiyyətləri mövcuddur ki, orada, əsasən, qadınların və yaxud kişilərin çalışmaları daha məqsədəuyğundur. Gender nəzəriyyəsinin tənqidçilərinə görə, cəmiyyətdə kişi və qadınlar arasında fəaliyyət sahələrinin psixoloji amillərə əsaslanan bölümü hər iki qrupu daha məhsuldar və xoşbəxt edə bilər. Onların fikrincə gender probleminin ən düzgün həlli yolu hər iki cinsin uğurlu və sosial baxımdan ədalətli inkişafı üçün eyni, lakin onların xüsusiyyətlərini nəzərə alan şəraitin yaradılması ola bilər. Onların fikrincə, cəmiyyət üçün belə yanaşma daha əhəmiyyətlidir. Bu baxışların daşıyıcılarına görə, gender probleminin həlli qadınları qadın kimi, kişiləri isə kişi kimi xoşbəxt etməkdən keçir. Belə baxışların daşıyıcıları iddia edirlər ki,

cinslər arasında mövcud olan psixoloji fərqlərin nəzərə alınması eyni zamanda ailə ənənələrinin qorunması və gələcək nəsillərin tərbiyəsi üçün olduqca önəmlidir.

Təhlillər göstərir ki, cəmiyyətin inkişafının hazırkı mərhələsində belə baxışların tərəfdarı çox deyil. Çox zaman bu sahədə yaranmış vəziyyət milli və yerli ənənələrə əsaslanır. Bu səbəbdən gender bərabərliyi sahəsində qazanılmış nailiyyətlər dünyanın müxtəlif ölkə və regionlarında fərqlidir. Cəmiyyətin məhsuldar inkişafı və insan potensialının innovativ əsasda formalaşması və təkmilləşməsi yalnız gender bərabərliyi şəraitində təmin oluna bilər. Təhlillər göstərir ki, bir çox ölkələrdə qazanılmış iqtisadi və sosial nailiyyətlərin əldə edilməsində gender probleminin düzgün planlaşdırılması və həyata keçirilməsi əhəmiyyətli rol oynamışdır.

**3. Gender inkişafı sahəsində vəziyyət necə dəyəndirilir?**

İnsan inkişafı konsepsiyası çərçivəsində gender probleminin həlli, bu sahədə qazanılmış nailiyyətlərin qiymətləndirilməsi, mövcud potensialın müəyyən edilməsi müvafiq göstəricilərin monitorinqindən keçir. İnsan inkişafını səciyyələndirən göstərici hesablandığı kimi, gender inkişafını da xarakterizə edən əmsallar mövcuddur və hesablanır. Bu göstəricilərdən biri və ən əsası Gender İnkişafı Əmsalı (GİƏ) adlandırılır. Əmsalı hesablayarkən insan inkişafının ümumi əmsalının eyni göstəricilərindən (sağlamlıq, təhsil, gəlir) istifadə edilir. Fərq bir ondadır ki, bu göstəricilər qadınlar üçün ayrıca hesablanır və bu hesablamalarda göstəricilərdən biri (sağlamlıq göstəricisi) fərqli istifadə olunur. Belə fərqli yanaşma ondan irəli gəlir ki, bir qayda olaraq, qadınlar kişilərdən daha uzun ömür sürürlər. Ömür müddətinin qadınlarda daha yüksək olması universal bir haldır və bütün ölkələrdə müşahidə olunur. Qadın və kişilərin orta ömür müddətində müşahidə olunan fərq bioloji və fizioloji xüsusiyyətlərin və qadınların bir sıra şəraitlərdə daha dayanıqlı olmasının nəticəsidir. Bu səbəbdən GİƏ-nin hesablanması zamanı standart yaş kimi kişilər üçün minimal 22,5, maksimal isə 82,5 il götürüldüyü halda, qadınlar üçün bu rəqəmlər, müvafiq olaraq, 27,5 və 87,5 il təşkil edir. Belə yanaşma tamamilə əsaslıdır: qadın və kişilərin orta ömür uzunluğunda hazırda müşahidə olunan fərqlər təbiidir və sosial şərait

və yaxud qadınlar üçün xüsusi şəraitin yaradılması ilə heç bir əlaqəsi yoxdur.

Hər hansı bir ölkədə gender inkişafının vəziyyətini qiymətləndirmək üçün həmin məkan üçün ümumi İnsan İnkişafı Əmsalı (İİƏ), sonra isə ayrıca Gender İnkişafı Əmsalı (GİƏ) hesablanır. Alınmış hər iki əmsal müqayisə olunur. Fərqin olmaması və yaxud az olması gender problemlərinin olmamasından və ya onların uğurlu həllindən xəbər verir.

Qeyd edildiyi kimi, gender bərabərliyinin təmin edilməsi beynəlxalq prioritetlər sırasındadır. BMT tərəfindən təklif edilmiş və dünya sammitində qəbul edilmiş Minilliyin İnkişaf Məqsədləri sənədində gender bərabərliyinin təmin edilməsi əsas məqsədlər sırasında idi. Bu istiqamətə milli və beynəlxalq səviyyələrdə ayrılan diqqət bir sıra uğurların qazanılmasını təmin etmişdir. 2015-ci ildə Minilliyin Məqsədlərinə həsr olunmuş hesabatlardan aydın olur ki, gender inkişafında ən yüksək göstəricilər Kanada, Avstraliya, Danimarka, İsveçrə, Norveç və bir sıra digər ölkələrdə qeyd olunmuşdur. Bu ölkələrdə qadın və kişilərin cəmiyyətdə tutduğu mövqelər sosial baxımdan təxminən eynidir. Bu ölkələrin parlamentlərində, seçkili və təyinatlı rəhbər vəzifələrdə qadın və kişilər eyni səviyyədə təmsil olunublar. Bu səbəbdən hesab etmək olar ki, bir sıra ölkələrdə gender bərabərliyi problemi, demək olar ki, həll edilmişdir.

Lakin göstərilən sahədə problemlər qalmaqdadır və bu səbəbdən hazırda Minilliyin 2015-ci ildən sonrakı dövr üçün müzakirə edilən yeni məqsədləri arasında gender problemləri yenə də gündəmdədir.

### 4. Qadınların imkanlarının genişləndirilməsi potensialı necə müəyyən edilir?

Gender sahəsində vəziyyətin yaxşılaşdırılması üçün potensialın mövcudluğu digər əmsal ilə müəyyən edilir. Bu sahədə mövcud vəziyyət Qadınların İmkanlarının Genişləndirilməsi Əmsalı (QİGƏ) ilə dəyərləndirilir. QİGƏ-nin hesablanması zamanı istifadə olunan göstəricilərdən biri qadınların qanunvericilik qurumlarında, yəni parlamentlərdə təmsil olunmasıdır. Dünyanın müxtəlif ölkələrində bu göstəricilər çox fərqlidir. 2015-ci ilin hesabatlarına əsasən bu rəqəmlər 43,5 faizdən (İsveç) 0,7 faizə qədər (Yəmən) dəyişə bilər. Qonşu ölkələr olan Türkiyə və İran İslam Respublikasında qadınlar qanunverici qurumlara seçilənlərin müvafiq

olaraq 14,4 və 3,1 %-ni təşkil edirlər. Azərbaycanda Milli Məclisə seçilmiş millət vəkillərinin 16 %-ni qadınlar təşkil edir. Qeyd edilməlidir ki, qadınlar bələdiyyə səviyyəsində də daha geniş təmsil olunublar. Hazırda bələdiyyə sədrlərinin 17,7 faizini qadınlar təşkil edir.

QİGƏ-nin hesablanmasında istifadə olunan digər göstərici qadınların rəhbər vəzifələrə cəlb edilməsidir. Rəhbər vəzifələr dedikdə, qadınların nazir, nazir müavini, xarici ölkələrdə səfir vəzifələrində çalışmaları, rayon, yaxud şəhər, ya digər yaşayış məntəqələrinin rəhbəri, onun müavini seçilmələri, mütəxəssis vəzifələrində çalışması və s. nəzərdə tutulur. Qadınların bilik və bacarıq potensialından ən səmərəli istifadə və onların rəhbər vəzifələrə irəli çəkilməsi Norveç, İsveçrə, İslandiya, Finlandiya, Almaniya, Kanada və bir sıra digər ölkələrdə müşahidə olunur.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında qadınlar seçki hüququnu artıq XX əsrin əvvəllərində əldə etmişdilər. O da önəmlidir ki, Azərbaycanda qadınlara seçki hüququ bir çox hazırda inkişaf etmiş ölkələrdən daha erkən verilmişdir. Azərbaycanda qadınlar seçki hüququnu 1918-ci ildə qazandığı halda, ABŞ-da bu hadisə 1920-ci, Türkiyədə 1930-cu, İspaniyada 1931-ci, Yunanıstanda 1934-cü, İndoneziyada 1941-ci, Fransada 1944-cü, Yaponiyada 1945-ci, Bolqarıstanda 1944-cü, Argentinada 1947-ci, İranda 1963-cü, İsveçrədə 1971-ci illərdə baş vermişdir. Bəzi ölkələrdə qadınlar seçki hüquqlarını yalnız XXI əsrdə qazanıblar. XXI yüzillikdə qadınlara seçki hüququ tanıyan ölkələr arasında Küveyt, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin də adları çəkilə bilər. Onlardan ilk iki dövlətdə qadınlar seçkilərdə iştirak etmə imkanını 2005-ci, üçüncüdə isə yalnız 2011-ci ildə qazanıblar.

**5. Gender inkişafı hansı beynəlxalq təşkilatların sənədlərində daha çox öz əksini tapmışdır?**

Gender inkişafında müşahidə edilən müsbət dəyişikliklərdə beynəlxalq inkişaf qurumlarının rolu olduqca yüksəkdir. Beynəlxalq təşkilatlar gender inkişafına və bu sahədə mövcud olan qeyri-bərabərliyin aradan qaldırılmasına daim diqqət yetirirlər. 2000-ci ilin iyun ayında keçirilən BMT-nin Baş Assambleyasının sessiyası məhz gender problemlərinə həsr edilmişdi. Baş Assambleyanın sessiyası: «Gender bərabərliyi, XXI əsr üçün inkişaf və sülh» şüarı altında keçirilmişdi. Sessiya gender

bərabərliyinin təmini üçün, qadınlar və kişilər arasında mövcud olan sosial bərabərsizliyin aradan qaldırılması istiqamətində əsas məqsədləri müəyyən etmişdir. Dünya liderləri, bu sahədə tanınmış ekspertlərin iştirakı ilə keçirilmiş bu sessiyada gender bərabərliyinin təmin edilməsi sahəsində aktual problemlər müzakirə edilmiş və müvafiq tövsiyələr səsləndirilmişdir. Qəbul edilmiş qərara əsasən gender sahəsində qeyri-bərabərliyin aradan qaldırılmasına nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə edilmişdir:

***Yoxsulluqla mübarizə.*** Bu sahədə bir sıra nailiyyətlər əldə edilməsinə baxmayaraq, yoxsulluq sahəsində gender qeyri-bərabərliyi mövcuddur və yoxsulların 70%-ni qadınlar təşkil edir. Yoxsulluğun ümumiyyətlə və xüsusilə qadınlar arasında azaldılması davamlı insan inkişafı sahəsində ən mühüm problemlərdəndir. Bu məqsəd beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bir sıra digər sənədlərdə, o cümlədən BMT tərəfindən müzakirəyə çıxarılmış 2015-ci ildən sonrakı dövr üçün inkişaf məqsədlərində öz əksini tapmışdır:

***Qadınların təhsil və təlimi.*** Təhsil sahəsində gender qeyri-bərabərliyi bir sıra ölkələrdə mövcuddur və aradan qaldırılmalıdır. 2015-ci ilin sonunda dərc edilmiş hesabatlarda göstərilir ki, orta hesabla dünyada kişilərin təhsilə cəlb edilməsi və onların təhsil aldığı illər qadınlardan 23 faiz çoxdur. İnsan potensialı sahəsində yüksək nəticələr əldə etmiş ölkələrdə belə fərqlər müşahidə edilmir. Bəzi ölkələrdə, məsələn, Norveçdə və Böyük Britaniyada qadınlar kişilərə nisbətən təhsilə daha çox cəlb olunurlar. Belə şəraitdə gender bərabərliyinin təmin edilməsi kişilərin qadınlarla eyni səviyyədə təhsilə cəlb edilməsindən gedə bilər.

***Qadınların sağlamlığı.*** Bu sahədə bir sıra ölkələrdə gender bərabərsizliyinin müşahidə olunmasına baxmayaraq, qadınların orta ömür uzunluğu kişilərin ömür uzunluğundan, bir qayda olaraq, çoxdur. Lakin buna baxmayaraq, qadınların sağlamlıq problemləri mövcuddur və onlar aradan götürülməlidir. Qadın sağlamlığı dünyanın müxtəlif ölkələrində fərqlidir və ölkələrin insan potensialının inkişafı sahəsində qazanılmış nailiyyətlərindən asılıdır. Məsələn, ana ölümü hallarının tezliyinin təhlili göstərir ki, insan inkişafı sahəsində aşağı nəticələr əldə etmiş ölkələrdə bu hal insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələrdən on dəfələrlə çoxdur. Bu hal onu nümayiş edir ki, qadınların sağlamlıq göstəricilərinin yaxşılaşdırılması insan potensialının inkişafından keçir.

# 5. İNSAN İNKİŞAFINA MANE OLAN AMİLLƏR: YOXSULLUQ

*Yoxsulluğun mahiyyəti. Yoxsulluğun səbəbləri. Median gəlir anlayışı. Yoxsulluq insan inkişafı baxımından. Yoxsulluğun qeyri-iqtisadi amilləri. Çoxölçülü yoxsulluq. Yoxsulluğun qiymətləndirilməsində təhsil, sağlamlıq və iqtisadi göstəricilər. Yoxsulluğun inkişaf etmiş və inkişafda olan ölkələrdə qiymətləndirilməsi. Yoxsulluq ilə mübarizə proqramları. Dünyada yoxsulluğun azalma dinamikası. Azərbaycanda yoxsulluq ilə mübarizə.*

**Mündəricat:**


5.1. Bölmənin məqsədi
5.2. Açar anlayışlar
5.3. Yoxsulluğun mahiyyəti
5.4. Yoxsulluğun səbəbləri
5.7. Yoxsulluq insan inkişafı baxımından
5.8. Yoxsulluqdan ən çox əziyyət çəkən əhali qrupları
5.9. Yoxsulluğun qiymətləndirilməsinin ümumi prinsipləri
5.10. Yoxsulluğun inkişafda olan ölkələrdə qiymətləndirilməsi
5.11. Yoxsulluğun inkişaf etmiş ölkələrdə qiymətləndirilməsi
5.12. Özümüzü sınayırıq


## *5.1. Bölmənin məqsədi*

Yoxsulluq insan inkişafına mane olan ən ciddi amillərdəndir. Yoxsulluğun mahiyyətini və onun səbəblərini bilmədən bu sahədə müxtəlif məhrumiyyətlərlə mübarizə sahəsində fəaliyyəti optimal planlaşdırmaq və həyata keçirmək mümkün deyil. Bu səbəbdən hazırkı bölmədə yoxsulluq anlayışı, onun təzahürü olan mütləq, nisbi və çoxölçülü yoxsulluğun mahiyyətləri haqqında məlumatlar təqdim edilir. Bölmədə təqdim olunmuş təhlillər göstərir ki, müasir anlamda yoxsulluq iqtisadi səbəblər ilə məhdudlaşmır. İnsan inkişafına, onun istedadının üzə çıxmasına mane olan bir çox amillər yoxsulluq kimi səciyyələndirilə bilər. Yoxsulluğun

səbəblərinə gəldikdə isə, aydın olur ki, bu vəziyyəti törədən bir sıra amillər mövcuddur. Onlara peşəkarlığın aşağı olması, miqrasiya və hərbi münaqişələr, demoqrafiyada qeyri-qənaətbəxş vəziyyət, sosial-tibbi və digər səbəblər aiddir. Yoxsulluğun səviyyəsinin inkişaf etmiş və inkişaf-da olan ölkələrdə müəyyən edilməsində istifadə edilən üsullar bu bölmədə təqdim olunmuşdur. Bölmə yoxsulluqla mübarizənin planlaşdırılması və idarəedilməsi üçün əhəmiyyətlidir.

## *5.2. Açar anlayışlar (bax: Terminlər lüğəti)*

***– Aşağı çəkidə anadan olmuşlar; – Beş yaşına qədər aşağı çəkili uşaqların faizi; – Ekoloji sivilizasiya – Ekocivil; – Median gəlir; – Mütləq yoxsulluq; – Nisbi yoxsulluq; – Çoxölçülü Yoxsulluq Əmsalı (ÇYƏ); – Subyektiv yoxsulluq; – Əmək bazarı; – Xroniki işsizlik; – İşsizlik; Qaçqınlar; – Məhsul və xidmətlərin ixracı; – Yoxsulluq həddi.***

## *5.3. Yoxsulluğun mahiyyəti*

Yoxsulluq müxtəlif cəmiyyətlərdə tarixən müşahidə olunmuşdur və bu halın insanların müxtəlif toplumları arasında gələcəkdə də təzahür etməsi ehtimalı çox yüksəkdir. Dünya əhalisinin sayının sürətlə artması, adambaşına istehlakın yüksəlməsi və eyni zamanda bu sahədə müşahidə edilən kəskin qeyri-bərabərlik yoxsulluğu törədən amillərdəndir. Dünyada qloballaşma proseslərinin güclənməsi fonunda bir çox ölkələrdə baş verən iqtisadi, sosial və çox zaman bunların nəticəsi kimi ortaya çıxan ekoloji və humanitar böhranlar yoxsulluqla mübarizənin səmərəliliyini əhəmiyyətli dərəcədə azaldır. Hazırda dünyada müşahidə edilən bir çox hərbi münaqişələrin yaranması və genişlənməsində də yoxsulluğun rolu danılmazdır. Yoxsulluqla əlaqədar problemlərə, həmin proseslərə yetərincə diqqət ayrılmaması, yoxsulluğu törədən səbəblərin aşkar edilməməsi hər hansı bir ölkədə əhalinin narazılığını artıra bilər. Bu isə gərginliyin artmasına və hətta vətəndaş qarşıdurmasına gətirib çıxara bilər. Eyni səbəbdən yoxsulluğun daim diqqət mərkəzində olması, onu

törədən amillərin mütəmadi araşdırılması zərurəti yaranır. Hər hansı bir ölkə, ərazi və yaxud ölkədaxili əhali qruplarında yoxsulluğun əlamətləri müəyyən edilərsə, həmin vəziyyətə adekvat optimal idarəetmə qərarlarının qəbul olunması və bu istiqamətdə çevik fəaliyyətin həyata keçirilməsi müvafiq siyasətin reallaşdırılmasını tələb edir. Belə strategiya insan inkişafına xidmət edə bilər. Eyni zamanda yoxsulluğun yüksək səviyyədə olması, bu məhrumiyyətlə mübarizənin effektiv olmaması milli təhlükəsizlik üçün risk yaradan ciddi amildir.

Zaman keçdikcə yoxsulluqla bağlı təsəvvürlər də dəyişməkdədir. Tarixən yoxsulluq əsasən iqtisadi baxımdan məhrumiyyət kimi qəbul edilib. İnsanların yoxsul olması həyati tələblərinin təmin edilə bilməməsi kimi anlaşılıb. Hazırda isə yoxsulluğun üç təzahürü daha çox müzakirə mövzusu və qiymətləndirmə obyektidir. Bunlara ***mütləq, nisbi və çoxölçülü yoxsulluq*** anlayışları aiddir.

***Mütləq yoxsulluq*** dedikdə, yuxarıda qeyd edildiyi kimi, hər hansı bir şəxsin həyat fəaliyyətinin təmin edilməsi üçün kifayət qədər vəsaitin olmaması nəzərdə tutulur. Bura insanın kəmiyyət və keyfiyyət baxımından kifayət dərəcədə qida ilə təmin olunması səviyyəsi də aiddir. İnsan inkişafını məhdudlaşdıran bu növ yoxsulluq həmin vəziyyəti səciyyələndirən yoxsulluq həddi anlayışı ilə bağlıdır. Müxtəlif ölkələr arasında yoxsulluq həddində fərqlər müşahidə edilsə də, onların ümumiləşdirilmiş göstəriciləri də məlumdur və beynəlxalq müqayisələrdə istifadə edilməkdədir. Adətən bu hər bir fərdin gününə düşən pul vəsaitidir. Məsələn, Dünya Bankının standartlarına görə, bəzi, xüsusən inkişafda olan ölkələrin əhalisi üçün mütləq yoxsulluq həddi, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, gündə 1,25 ABŞ dolları təşkil edir. Bu o deməkdir ki, həmin ölkələrdə bu həddən yuxarı gəlir sahibləri artıq yoxsul hesab edilə bilməzlər. Yoxsulluq həddi konsepsiyasının qüsuru da elə bundadır. Belə statistik göstərici yoxsulluq həddindən az da olsa fərqlənən gəlirə malik olan fərd və yaxud ev təsərrüfatlarını yoxsul hesab etmir, yoxsul kimi qiymətləndirmir və müvafiq olaraq, onlara imtiyazlar təqdim etmir.

BMT-nin 2015-ci ildə dərc edilmiş hesabatlarında göstərilir ki, dünya əhalisinin təxminən 22 faizinin yaşaması üçün onların sərəncamında gündə 1,25 ABŞ dollarından az məbləğ olur. Bəzi ölkələrdə bu həddən aşağı olan əhalinin payı xüsusi ilə yüksəkdir (cədvəl 5.14). Bu isə ən azı bir milyarda yaxın insanın mütləq yoxsulluqla üzləşdiyindən xəbər

verir. Əgər yoxsulluq xətti gündə 2,5 ABŞ dollarına qaldırılsa, onda yoxsulluqdan əziyyət çəkənlərin sayı ən azı iki dəfə artmış olar. Dünya Ərzaq Proqramının məlumatına görə, 2013-cü ildə dünya əhalisinin təxminən 12 faizi (842 milyona yaxın insan) xroniki aclıqdan əziyyət çəkir. Nəzərə alınmalıdır ki, gündəlik əməkhaqqının aşağı olması ilə yanaşı, iş yerləri də stabil deyillər. Beynəlxalq Əmək Təşkilatının 2013-cü ilin hesabatında göstərilir ki, qlobal miqyasda məşğul olanların yarısı, təxminən 1,5 milyard fəhlə və qulluqçu qeyri-rəsmi çalışır və ya onların iş yerlərinin mövcudluğu daim risk altındadır.

*Cədvəl 5.14. Müxtəlif ölkələrdə gəliri gündə 1,25 ABŞ dollarından az olan əhali**

| Ölkə | Əhalinin sayı, min nəfər | Gündəlik gəliri 1,25 ABŞ dollarından aşağı olan əhali | |
|---|---|---|---|
| | | sayı, min | faizi |
| Banqladeş | 159 903 | 68 758 | 43,3 |
| Benin | 10 315 | 5 363,8 | 51,6 |
| Burkina Faso | 18 450 | 8 118 | 44,5 |
| Mərkəzi Afrika Respublikası | 4 900 | 3 087 | 62,8 |
| Çad | 14 037 | 5 053 | 36,5 |
| Efiopiya | 90 076 | 33 328 | 36,8 |
| Qambia | 1 990 | 677 | 33,6 |
| Qvineya | 12 609 | 5 167 | 40,9 |
| Keniya | 46 050 | 19 801 | 43,4 |
| Liberiya | 4 503 | 3 783 | 83,8 |
| Madaqaskar | 24 235 | 21 326 | 87,7 |
| Mali | 17 600 | 8 976 | 50,6 |
| Tanzaniya | 53 470 | 22 992 | 43,5 |
| Toqo | 7 305 | 3 799 | 52,5 |
| Zambia | 15 474 | 11 451 | 74,3 |

**Mənbə: Human development Report, UNDP, New York, 2015*

Cədvəl 5.14.-də yalnız bəzi mütləq yoxsulluqdan daha çox əziyyət çəkən ölkələr və onların əhalisi haqqında məlumatlar təqdim edilmişdir. Cədvəldən göründüyü kimi, bir sıra ölkələrdə əhalinin yarısının, bəzi hallarda isə yarısından çoxunun sərəncamında öz həyatını təmin etmək üçün gündə əlində olan vəsait cəmi 1,25 dollar və ondan az məbləğ təşkil edir. Bu isə aclıq və qida çatışmazlığı deməkdir. Yaranmış dözülməz vəziyyəti aradan qaldırmaq üçün 2015-ci ildə BMT və Dünya Sammitində 2015–2030-cu illər üçün hədəflənmiş Davamlı İnkişaf Məqsədləri arasında yoxsulluq ilə mübarizə ilə yanaşı, aclığın aradan qaldırılması da nəzərdə tutulub. Hədəflənmiş məqsədlərə nail olmaq, ilk növbədə, insan potensialının inkişafı və onun optimal idarəetməsindən keçir. Bu səbəbdən yoxsulluq və aclıq ilə mübarizə ilə yanaşı, eyni zamanda insan inkişafı üçün ən vacib amillər olan yaxşı sağlamlığın və keyfiyyətli təhsilin təmin edilməsi də 2030-cu il üçün hədəflənmiş məqsədlər arasındadır.

Gündəlik gəlirin 1,25 ABŞ dolları yoxsulluq həddi kimi götürülməsi yalnız orta rəqəm kimi qəbul edilməlidir. Bəzi hallarda bu rəqəm fərqli də ola bilər. Məsələn, Çinin kənd əhalisi üçün yoxsulluq həddi gündə 1 ABŞ dolları səviyyəsində qəbul edilmişdir. XXI əsrin ikinci onilliyinə aid olan araşdırmalardan aydın olur ki, həmin ölkənin kənd sakinlərinin 122 milyonu bu həddən aşağı səviyyədə təmin edilmişdilər. Lakin yoxsulluq ilə mübarizə öz nəticələrini göstərir. Beynəlxalq təşkilatların proqnozlarına görə, hazırkı mərhələdə inkişafda olan ölkələrdə bir gündə 1,25 ABŞ dollarından az vəsaitə yaşayan əhalinin sayı yaxın 15 ildə əhəmiyyətli dərəcədə azalacaq. Dünyanın müxtəlif ölkələrində bu istiqamətdə bir sıra nailiyyətlər əldə edilməsinə baxmayaraq, bu məqsədə nail olmaq və yoxsulluqla mübarizəni daha uğurla aparmaq üçün ekspertlərin fikrincə, həm milli səviyyədə, həm də qlobal miqyasda bu sahədə həyata keçirilən tədbirlər daha səmərəli koordinasiya edilməlidir. Bu istiqamətdə bir sıra ölkələrdə həyata keçirilən yoxsulluqla mübarizə proqramları müsbət təcrübə kimi istifadə edilə bilər. Azərbaycan Respublikasında yoxsulluq ilə mübarizə istiqamətində qazanılan nailiyyətlər və əldə edilmiş təcrübə belə örnəklər qrupuna aid edilə bilər.

Beynəlxalq təşkilatlar yoxsulluğun səviyyəsini müəyyən etmək üçün digər bir göstəricidən istifadə edilməsini təklif etmişlər. Bu göstərici işlə təmin olunmuşlar arasında yoxsulların müəyyən edilməsi üçün istifadə

edilə bilər. İşləyənlər arasında, alıcılıq qabiliyyətini nəzərə almaqla, gündə 2 ABŞ dollarına çalışanlar mütləq yoxsullar qrupuna aid edilə bilərlər. Belə bir hala yüksək inkişaf etmiş ölkələrdə praktiki olaraq rast gəlinmir. Lakin bir sıra inkişafda olan ölkələrdə belə faktlar müşahidə edilir. Məsələn, Beynəlxalq Əmək Təşkilatının dərc olunmuş məlumatlarına görə, Kolumbiyada işlə təmin olunmuşların 22,8 %-i gündə 2 ABŞ dolları və ya ondan az məbləğə çalışırlar. Boliviyada gündə 2 ABŞ dollarına çalışanlar bütün işlə təmin olunmuşların 23,4, Şri-Lankada 26,0, Nikoraquada 27,4 faizini təşkil edirlər. Bəzi ölkələrdə isə eyni göstəricini əks etdirən rəqəm bundan böyükdür. Məsələn, Əfqanıstanda işlə təmin olunanların 73 faizinin əməkhaqqı 2 dollar və ondan az təşkil edir.

Mütləq yoxsulluqla yanaşı, nisbi yoxsulluq da insan potensialına əsaslanan inkişafa mənfi təsir göstərən amildir. Eyni zamanda insan inkişafı göstəricilərinin hər hansı bir ölkədə aşağı olması yoxsulluğu törədən bir amil kimi qəbul edilir. Nisbi yoxsulluq, bir qayda olaraq, cəmiyyətdə müşahidə edilən qeyri-bərabərliklə əlaqədardır. Yoxsulluğun bu kateqoriyasının təzahürü ondadır ki, həmin qrupa aid olan fərdlər və yaxud ev təsərrüfatları üçün cəmiyyətin əksəriyyətinin yararlandığı məhsul və xidmətlər əlçatmazdır.

Nisbi yoxsulluğun təhlili və qiymətləndirilməsində bir sıra üsullardan istifadə olunur. Onlardan biri və ən çox təhlillərə cəlb ediləni ***median gəlirlərin*** müqayisəsinə əsaslanır. Median gəlir elə bir göstəricidir ki, hər hansı bir ölkə, ərazidə və yaxud peşə sahibləri arasında ondan yuxarı və ondan aşağı gəlir əldə edən əhalinin və ya işçilərin sayı eynidir. Median gəlirin orta gəlirdən fərqi məhz bundadır. Ölkə və yaxud ərazidə median gəlirlərin dörddə birindən az gəlirləri olan fərd və ya ev təsərrüfatları nisbi yoxsul hesab edilir.

Müxtəlif ölkələrdə median gəlirlər fərqlidirlər. İqtisadi baxımdan zəngin ölkələrdə bu rəqəm nisbətən yüksək, iqtisadi imkanları məhdud olan ölkələrdə isə nisbətən aşağı olur. Təbii ki, iqtisadi baxımdan belə fərqlənən ölkələrdə yoxsulluq göstəriciləri də fərqli olacaq. Belə ki, iqtisadi baxımdan inkişaf etmiş və sosial siyasətə lazımi diqqət ayıran ölkələrdə median gəlir nisbətən yüksək olur. Əksinə, inkişafda olan və nisbətən aşağı gəlirlərə malik ölkədə median gəlir isə aşağı olur. Bu səbəbdən inkişaf etmiş və inkişafda olan ölkələrin yoxsulluq səviyyələrində, o cümlədən nisbi yoxsulluq səviyyələrində kəskin fərqlərin mövcudluğu təbiidir.

Son illərdə ***çoxölçülü yoxsulluq*** anlayışı da istifadə edilməkdədir. Çoxölçülü yoxsulluğun qiymətləndirilməsində bir sıra amillərin mövcudluğu nəzərə alınmaqdadır. Bunlara ev təsərrüfatında elektrikin olmaması, içməli suyun evə çatdırılması üçün 30 dəqiqədən çox zaman sərf edilməsi, ev təsərrüfatında heç olmasa bir televizor, telefon, soyuducu və ya ailə üzvlərində motosiklin və ya velosipedin olmaması, qida hazırlanması üçün istifadə olunan müasir təkmilləşmiş yanacağın mövcud olmaması, evin döşəməsinin torpaq və ya palçıqdan olması, sanitar qovşaqlarının bir neçə ailə tərəfindən istifadəsi və digərləri, ümumiyyətlə, 18 xüsusiyyət aiddir. Beynəlxalq təşkilatların qəbul edilmiş standartlarına görə, bu amillərdən üçünün eyni zamanda mövcudluğu artıq çoxölçülü yoxsulluq kimi qiymətləndirilir. BMT-nin 2015-ci ildə dərc edilmiş məlumatlarına əsasən çoxölçülü yoxsulluq ən çox Pakistan, Əfqanıstan, Braziliya, Niger, Nigeriya, Yəmən, Uqanda, Seneqal, Somali və bir sıra digər ölkələrdə yayılmışdır. Göründüyü kimi, çoxölçülü yoxsulluğa, əsasən, bəzi Cənubi Amerika, Asiya və ən çox isə Afrika qitəsində rast gəlinir.

Bunlarla yanaşı, yoxsulluğun təsnifatı və qiymətləndirilməsində ***subyektiv yoxsulluq*** konsepsiyası da tətbiq edilməkdədir. Subyektiv yoxsulluq fərdin özünü yoxsul hiss etməsinə və yaxud etməməsinə əsaslanır. Yoxsulluğun bu kateqoriyasının qiymətləndirilməsi zamanı hər hansı bir fərdin və yaxud ev təsərrüfatı nümayəndəsinin özünü yoxsullar qrupuna aid edib-etməməsi nəzərə alınır. Bunun kəmiyyət göstəricisi faizlə təqdim edilir. Subyektiv yoxsulluq səviyyəsinin qiymətləndirilməsi yalnız sorğular əsasında gerçəkləşdirilir. Yoxsulluq eyni zamanda insan inkişafı konsepsiyası baxımından da təhlil oluna və qiymətləndirilə bilər. Bu zaman hər hansı fərdin yoxsul olması, onun insan inkişafı üçün şəraitinin mövcudluğu nəzərə alına bilər.

Yoxsulluğa məhrumiyyət baxımından yanaşma da məlumdur. Bu zaman cəmiyyətin elə üzvləri yoxsul hesab edilirlər ki, onların istehlakı cəmiyyətdə qəbul edilmiş standartlara uyğun deyil, bir sıra nemətlər və xidmətlər onlar üçün əlçatmazdır. Bu zaman yoxsulluq yalnız aşağı gəlir və istehlakla deyil, eyni zamanda istehlakın keyfiyyətinin yüksək olmaması, normal yaşayış şəraitinin, keyfiyyətli təhsil və tibbi xidmətlərinin əlçatmaz olması ilə müəyyən edilir. Bu səbəbdən bir sıra hallarda yoxsulluğun göstəricisi kimi gəlir deyil, istehlak çıxış edir. Məhrumiy-

yətlə əlaqədar yoxsulluğa misal kimi hər hansı bir şəxsin ipoteka almaq imkanı olması və olmamasını göstərmək olar.

Qeyd edilməlidir ki, yoxsulluğun bütün təzahürləri ilə mübarizə hər zaman bəşəriyyətin diqqət mərkəzində olmuşdur. Artıq 2000-ci ildə BMT-nin təşəbbüsü ilə Dünya Sammitində qəbul olunmuş "Minilliyin inkişaf məqsədlərində" 2015-ci ilə qədər dünya ölkələrində yoxsulluğun 2 dəfə azaldılması hədəflənmişdir. Nəzərdə tutulmuş bu hədəf bir sıra ölkələr tərəfindən yerinə yetirilmişdir və bunun nəticəsi kimi hazırda dünyada yoxsulluğun səviyyəsi nəzərəçarpan dərəcədə azalmışdır. Ən yüksək nəticələrdən biri Azərbaycan Respublikasında qeydə alınmışdır. Dünya Bankının qiymətləndirmələrinə görə ölkəmizdə yoxsulluq 49 faizdən 5 faizə enmişdir. Qeyd etmək lazımdır ki, bu proses ardıcıl şəkildə həyata keçirilmişdir və 2010-cu ildə Azərbaycan Respublikasının əhalisinin 9,3 faizi yoxsul kimi qeydə alınmışdı.

Qlobal miqyasda müşahidə edilən yoxsulluq və bu məhrumiyyət ilə mübarizə bu gün də aktualdır. Bunun nəticəsidir ki, 2015-ci ildə keçirilmiş BMT-nin davamlı inkişafa həsr olunmuş Baş Assambleyası və eyni mövzunu müzakirə edən Dünya Sammiti yoxsulluq ilə mübarizəni 2030-cu il üçün ən əsas hədəflər sırasına daxil edilmişdir. Bu səbəbdən insan inkişafını əngəlləyən yoxsulluğu törədən amillərin təhlili bu məhrumiyyət ilə mübarizə üçün olduqca əhəmiyyətlidir.

### *5.4. Yoxsulluğun səbəbləri*

Bəllidir ki, hər hansı bir neqativ prosesi və ya hadisəni optimal idarə etmək, onun qarşısını almaq, həmin hadisə ilə səmərəli mübarizə aparmaq üçün ilk növbədə, onun səbəbləri araşdırılmalıdır. Yoxsulluqla mübarizə strategiyasının seçilməsi, yoxsulluqla mübarizə prosesinin səmərəli idarə olunması bu çoxamilli və çoxölçülü məhrumiyyətin kökündə duran faktorların müəyyənləşdirilməsini tələb edir. İnsan potensialına əsaslanan inkişafa mənfi təsir göstərən yoxsulluğun azaldılması bu prosesdən asılıdır.

Müasir təsnifata görə, yoxsulluğun, xüsusən mütləq yoxsulluğun, əsasında bir sıra amillər durur. Onlardan ən əsas səbəblər aşağıdakılardır:

***İqtisadi səbəblər.*** Mütləq yoxsulluğun iqtisadi səbəbləri arasında ən çox yayılmışı maddi vəsaitin çatmamasıdır. Maddi vəsaitin çatmaması

müxtəlif səbəblərlə bağlıdır. Onların arasında xüsusi yeri uzunmüddətli işsizlik tutur. Bu vəziyyətdən qaynaqlanan yoxsulluq və bununla əlaqədar olan məhrumiyyətlər həm inkişaf etmiş ölkələrin vətəndaşları, həm də inkişafda olan ölkələrin sakinləri üçün keçərlidir. Bununla yanaşı, yoxsulluğun səbəbləri arasında əməkhaqqının aşağı olması da xüsusi yer tutur və insan inkişafına mənfi təsir göstərən bu amil bütün ölkələrə aid edilə bilər. Əməkhaqlarının aşağı olması çoxölçülü yoxsulluqda özünü daha qabarıq göstərir. Düşünmək olar ki, gününə cəmi 2 ABŞ dollarına çalışmaq uzunmüddətli işsizlikdən bir o qədər də fərqlənmir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin hamısında əməkhaqları yüksək olmayan təbəqə mövcuddur. Sadəcə onların ümumi əhali arasında faizi müxtəlif ola bilər.

***Təhsil və peşəkarlıqla əlaqədar səbəblər***. Bəzi hallarda yoxsulluğun səbəbi kimi kifayət dərəcədə bilik və bacarığın olmaması göstərilir. Savadsızlıq və ***funksional savadsızlıq*** yoxsulluğa aparan yollardan biridir və sürətli innovativ inkişaf edən cəmiyyət şəraitində peşəkarlığı yüksək olmayan əhali üçün xüsusilə təhlükəlidir. İnsan potensialının inkişafı, fasiləsiz təhsil yoxsulluğun bu səbəbinin qarşısını almaq üçün olduqca əhəmiyyətlidir. Peşə hazırlığının diversifikasiyası da bu səbəblə şərtlənən yoxsulluğun qarşısının alınması, onun səviyyəsinin və riskinin azalması üçün olduqca əhəmiyyətlidir. Təhsilin istiqamətləri və onların hazırkı və gələcək əmək bazarı ilə əlaqəsi yoxsulluğu şərtləndirən vacib amillərdəndir. Məsələn, bəllidir ki, bəzi, o cümlədən Avropa İttifaqına daxil olan ölkələrdə ali təhsilli gənclərin 50 faizindən çoxu işsizdir. Yaranmış vəziyyət təhsilin ***əmək bazarı*** ilə uyğun olmamasının nəticəsidir. Yoxsulluğun bu səbəbinin aradan qaldırılması ixtisasların düz seçimi və peşə diversifikasiyasından keçir.

***Miqrasiya və hərbi münaqişələr.*** Miqrasiyanın əsasında bir çox hallarda həyatın təhlükə altında olması və iqtisadi, siyasi, sosial baxımdan dözülməz sayılması durur. Belə şəraitdən qaçan insanlar yeni məskunlaşan yerlərdə əksər hallarda köçdüyü ölkənin yoxsullar təbəqəsinə daxil olurlar. Son zamanlar miqrasiya səbəblərindən biri kimi ekoloji amillər göstərilir. Ətraf təbii mühitin çirklənməsi və pozulması, bunun nəticəsi olaraq həyat, sağlamlıq və məşğulluq üçün risklər yaranması miqrasiyanın səbəbi kimi çıxış edir. Belə hallar texnoloji qəzalar baş verdiyi zaman daha böyük miqyaslı olurlar. Məsələn, 26 aprel 1986-cı ildə

Ukraynanın Çernobıl şəhərində yerləşən atom elektrik stansiyasında qəza baş vermişdir. Bu qəzada atmosferə atılan radiasiyanın dozası Yaponiyanın Naqasaki və Xirosima şəhərlərinə İkinci Dünya müharibəsində atılan atom bombalarının təsirindən 100 dəfə çoxdur. Çernobıl və onun ətrafında 30 kilometrlik zonadan bütün əhali köçürülüb. Oxşar vəziyyət 11 mart 2011-ci il təbii fəlakət nəticəsində Yaponiyanın Fukusima atom elektrik stansiyasında baş vermiş qəza ilə yaranmışdır. Hər iki halda ekoloji baxımdan həmən ərazilər yaşayış üçün yararsız və ya təhlükəlidir və bu vəziyyət bir çox illər davam edəcək.

Yoxsulluğun digər səbəblərinə müharibələr, hərbi münaqişələr və bu hadisələrin nəticəsində törənmiş fəsadlar aid edilə bilər. Müharibə və hərbi münaqişələr nəticəsində həyat üçün risklər yaranır, böyük ərazilərdə, bir qayda olaraq, sənaye və kənd təsərrüfatı obyektləri, yaşayış məntəqələri, evlər, təhsil və səhiyyə ocaqları dağıdılır və ya yararsız vəziyyətə gətirilir. Bu eyni dərəcədə hərbi münaqişəyə cəlb edilmiş ərazilərin yol və rabitə infrastrukturuna da aiddir. Bu ərazilərdə yaşayan əhalinin şəxsi əmlakı, iş yerləri tam itirilmiş olur. Şübhəsiz ki, belə hadisələr nəticəsində münaqişəyə cəlb edilmiş əhali dərhal yoxsula çevrilir. Hərbi münaqişə və müharibələr zamanı əmək yaşlı və yaradıcı potensiala malik olan əhalinin yaranmış vəziyyət ilə əlaqədar məcburiyyət qarşısında yaradıcı fəaliyyətdən, real iqtisadiyyatdan ayrılması da yoxsulluğun bir səbəbi kimi çıxış edə bilər. Hazırda dünyanı bürümüş qaçqın dalğası yoxsulluğu şiddətləndirən və insan inkişafı prosesini əngəlləyən ən önəmli amillərdəndir.

***Demoqrafik səbəblər.*** Yoxsulluğun səbəblərindən biri kimi demoqrafik amillər və onların yaratdığı vəziyyət də çıxış edə bilər. Demoqrafik vəziyyətin yoxsulluğa təsiri dedikdə, ilk növbədə, natamam ailələrin əmələ gəlməsi və bununla əlaqəli olan problemlər nəzərdə tutulur. BMT-nin məlumatlarına görə, natamam ailələrin formalaşmasının bir səbəbi kimi əlverişli iqtisadi şəraitin olmaması göstərilir.

Aydındır ki, əgər qeyri-əlverişli demoqrafik vəziyyət yoxsulluğun səbəbi kimi çıxış edə bilirsə, eyni zamanda yoxsulluq özü də demoqrafik problemlərə yol açır. Buna misal kimi, yoxsulluq üzündən ailə üzvlərinin əmək miqrantları kateqoriyasına keçməsini göstərmək olar. Əmək miqrasiyası bir sıra hallarda yoxsulluğun demoqrafik səbəblərindəndir.

Yoxsulluğun çoxcəhətli olması ehtimalı bir sıra amillərlə bağlı ola bilir. Məsələn, hazırda Hindistanın əhalisi 1 milyard 200 milyonu aşıb və onların yarısından çoxunun yaşı 25-dən aşağıdır. Eyni zamanda dünyadakı yoxsulların təxminən 40 faizi bu ölkədə yaşayır. Aydındır ki, yoxsulluqla mübarizəyə belə bir şəraitdə xüsusi diqqət yetirilməlidir, bu sahədə müvafiq demoqrafik proqramların işlənilməsi və tətbiqi zəruridir.

Demoqrafiya ilə əlaqədar yoxsulluğun qarşısının alınması və ya kəskin surətdə azalması bir tərəfdən ailə planlaşdırılması proqramlarının hazırlanması və həyata keçirilməsindən keçir. Digər tərəfdən bu məqsədin gerçəkləşməsi təhsil və təlim proqramlarının ***əmək bazarının*** hazırkı və gələcək tələblərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Sonuncu istiqamətin aktuallığı ondan irəli gəlir ki, bir sıra hallarda ixtisas seçimi zamanı gənclər və onların valideynləri gələcək əmək bazarının tələblərini düzgün qiymətləndirmirlər. Bir sıra hallarda üstünlük elə ixtisas və peşələrə verilir ki, orada iş yerləri məhdud saydadır və rəqabət olduqca yüksəkdir. Nəticədə bu peşə və ixtisasa yiyələnmiş gənclər ixtisası üzrə gözlənilən maddi təminatı olan və müvafiq sosial statusu sığortalayan iş yeri tapa bilmir. Təhsil və təlimə sərf edilmiş zaman və maddi vəsaitlər itirilmiş və yaxud səmərəli istifadə edilməmiş olur. Hazırda bir sıra Cənubi Avropa ölkələrində gənclər arasında işsizlik olduqca yüksəkdir. Beynəlxalq təşkilatların 2015-ci ildə dərc edilmiş hesabatlarında qeyd edilir ki, 2009–2014-cü illərdə 15–24 yaşda gənclər arasında işsizlik İspaniyada 53,2, Yunanıstanda 55,3, İtaliyada 35,3 faiz təşkil etmişdir. Böyük Britaniya və Fransada da bu rəqəm kifayət dərəcədə yüksəkdir və müvafiq olaraq 21,0 və 23,8 faiz təşkil edir. Misirdə də təxminən eyni vəziyyət müşahidə olunur və bu ölkənin göstərilən təbəqəsi arasında işsizlik 24,8 faiz təşkil edir. Bu vəziyyətdən qurtulmasına və demoqrafiya ilə əlaqədar işsizliyin qarşısının alınmasına peşə və ixtisas seçimi zamanı perspektivləri düzgün qiymətləndirməyin də təsiri ola bilər.

Ümumi və gənclər arasında işsizlik risklərinin idarə edilməsinin digər yolu ixtisaslaşma zamanı diversifikasiyaya üstünlük vermək, bir neçə peşə və ixtisasa yiyələnməkdir. İnsan potensialının inkişafı üçün vacib olan fasiləsiz və ömürboyu təhsil işsizliyin və müvafiq olaraq yoxsulluğun azaldılmasında xüsusi əhəmiyyət daşıyır.

***Regional səbəblər.*** Bəzi hallarda hər hansı bir yaşayış məntəqəsinin və ya regionun iqtisadi inkişaf səviyyəsinin qənaətbəxş olmaması işsizliyin əsas səbəbinə çevrilir. İqtisadiyyatla yanaşı, hər hansı bir regionda mədəni və sosial həyatın əhali tərəfindən gözlənilən səviyyədə olmaması da yoxsulluğa dolayı yolla təsir göstərə bilər. Belə vəziyyət regionda yaşayan əhali üçün yoxsulluğa yol açmaqla yanaşı, eyni zamanda insan inkişafı prosesinə, insan potensialının təkmilləşməsinə mənfi təsir göstərir. Yüksək bilik və bacarıq tələb edən iş yerlərinin olmaması əhalinin bilik və bacarığını artırmaq stimulundan məhrum edir, miqrasiya proseslərinə təkan verir. Bu səbəbdən iqtisadi və sosial inkişafı kifayət dərəcədə yüksək olmayan regionlarda insan inkişafı göstəriciləri, bir qayda olaraq, inkişaf etmiş regionlarla müqayisədə daha aşağıdır.

Qeyd edilməlidir ki, yoxsulluğun regional və demoqrafik səbəbləri əksər hallarda bir-biri ilə çox sıx bağlıdır. Belə ki, zəif inkişaf etmiş regionlarda əhalinin əsas hissəsi maddi məhrumiyyətlərlə üzləşir. Eyni zamanda belə vəziyyət daimi və ya müvəqqəti əmək miqrasiyasını gücləndirir. Bir qayda olaraq, bilik və bacarıqları nisbətən yüksək olan şəxslər üçün digər yerdə iş tapmaq daha asandır və onlar, ilk növbədə, miqrantlara çevrilirlər. Daha yüksək bilik və bacarığa malik olan şəxslərin yaşayış məntəqəsini və yaxud regionu tərk etməsi artıq demoqrafik fəsad kimi qəbul edilə bilər. Digər tərəfdən, qeyd edildiyi kimi, işsizlik üzündən baş verən miqrasiya prosesi natamam ailələrin əmələ gəlməsi prosesini stimullaşdırır. Bu səbəbdən regional iqtisadi, sosial və mədəni inkişaf yoxsulluğun qarşısının alınmasının və yaxud azaldılmasının vacib şərtidir.

***Yoxsulluğun sosial-tibbi səbəbləri.*** Yoxsulluğun bu səbəbi cəmiyyətdə xəstə və əlillərin olduğu şəraitdə hər zaman özünü büruzə verə bilir. Lakin bu problem iki halda çox kəskin şəkildə üzə çıxır. Onların birincisi hər hansı ölkə və yaxud ərazidə ümumi əhali arasında xəstə və əlillərin payının dünya və yaxud ərazi üçün qeydə alınmış orta statistik göstəricidən yüksək olmasıdır. Belə hadisələrin müharibə və hərbi münaqişələr zamanı artması real faktdır. Buna eyni zamanda tibbi-sosial siyasətin lazımi səviyyədə olmadığı hallarda da rast gəlmək mümkündür. Bu halda sağlamlıq baxımından imkanları məhdud şəxslər yoxsulluqdan daha çox əziyyət çəkməli olurlar.

Göründüyü kimi, yoxsulluğu törədən səbəblər fərqlidir. Bəzi hallarda yoxsulluğun törətdiyi məhrumiyyətlərin kökündə bir yox, bir neçə səbəb dura bilər. Bundan asılı olmayaraq, yoxsulluq ilə mübarizənin müvəffəqiyyəti bu işin planlaşdırılması və həyata keçirilməsində vahid dövlət siyasətinin mövcudluğu, bu prosesdə vətəndaş cəmiyyətinin və fərdi biznesin fəal iştirakını şərtləndirir.

### *5.5. Yoxsulluq insan inkişafı baxımından*

2015-ci ildə keçirilmiş BMT-nin Baş Assambleyası və Dünya Sammiti qlobal miqyasda yoxsulluq ilə mübarizəni yaxın 15 il üçün ən əhəmiyyətli məqsədlər sırasına daxil etmişdir. Bu qərar ondan irəli gəlirdi ki, hər hansı bir cəmiyyətdə yoxsulluğa son qoymaq və yaxud onun səviyyəsinin kəskin şəkildə azaltmaqla inkişafın təmin edilməsi tərəqqinin vacib şərtidir. Uğurlu inkişafın sığortalanması isə gəlirlər və onların yüksəlməsi ilə əlaqədardır. Cəmiyyətdə gəlirlərin yüksəlməsi onun üzvlərinin imkanlarının genişləndirilməsinə xidmət edir. Bu isə insan inkişafı prosesinin davamlı olması üçün zəruridir. Gəlirlərin yüksək olması istehlakın artması üçün şərait yaradır. İstehlakın artması isə istehsal və xidmət sahələrinin gücləndirilməsinə, onların texnoloji baxımdan yeniləşməsinə əlverişli şərait yaradır. Bu isə öz növbəsində, yeni, o cümlədən yüksək texnologiyaların tələblərinə cavab verən iş yerlərinin açılmasına və müasir bilik və bacarığa yiyələnmək hesabına insan inkişafı prosesinə təkan verir. Gəlirlərin aşağı səviyyədə olması isə əksinə, müxtəlif məhdudiyyətlər yaradır. Gəlirlərin yüksəlməsi insan potensialının inkişafı üçün şərait yaradırsa, gəlirlərin aşağı olması insan inkişafına mənfi təsir göstərir. Gəlirlərin aşağı olması və bu tendensiyanın davam edilməsi artıq yoxsulluq əlamətidir və bu hal həmin məhrumiyyətin bütün təzahürlərinə aiddir.

Qeyd edilməlidir ki, istehlakın artırılması iqtisadi yüksəlişə və müvafiq olaraq məşğulluğun və gəlirlərin artmasına şərait yaratdır. Eyni zamanda nəzərə alınmalıdır ki, hər bir artımın, o cümlədən real iqtisadiyyatın əsasını təşkil edən sənaye və kənd təsərrüfatı istehsalının durmadan artması, yəni iqtisadi artımın da həddi var. XXI əsrin ikinci onilliyinin əvvəlindən başlayan və bir sıra inkişaf etmiş ölkələri əhatə etmiş böhranların baş verməsi və bu prosesin hazırda da davam etməsi və

dərinləşməsi buna işarədir. Dünyada, xüsusən inkişaf etmiş ölkələrdə istehlakın durmadan artması və eyni zamanda digər ölkələrlə müqayisədə müşahidə edilən istehlakdakı kəskin qeyri-bərabərlik bu iqtisadi modelin modernləşməsini tələb edir. Təsadüfi deyil ki, hazırda dünyada "artımsız inkişaf" modeli gündəmdədir. İstehlak mədəniyyəti artımsız inkişaf modelinin və ***ekoloji sivilizasiyanın (ekosivilin)*** vacib bir elementidir.

Artıq bəllidir ki, gəlirlərin kifayət dərəcədə olmaması yoxsulluğun yeganə təzahürü deyil. Qeyd edildiyi kimi, bir çox hallarda insanlar yoxsulluğu yaşayışın təmin edilməsi üçün maddi vəsaitin kəskin çatışmazlığı və yaxud layiqli həyat tərzini təmin etmək üçün kifayət qədər olmaması kimi qəbul edirlər. Bu baxışlara əsasən yoxsulluq bir iqtisadi məhrumiyyət kimi qiymətləndirilməkdədir.

Maddi vəsaitin olmaması və yaxud kifayət etməməsi, həqiqətən, yoxsulluğun əsas səbəblərindən biridir. Lakin insan inkişafı baxımından maddi vəsaitin çatışmaması yoxsulluğun yalnız bir səbəbi və bir təzahürüdür. Əgər insan inkişafı fərdin imkanlarının, onun seçimlərinin genişləndirilməsi deməkdirsə, müasir anlama və beynəlxalq təşkilatların təklif etdiyi təriflərə görə, yoxsulluq eyni zamanda uzun, sağlam, yaradıcı və ləyaqətli həyat sürməkdən, həyat şəraitindən bəhrələnməkdən, sərbəstlik və azadlıqlardan və s. məhrum olmaq deməkdir. Bununla əlaqədar yoxsulluq dedikdə hər bir insanın inkişafına mane olan, onun imkanlarını məhdudlaşdıran, bu proseslərə mənfi təsir göstərə bilən bütün amillər nəzərə alınır. Bu amillərin təhlili, bu sahədə müvafiq biliklərin əldə edilməsi, yayılması və istifadəsi dünya üçün ən prioritet problemlərdən olan yoxsulluğun qarşısının alınması və azalması üçün olduqca vacibdir. Yoxsulluq ilə mübarizə üçün ən müasir biliklərə yiyələnmək və tarixən toplanmış təcrübəyə, milli və yerli biliklərə əsaslanmaq olduqca vacibdir.

Cəmiyyət tarixən yoxsulluqla mübarizə aparıb və çox zaman, ilk növbədə, iqtisadi yoxsulluğun səviyyəsinin azaldılması üçün müxtəlif tədbirlər həyata keçirib. Buna misal olaraq, müxtəlif dinlərdə yoxsulluq ilə mübarizə üçün təklif olunan tədbirlərə də nəzər salmaq kifayətdir. İslam dinində bu fəlsəfənin təzahürü kimi zəkat, fitrə və digər xeyriyyə işlərini göstərmək olar. İsrafçılığın yolverilməz olması da iqtisadi yoxsulluq ilə mübarizə üçün əhəmiyyətli olmaqla yanaşı, mənəviyyat ba-

xımından da çox önəmlidir. Yəhudi, xristian və digər dinlərdə də yoxsullara köməyin, yoxsulluğun aradan qaldırılmasının və hər növ israfçılığın qarşısının alınmasının müxtəlif yolları göstərilir.

Müasir anlamda iqtisadi yoxsulluqla mübarizənin əsası XIX əsrdə Şimalı Amerika və Avropada qoyulmuşdur. Bu mübarizə çərçivəsində iqtisadi və sosial təminatlar sahəsində müxtəlif islahatlar həyata keçirilmişdir. Aparılan islahat və tədbirlərin nəticəsində həmin ölkələrdə yoxsulluğun səviyyəsi kəskin surətdə azalmışdır. Dünyanın digər regionları da yoxsulluq ilə mübarizə prosesinə qoşulmuşlar. Beynəlxalq təşkilatların qiymətləndirməsi və müxtəlif dərc edilmiş məlumatlara görə, son 50 ildə yoxsulluq ilə mübarizə və yoxsulluğun azalma sürəti ondan əvvəlki 500 illə müqayisədə daha səmərəli olmuşdur. Bunu yoxsulluğun bir təzahürü olan uşaq ölümünün azalması misalında da göstərmək olar. Məsələn, son 25 ildə uşaq ölümü Omanda 91, Çində 86, Səudiyyə Ərəbistanında 82, Kubada isə 81 faiz azalmışdır. Bu proses hal-hazırda da davam edir. BMT-nin 2015-ci ildə dərc edilmiş məlumatlarına görə, son 5 ildə körpə ölümü Əfqanıstanda 6,5, Banqladeşdə 14, Hindistan və Pakistanda hərəsində 7,9 faiz azalmışdır. Bəhs olunan proses, körpə ölümü Azərbaycan Respublikasında aşağıdır və bir sıra Avropa ölkələrinin səviyyəsindədir.

Bəzi ölkələrdə uşaq ölümünün səviyyəsinin azalması ilə yanaşı, yoxsulluğu səciyyələndirən digər göstəricilərin də təkmilləşməsi müşahidə olunmaqdadır. Məsələn, yoxsulluğun bir təzahürü əhalinin təkmilləşmiş içməli su mənbələri ilə təmin olunmamasıdır. Dünyada bu göstərici ilə əlaqədar olan vəziyyət də xeyli yaxşılaşmışdır. XXI əsrin birinci onilliyinin məlumatlarına əsasən, dünyada kənd yerlərində müasirləşmiş qurğulardan alınan içməli suya əli çatmayan əhalinin sayı son 50 ildə 90 %-dən 25 %-ə qədər azalmışdır. BMT-nin təklifi ilə Dünya Sammitində qəbul olunmuş Minilliyin Məqsədlərinin və bu sənədlə əlaqədar proqramların yerinə yetirilməsi nəticəsində XXI əsrin ikinci onilliyində artıq dünya əhalisinin 89 %-dən çoxu təkmilləşmiş içməli su mənbələri ilə təmin edilmişdir. Lakin bu gün hələ təxminən 800 milyon adam bu imkandan məhrumdur. Onların 40 %-i Saxara səhrasından cənubda məskunlaşan Afrika sakinləridir. Bu problem hələ də öz həllini gözləyir və onun mövcudluğu kəskin yoxsulluqdan xəbər verir.

Qeyd edilməlidir ki, içməli su problemi heç zaman öz aktuallığını itirməyəcək. Bir tərəfdən Yer kürəsində əhalinin sayı artır və adambaşına su istehlakı da yüksəlməkdədir. Digər tərəfdən təmiz içməli su mənbələri məhduddur və müasir ekoloji şəraitdə bəzi hallarda çirklənirlər. Okean və dəniz sularının ehtiyatları çox olsa da, onlardan içməli su alma texnologiyaları nisbətən bahadır və bir sıra, xüsusən yoxsulluqdan əziyyət çəkən ölkələr üçün əlçatmazdır. Bu səbəbdən su mənbələrinin mühafizəsi, sudan istifadə zamanı isə israfçılığa yol verilməməsi, tullantı suların təkrar istifadəsi yoxsulluq, onun təzahürləri ilə mübarizə üçün olduqca əhəmiyyətlidir. Bir daha qeyd edilməlidir ki, yoxsulluq insan inkişafını məhdudlaşdıran ən önəmli amillərdəndir.

Yoxsulluğun digər bir göstəricisi təhsillə əlaqədardır. Məktəb yaşlı uşaqların təhsilə cəlb edilməsi prosesi genişlənməkdədir. Son on ildə dünyada məktəbyaşlı olan, lakin məktəbə getməyən uşaqların sayı 106 milyondan 67 milyona qədər azalmışdır. Daha yuxarı yaş qruplarına aid məlumatlar XXI əsrin ikinci onilliyində dərc olunmuşdur. Bu məlumatlara əsasən, hazırda 15–24 yaş arasında olan gənclərin 89 %-i savadlıdır. Ali təhsilli əhalinin sayı və onların müvafiq yaşda olan əhali arasında payı uğurlu inkişafın vacib şərtidir. Beynəlxalq təşkilatların 2015-ci ildə dərc edilmiş hesabatlarında göstərilir ki, hazırda müvafiq yaşda olan dünya əhalisinin 32 faizi bu və ya digər şəkildə ali təhsil almışlar. Lakin bu göstərici insan potensialının inkişafında müxtəlif səviyyəyə nail olmuş ölkələr arasında fərqlidir. Belə ki, çox yüksək insan inkişafına nail olmuş ölkələrdə müvafiq yaşlı əhalinin 77 faizi ali təhsillidir. Bu sahədə geridə qalmış ölkələrin eyni qrupa aid olan əhalisinin yalnız 8 faizinin ali təhsili var (şəkil 5.18.).

Yoxsulluq ilə mübarizədə nəzərəçarpan nailiyyətlərin olmasına baxmayaraq, mövcud məlumatlara əsasən, bir çox ölkələrdə əhalinin ən azı 25 faizi yoxsulluq şəraitində yaşayır. Ən çox yoxsulluq Asiya və Afrika qitələrinin müəyyən ərazilərində müşahidə olunur. Burada məskunlaşan yoxsulların ümumi sayı 1,5 milyarda yaxındır.




***Şəkil 5.18.*** *İnsan inkişafında müxtəlif nailiyyətlər əldə etmiş ölkələrdə müvafiq yaşa çatmış əhali arasında ali təhsil almışlar, %*

*Mənbə:Human Development Report, UNDP, New York, 2015.*

## *5.6. Yoxsulluqdan ən çox əziyyət çəkən əhali qrupları*

Yoxsulluğun bir sıra özəllikləri xüsusilə qeyd edilməlidir. Bunların arasında yoxsulluqdan ən çox əziyyət çəkən qrupların mövcudluğunu göstərmək olar. Beynəlxalq təşkilatların sənədlərində bu həssas qruplara uşaqları da aid edirlər. Mütləq yoxsulluq uşaqları lazımi səviyyədə qidalanmaq imkanlarından məhrum edir, onların fiziki və əqli inkişafına mənfi təsir göstərir. Beynəlxalq statistikaya əsaslanan hesabatlara görə dünyada 160 milyon uşaq xroniki və kəskin aclıqdan əziyyət çəkir. Bu proses, əsasən, inkişafda olan ölkələrdə təzahür edir. BMT-nin hesabatlarına görə, inkişafda olan ölkələrdə yaşayan uşaqların təxminən 25 %-i kifayət qədər qida ala bilmir. Bunun nəticəsi olaraq bir sıra xəstəliklərin əmələgəlmə ehtimalı artır, sağlamlıq göstəriciləri aşağı düşür. Kəmiyyət və keyfiyyət baxımından qeyri-qənaətbəxş qidalanma uşaqların təhsilalma qabiliyyətinə də mənfi təsir göstərir.

Son illər qidalanmanın keyfiyyəti və uşaqların sağlamlığı ilə əlaqədar yeni bir fəsad təhlil edilməkdədir. Uşaqların artıq çəkiyə malik olmaları ilə əlaqədar bu fəsad, bir qayda olaraq, iqtisadi inkişaf sahəsində çox yüksək və yüksək nəticələr əldə etmiş ölkələrdə yoxsul təbəqələr arasında müşahidə edilir. Məsələn, BMT-nin 2015-ci ildə dərc edilmiş hesabatına əsasən, ABŞ-da uşaqların 7 faizindən çoxunun çəkisi qəbul olunmuş normadan xeyli artıqdır. İnsan potensialının inkişafı sahəsində çox yüksək nəticələr əldə etmiş ölkələr qrupuna aid Argentinada bu rəqəm 10 faizə yaxındır. Sağlamlıq üçün risk törədən uşaqların bədən kütləsinin yüksək olması bir sıra ölkələrdə özünü daha çox büruzə verir. Bu vəziyyət, məsələn, Misirdə uşaqların 20,5, Liviyada isə 22,4 faizini əhatə edir.

Yaşlılar yoxsulluqdan daha çox əziyyət çəkən əhalinin digər bir qrupudur. Bir sıra ölkələrdə yaşlılar ömürlərinin son illərini yoxsulluq səbəbindən çox gərgin keçirirlər. Dünyada orta ömür müddəti artır və müvafiq olaraq, yaşlı əhalinin sayı və ümumi əhali arasında payı da artmaqdadır. Bu isə yaşlılar arasında yoxsulluq ilə mübarizənin xüsusi əhəmiyyət daşımasından, bu sahədə xüsusi poqramların işlənilməsi və həyata keçirilməsinin aktual olmasından xəbər verir.

Qeyd etmək lazımdır ki, yaşla əlaqədar məhrumiyyətlər, əsasən, gəlirlərə görə yoxsulluğa aiddir. Artıq bildirdiyimiz kimi, yoxsulluğun bu təzahürünə mütləq yoxsulluq da deyirlər. Lakin yaşlılar arasında mütləq yoxsulluqla yanaşı, digər məhrumiyyətlərlə əlaqədar olan yoxsulluq da mövcuddur.

## *5.7. Yoxsulluğun qiymətləndirilməsinin ümumi prinsipləri*

Yuxarıda göstərilənlərdən aydın olur ki, yoxsulluq, ilk növbədə, insanın iqtisadi, səhiyyə və təhsil sahələrində imkanlardan məhrum edilməsi və yaxud onun bu imkanlarının qismən olsa da məhdudlaşdırılmasıdır. Bu halda yoxsulluq insan inkişafı üçün imkanlardan məhrum olunması deməkdir. Lakin aydındır ki, cəmiyyətin insan üçün yaratdığı imkanlar hər hansı bir ölkənin iqtisadi və sosial inkişafının səviyyəsindən də asılıdır. İnsanın davamlı inkişafı üçün təmin edilən və yaxud edilməyən imkanlar iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə inkişafda olan

ölkələrdəkindən kəskin surətdə fərqlənməkdədir. Məsələn, inkişafda olan ölkələr üçün yoxsulluq baxımından ən aktual məsələlər aclıq, savadsızlıq, müxtəlif xəstəlik və epidemiyalar, tibbi xidmətlərə və təkmilləşmiş içməli su mənbələrinə əlçatmazlıq və oxşar problemlərdir. İnkişaf etmiş ölkələrdə yoxsulluğun bu kəskin məhrumiyyətləri ümumiyyətlə mövcud deyil. Bu ölkələrdə aclıq çox nadir bir haldır, əhali, əsasən, savadlıdır və təmiz içməli su ilə təmin edilir. Tibbi ocaqlar hər yerdə mövcuddur və onların xidmətlərindən istifadə etmək üçün şərait yaradılır.

Yuxarıda göstərilənlərdən aydın olur ki, inkişaf etmiş və inkişafda olan ölkələrdə yoxsulluğun qiymətləndirilməsi üçün eyni göstəricilərdən istifadə edilə bilməz. Lakin həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrdə yoxsulluğun qiymətləndirilməsi üçün insanların eyni sahələrdə üzləşdikləri məhrumiyyətlərdən istifadə etmək vacibdir. Bu cəhətdən ekspertlərin rəylərinə əsaslanan beynəlxalq təşkilatlar tərəfindən dünyada yoxsulluğu qiymətləndirmək üçün iki yanaşmadam istifadə etmək – inkişaf etmiş və inkişafda olan ölkələr üçün yoxsulluq əmsalının fərqli hesablanması təklif edilmişdir.

Yoxsulluğu həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrdə qiymətləndirmək üçün eyni sahəyə aid olan göstəricilərdən biri insanların nisbətən cavan yaşda dünyasını dəyişməsi ehtimalını səciyyələndirən fərqlərdir. Digər göstərici isə məlumat əldə etmək, bilik və bacarığı daimi artırmaq imkanları ilə bağlıdır. Məlumatların əldə edilməsi imkanları, ilk növbədə, vətəndaşların təhsil səviyyəsindən asılıdır. Bu səbəbdən yoxsulluğun səviyyəsi müəyyən edilən zaman, əsasən, savadlılıq və təhsil göstəriciləri nəzərə alınır və müxtəlif ölkələr arasında müqayisələr aparılır. Lakin eyni istiqamətə aid olmasına baxmayaraq, inkişaf etmiş və inkişafda olan ölkələrdə yoxsulluğu qiymətləndirmək üçün göstəricilər fərqlidir.

Qeyd edildiyi kimi, yoxsulluğun yayılma dərəcəsi hər hansı bir ölkənin iqtisadi imkanlarından və mövcud olan orta gəlirlərin səviyyəsindən daha çox bu məhrumiyyətlə səmərəli mübarizənin planlaşdırılması və həyata keçirilməsindən asılıdır. Məsələn, XXI əsrin ilk onilliyinə aid dərc edilmiş məlumatlara görə, Çində orta adambaşı gəlir Botsvanadan təxminən 2 dəfə, Qabondan isə 1,5 dəfə azdır. Bu göstəricinin kəskin fərqlənməsinə baxmayaraq, Çində yoxsulluq səviyyəsi bu ölkələrdən təxminən 2 dəfə azdır. Bu o deməkdir ki, iqtisadiyyatda fərqli nəticələr

əldə etmiş ölkələrdə yoxsulluğun aradan qaldırılmasına yönəldilmiş siyasət eyni dərəcədə səmərəli deyil. Çin maddi imkanları daha məhdud olmağına baxmayaraq, yoxsulluqla mübarizəni daha səmərəli təşkil etmiş və bu prosesi effektiv idarəetməsi sayəsində daha yüksək nəticələr əldə etmişdir.

Yoxsulluq insanın hər hansı imkanlarının məhdudlaşdırılması deməkdir. Buna bir misal olaraq, bəzi ölkələrdə internetdən və yaxud peyk qəbuledicilərindən istifadə edilməsinə qoyulan qadağaları və yaxud məhdudiyyətləri göstərmək olar. Bu o deməkdir ki, iqtisadi imkanları olan və hətta maddi cəhətdən yüksək təmin olunmuş belə məhdudiyyətləri tətbiq edən ölkə vətəndaşı da müvafiq məlumat almaqdan məhrumdur və həmin səbəbdən də yoxsul hesab edilir. Belə bir şəraitdə yaşayan əhali yoxsulluqdan əziyyət çəkən xüsusi qrupa aid edilə bilər.

### *5.8. Yoxsulluğun inkişafda olan ölkələrdə qiymətləndirilməsi*

İnkişafda olan ölkələrdə yoxsulluğun müxtəlif təzahürləri daha çox yayılmışdır və ilk növbədə, mütləq yoxsulluğa, yəni iqtisadi imkanların məhdudluğuna əsaslanır. Bu halla mübarizə aparmaq, onu tam ləğv etmək və yaxud əhəmiyyətli dərəcədə azaltmaq üçün ilk növbədə, bu ölkələrdə yoxsulluğun səviyyəsini qiymətləndirmək vacib şərtdir. Çoxölçülü yoxsulluqla yanaşı, inkişafda olan ölkələrdə yoxsulluğu qiymətləndirmək üçün ƏYƏ – 1 (Əhalinin Yoxsulluq Əmsalı – 1) hesablanmaqdadır. Belə hesablamalar ölkələr üçün mütəmadi olaraq, çox zaman hər il, bəzi hallarda isə bir neçə ildən bir həyata keçirilir. Belə mütəmadi monitorinq nəticəsində alınmış nəticələr hər hansı bir ölkədə yoxsulluq ilə mübarizənin aparılmasının nə dərəcədə uğurlu olmasından xəbər verir. Eyni zamanda vahid bir üsul ilə hesablanmış ƏYƏ – 1 ölkələr arasında müqayisələr aparmağa imkan yaradır. Yoxsulluqla mübarizə aparmaqda mühüm əhəmiyyət daşıyan ƏYƏ – 1 və bu qrup ölkələrdə yoxsulluq, əsasən, aşağıdakı göstəricilər əsasında müəyyənləşdirilir:

– 40 yaşına çatmaq ehtimalı olmayan əhalinin faizi;
– Əhali arasında savadı olmayanların faizi;
– Təhlükəsiz içməli suya əli çatmayan əhalinin faizi;

– Tibbi xidmətlərə əli çatmayan əhalinin faizi;
– 5 yaşına qədər uşaqlar arasında çəki və boyu normadan aşağı olanların faizi.

Bu göstəricilər əsasında hesablanan ƏYƏ – 1 ölkələrdə yoxsulluq ilə əlaqədar vəziyyəti qiymətləndirmək, ölkələrarası müqayisə aparmaq üçün imkan yaradır. Eyni zamanda bu göstəricinin müxtəlif vaxt çərçivələrində dəyişməsi prosesin dinamikasından xəbər verir və yoxsulluq ilə mübarizənin nə dərəcədə səmərəli olması haqqında təsəvvür yaradır. Qeyd edilməlidir ki, bu göstəricilərlə yanaşı, inkişafda olan ölkələrə daha çox aid olan çoxölçülü yoxsulluğun ölçülməsi üçün bir sıra digər göstəricilərdən də istifadə olunur.

Yoxsulluğun ən yüksək səviyyəsi bəzi Afrika ölkələrində müşahidə olunur. Məsələn, Niger, Mali, Ruanda, Efiopiya və bu qitənin bir sıra digər ölkələrində əhalinin 40 faizindən çoxunun 40 yaşına çatmaq ehtimalı yoxdur. Bu ölkələrdə yaşayan uşaqların 30–40 faizi isə boy və çəkidə geridə qalır. Normadan aşağı çəki və boyda geriləmə isə yoxsulluğun ən kəskin təzahürü olan aclığın və ya kəskin şəkildə normal qidalanmamağın nəticəsidir. Axır qeyd edildiyi kimi, dərc edilmiş hesabatlara görə, Burundi, Konqo, Madaqaskar, Liberiyada əhalinin 50–80 faizindən çoxu gündəlik 1,25 ABŞ dollarından aşağı gəlir ilə dolanır. Cədvəl 5.14.-də təqdim olunmuş 15 ölkəyə aid dərc olunmuş məlumatlar 1,25 ABŞ dolları həddindən aşağı yaşayan əhalinin sayının kifayət dərəcədə yüksək olmağından xəbər verir. Bu hal yuxarıda qeyd edilən yoxsulluq fəsadlarının əmələ gəlməsini şərtləndirir.

Sağlamlıq və ömrün uzunluğuna mənfi təsir göstərən digər amillər əhalinin təkmilləşmiş mənbələrdən alınmış təmiz içməli suya və tibbi xidmətlərə əlçatmazlığıdır. Yuxarıda adı çəkilən ölkələrin əhalisinin yarıdan çoxunun içdiyi su sanitar tələblərə cavab vermir. Bu isə öz növbəsində sağlamlığa mənfi təsir göstərir. İnkişafda olan ölkələrdə yoxsulluq davamlı insan potensialına əsaslanan inkişafı məhdudlaşdıran ən əsas amillərdən olduğundan onunla mübarizə vacib milli və beynəlxalq prioritetə çevrilmişdir. Bu istiqamətdə ardıcıllıqla aparılan siyasət öz nəticələrini verməkdədir.

Bir sıra həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrdə, məsələn, İordaniya, Panama, Livan, Türkiyə və başqalarında son dövrlərdə aparılmış tədbirlər nəticəsində yoxsulluğun səviyyəsi dəfələrlə azalmışdır. Bu

nailiyyətlərin çoxu BMT-nin Minilliyin İnkişaf Məqsədləri çərçivəsində qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi ilə əlaqədardır. Lakin beynəlxalq öhdəliklərlə yanaşı, yoxsulluqla mübarizədə qazanılmış uğurlar bu istiqamətdə ölkələr tərəfindən milli inkişaf proqramlarının düzgün planlaşdırılması və həyata keçirilməsi də mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikasında yoxsulluq ilə mübarizədə əldə edilmiş nailiyyətlər bu istiqamətdə uğurlu dövlət siyasətinin yerinə yetirilməsindən xəbər verir.

Bir daha qeyd etmək lazımdır ki, hər hansı bir ölkədə orta adambaşına gəlirin yoxsulluq səviyyəsinə təsiri olsa da, bu iki göstərici, yəni gəlir və yoxsulluq arasında birbaşa asılılıq müşahidə olunmur. Məsələn, yuxarıda göstərildiyi kimi, Çində adambaşına orta gəlir Afrika ölkələrindən olan Botsvana, Namibiya və Qabondan 1,5–1,9 dəfə aşağıdır. Buna baxmayaraq, bu Afrika ölkələrində yoxsulların nisbi sayı Çinlə müqayisədə 2–2,5 dəfə çoxdur. Göstərilən misal sübut edir ki, yoxsulluğun miqyası orta gəlirlərin səviyyəsindən daha çox yoxsulluğa qarşı səmərəli mübarizənin düzgün planlaşdırılması və həyata keçirilməsindən asılıdır. İnsanların rifahının yüksəldilməsi, onların yoxsulluqdan çıxması və potensiallarının inkişafı bu istiqamətdə aparılan siyasətin necə proqnozlaşdırılması, planlaşdırılması və idarə edilməsi ilə bağlıdır.

### *5.9. Yoxsulluğun inkişaf etmiş ölkələrdə qiymətləndirilməsi*

İnkişaf etmiş və orta adambaşına gəlirləri yüksək olan ölkələrdə də yoxsulluq mövcuddur. Bəzi inkişaf etmiş, o cümlədən dünyada iqtisadi baxımdan ən güclü "yeddilər" (G 7) qrupuna daxil olan ölkələrdə yoxsulluğun kifayət qədər yayılması və özünü kəskin şəkildə büruzə verməsi də bunu sübut edir. Bu ölkələrdə bəzi hallarda yoxsullar ümumi əhalinin 15–17 faizindən çoxunu təşkil edir. Davamlı insan potensialına əsaslanan inkişafa mənfi təsir göstərən yoxsulluğun yüksək orta gəlirləri olan ölkələrdə təbiətini müəyyən etmək, onunla mübarizənin səmərəliliyini artırmaq məqsədi ilə əhalinin yoxsulluq əmsalı inkişaf etmiş ölkələr üçün ənənəvi olaraq hesablanır.

İnkişaf etmiş ölkələr üçün əhalinin yoxsulluq əmsalı fərqli göstəricilər əsasında hesablanır. Bu əmsal ƏYƏ – 2 kimi qəbul edilib və onun hesablanması zamanı aşağıdakı göstəricilər nəzərə alınır:

– 60 yaşına çatmaq ehtimalı olmayan əhalinin faizi;
– Əhali arasında funksional savadsızlığın səviyyəsi;
– Ölkədə yoxsulluq həddindən aşağı səviyyədə gəlirləri olan əhalinin faizi;
– 12 aydan artıq müddətdə işsiz qalan əhalinin faizi.

Zamanında aparılmış 17 inkişaf etmiş ölkə üçün ƏYƏ – 2-nin təhlili göstərir ki, yoxsulluğun ən aşağı səviyyəsi bir sıra Avropa ölkələrində qeydə alınmışdır. Məsələn, Çexiyada əhalinin 5 faizə yaxını, İsveçdə 6 faizi yoxsul kimi səciyyələndirilə bilər. Digər yüksək inkişaf etmiş ölkələrdə də əhalinin təxminən eyni payı, bəzən isə 10–15 faizi yoxsuldur. Bu onu göstərir ki, yoxsulluq bütün ölkələrin problemidir. Təsadüfi deyil ki, yoxsulluqla mübarizə beynəlxalq təşkilatların diqqət mərkəzindədir.

İşsizlik yoxsulluğu törədən ən önəmli amillərdəndir. Bu həm inkişaf etmiş və insan inkişafı sahəsində ən yüksək və yüksək nəticələr əldə etmiş ölkələrə, həm də bu sahədə nisbətən aşağı nəticələr əldə etmiş ölkələrə də aiddir. Eyni zamanda işsizliyin müxtəlif yaş qrupları, xüsusən gənclər arasında müşahidə edilməsi də daha yüksək riskdən xəbər verir. Qeyd etmək lazımdır ki, gənclər arasında yüksək işsizlik ilə səciyyələn ölkələrdə, bir qayda olaraq, ***median yaş*** da nisbətən yüksək olur. Məlum olduğu kimi, median yaş elə bir göstəricidir ki, o hər hansı bir ölkə, ərazi və ya digər toplumda əhalinin tam yarısının o yaşdan cavan, yarısının isə daha yaşlı olmasını göstərir. ***Median yaş*** yüksək olan ölkələrdə yaşlı əhalinin təminat baxımından asılılıq dərəcəsi də yüksək olur. Belə ki, bu qrupa aid olan ölkələrdə uşaqların və yaşlı əhalinin təmin edilməsində gənclərin məşğulluğu olduqca əhəmiyyətlidir.

Cədvəl 5.15.-də bir sıra inkişaf etmiş, insan inkişafı sahəsində yüksək və çox yüksək nəticələr əldə etmiş ölkələrdə ümumi, gənclər arasındakı işsizlik və median yaş barədə məlumatlar təqdim edilmişdir. Bu məlumatlar BMT tərəfindən 2015-ci ildə dərc edilmişdir.

*Cədvəl 5.15. İnsan inkişafı sahəsində çox yüksək, yüksək nəticələr əldə etmiş ölkələrdə ümumi işsizlik, gənclər arasında işsizlik və median yaş**

| Ölkə | Ümumi işsizlik, % | Gənclər arasında işsizlik, % | Median yaş |
|---|---|---|---|
| Yunanıstan | 27,3 | 58,3 | 43,5 |
| İspaniya | 28,1 | 55,5 | 42,2 |
| Xorvatiya | 17,3 | 50,0 | 43,1 |
| İtaliya | 12,2 | 40,0 | 45,0 |
| Kipr | 15,9 | 38,9 | 35,9 |
| İsveç | 8,0 | 23,6 | 41,2 |
| Türkiyə | 9,7 | 18,7 | 30,1 |
| Azərbaycan | 5,0 | 13,8 | 30,4 |

** Mənbə: Human Development Report, UNDP, New York, 2015*

Yoxsulluq ilə mübarizə 2015-ci ildən sonrakı dövr üçün də bəşəriyyət qarşısında duran əsas çağırışlardandır. Beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə Azərbaycan Respublikasında 2015-ci ildə əhalinin 5 faizi yoxsulluq qrupuna daxil edilə bilər. Bu səviyyə dünyada qazanılmış ən yüksək nailiyyətlər sırasına daxildir. Hazırda dünyada baş vermiş böhranları nəzərə almaqla yoxsulluq ilə mübarizə xüsusi idarəetmə tədbirlərinin keçirilməsini tələb edir. Azərbaycan Respublikasında hazırda bu tədbirlər keçirilməkdədir.

## *5.10. Özümüzü sınayırıq:*

**5.10.1. Özümüzü sınayırıq suallar:**

**1.** Yoxsulluğun hansı əsas təzahürləri məlumdur?
**2.** Yoxsulluğun hansı başlıca səbəbləri məlumdur?
**3.** İnsan inkişafı baxımından yoxsulluq necə səciyyələndirilə bilər?
**4.** Əhalinin hansı qrupları yoxsulluqdan ən çox əziyyət çəkirlər?
**5.** Yoxsulluq inkişafda olan və inkişaf etmiş ölkələrdə necə qiymətləndirilir?

**5.10.2. Özümüzü sınayırıq cavablar:**

**1. Yoxsulluğun hansı əsas təzahürləri məlumdur?**

Hazırda yoxsulluğun üç təzahürü daha çox müzakirə mövzusu və qiymətləndirmə obyektidir. Bunlara mütləq, nisbi və çoxölçülü yoxsulluq anlayışları aiddir.

Mütləq yoxsulluq həyat fəaliyyətinin təmin edilməsi üçün kifayət qədər vəsaitin olmaması deməkdir. Bura insanın kəmiyyət və keyfiyyət baxımından kifayət dərəcədə qida ilə təmin olunması səviyyəsi də aiddir. Bu növ yoxsulluq həmin vəziyyəti səciyyələndirən yoxsulluq həddi anlayışı ilə bağlıdır. Dünya Bankının standartlarına görə, bəzi ölkələrin əhalisi üçün mütləq yoxsulluq həddi, alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, gündə 1,25 ABŞ dolları təşkil edir. Beynəlxalq təşkilatların 2015-ci ildə dərc edilmiş hesabatlarında göstərilir ki, dünya əhalisinin təxminən 22 faizinin yaşaması üçün onların sərəncamında gündə 1,25 ABŞ dollarından az məbləğ olur. Bu isə təxminən bir milyard insanın mütləq yoxsulluqla üzləşdiyindən xəbər verir.

Mütləq yoxsulluqla yanaşı, nisbi yoxsulluq da inkişafa mənfi təsir göstərən amildir. Nisbi yoxsulluğun təzahürü ondadır ki, həmin qrupa aid olan fərdlər və yaxud ev təsərrüfatları üçün cəmiyyətin əksəriyyətinin yararlandığı məhsul və xidmətlər əlçatmazdır. Nisbi yoxsulluğun qiymətləndirilməsində bir sıra üsullardan istifadə olunur. Onlardan biri və ən çox təhlillərə cəlb edilən i ***median gəlirlərlə*** müqayisəyə əsaslanır. Median gəlir elə bir göstəricidir ki, hər hansı bir ölkə sakinləri və yaxud peşə sahibləri arasında ondan yuxarı və ondan aşağı gəlir əldə edən əhalinin və ya işçilərin sayı eynidir. Median gəlirin orta gəlirdən fərqi məhz bundadır. Ölkə və yaxud ərazidə median gəlirlərin dörddə birindən az gəlirləri olan fərd və ya ev təsərrüfatları nisbi yoxsul hesab edilir.

Son illərdə ***çoxölçülü yoxsulluq*** anlayışı da istifadə edilməkdədir. Çoxölçülü yoxsulluq qiymətləndirilməsində bir sıra amillərin mövcudluğu nəzərə alınmaqdadır. Bunlara ev təsərrüfatında elektrikin olmaması, içməli suyun evə çatdırılması üçün 30 dəqiqədən çox zaman sərf edilməsi, ev təsərrüfatında heç olmasa bir televizor, telefon, soyuducu və ya ailə üzvlərində motosiklin və ya velosipedin olmaması, qida hazırlanması üçün istifadə olunan müasir təkmilləşmiş yanacağın mövcud olmaması, evin döşəməsinin torpaq və ya palçıqdan olması, sanitar qovşaqlarının bir neçə ailə tərəfindən istifadə edilməsi və digərləri, ümumiy-

yətlə, 18 xüsusiyyət aiddir. Bu amillərdən üçünün eyni zamanda mövcudluğu artıq çoxölçülü yoxsulluq kimi qiymətləndirilir. Çoxölçülü yoxsulluq ən çox bir sıra Asiya, Afrika və Cənubi Amerika ölkələrində yayılmışdır.

Bunlarla yanaşı, yoxsulluğun təsnifatı və qiymətləndirilməsində ***subyektiv yoxsulluq*** konsepsiyası da tətbiq edilməkdədir. Subyektiv yoxsulluq fərdin özünü yoxsul hiss etməsinə və yaxud etməməsinə əsaslanır. Subyektiv yoxsulluq səviyyəsinin qiymətləndirilməsi yalnız sorğular əsasında gerçəkləşdirilir.

**2. Yoxsulluğun hansı başlıca səbəbləri məlumdur?**

Yoxsulluqla mübarizənin səmərəli idarəedilməsi bu vəziyyətin kökündə duran amillərin müəyyənləşdirilməsini tələb edir. Müasir təsnifata görə, yoxsulluğun ən əsas səbəbləri aşağıdakılardır:

***İqtisadi səbəblər.*** Mütləq yoxsulluğun iqtisadi səbəbləri arasında xüsusi yeri uzunmüddətli işsizlik və əməkhaqlarının aşağı olması tutur. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin hamısında əməkhaqları yüksək olmayan təbəqə mövcuddur. Sadəcə onların ümumi əhali arasında faizi müxtəlif ola bilər.

***Təhsil və peşəkarlıqla əlaqədar səbəblər.*** Kifayət dərəcədə bilik və bacarığın olmaması yoxsulluğa aparan yollardan biridir. Sürətli və innovativ inkişaf edən cəmiyyət şəraitində peşəkarlığı yüksək olmayan əhali üçün xüsusi ilə təhlükəlidir. İnsan potensialının inkişafı, fasiləsiz təhsil yoxsulluğun bu səbəbinin qarşısını almaq üçün olduqca əhəmiyyətlidir. Peşə hazırlığının diversifikasiyası, alınan təhsilin əmək bazarına uyğun olması yoxsulluğun qarşısının alınması, onun səviyyəsinin azalması baxımından çox önəmlidir.

***Miqrasiya və hərbi səbəblər.*** Miqrasiyanın əsasında bir çox hallarda həyatın təhlükə ilə qarşılaşması və iqtisadi, siyasi, sosial baxımdan dözülməz olması durur. Belə şəraitdən qaçan insanlar yeni məskunlaşdıqları yerlərdə əksər hallarda köçdüyü ölkənin yoxsullar təbəqəsinə daxil olurlar. Yoxsulluğun digər səbəblərinə müharibələr, hərbi münaqişələr və bu hadisələrin nəticəsində törənmiş fəsadlar aiddir.

***Demoqrafik səbəblər.*** Demoqrafik vəziyyətin yoxsulluğa təsiri dedikdə, ilk növbədə, natamam ailələrin əmələ gəlməsi və bununla əlaqəli olan problemlər nəzərdə tutulur. BMT-nin məlumatlarına görə, natamam ailələrin formalaşmasının bir səbəbi kimi əlverişli iqtisadi şəraitin

olmaması çıxış edə bilər. Yoxsulluq üzündən ailə üzvlərinin əmək miqrantları kateqoriyasına keçməsi eyni zamanda natamam ailələrin əmələ gəlməsini şərtləndirir.

***Regional səbəblər.*** Bəzi hallarda hər hansı bir yaşayış məntəqəsinin və ya regionun iqtisadi inkişaf səviyyəsinin qənaətbəxş olmaması işsizliyin əsas səbəbinə çevrilir. İqtisadiyyatla yanaşı, hər hansı bir regionda mədəni və sosial həyatın əhali tərəfindən gözlənilən səviyyədə olmaması da yoxsulluğa dolayı yolla təsir göstərə bilər. Belə vəziyyət regionda yaşayan əhali üçün yoxsulluğa yol açmaqla yanaşı, eyni zamanda insan inkişafı prosesinə, insan potensialının təkmilləşməsinə mənfi təsir göstərir. Yüksək bilik və bacarıq tələb edən iş yerlərinin olmaması əhalini bilik və bacarığını artırmaq stimulundan məhrum edir, miqrasiya proseslərinə təkan verir. Bu səbəbdən iqtisadi və sosial inkişafı kifayət dərəcədə yüksək olmayan regionlarda insan inkişafı göstəriciləri, bir qayda olaraq, inkişaf etmiş regionlarla müqayisədə daha aşağı olur.

***Yoxsulluğun sosial-tibbi səbəbləri.*** Yoxsulluğun bu səbəbi cəmiyyətdə xəstə və əlillərin olduğu şəraitdə hər zaman özünü büruzə verə bilir. Hər hansı bir səbəbdən, məsələn, hərbi münaqişə nəticəsində, xüsusi qayğıya ehtiyacı olan əhali qrupunun artması yoxsulluğu şiddətləndirir. Göründüyü kimi, yoxsulluğu törədən səbəblər fərqlidir. Bəzi hallarda yoxsulluğun törətdiyi məhrumiyyətlərin kökündə bir yox, bir neçə səbəb dura bilər. Bundan asılı olmayaraq, yoxsulluq ilə mübarizənin müvəffəqiyyəti baxımından bu işin planlaşdırılması və həyata keçirilməsində vahid dövlət siyasətinin mövcudluğu, bu prosesdə vətəndaş cəmiyyətinin və fərdi biznesin fəal iştirakı vacib şərtdir.

### 3. İnsan inkişafı baxımından yoxsulluq necə səciyyələndirilə bilər?

İnsan inkişafı baxımından maddi vəsaitin çatışmaması yoxsulluğun yalnız bir səbəbi və bir təzahürüdür. Bu baxımdan yoxsulluq, eyni zamanda uzun, sağlam, yaradıcı və ləyaqətli həyat sürməkdən, həyat şəraitindən bəhrələnməkdən, sərbəstlik və azadlıqlardan və s. məhrum olmaq deməkdir. Bununla əlaqədar yoxsulluq dedikdə hər bir insanın potensialının inkişafına mane olan, onun imkanlarını məhdudlaşdıran, bu proseslərə mənfi təsir göstərə bilən bütün amillər nəzərə alınır. Bu amillərin təhlili, göstərilən sahədə müvafiq biliklərin əldə edilməsi, yayılması və istifadəsi dünya üçün ən prioritet problemlərdən olan yoxsulluğun qar-

şısının alınması və azaldılması üçün olduqca vacibdir. Yoxsulluq ilə mübarizə üçün ən müasir biliklərə yiyələnmək və tarixən toplanmış təcrübəyə, regional və yerli biliklərə əsaslanmaq zəruridir. İnsan inkişafı baxımından qlobal və dövlətlər miqyasında yoxsulluqla mübarizənin səmərəli idarə edilməsi bu prosesə təsir edən amillərin, ilk növbədə, sağlamlıq və təhsil göstəricilərinin təkmilləşdirilməsi vasitəsi ilə həyata keçirilə bilər. Təhlillər göstərir ki, bu istiqamətdə dünyada əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. Son 25 ildə uşaq ölümü Omanda 91, Çində 86, Səudiyyə Ərəbistanında 82, Kubada isə 81 faiz azalmışdır. Bu proses hal-hazırda da davam edir. BMT-nin 2015-ci ildə dərc edilmiş məlumatlarına görə, son 5 ildə körpə ölümü Əfqanıstan, Banqladeş, Hindistan və Pakistanda azalmışdır. Bəhs olunan proses qonşu ölkələr olan Türkiyə və İran İslam Respublikasında da sürətlə getməkdədir və göstərilən zaman kəsiyində körpələr arasında ölüm təxminən 20 faiz azalmışdır. Yoxsulluqla bağlı bu göstəriciyə görə, Türkiyə yüksək inkişaf etmiş ölkələr səviyyəsinə yaxındır. Azərbaycanda da körpə ölümü azalmaqdadır və bir sıra Avropa ölkələrinin səviyyəsindədir. Beynəlxalq təşkilatların 2015-ci ildə dərc edilmiş məlumatlarına əsasən, sağlamlıq və müvafiq olaraq yoxsulluqla mübarizə üçün əhəmiyyətli olan dünya əhalisinin təkmilləşmiş su mənbələri ilə təchiz edilməsi prosesində də irəliləyiş müşahidə edilməkdədir. Qeyd edilməlidir ki, su ilə təchiz edilmə sahəsində Azərbaycan Respublikasında son illərdə əhəmiyyətli nəticələr əldə edilmişdir.

Yoxsulluq ilə mübarizə üçün insan potensialının inkişafı istiqamətində həyata keçirilən siyasətin uğurlu olması təhsil göstəricilərində də öz əksini tapmışdır. Son on ildə dünyada məktəbyaşlı, lakin məktəbə getməyən uşaqların sayı 106 milyondan 67 milyona qədər azalmışdır. Daha yuxarı yaş qruplarına aid məlumatlar XXI əsrin ikinci onilliyində dərc olunmuşdur. Bu məlumatlara əsasən, hazırda 15–24 yaş arasında olan gənclərin 89 %-i savadlıdır. BMT-nin 2015-ci ildə dərc edilmiş hesabatlarında göstərilir ki, hazırda dünya əhalisinin 59,7 faizi bu və ya digər şəkildə orta təhsil alıb. Lakin bu göstərici insan potensialının inkişafında müxtəlif səviyyəyə nail olmuş ölkələrdə fərqlidir. İnsan potensialının inkişafı sahəsində orta və aşağı nəticələr əldə etmiş ölkələrdə bu göstəricilər nisbətən aşağıdır. Bu eyni dərəcədə ali təhsilə də aiddir. Müəyyən edilmişdir ki, əgər dünyada orta hesabla müvafiq yaşa çatmış əhalinin 25 faizinin ali təhsili varsa, inkişaf etmiş ölkələrdə bu rəqəm 77 faiz təşkil

edir. İnsan inkişafı sahəsində aşağı nəticələr əldə etmiş ölkələrdə isə müvafiq yaşa çatmış əhalinin yalnız 8 faizinin ali təhsili var. Yoxsulluq ilə mübarizəni sürətləndirmək üçün həmin qrup ölkələrdə təhsil göstəricilərinin təkmilləşdirilməsi zəruridir.

**4.Əhalinin hansı qrupları yoxsulluqdan ən çox əziyyət çəkirlər?**

Yoxsulluqdan ən çox əziyyət çəkən qruplara, ilk növbədə, uşaqlar və yaşlılar aid edilə bilər. Mütləq yoxsulluq uşaqları lazımi səviyyədə qidalanmaq imkanlarından məhrum edir, onların fiziki və mənəvi inkişafına mənfi təsir göstərir. Beynəlxalq statistikaya əsaslanan hesabatlara görə, dünyada 160 milyon uşaq xroniki və kəskin aclıqdan əziyyət çəkir. Bu proses, əsasən, inkişafda olan ölkələrdə təzahür edir. BMT-nin hesabatlarına görə, inkişafda olan ölkələrdə yaşayan uşaqların təxminən 25 %-i kifayət qədər qida ala bilmir. Bunun nəticəsi olaraq bir sıra xəstəliklərin əmələgəlmə ehtimalı artır, sağlamlıq göstəriciləri aşağı düşür. Kəmiyyət və keyfiyyət baxımından qeyri-qənaətbəxş qidalanma uşaqların təhsilalma qabiliyyətinə də mənfi təsir göstərir. Təsadüfi deyil ki, 2015-ci ilin sentyabr ayında Nyu-Yorkda keçirilən BMT-nin Baş Assambleyası və Dünya Sammiti dünya üçün ən əhəmiyyətli 17 problemlər arasında aclığın 2030-cu ilə qədər ləğvini nəzərdə tutur.

Son illər qidalanmanın keyfiyyəti və uşaqların sağlamlığı ilə əlaqədar yeni bir fəsad təhlil edilməkdədir. Uşaqların artıq çəkili olmaları ilə bağlı bu fəsad, bir qayda olaraq, iqtisadi inkişaf sahəsində çox yüksək və yüksək nəticələr əldə etmiş ölkələrin yoxsul təbəqəsində müşahidə olunur. Məsələn, BMT-nin 2015-ci ildə dərc edilmiş hesabatına əsasən, ABŞ-da uşaqların 7 faizindən çoxunun çəkisi qəbul olunmuş normadan xeyli artıqdır. İnsan potensialının inkişafı sahəsində çox yüksək nəticələr əldə etmiş ölkələr qrupuna aid Argentinada bu rəqəm 10 faizə yaxındır. Sağlamlıq üçün risk törədən uşaqların bədən kütləsinin yüksək olması halları bir sıra ölkələrdə özünü daha çox büruzə verir. Bu vəziyyət, məsələn, Misirdə uşaqların 20,5, Liviyada isə 22,4 faizini əhatə edir.

Yaşlılar yoxsulluqdan daha çox əziyyət çəkən əhalinin digər bir qrupudur. Bir sıra ölkələrdə yaşlılar ömürlərinin son illərini yoxsulluq səbəbindən çox gərgin keçirirlər. Dünyada orta ömür müddəti artır və müvafiq olaraq yaşlı əhalinin sayı da artmaqdadır. Bu isə yaşlılar arasında yoxsulluq ilə mübarizənin xüsusi əhəmiyyət daşımasından xəbər verir.

Qeyd etmək lazımdır ki, yaşla əlaqədar məhrumiyyətlər, əsasən, gəlirlərə görə yoxsulluğa aiddir. Yoxsulluğun bu təzahürünə mütləq yoxsulluq da deyirlər. Lakin yaşlılar arasında mütləq yoxsulluqla yanaşı, digər məhrumiyyətlərlə əlaqədar olan nisbi və fərdi yoxsulluq da mövcuddur.

**5. Yoxsulluq inkişafda olan və inkişaf etmiş ölkələrdə necə qiymətləndirilir?**

Çoxölçülü yoxsulluqla yanaşı, inkişafda olan ölkələrdə yoxsulluğu qiymətləndirmək üçün ƏYƏ – 1 (Əhalinin Yoxsulluq Əmsalı – 1) hesablanmaqdadır. Bu əmsal sağlamlıq (40 yaşına çatmaq ehtimalı olmayanların, tibbi xidmətlərə əli çatmayanlar, 5 yaşına qədər uşaqlar arasında çəki və boyu normadan aşağı olanların faizləri), təhsil (savadı olmayanların faizi), iqtisadi (gəlirləri yoxsulluq həddindən aşağı olan əhali) göstəricilər əsasında hesablanır. İnkişaf etmiş ölkələr üçün hesablanan ƏYƏ – 2 (Əhalinin Yoxsulluq Əmsalı – 2) zamanı istifadə edilən göstəricilər fərqlidir. Bu halda sağlamlıq göstəricisi kimi 60 yaşa çatmaq ehtimalı olmayan əhalinin faizi, təhsil göstəricisi kimi funksional savadsız əhalinin faizi hesablamalarda istifadə olunur. İnkişaf etmiş ölkələrdə yoxsulluğun iqtisadi göstəriciləri kimi yoxsulluq həddindən aşağı yaşayanların və 12 aydan çox işsiz qalan əhalinin faizləri nəzərə alınır.

Göründüyü kimi, inkişaf etmiş və inkişafda olan ölkələrdə yoxsul əhalinin vəziyyəti çox fərqlidir. İlk növbədə, bu, insanın sağlamlıq sahəsində hüquqlarına aiddir. İnkişaf etmiş ölkələrdə 60 yaşa çatmamaq məhrumiyyət hesab edilirsə, inkişafda olan ölkələrdə bu rəqəm 1,5 dəfə azdır. Göstəricilərlə yanaşı, digər fərqliliklər də mövcuddur. Bu onu göstərir ki, yoxsulluqla mübarizənin idarə edilməsində inkişaf etmiş və inkişafda olan ölkələrdə fərqli strategiya həyata keçirilməlidir.

Yoxsulluğun ən yüksək səviyyəsi bəzi Afrika ölkələrində müşahidə olunur. Məsələn, Niger, Mali, Ruanda, Efiopiya və bu qitənin bir sıra digər ölkələrində əhalinin 40 faizindən çoxunun 40 yaşına çatmaq ehtimalı yoxdur. Bu ölkələrdə yaşayan uşaqların 30–40 faizi isə boy və çəkidə geridə qalır. Normadan aşağı çəki və boyda geriləmə isə yoxsulluğun ən kəskin təzahürü olan aclığın və ya kəskin şəkildə normal qidalanmamağın nəticəsidir. BMT-nin 2014-cü ildə dərc edilmiş hesabatına görə, Burundi, Konqo, Madaqaskar, Liberiyada 80 faizə yaxın əhali gündəlik 1,25 ABŞ dollarından aşağı gəlir ilə dolanır. Belə bir şəraitdə yoxsulluğun aradan qaldırılması gündəmdə olan ən vacib məsələdir.

# 6. İNSAN İNKİŞAFI VƏ EKOLOJİ SİVİLİZASİYA

*İstehlak cəmiyyətinin üzləşdiyi əsas problemlər. Müasir cəmiyyətdə demoqrafik tendensiyalar və istehlak davranışlarının insan inkişafına təsiri. Ekoloji sivilizasiya haqqında anlayış. Ekoloji sivilizasiyaya uyğun həyat tərzi və davranış. Yaşıl iqtisadi fəaliyyət. Ekoloji sivilizasiya əmsalı və onun komponentləri. Yaşıl təfəkkür və yaşıl peşəkarlığın formalaşmasında təhsil və məlumatlandırmanın rolu.*

**Mündəricat:**


6.1. Bölmənin məqsədi
6.2. Açar anlayışlar
6.3. İstehlak cəmiyyəti və insan inkişafı
6.4. Müasir demoqrafik tendensiyalar və istehlak xüsusiyyətlərinin davamlı insan inkişafına təsiri
6.5. Ekoloji sivilizasiya və onun xüsusiyyətləri
6.6. Özümüzü sınayırıq


## *6.1. Bölmənin məqsədi*

İstehlak cəmiyyətinin formalaşması və inkişafı bəşəriyyətin tərəqqisində və insan inkişafı prosesində mühüm rol oynamışdır. Dünyada istehlakın daim artması istehsalın artmasına, yeni iş yerlərinin yaradılmasına və gəlirlərin yüksəlməsinə xidmət edir. Daim yenilәşən məhsul və xidmətlərə yüksək tələb istehlak cəmiyyətində elm və texnologiyaların inkişafına, bu sahədə insan potensialının formalaşmasına təkan vermişdir. Lakin daim artan istehlaka əsaslanan inkişaf öz daxilində bir sıra ziddiyyətlərin daşıyıcısına çevrilmişdir. Bunlara məhdud təbii ehtiyatlar şəraitində Yer kürəsində əhalinin sayının sürətlə artması, adambaşına istehlakın orta hesabla on, bəzi hallarda isə yüz dəfələrlə yüksəlməsi və eyni zamanda ölkələr arasında və onların daxillərində istehlak və həyat səviyyəsində müşahidə edilən kəskin qeyri-bərabərlik

aiddir. Bu ziddiyyətlərin aradan qaldırılmasında elm və texnologiyaların rolu yüksək olsa da, hətta onlar da istehlak cəmiyyətinə xas olan bu problemləri həll etmək iqtidarında deyillər. Belə bir şəraitdə sivilizasiyanın yeni mərhələyə keçid zərurəti tam yeni konsepsiyasının yaranmasına rəvac vermişdir. Ekoloji sivilizasiya və yaxud ekosivil adlandırılan bu konsepsiya ilk dəfə Azərbaycanda irəli sürülmüşdür. Ekoloji sivilizasiyanın (ekosivilin) əsas məqsədi inkişaf proseslərində baş verən ***"gələcəksiz inkişaf"***, ***"texnoloji geriləmə ilə inkişaf"*** və ***"bərabərsizliklə müşahidə edilən inkişaf"*** kimi tendensiyaların qarşısının alınmasıdır. UNESCO tərəfindən təklif edilmiş ekoloji prinsiplərə əsaslanan və "biosfer rezervatlar" adlandırılan yaşayış məntəqələrinin yaradılması ekoloji sivilizasiya prinsiplərinə cavab verir. Son zamanlar Çin Xalq Respublikasında ekoloji sivilizasiyaya dair dövlət siyasəti həyata keçirilməkdədir. Bu ölkədə də biosfer rezervatların yaradılmasına üstünlük verilir. Lakin ekoloji sivilizasiyanın prinsipləri yalnız biosfer rezervatlarla məhdudlaşmır və insan fəaliyyətinin və yaşayış tərzinin bir çox sahələrini əhatə edir. Ekosivilin xüsusiyyətləri, onun planlaşdırılması və idarəedilməsinə dair məlumatlar hazırkı bölmədə təqdim edilmişdir.

## *6.2. Açar anlayışlar (bax: Terminlər lüğəti)*

***– Antirisk faktorları (sağlamlıq üçün); – Gübrələrin istifadəsi; – Orqanik kənd təsərrüfatı; – Ozon qatı; – Meşəsizləşmə; – Risk faktorları (sağlamlıq üçün); – Üzvi qida və qida əlavələri; – Yaşıl həyat tərzi və davranış; – Yaşıl iqtisadiyyat.***

## *6.3. İstehlak cəmiyyəti və insan inkişafı*

Yer kürəsində hazırda aşkarlanmış və mövcud olan təbii ehtiyatların azalması, bəzi hallarda isə tükənməsi, ətraf təbii mühitin çirklənməsi və pozulması çoxsaylı iqtisadi və sosial problemlərin həllini əngəlləməklə yanaşı, eyni zamanda qlobal və həmçinin lokal miqyaslarda da bir sıra yeni problemlər üzə çıxarır. XX əsrin sonu – XXI yüzilliyin ilk onilliklərindən başlayaraq bu günlərə qədər bəzi ölkələrin daxilində və ölkələr arasında hərbi qarşıdurmalar və münaqişələr müşahidə edilməkdədir.

Bunların əsasında insan inkişafı prinsiplərinə zidd, gələcək nəsillərin maraqlarını nəzərə almayan inkişaf tendensiyaları durur. Bu isə bir çox hallarda ölkələr arasında və ölkə daxilində əhalinin istehlak səviyyələrində müşahidə edilən kəskin qeyri-bərabərlikdən irəli gəlir. Hazırda və ən yaxın keçmişdə dünyanın müxtəlif nöqtələrində baş tutan və bəzi hallarda XXI əsrin ikinci onilliyində davam edən müharibə və hərbi münaqişələr də bunun əyani sübutudur. Bu münaqişələr müxtəlif formal səbəblərlə əsaslandırılsa da, tamamilə aydındır ki, onların çoxunun kökündə bir tərəfdən təbii ehtiyatlardan istifadə hüququnu ələ keçirmək, onları idarə etmək niyyəti, digər tərəfdən isə əhalinin istehlakın səviyyəsində kəskin qeyri-bərabərlik ilə üzləşməsi durur.

İstehlak cəmiyyətinin formalaşması bəşəriyyətin sürətli və eyni zamanda çoxsahəli tərəqqisində mühüm rol oynamışdı. Öncəki bölmələrdə göstərildiyi kimi, bir çox ölkələrdə istehlak son əsrlərdə durmadan artmaqdadır. Keçən əsrin əvvəli ilə müqayisədə dünyada adambaşına istehlak orta hesabla on və bəzi hallarda yüz dəfə artmışdır. Əmtəə istehsalı və xidmətlərdən istifadənin belə yüksək templə artması bir sıra müsbət nəticələrə yol açmışdır. Bunların sırasında, ilk növbədə, istehsalatın artırılmasını, yeni müəssisələrin yaradılmasını, əlavə iş yerlərinin açılmasını göstərmək olar. İstehlak cəmiyyəti üçün səciyyəvi olan əhalinin daim yeniləşən məhsul və xidmətlərə yüksək tələbatı eyni zamanda elm və texnologiyaların inkişafını da stimullaşdırır. Nəticə etibarilə inkişaf yalnız iqtisadi göstəricilərin yüksəlməsi, ÜDM və ÜMM artımı ilə məhdudlaşmır. Eyni zamanda istehlakın kəmiyyət və keyfiyyət baxımından yüksəlməsi innovativ inkişaf üçün çox əhəmiyyətli bir amilə çevrilir. Bu isə öz növbəsində elm, texnologiyaların inkişafını, təhsilin müasirləşməsini təmin edir və etməkdədir. İstehlak cəmiyyətinin bütün bu xüsusiyyətləri ümumi tərəqqiyə müsbət təsir göstərir və insan inkişafı prosesi üçün olduqca əhəmiyyətlidir.

Lakin istehlak cəmiyyəti həm də öz daxilində bir sıra ziddiyyətlərin daşıyıcısına çevrilmişdir. Bu, xüsusilə son dövrlərdə daha aydın özünü büruzə verir. Müasir dövrdə bu ziddiyyətlər güclənir və artıq inkişafa mənfi təsir göstərir. Əhalinin sayının artması şəraitində dünya üzrə orta adambaşına istehlakın daim və durmadan artımı həm yaxın gələcəkdə, həm də perspektivlər baxımından real görünmür. İstehlak cəmiyyəti prinsipləri əsasında idarə olunan bir sıra inkişaf etmiş ölkələrdə müşa-

hidə edilən böhranlar bunun bariz göstəricisidir. Aydındır ki, belə şəraitdə istehlakın daha da artırılması hesabına böhrandan çıxmaq cəhdləri yalnız müvəqqəti və çox qısamüddətli effekt verə bilər. Eyni zamanda adambaşına orta istehlakın yüksək olması və belə bir şəraitdə istehlak səviyyəsindəki kəskin qeyri-bərabərlik dünya əhalisinin əksəriyyətini qane etmir. Belə bir şəraitdə inkişafın planlaşdırılması və idarəedilməsinə yeni yanaşmalar tələb olunur.

### *6.4. Demoqrafik tendensiyalar və istehlak xüsusiyyətlərinin insan inkişafına təsiri*

Artıq tam aydındır ki, istehlakın həm kəmiyyət, həm də keyfiyyət və çeşid müxtəlifliyinə görə daim artması son əsrlərdə iqtisadiyyatın idarə edilməsinin əsas tendensiyasıdır. Bəzi ölkələrdə əmtəə və xidmətlərə daim artan tələbat iqtisadiyyatın stimullaşdırılmasının əsas alətinə çevrilmişdir. Bir çox hallarda istehlak zəruri tələbatlar səviyyəsi ilə məhdudlaşmır, onu dəfələrlə aşmış olur. Aydındır ki, tələbatların bu səviyyədə formalaşması süni yolla həyata keçirilir. Bunun üçün müxtəlif üsullardan, o cümlədən reklamlar və digər vasitələrin təsirindən geniş istifadə olunur. Nəticədə potensial alıcılar və ümumiyyətlə, bütün əhalidə istehlak mədəniyyəti baxımından zəruri olmayan və insana çox zaman lazım olmayan əmtəə və xidmətlərə süni tələbat formalaşır.

Tələbata, onu süni yolla artıran iqtisadiyyata əsaslanan inkişaf modeli bir sıra cəhətlərinə görə olduqca uğurlu hesab edilə bilər. Bunun üçün yalnız bir şərtin yerinə yetirilməsi tələb olunur. Bu tələb müxtəlif ölkələr və ölkədaxili qruplar arasında hazırda əmtəə və xidmətlərin istehlakında müşahidə edilən kəskin qeyri-bərabərliyin aradan götürülməsidir. Tələbin digər cəhəti də gələcək nəsillərin maraqları naminə təbii ehtiyatlardan, xüsusən də bərpa olunmayan təbii ehtiyatlardan daha səmərəli istifadə etməkdir.

Qeyd edildiyi kimi, istehlakda tam bərabərlik nəinki mümkün deyil, o eyni zamanda insan inkişafına mənfi təsir göstərə bilər. Bu sıradan risk faktorlarından biri, bəlkə də, birincisi inkişaf üçün çox əhəmiyyətli amil olan rəqabətin zəifləməsidir. Lakin kəskin qeyri-bərabərlik də qəbulolunmazdır və insan inkişafının əsas prinsipləri ilə ziddiyyət təşkil edir. Belə şəraitdə BMT tərəfindən təklif edilmiş insan inkişafının vacib

prinsiplərindən olan "bir qrup insanların istehlakı digər qrupların istehlakına mənfi təsir göstərməməlidir" prinsipi pozulmuş olur. Bir çox ölkələr, xüsusən inkişafda olan ölkələr bu vəziyyətdən əziyyət çəkirlər.

İstehlakda kəskin qeyri-bərabərliyin bir səbəbi də müasir demoqrafiyada müşahidə edilən proseslərdir (şəkil 6.19.).




***Şəkil 6.19.*** *Dünya əhalisinin artımı, 100 milyon adam, əsrin əvvəli – 2050-ci il (proqnoz)*

Şəkil 6.19. dünyada əhalinin artım dinamikasını nümayiş etdirir. Göründüyü kimi, Yer kürəsinin əhalisi bizim eranın əvvəlində cəmi 300 milyon adam təşkil edirdi. 1500 ildən sonra bu rəqəm 500 milyona çatmışdı. Daha üç yüz ildən sonra, yəni 1800-cü ildə Yer kürəsinin əhalisi bir milyarda çatdı. Daha yüz il tələb olundu ki, əhalinin sayı 1,6 milyarda çatsın. Hazırda isə dünyada əhalinin sayı 7 milyardı aşıb və dərc edilmiş ən nikbin proqnozlara görə, 2050-ci il üçün əhalinin sayı 9,5 milyarda yaxın olacaq.

Əhalinin yaş strukturu da insan inkişafının vacib amillərindəndir. Demoqrafik siyasətin planlaşdırılması və həyata keçirilməsi zamanı "asılılıq səviyyəsi" anlayışı vacib önəm daşıyır. Bu zaman əhali arasında əmək prosesində iştirak etməyən 0–14 və 65 yaşından çox olan vətən-

daşların ümumi əhali arasında faizi təhlil edilir. Bu yaşa aid olanlar asılılıq qruplarını təşkil edirlər və onların iqtisadi baxımdan təminatı 15–64 yaşa daxil olan əhalinin fəaliyyəti nəticəsində həyata keçirilir. Təhlillər göstərir ki, əhalinin bu qrupu müxtəlif ölkələrdə fərqli təqdim olunmuşdur (şəkil 6.20.).




***Şəkil 6.20.*** *Müxtəlif ölkələrdə 15–64 yaşda olan əhalinin faizi*

*Mənbə: Human Development Report, UNDP, New York, 2015.*

Şəkil 6.20.-dən göründüyü kimi, yüksək inkişaf göstəricilərinə nail olmuş ölkələlər arasında İsraildə asılılıq səviyyəsi daha yüksəkdir. Bu ölkədə əmək yaşında olan əhali 61 faiz təşkil edir və onların fəaliyyəti əhalinin qalan 39 faizini təmin etməlidir. İnkişaf etmiş Avropa ölkələri olan Almaniya və Birləşmiş Krallıqda əmək yaşında olanlar ümumi əhalinin 65 faizini təşkil edir. Bu o deməkdir ki, bu ölkələrdə əhalinin 35 faizi əmək yaşına çatmamış uşaq və gənclərin, eləcə də yaşı 65-ə çatmış və bunu keçmiş əhalinin yaşamasını təmin etməlidirlər. Bu isə kifayət dərəcədə əhəmiyyətli problemdir. Bu səbəbdən asılılığın səviyyəsini azaltmaq məqsədi ilə belə ölkələr xüsusi miqrasiya siyasətini həyata keçirir. Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında asılılıq səviyyəsi aşağıdır (şəkil 6.20).

Əhalinin sayının belə yüksək templə artması və eyni zamanda adambaşına istehlakın daim yüksəlməsi inkişafın optimal planlaşdırılması və idarəedilməsi, onun davamlılığını təmin etmək üçün bir sıra problemlər törədir. Bu problemlərin həllində elm və texnologiyaların rolu olduqca böyükdür. Elm və texnologiyalara əsaslanan innovativ inkişaf əhalinin sayının artması, adambaşına istehlakın yüksəlməsi və təbii ətraf mühitə təzyiqlərin daimi güclənməsi ilə əlaqədar olan bir çox çağırışlara cavab verə bilir. Lakin buna baxmayaraq, yalnız elmi-texniki tərəqqi və onun texnoloji nailiyyətlərinin tətbiqi baş verən problemləri aradan qaldıra bilməz. Nəzərə alınmalıdır ki, müxtəlif ölkələrdə və ölkələrin əhalisinin müxtəlif təbəqələrin istehlakında olan kəskin qeyri-bərabərlik bu problemlərin çözülməsini müşkülə çevirir. Belə vəziyyət inkişaf prosesinin planlaşdırılması və idarəedilməsi sahəsində yeni yanaşmaların tətbiqini zəruri edir.

### *6.5. Ekoloji sivilizasiya və onun xüsusiyyətləri*

Bəşəriyyət XX və XXI əsrlərə bir sıra yeni xüsusiyyətlərlə daxil olub. İnkişaf prosesinin idarə edilməsinin bu sırada böyük əhəmiyyət daşıdığı xüsusi qeyd edilməlidir. Sözügedən proseslərə təsir edən bir neçə amil var. Bunlardan ikisi, yuxarıda qeyd edildiyi kimi, əhalinin sayının sürətlə artması və adambaşına istehlakın yüksəlməsidir. Üçüncü, çox önəmli amil elm və texnologiyaların inkişafı və bununla əlaqədar yeni biliklərin əldə edilməsi, yeni bacarıqların formalaşmasıdır. Birinci iki amil inkişaf prosesinin bəzi sahələrinə, əhalinin rifahının yüksəlməsinə müsbət təsir göstərməklə yanaşı, eyni zamanda bu prosesin davamlılığını, onun eyni dərəcədə çağdaş və gələcək nəsillərin maraqlarına xidmət etməsini əngəlləyir. Müasir elmi nailiyyətlər və əldə edilmiş yeni texnoloji imkanlar baş verən ziddiyyətlərin aradan qaldırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Lakin aydındır ki, hətta belə bir şəraitdə inkişafın davamlılığı, onun bütün əhalinin maraqlarına xidmət etmək imkanları, demək olar ki, məhduddur. XX əsrin sonlarında artıq belə bir fikir formalaşırdı ki, inkişaf prosesinin planlaşdırılması və idarəedilməsinə yeni yanaşmalar tələb olunur. Elə o zamanlar sivilizasiyanın yeni mərhələsinə keçidin zəruriliyi konsepsiyası ortaya çıxdı. Ekoloji sivilizasiya və yaxud «ekosivil» adlandırılan bu konsepsiya ilk dəfə Azərbay-

canda irəli sürülmüşdür. Ekosivilin əsas məqsədlərindən biri inkişafda müşahidə edilən iki mənfi tendensiyanın – ***"gələcəksiz inkişaf"*** ehtimalının qarşısının alınmasıdır. Hazırda ekoloji sivilizasiya anlayışı dünyada geniş yayılmaqdadır. Bir sıra ölkələrdə isə ekoloji sivilizasiyaya keçid dövlətlərin inkişaf strategiyasının vacib bir istiqaməti kimi qəbul edilmişdir. Bu ölkələr arasında hazırda əhalinin sayına görə birinci və dünya iqtisadiyyatında ikinci yerdə olan Çin Xalq Respublikasını göstərmək olar.

Ekoloji sivilizasiyanın əsas xüsusiyyətləri şəkil 6.21.-də təqdim edilib. Şəkildən göründüyü kimi, sivilizasiyanın yeni inkişaf mərhələsinin əsasında iki vacib xüsusiyyət dayanır. Onların birincisi əhalinin sayı və onlar tərəfindən istehlak olunan əmtəə və xidmətlərin səviyyəsidir. Bəlli olduğu kimi, sənaye, kənd təsərrüfatı, nəqliyyat insanların tələbatlarını ödəmək üçün fəaliyyət göstərir. Bu istiqamətdə iqtisadiyyatda həyata keçirilən fəaliyyət iki amildən asılıdır: əhalinin sayından və adambaşına istehlakın səviyyəsindən. Sənayedə, aqrar və xidmətlər sahələrində istifadə edilən təbii ehtiyatların həcmi bilavasitə bu iki amildən asılıdır. Eyni zamanda insanın bu istiqamətdə həyata keçirdiyi iqtisadi fəaliyyət nəticəsində baş verən ətraf mühitin çirklənməsi və pozulması da eyni amillərlə əlaqədardır. Deməli, insan potensialına əsaslanan inkişafın təmin edilməsi üçün elmi və texnoloji nailiyyətlərin tətbiqi ilə yanaşı, eyni zamanda demoqrafik proseslərə də diqqət yetirilməlidir. Ailə planlaşdırılması siyasəti bəzi ölkələr üçün xüsusi əhəmiyyətə malikdir və demoqrafik problemlərin tənzimlənməsi baxımından da önəmlidir. Bu zaman dünyada əhalinin yaş strukturunun dəyişməsinin də nəzərə alınması çox vacibdir.

Ekoloji sivilizasiyanın demoqrafiya ilə bağlı daha bir xüsusiyyəti yaşayış məntəqələrinin ölçüsü və müvafiq olaraq əhalinin sıxlığı ilə əlaqədardır. Əhalinin regionlar arasında kəskin qeyri-bərabər paylanması iri şəhərlərin əmələ gəlməsinə və onların əhalisinin sayının sürətlə artmasına gətirib çıxarır. Həddən artıq çox əhalisi olan yaşayış məntəqələri, bir qayda olaraq, enerji səmərəliliyi baxımından əlverişli deyillər, iqtisadi, sosial və ekoloji problemlərin həllində, bu sahələrin optimal idarəedilməsində ciddi problemlər yaradırlar. Bu isə eyni zamanda insan inkişafı üçün əhəmiyyətli olan əhalinin sağlamlığı, ətraf mühitin qorunması və biomüxtəlifliyin mühafizəsi üçün də təhlükəlidir.

Demoqrafiya ilə yanaşı, istehlak mədəniyyəti ekoloji sivilizasiyanın digər vacib elementidir. Burada, ilk növbədə, istehlakın zəruri tələbatlar səviyyəsində saxlanılması olduqca vacibdir. Bununla yanaşı, müxtəlif ölkələr arasında və ölkələr daxilində fərqli əhali qrupları arasında müşahidə edilən istehlakdakı kəskin qeyri-bərabərlik aradan qaldırılmalıdır.




***Şəkil 6.21.*** *Ekoloji sivilizasiya və onun əsas komponentləri*

Ekoloji sivilizasiya üçün təklif edilən davranış mədəniyyəti istehlakın xüsusi istiqaməti sahəsində də fəaliyyətin güclənməsini nəzərdə tutur. Zəruri istehlakın xüsusi istiqaməti əhalinin sağlamlığının qorunması, bir sıra xəstəliklər ehtimalının azalmasının təmini və insanların

uzunömürlük potensialının həyata keçirilməsi ilə əlaqədardır. Sağlamlığı təmin edən istehlak mədəniyyəti, əsasən, risk faktorlarının azaldılmasından və antirisk faktorlarının artırılmasından keçir. Dünya əhalisinin bir çox ölkələrdə orta yaşının artması və bununla əlaqədar əhalinin yaş strukturunun dəyişməsi bu istiqamətin ekoloji sivilizasiyanın optimal planlaşdırılması və idarəedilməsi üçün olduqca böyük əhəmiyyət daşıdığını göstərir.

Ekoloji sivilizasiya konsepsiyasına görə, yeni istehlak mədəniyyətinin formalaşmasında yaşıl dəbin əhəmiyyəti həddən artıq yüksəkdir. Qeyd edilməlidir ki, yaşıl və ya davamlı inkişaf edən cəmiyyətdə dəb dedikdə, ilk mərhələlərdə ekoloji təmiz xammaldan istifadə edilməsi nəzərdə tutulurdu. Hazırda təklif edilən ekoloji sivilizasiya modeli isə yaşıl dəb dedikdə, eyni zamanda istehlakda kifayətçilik və həm istehsalçı, həm də istehlakçının sosial məsuliyyətinin artırılmasını da nəzərdə tutur.

Ekoloji sivilizasiyanın digər tələbi sənaye, kənd təsərrüfatı və xidmət sahələrinin "yaşıllaşdırılmasıdır". Hazırda belə texnologiyalar mövcuddur və onların tətbiqi davamlı və insan potensialına əsaslanan inkişafın bu istiqamətə yönəldilməsini təmin edə bilir. Artıq bir sıra ölkələrdə "ağıllı" evlərin tikilməsinə başlanılıb. İndi enerji və digər təbii ehtiyatları qənaətlə işlədən maşın, mexanizmlər və cihazlar mövcuddur və onların istehsalı və istifadəsi ilbəil artmaqdadır. Davamlı və insan potensialına əsaslanan, onun inkişafına xidmət edən orqanik kənd təsərrüfatı, meşəçilik, balıqçılıq getdikcə artmaqdadır. Bu tipli kənd təsərrüfatı müasir texnologiyalara əsaslanaraq inkişaf etməklə yanaşı, eyni zamanda qida istehsal edən sənayenin də modernləşməsini tələb edir. Sağlam qidalanma mədəniyyəti ekoloji sivilizasiyanın vacib elementidir. Bu zaman orqanik kənd təsərrüfatı və ekoloji sivilizasiya, ərzaq istehsal edən sənaye cəmiyyətin artım dinamikasını və əhalinin yaş strukturunu nəzərə almalıdır. Sözügedən proseslərin idarə edilməsi ekoloji sivilizasiyaya keçidin vacib tərkib hissəsidir.

Dəyişikliklər hər zaman həm fərdlər, həm də bütövlükdə cəmiyyət üçün çətinlik törədə bilir. Ekoloji sivilizasiyaya keçid cəmiyyətin bunun üçün tam hazır olmasını tələb edir. Cəmiyyətin bu keçidə nə dərəcədə hazır olmasının qiymətləndirilməsi üçün müxtəlif indikatorlardan istifadə edilə bilər. Belə indikatorlardan biri Ekoloji Sivilizasiya Əmsalıdır və

onun tətbiqi ilk dəfə Azərbaycan Respublikasında 2011-ci ildə təklif edilmişdir. Bu əmsala təsir göstərə bilən amillər şəkil 6.22.-də təqdim edilmişdir.

Texnologiyaların inkişafı və daim modernləşməsi, iqtisadi mühitin yaxşılaşdırılması, əlverişli hüquqi mühitin yaradılması, bu sahədə müvafiq qərarların qəbul edilməsi ekoloji sivilizasiyaya keçmək üçün olduqca vacibdir, lakin kifayət deyil. Davamlı insan potensialına əsaslanan ekoloji sivilizasiyaya keçid prosesində ən əsas amil insandır. Yaşıl iqtisadiyyatı yalnız "yaşıl" təfəkkürə malik olan, bu istiqamətdə qlobal və fərdi səviyyədə öz sosial məsuliyyətini dərk edən və eyni zamanda bu istiqamətdə müvafiq bilik və bacarığa malik olan insanlar həyata keçirə bilər. Bu səbəbdən ekoloji sivilizasiyaya keçidin idarə edilməsində müxtəlif səviyyəli təhsilin və məlumatlandırmanın rolu olduqca əhəmiyyətlidir. İnkişaf üçün mövcud imkanlar barəsində yaxşı məlumatlandırılmamış əhali düzgün seçimlər edə bilməz. Eyni zamanda yalnız yüksək peşəkarların formalaşması nəticəsində cəmiyyətin ekoloji sivilizasiyaya keçidini təmin etmək mümkündür.




***Şəkil 6.22.*** *Ekoloji Sivilizasiya Əmsalı və onun əsas komponentləri*

Göstərilən istiqamətdə insan potensialının formalaşması üçün müxtəlif səviyyələrdə formal təhsil ilə yanaşı, idarəçilik sahəsində çalışanlar, qərar qəbul edənlərin xüsusi peşə təlimlərinə cəlb edilməsi və bu sahədə biliklərin daim yeniləşməsi ekosivilizasiyaya keçidin vacib şərtidir.

*Cədvəl 6.16. Ekoloji sivilizasiyanın (ekosivilin) əsas komponentləri*

| | | |
|---|---|---|
| Ekologiyalaşdırma | Sənaye/inşaat | Sənayedə "yaşıl" texnologiyaların tətbiqi. Tullantıların ləğvi, azaldılması. Qaçılmaz tullantıların təkrar emalı. "Yaşıl" yaşayış məntəqələri, "yaşıl" binaların tikilməsi və təchizatı (bərpa olunan enerji, yaşıl inşaat texnologiyaları, avadanlıq, qurğular və s.) |
| | Aqrar sahə | "Orqanik kənd təsərrüfatı"nın inkişafı |
| | Nəqliyyat | Enerji qənaəti, bərpa olunan enerji, "sıfır tullantılar". Ətraf mühitə nəqliyyat tullantılarının kəskin azaldılması |
| | Təhsil | İbtidai, orta və ali təhsildə məcburi "yaşıl" fəaliyyət və həyat tərzinin tədrisi |
| Demoqrafiya | Əhalinin sayı və sıxlığı | Ailə planlaşdırılması və yaşayış məntəqələrinin ölçüsünün ekoloji standartlara uyğunlaşdırılması |
| | Sağlamlıq | Uzun və sağlam həyat üçün "risk faktorları"nın azaldılması və "antirisk faktorları"nın artırılması |
| | Həyatın keyfiyyəti | Ədalət və rifahı təmin edən təbii, iqtisadi, siyasi və sosial mühitin formalaşdırılması |
| İstehlak | İstehlak mədəniyyəti | Zəruri tələblər səviyyəsində istehlak. Uzun, sağlam və yaradıcı həyatı təmin edən, bunlar üçün mövcud və potensial riskləri idarə edən həyat tərzi və istehlak, bunun üçün ən müasir elm və yerli /etnik bilik və mədəniyyətin səfərbər edilməsi. Kəskin sosial qeyri-bərabərliyin aradan qaldırılması, biomüxtəlifliyin mühafizəsi |

Ekoloji sivilizasiyaya keçid üçün hazırlığın qiymətləndirilməsi zamanı bir sıra amillərin nəzərə alınması olduqca əhəmiyyətlidir. Bu amillərin seçimi zamanı diqqət yetirilməlidir ki, iqtisadiyyatın bütün sahələri, o cümlədən sənaye, kənd təsərrüfatı, inşaat, nəqliyyat bir məqsədlə – insanların tələbatlarını təmin etmək üçün fəaliyyət göstərirlər. Eyni zamanda təbii ehtiyatların daha çox sərfi, ətraf mühitin çirklənməsi və pozulmasına yol açan amillər bu sahələrin fəaliyyəti ilə birbaşa bağlıdır. Bəllidir ki, sənaye, kənd təsərrüfatı, xidmətlər sahələrində iqtisadi fəaliyyətin həcmi, sərf edilən bərpa olunmayan təbii ehtiyatların miqdarı, təbii ətraf mühitə yetirilən fəsadlar əhalinin sayından və bu sayın dəyişmə istiqamətindən və sürətindən asılıdır. Demoqrafiya ilə yanaşı, sənaye və kənd təsərrüfatı istehsalı, təqdim edilən xidmətlərin çeşidi və həcminə istehlak mədəniyyətinin də təsiri əhəmiyyətsiz sayıla bilməz. Beləliklə, göstərilən səbəblərdən ekoloji sivilizasiya qanunları ilə yaşayan cəmiyyətin planlaşdırılması və idarə edilməsi demoqrafiya, istehlak mədəniyyətindən və yaşıl iqtisadi fəaliyyətdən asılıdır və cəmiyyətin bu keçidə hazır olması göstərilən amillərin vəziyyəti ilə bilavasitə bağlıdır (şəkil 6.21).

Qeyd edildiyi kimi, ekoloji sivilizasiyaya keçmək üçün cəmiyyət buna hazır olmalıdır. Bu hazırlığın qiymətləndirilməsi, keçid prosesinin planlaşdırılması və idarəedilməsini təmin etmək üçün xüsusi indikatorların olması vacibdir. Bu hədəflər vasitəsilə cəmiyyətin ekoloji sivilizasiyaya keçidin hansı mərhələsində olmasını müəyyənləşdirmək və müvafiq olaraq növbəti addımların planlaşdırılması və prosesin daha optimal idarəedilməsi mümkündür.

Hər hansı ölkə və yaxud ərazinin ekoloji sivilizasiyaya keçidə hazırlığının qiymətləndirilməsi müxtəlif yollarla həyata keçirilə bilər. Onlardan biri və hazırkı dövrdə birincisi Ekoloji Sivilizasiya Əmsalının (ESƏ) hesablanmasıdır. Əmsalın hesablanmasında əsas məqsəd cəmiyyətin yeni səviyyəyə keçməsi, əhalinin rifahının daim yüksəldilməsi, bu prosesin ətraf təbii və sosial mühitlə harmoniyada idarə edilməsi, və sosial məsuliyyətli şəkildə həyata keçirilməsinə hazırlığın qiymətləndirilməsidir.

ESƏ-ni hesablamaq üşün 8 müxtəlif göstəricidən istifadə olunur: (1) demoqrafik göstəricilər, (2) istehlakın xüsusiyyətləri, (3) yaşıl iqtisadiyyat, (4) orqanik kənd təsərrüfatı və qida məhsulları, (5) sağlamlıq göstə-

riciləri, (6) elm, təhsil və texnologiyalar, (7) yoxsulluq və (8) hüquqi mühit (şəkil 6.19). Bu istiqamətləri səciyyələndirən 30-dan çox fərqli indikatorlar mövcuddur. Bunlara ailə planlaşdırılması, enerji və təbii ehtiyatlardan adambaşına istifadə, bir vahid enerji hesabına yaradılmış ÜDM-in həcmi, adambaşına atmosferə tullanan istixana qazlarının həcmi, yoxsulluq və Cini əmsalı, Kvintil nisbətinin təhlili, istifadə edilən enerjidə bərpa olunan enerjinin payı, kənd təsərrüfatında orqanik məhsulların payı, ali məktəblərdə təbiət elmləri, riyaziyyat, mühəndislik və kənd təsərrüfatını öyrənən tələbələrin payı, elm, təhsil və texnologiyalara ayrılan vəsait-lərin həcmi və digər göstəriciləri aid etmək olar. Qeyd edildiyi kimi, ESƏ ekoloji sivilizasiyaya keçidə hazırlığın qiymətləndirilməsi üçün təklif edilmiş birinci kəmiyyət göstəricisidir. Bu istiqamətdə əldə ediləcək nailiyyətlər yeni göstəricilərin qiymətləndirməyə cəlb edilməsi ehtimalını artırır.

Ətraf təbii, iqtisadi və sosial mühitlərin insan inkişafı və ekoloji sivilizasiya naminə optimal idarə edilməsi insan potensialının formalaşdırılması və daimi təkmilləşməsinə bağlıdır. Bu səbəbdən ekoloji sivilizasiyaya keçid ömürboyu təhsilin həyata keçirilməsini, məlumatlandırma proseslərinin genişləndirilməsini tələb edir. Yüksək peşəkar hazırlıq və eyni zamanda əhalinin fasiləsiz məlumatlandırılması bu proseslərin vacib tərkib hissəsidir. Bundan aydın olur ki, insan inkişafı ekoloji sivilizasiyaya keçməsinin vacib şərtidir.

## *6.6. Özümüzü sınayırıq*

### 6.6.1. Özümüzü sınayırıq suallar:

1. İstehlak cəmiyyəti insan inkişafına necə təsir edir?
2. Müasir demoqrafik tendensiyalar insan inkişafına necə təsir edir?
3. Ekoloji sivilizasiya (ekosivil) konsepsiyası hansı prinsiplərə əsaslanır?
4. Yaşıl iqtisadiyyatın ekoloji sivilizasiyada rolu?
5. Ekoloji sivilizasiyaya keçid üçün hazırlıq necə dəyərləndirilə bilər?

## 6.6.2. Özümüzü sınayırıq cavablar

**1. İstehlak cəmiyyəti insan inkişafına necə təsir edir?**

İstehlak cəmiyyətinin formalaşması bəşəriyyətin insan inkişafına böyük töhfələr vermişdir. Keçən əsrin əvvəli ilə müqayisədə dünyada adambaşına istehlak orta hesabla on və bəzi hallarda yüz dəfə artmışdır. Əmtəə istehsalı və xidmətlərdən istifadənin belə yüksək templə artması bir sıra müsbət nəticələrə yol açmışdır. Bunların sırasında istehsalatın artırılmasını, yeni müəssisələrin yaradılmasını, əlavə iş yerlərinin açılmasını göstərmək olar. İstehlak cəmiyyəti üçün səciyyəvi olan əhalinin daim yeniləşən məhsul və xidmətlərə yüksək tələbatı eyni zamanda elm və texnologiyaların inkişafını da stimullaşdırır. Bu isə öz növbəsində elm, texnologiyaların inkişafını, təhsilin müasirləşməsini təmin edir və etməkdədir. İstehlak cəmiyyətinin bütün bu xüsusiyyətləri ümumi tərəqqiyə müsbət təsir göstərir.

Lakin Yer kürəsində əhalinin sayı sürətlə artmaqdadır. Eyni zamanda adambaşına istehlak daim və durmadan artmaqdadır və bu istehlakda dünyada kəskin qeyri-bərabərlik müşahidə edilməkdədir. Aydındır ki, bəşəriyyətin həm yaxın gələcəkdə, həm də perspektivdə bu yolla inkişaf etməsi real görünmür. İstehlak cəmiyyəti prinsipləri əsasında idarə olunan bir sıra inkişaf etmiş ölkələrdə müşahidə edilən böhranlar bunun bariz göstəricisidir. İstehlakın daha da artırılması hesabına böhrandan çıxmaq cəhdləri yalnız müvəqqəti və çox qısamüddətli effekt verə bilər. Eyni zamanda adambaşına orta istehlakın yüksək olması və belə bir şəraitdə istehlak səviyyəsindəki kəskin qeyri-bərabərlik dünya əhalisinin əksəriyyətini qane etmir. Belə bir şəraitdə inkişafın planlaşdırılması və idarəedilməsinə yeni yanaşmalar tələb olunur.

**2. Müasir demoqrafik tendensiyalar insan inkişafına necə təsir edir?**

İstehlaka, onu süni yolla artıran iqtisadiyyata əsaslanan inkişaf modeli yalnız ölkələr və ölkədaxili qruplar arasında hazırda istehlakda müşahidə edilən kəskin qeyri-bərabərliyin tam və ya əsasən aradan aldırılması şəraitində uğurlu hesab edilə bilər. Bu gün istehlakda müşahidə edilən kəskin qeyri-bərabərliklə BMT-nin "bir qrup insanların istehlakı digər qrupların istehlakına mənfi təsir göstərməməlidir" prin-

sipi pozulmuş olur. Bir çox ölkələr, xüsusən inkişafda olan ölkələr bu prinsipi qəbul etmirlər.

İstehlakda kəskin qeyri-bərabərliyin bir səbəbi də müasir demoqrafiyada müşahidə edilən proseslərdir. Bəllidir ki, Yer kürəsinin əhalisi bizim eranın əvvəlində cəmi 300 milyon adam təşkil edirdi. 1500 ildən sonra bu rəqəm 500 milyona çatmışdı. Daha üç yüz ildən sonra, yəni 1800-cü ildə Yer kürəsinin əhalisi bir milyarda çatdı. Daha yüz il tələb olundu ki, əhalinin sayı 1,6 milyarda çatsın. Hazırda isə dünyada əhalinin sayı 7 milyardı aşıb və dərc edilmiş ən nikbin proqnozlara görə, 2050-ci il üçün əhalinin sayı 9,5 milyarda yaxın olacaq. Əhalinin sıxlığına təsir göstərən yaşayış məskənlərinin salınmasında müşahidə edilən qeyri-bərabərlik davamlı inkişafa mənfi təsir göstərən digər demoqrafik fəsaddır.

Davamlı inkişafı əngəlləyən daha bir demoqrafik xüsusiyyət əhalinin yaş strukturunun dəyişməsidir. Elm, texnologiyaların inkişafı, tibbi xidmətlərdə və sosial sahədə əldə edilmiş nailiyyətlər hesabına dünyada orta ömür müddəti artmaqdadır. Bu eyni zamanda əhalinin yaş strukturunun dəyişməsi və inkişaf prosesində yeni çağırışların yaranması deməkdir.

Əhalinin sayının belə yüksək templə artması, bir çox ölkələrdə yaş strukturunun dəyişməsi və eyni zamanda adambaşına istehlakın daim yüksəlməsi inkişafın optimal planlaşdırılması və idarəedilməsi, onun davamlılığını təmin etmək üçün bir sıra problemlər törədir. Belə vəziyyət inkişaf prosesinin planlaşdırılması və idarəedilməsi sahəsində yeni yanaşmaların tətbiqini zəruri edir. Ekoloji sivilizasiya konsepsiyasının yaranması bu zərurətdən irəli gəlib.

**3. Ekoloji sivilizasiya (ekosivil) konsepsiyası hansı prinsiplərə əsaslanır?**

Ekoloji sivilizasiyanın əsasında iki vacib prinsip durur. Onların birincisi əhalinin sayı, digəri isə onların istehlak səviyyəsidir. Bəlli olduğu kimi, sənaye, kənd təsərrüfatı, nəqliyyat insanların tələbatlarını ödəmək üçün fəaliyyət göstərir. Bu istiqamətdə iqtisadiyyatda yer alan proseslər iki amildən asılıdır: əhalinin sayından və adambaşına istehlakın səviyyəsindən. Sənayedə, aqrar və xidmətlər sahələrində istifadə edilən təbii ehtiyatların həcminə bilavasitə bu iki amil təsir göstərir. Eyni zamanda

insanın bu istiqamətdə həyata keçirdiyi iqtisadi fəaliyyət nəticəsində baş verən ətraf mühitin çirklənməsi və pozulması da eyni amillərlə əlaqədardır. Deməli, davamlı və insan potensialına əsaslanan inkişafın təmin edilməsi üçün elmi və texnoloji nailiyyətlərin tətbiqi ilə yanaşı, eyni zamanda demoqrafik proseslərə də diqqət yetirilməlidir. Ailə planlaşdırılması siyasəti bu istiqamətdə zəruri fəaliyyət istiqamətlərindəndir. Ekoloji sivilizasiyanın demoqrafiya ilə bağlı daha bir xüsusiyyəti yaşayış məntəqələrinin ölçüsü və müvafiq olaraq əhalinin sıxlığı ilə əlaqədardır.

Demoqrafiya ilə yanaşı, istehlak mədəniyyəti ekoloji sivilizasiyanın digər vacib elementidir. Burada, ilk növbədə, istehlakın zəruri tələbatlar səviyyəsində saxlanılması olduqca vacibdir. İstehlak mədəniyyətində yaşıl dəbin də əhəmiyyəti yüksəkdir. Yaşıl dəb dedikdə, ilk növbədə, istehlakda kifayətçilik və sosial məsuliyyət nəzərdə tutulur. Bununla yanaşı, müxtəlif ölkələr arasında və ölkələr daxilində fərqli əhali qrupları arasında müşahidə edilən istehlakdakı kəskin qeyri-bərabərlik aradan qaldırılmalıdır.

Həm demoqrafiya, həm də istehlak mədəniyyəti ekosivil komponenti olan insanın həyat tərzinə və davranışlarına təsir edir. İnsanın fəaliyyəti ekoloji sivilizasiyanın ikinci çox önəmli qoluna aiddir. Bu istiqamətdə fəaliyyət yeni cəmiyyətə keçidin vacib şərtidir.

### 4. Yaşıl iqtisadiyyatın ekoloji sivilizasiyada rolu?

Yaşıl texnologiyalar, sənaye, kənd təsərrüfatı, inşaat, nəqliyyat, xidmət və digər sahələrin yaşıllaşdırılması ekosivilin digər tələbidir. Hazırda belə texnologiyalar mövcuddur və onlar tətbiq edilirlər. Dünyada bərpa olunan enerji mənbələrindən istifadənin durmadan artması bu sahənin yaşıl texnologiyalara keçməsinin bir təzahürüdür. Artıq bir sıra ölkələrdə "ağıllı" evlərin tikilməsinə başlanılıb. İndi enerji və digər təbii ehtiyatları qənaətlə işlədən maşın, mexanizmlər və cihazlar mövcuddur və onların istehsalı və istifadəsi ilbəil artmaqdadır. Orqanik kənd təsərrüfatı, meşəçilik, balıqçılıq getdikcə artmaqdadır. Bu tipli kənd təsərrüfatı müasir texnologiyalara əsaslanaraq inkişaf etməklə yanaşı, eyni zamanda qida istehsal edən sənayenin də modernləşməsini tələb edir. Sağlam qidalanma mədəniyyəti ekoloji sivilizasiyanın vacib elementidir.

Bu zaman orqanik kənd təsərrüfatı və ekoloji sivilizasiya, ərzaq istehsal edən sənaye cəmiyyətin artım dinamikasını və əhalinin yaş strukturunu nəzərə almalıdır. Sözügedən proseslərin idarə edilməsi ekoloji sivilizasiyaya keçidin vacib tərkib hissəsidir.

### 5. Ekoloji sivilizasiyaya keçidə hazırlıq necə dəyərləndirilə bilər?

Dəyişikliklər hər zaman həm fərdlər, həm də bütövlükdə cəmiyyət üçün çətinlik törədə bilir. Ekoloji sivilizasiyaya keçid cəmiyyətin bunun üçün tam hazır olmasını tələb edir. Cəmiyyətin bu keçidə nə dərəcədə hazır olmasının qiymətləndirilməsi üçün müxtəlif indikatorlardan istifadə edilə bilər. Belə indikatorlardan biri Ekoloji sivilizasiya əmsalıdır və onun tətbiqi ilk dəfə Azərbaycan Respublikasında 2011-ci ildə təklif edilmişdir. Bu əmsala təsir göstərə bilən amillər şəkil 6.12.-də təqdim edilmişdir.

Texnologiyaların inkişafı və daim modernləşməsi, iqtisadi mühitin yaxşılaşdırılması, əlverişli hüquqi mühitin yaradılması, bu sahədə müvafiq qərarların qəbul edilməsi ekoloji sivilizasiyaya keçmək üçün olduqca vacibdir, lakin kifayət deyil. Davamlı insan potensialına əsaslanan ekoloji sivilizasiyaya keçid prosesində ən əsas amil insandır. Yaşıl iqtisadiyyatı yalnız yaşıl təfəkkürə malik olan, bu istiqamətdə qlobal və fərdi səviyyədə öz sosial məsuliyyətini dərk edən və eyni zamanda bu istiqamətdə müvafiq bilik və bacarığa malik olan insanlar həyata keçirə bilər. Bu səbəbdən ekoloji sivilizasiyaya keçidin idarə edilməsində təhsil və məlumatlandırmanın rolu olduqca əhəmiyyətlidir. İnkişaf üçün mövcud imkanlar barəsində yaxşı məlumatlandırılmamış əhali düzgün seçimlər edə bilməz. Eyni zamanda yalnız yüksək peşəkarların formalaşması nəticəsində cəmiyyətin ekoloji sivilizasiyaya keçidini təmin etmək mümkündür.

# 7. İNSAN İNKİŞAFI NAMİNƏ ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ

*Ətraf mühit vahid bir sistem kimi. Təbii ətraf mühitin insan inkişafına təsiri. Texnoloji tərəqqinin ətraf mühit və insan inkişafına təsiri. Ətraf mühitin idarə edilməsinə tarixi baxış. İnsan inkişafına yönəldilmiş təbii və sosial mühitin idarə edilməsi. Ətraf mühitə təsirlərin qiymətləndirilməsi. İnsan inkişafına yönəldilmiş təbii ehtiyatların idarə edilməsi. İnsan inkişafının tələblərinə cavab verən iqtisadi fəaliyyət. Azərbaycanda ekoloji siyasət.*

**Mündəricat:**


7.1. Bölmənin məqsədi
7.2. Açar anlayışlar
7.3. İnsan inkişafının təbii mühitdən asılılığı
7.4. Texnoloji tərəqqinin insan inkişafına təsiri
7.5. Ətraf mühitin idarə edilməsinə tarixi baxış
7.6. Ətraf təbii mühitə təsirlərin qiymətləndirilməsi
7.7. Sosial mühitə təsirlərin qiymətləndirilməsi
7.8. Davamlı insan inkişafının ekoloji indikatorları
7.9. Xərclərin strukturu insan inkişafının göstəricisi kimi
7.10. Özümüzü sınayırıq


## *7.1. Bölmənin məqsədi*

Müasir dövrdə mövcud qlobal və lokal ətraf mühit problemləri insan inkişafına əsaslanan tərəqqini əngəlləyən əsas amillərdən birinə çevrilmişdir. Ətraf mühit dedikdə, bir çox hallarda, təbii mühit nəzərdə tutulur. Ətraf mühitin vəziyyəti dedikdə isə yenə də təbii mühitin vəziyyəti, onun keyfiyyəti, təbii mühiti təşkil edən hava, su, torpağın xüsusiyyətləri və çirklənmə dərəcələri, biomüxtəlifliyin mühafizəsinin durumu və buna oxşar məsələlər düşünülür. Belə bir yanaşma şəraitində təbii ətraf mühitin vəziyyəti, yəni ekoloji şərait davamlı insan potensialına əsaslanan inkişafa təsir edən amil kimi qəbul olunur. Bu, bir faktdır ki,

insanın cəmiyyətdə vəziyyəti, onun inkişaf imkanları təbii mühitdən çox asılıdır. Bir çox hallarda isə ətraf mühitin vəziyyəti anlayışı ekoloji vəziyyət kimi qəbul olunmaqdadır. Lakin nəzərə alınmalıdır ki, insanı əhatə edən və cəmiyyətin uğurlu və uzunmüddətli inkişafına təsir edən ətraf mühit amilləri təkcə təbii şəraitlə məhdudlaşmır. İnsan inkişafı tam şəkildə və ya maksimum dərəcədə üzə çıxmasında təkcə təbii mühit əhəmiyyətli rol oynamır. Çünki insanı əhatə edən vahid bir mühit mövcuddur ki, o da təbii, iqtisadi, sosial və siyasi mühitlərdən təşkil edilmişdir. Məhz siyasi mühit ətraf mühitin bütün elementlərinin, o cümlədən təbii mühitin, vahid bir sistem kimi optimal şəkildə idarə olunmasına əhəmiyyətli təsir göstərən amildir. Bu bölmədə davamlı inkişaf üçün xüsusi əhəmiyyət daşıyan insan potensialının inkişafının təbii ətraf mühit, onun vəziyyətindən asılılığı təhlil edilir.

### *7.2. Açar anlayışlar (bax: Terminlər lüğəti)*

*– Biomüxtəliflik.*

### *7.3. İnsan inkişafının təbii mühitdən asılılığı*

İnsan təbii ətraf mühitdən hər zaman asılı olmuşdur. Təbiət həm tarixən, həm də müasir dövrdə insanın yaşamını və inkişafını təmin edən ən əsas amillərdəndir. Təbii ətraf mühit insanın bir bioloji varlıq kimi formalaşması, onun təkamülü üçün şərait yaradan vacib amildir. Təbii ətraf mühit, onun müxtəlifliyi insan cəmiyyətinin inkişafında mühüm rol oynamış və oynamaqdadır. Ətraf mühit insanın əsas bioloji, sosial və iqtisadi tələblərini ödəməsi üçün şərait yaradan həlledici mənbədir. Ən qədim dövrlərdə təbii mühit insana qeyri-əlverişli amillərdən qorunmaq üçün sığınacaq vermiş, onu qurmaq və təkmilləşdirmək üçün şərait yaratmış, qida və dərman vasitələri, geyim və alətlər, istehsal və istehlak üçün xammalla təmin etmişdir. Təbii ətraf mühiti, onun canlı və cansız komponentlərini öyrənməklə insan yeni biliklərə yiyələnir və bu biliklərdən cəmiyyətin və fərdin inkişafı üçün istifadə etməyə nail olur.

Aydındır ki, insanı əhatə edən təbiət onun yaşaması və inkişafı üçün tələb olunan hər cür şəraitin yaradılmasında mühüm rol oynayır. Təbii mühit şəraiti isə hər yerdə eyni dərəcədə zəngin deyil və inkişaf üçün

fərqli potensiala malikdir. İqlimin əlverişli olması, torpağın münbitliyi, flora və faunanın zənginliyi, faydalı qazıntıların mövcudluğuna görə dünyanın müxtəlif regionları fərqli potensiala malikdirlər. Bu səbəbdən insanın daha əlverişli təbii mühitdən istifadə etmək istəyi bir sıra hallarda miqrasiya proseslərinə təkan vermişdir və bir çox müharibələrə səbəb olmuşdur.

Ətraf mühitin zənginliyi şəraitində sosialyönümlü siyasətin reallaşdırılması inkişafın davamlılığına və insanların rifahının yüksəlməsinə təsir göstərən əsas amillərdəndir. Müasir dövrdə də insanın təbiətdən asılılığı olduqca böyükdür. Son illərdə baş vermiş qlobal iqlim dəyişmələri və bununla əlaqədar təbii fəlakətlər, insanların üzləşdiyi texnoloji qəzalar və humanitar böhranlar, onlardan doğan itki və məhrumiyyətlər insanın təbiətdən nə dərəcədə asılı olduğunu bir daha sübut edir. Məsələn, Yaponiyada təbii fəlakət nəticəsində atom elektrik stansiyasında baş vermiş qəza bunun bir nümunəsi ola bilər. Hətta texnoloji səviyyəsi və iqtisadi baxımdan çox yüksək inkişaf etmiş bu ölkə təbii fəlakətin və onun fəsadlarının qarşısında acız qalmışdır. Bu səbəbdən insan inkişafın planlaşdırılmasında ətraf mühitin idarə edilməsi sahəsində müasir bilik və bacarığın nəzərə alınması çox vacibdir. Təbii və sosial mühitlər vahid bir sistem təşkil edir və onların siyasi idarə edilməsi də vahid bir sistem kimi həyata keçirilməlidir.

### *7.4. Texnoloji tərəqqinin insan inkişafına təsiri*

Müasir dövrdə bir sıra hallarda təbii ətraf mühitdə baş verən və tədricən genişlənən ekoloji problemlər cəmiyyətin texnoloji yolla inkişafı ilə əlaqələndirilir. Bu problemlərə diqqət ilbəil artmaqdadır. Ekoloji problemlərə, onların baş verməsinin iqtisadi, texnoloji səbəblərinin araşdırılmasına və nəticələrinin aradan qaldırılmasına həsr olunan bir çox beynəlxalq toplantılar, o cümlədən dünya dövlətləri başçılarının iştirakı ilə keçirilən sammitlər də bunu təsdiqləməyə əsas verir. Hətta bir sıra hallarda cəmiyyətin texnoloji inkişafı təbii ətraf mühiti pozduğundan və müxtəlif ekoloji problemlər yaratdığından insan inkişafına mənfi təsir göstərən amil kimi də qələmə verilir.

Qeyd edilən qənaət çox zaman ondan irəli gəlir ki, elmi-texniki tərəqqi və texnoloji inkişaf onun mənfi fəsadları ilə eyniləşdirilir. Bu tamamilə yanlış fikirdir və hər zaman nəzərdə saxlanılmalıdır ki, məhz

elmi-texniki tərəqqi nəticəsində insan inkişafı sahəsində bir çox nailiyyətlər əldə etmişdir. Bu nailiyyətlər arasında yüksək keyfiyyətli təhsil, elmi biliklərin toplanması və yayılması üçün imkanların yaradılmasını, rabitə və nəqliyyatın inkişafı və bunun nəticəsi kimi məlumat alınması və ötürülməsi sahəsindəki uğurları, cəmiyyətin demokratik yolla inkişafı və əhalinin qərar qəbuletmə prosesində geniş iştirakı üçün şəraitin yaradılmasını və s. göstərmək olar. Müasir idarəetmə sistemində elmi-texniki tərəqqiyə əsaslanan elmin, o cümlədən real iqtisadiyyatın əsasını təşkil edən təbiət, texniki və aqrar elmlərin inkişafı və müvafiq sosial siyasətin həyata keçirilməsi, islahatların aparılmasının nəticəsində bir çox ölkələrdə insanların ömrü uzanmış, həyat səviyyəsi yüksəlmişdir. Bu tərəqqi bir çox insan inkişafı siyasəti reallaşdıran ölkələrdə hazırda da müşahidə olunur və həmin ölkələrin vətəndaşlarının həyat səviyyəsinin daha da yüksəlməsinə xidmət edir.

Elmi-texniki tərəqqinin insan həyatına müsbət təsiri faktını insanın orta yaşının artması gerçəkliyi də təsdiqləyə bilər. Yaşama müddəti dedikdə, ilk növbədə, əhalinin müxtəlif dövrlərdə orta yaşı nəzərdə tutulur. Bu ondan irəli gəlir ki, hər bir tarixi kəsimdə və insan cəmiyyətinin inkişafının fərqli mərhələlərində nisbətən uzun ömür sürən fərdlər olmuşdur. Onların bu istiqamətdə əldə etdikləri nailiyyətlər bir rekord, bir istisna kimi qəbul edilməlidir. Lakin bu istisnalar hər hansı bir toplumda ömür uzunluğunu səciyyələndirə bilməz. Orta ömür müddəti ümumi əhalinin orta yaşını səciyyələndirən demoqrafik göstəricidir və eyni zamanda təbabət elminin inkişafından və cəmiyyətdə sosial vəziyyətdən xəbər verir. Təsadüfi deyil ki, cəmiyyətdə orta yaş və gözlənilən ömür müddəti insan inkişafı göstəricisi kimi qəbul edilmişdir və bu prosesin dəyərləndirilməsi zamanı statistikada istifadə olunmaqdadır.

Tədqiqatlar göstərmişdir ki, mis, bürünc və dəmir dövlərində yaşayan insanların yalnız bir faizinin 30–40 yaşına çatmaq ehtimalları olub. Qədim sivilizasiyanın beşiyi hesab edilən Misirdə orta orta yaş həddi 23 ilə yaxın olmuşdur. Bəzi məlumatlara görə, Qədim Roma şəhərində orta yaş 22,5, bütövlükdə Roma İmperiyasında isə 32 il olub. Bu məlumatlar təxminən 25 min qəbirüstü yazının təhlili əsasında müəyyən edilmişdir. Orta əsrlərdə də orta yaş həddi yüksək olmayıb. Məsələn, orta ömür müddəti XVIII əsrdə Hollandiyada 31 il, Almaniyada 22,5 il

olmuşdur. XIX əsrdə Rusiyanın əhalisi orta hesabla 32 il ömür sürmüşdür.

Dərc edilmiş demoqrafik məlumatlardan aydın olur ki, XX əsrin əvvəllərində Avropa ölkələrində orta yaş həddi 41 il təşkil edib. Hazırda, yəni təxminən 100 il sonra bu rəqəm iki dəfəyə yaxın artmışdır. Artıq Avropanın bir çox ölkələrində orta ömür müddəti 80 yaşı keçib. Bu proses bir sıra Asiya ölkələrində də müşahidə edilməkdədir. Məsələn, Yaponiyada, Sinqapurda orta ömür müddəti 84 yaşı ötmüşdür. Qeyd etmək lazımdır ki, 2015-ci il üçün beynəlxalq statistikaya görə, dünyada gözlənilən ömür müddəti orta hesabla 71,5 il təşkil etdiyi halda, Azərbaycan Respublikasında bu rəqəm 73,8 ilə bərabərdir. Elmi məlumatlara əsasən, insanın yaşama potensialı 150 il və ondan çoxdur. Təbabətin inkişafı və əhalinin sosial durumunun yaxşılaşması gələcəkdə də ömür müddətinin artacağını proqnozlaşdırmağa əsas verir. Bu onu göstərir ki, insan inkişafına müsbət təsir göstərən elmi-texniki tərəqqi onun arzuolunmaz fəsadları ilə eyniləşdirilə bilməz. Lakin bu fəsadların baş verməsi və insanın sağlamlığı və uzunömürlüyü üçün təhlükə yaradan ekoloji problemlərin mövcudluğu arzuolunmazdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, elmi-texniki tərəqqinin mənfi fəsadı olan ətraf mühitin çirklənməsi və pozulması insanın sağlamlıq göstəricilərinə və müvafiq olaraq insan inkişafı proseslərinə mənfi təsir göstərir. Bu, həm çirklənmiş mühitin bilavasitə insanların səhhətinə təsiri nəticəsində, həm də torpaqların korlanması və iqlim dəyişmələrinin fəsadları kimi kənd təsərrüfatının istehsal potensialının azalması və istehsal imkanlarının məhdudlaşması, ərzaq məhsullarının keyfiyyətinin aşağı düşməsi nəticəsində baş verir. Ətraf mühitin çirklənməsi və pozulması, eyni zamanda biomüxtəlifliyə, yəni bitki və heyvan növlərinin mühafizəsinə mənfi təsir göstərir. Belə mənfi təsirlər və qloballaşma tendensiyaları xalq seleksiyası nəticəsində yaradılmış və çox qiymətli ənənəvi bitki növlərinin və heyvan cinslərinin yox olması təhlükəsini də yaradır. Bu isə həyat üçün müstəsna əhəmiyyət daşıyan biomüxtəlifliyin azalmasının bir növüdür. Qloballaşma şəraitində belə tendensiyalar sürətlə artmaqdadır.

Bu proseslərin qarşısını almaq və ətraf mühiti müasir səviyyədə idarə etmək üçün insan inkişafına təsir göstərən ətraf mühit amillərinin təsirinin və ümumiyyətlə, ətraf mühitin keyfiyyətinin qiymətləndirilməsi

olduqca vacibdir. Bir çox, xüsusən inkişaf etmiş ölkələrdə, bu siyasət müvəffəqiyyətlə həyata keçirilir. Bu prosesi qlobal miqyasda təmin etmək üçün ətraf mühitin qiymətləndirilməsinə və idarə edilməsinə yönəldilmiş çoxtərəfli beynəlxalq sazişlər bağlanır və konvensiyalar qəbul edilir. Bu konvensiyaların və digər beynəlxalq sazişlərin yerinə yetirilməsi bilavasitə davamlı inkişafa xidmət edir.

### *7.5. Ətraf mühitin idarə edilməsinə tarixi baxış*

Ətraf mühitin optimal idarə edilməsi, o cümlədən mühafizəsi və səmərəli istifadəsinin planlaşdırılması üçün ilk növbədə, onun keyfiyyəti haqqında dolğun məlumatların toplanması və daim müşahidəsi (monitorinqi) vacib şərtdir. Ətraf təbii mühitin keyfiyyətinin qiymətləndirilməsi və insan fəaliyyətinin torpaq, su, hava və canlılara təsiri insanları hər zaman düşündürüb. Eyni zamanda canlılarla ətraf mühitin qarşılıqlı təsirlərinə aid biliklərin toplanması və gələcək nəsillərə ötürülməsi insan inkişafı üçün olduqca əhəmiyyətlidir. Bu məsələlər tarixən gündəmdə olub. Buna bir misal olaraq, Nuh haqqında rəvayəti xatırlamaq kifayətdir. Yer səthini su basdığı, müasir terminologiyadan istifadə edilərsə, qlobal ekoloji böhran baş verən zaman, Nuh bütün canlıların növlərini öz gəmisinə toplayıb və bioloji müxtəlifliyi bu yol ilə xilas edib.

Məlum olduğu kimi, Nuh öz gəmisində yalnız faydalı bitki və heyvanları deyil, insana heç bir fayda gətirməyən, hətta bitki və heyvanlar üçün zərərli olan, insan üçün təhlükə törədə bilən müxtəlif xəstəlik daşıyıcılarını və törədicilərini də toplamışdı. Bu onu göstərir ki, artıq Nuh rəvayəti yarandığı zaman təbii ətraf mühitin qorunmasının vacibliyi dərk olunur və ətraf təbii mühit vahid bir sistem kimi qəbul edilirdi. Hər bir vahid sistemin qorunması və səmərəli işləməsi üçün onun bütün elementlərinin mövcudluğu vacibdir. Bu səbəbdən rəvayətdə faydalılığından asılı olmayaraq bütün bitki və heyvan növlərinin, ümumiyyətlə, bütün canlıların nümayəndələrinin qorunması təbiətə sistemli yanaşmanın təzahürüdür.

Bütün canlıların nümayəndələrini öz üzərinə götürə bilən gəmini hətta müasir dövrdə də təsəvvür etmək çətindir. İlk növbədə, bütün canlıların, onların yeminin yerləşdirilməsi üçün bu gəminin tutumu çox yüksək olmalı idi. İkinci daha əhəmiyyətli cəhət ondadır ki, müxtəlif

növ xilas edilәsi heyvan vә bitkilәrin yaşadığı mühitә tәlәblәri fәrqlidir. Bәzi canlılar soyuq, digәrlәri isә isti şәrait tәlәb edirlәr. Rütubәtә dә tәlәblәr tam fәrqli ola bilir – bәzilәri rütubәt, digәrlәri isә quraqlıq vә hәtta sәhra şәraitini sevir. Demәli, Nuhun gәmisi çox böyük tutumlu olmaqla yanaşı, onun üzәrindә iqlimi tәnzim edilәn xüsusi otaqlar – “iqlim kameraların” yerlәşdirilmәsi, bunun üçün avtonom şәraitindә enerji istehsal edәn qurğuların mövcudluğu vacib şәrtdi. Әks halda, gәminin daxilindә süni iqlim şәraiti ilә tәmin edilmiş xüsusi mәkanlar yaratmadan biomüxtәlifliyi xilas etmәk mümkünsüz idi. Müasir dövrdә belә gәminin yaradılması vә istismarı iqtisadi vә texnoloji baxımdan problemlidir. Bir neçә min il öncә belә bir gәminin mövcud olması, hәmin gәmidә bütün canlıların nümayәndәlәri üçün zәruri yaşam mühitinin yaradılması ehtimalı da olduqca azdır. Çox ehtimal ki, bәhs olunan rәvayәt problemin ciddiliyini insanlara çatdırmaq vә biomüxtәlifliyin qorunmasının әhәmiyyәtinә diqqәt çәkmәk üçün bir vasitә idi.

Nuh rәvayәti dünyanın bütün әsas dinlәrinin müqәddәs kitablarında, o cümlәdәn «Quran»da, «İncil» vә «Tövrat»da tәqdim olunmuşdur. Bu rәvayәti әks etdirәn vә beş min ildәn artıq tarixi olan daş kitabә isә Yaxın Şәrqdә, müasir İraq әrazisindә tapılıb vә hazırda Londonda – Britaniya muzeyinin ekspozisiyasında nümayiş etdirilir. Bu o demәkdir ki, min illәr bundan qabaq (әn azı beş min il bundan qabaq) insanlar әtraf mühitin planlaşdırılması (әtraf mühiti vahid bir sistem kimi qәbul etmәk) vә idarә edilmәsi (***biomüxtәlifliyin*** saxlanılması üçün ümumi mühafizә tәdbirlәri vә tәhlükә altında olan növlәrin xüsusi şәraitdә qorunması) sahәsindә bilik vә bacarığa malik imişlәr.

Qeyd etmәk lazımdır ki, hazırda da biomüxtәlifliyin qorunması üçün çox zaman eyni prinsiplәr istifadә olunur vә yox olmaq tәhlükәsi ilә üzlәşәn növlәr xüsusi mühafizә olunan әrazilәrdә, milli parklarda, qoruqlarda, yasaqlıqlarda, yaxud digәr qorunma statusu olan mәskәnlәrdә mühafizә olunur. Keçmişlә müqayisәdә biomüxtәlifliyin qorunmasında müşahidә olunan bir fәrq mövcuddur vә bu fәrq texnoloji imkanların artması ilә әlaqәdardır. Mәsәlәn, hazırda bitki vә heyvan toxumlarını vә hüceyrәlәrini qorumaq üçün «gen bankları» adlanan xüsusi qurumlar yaradılıb vә onlar müasir avadanlıqlarla tәchiz olunublar. ***Biomüxtәlifliyin*** qorunmasına sәrf olunan vәsaitlәrin sәmәrәli istifadәsini tәmin etmәk üçün belә «gen bankları»nı tәbiәtin bu mәqsәdlәrә maksimum

xidmət edə bilən guşələrində də yerləşdirirlər. Buna misal olaraq, Norveçin şimalında yaradılmış xüsusi biomüxtəlifliyin, onların toxumlarının və hüceyrələrinin qorunma məkanını göstərmək olar. Buzlaqlarda yerləşdiyindən bu qorunma məkanının soyuducularının istismarı üçün əlavə enerji sərf edilmir və bu proses uzun müddət həyata keçirilə bilər.

Nuh rəvayəti ətraf mühitin məsuliyyətli idarə edilməsinin gözəl bir nümunəsidir. Misal kimi qədim mənbələrdə olan digər məlumatlar, müxtəlif millətlərə aid qədim və orta əsr əlyazmalarında, folklor nümunələrində ətraf mühitin qorunması ilə bağlı hekayətlər göstərilə bilər. Ətraf mühitin qorunmasına və səmərəli idarə edilməsinə aid dünya əhəmiyyətli əlyazmalar dünya muzey və kitabxanalarında, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda, şəxsi kolleksiyalarda saxlanır.

Təqdim olunmuş məlumatlar göstərir ki, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə tarixən cəmiyyətin tərəqqisinin vacib elementi olan davamlı inkişafın təzahürüdür. Qədim dövrlərdən başlayaraq və ən yeni tarixi əhatə etməklə ətraf təbii mühit ilə əlaqədar davamlı insan inkişafının təməl prinsipləri kimi aşağıdakılar qeyd edilmişdir:

– Ətraf təbii mühitin qorunması və biomüxtəlifliyin mühafizəsi tarixən ən aktual və qlobal problem kimi qəbul edilib. Bəşəriyyət insan cəmiyyətinin təkamülünün ilk illərindən başlayaraq və sivilizasiyanın hər mərhələsində ətraf təbii mühitin optimal idarə edilməsi istiqamətində biliklərə malik olmağa çalışıb. Bu biliklərin toplanması, cəmlənməsi, gələcək nəsillərə ötürülməsi və istifadəsi istiqamətində hər zaman fəaliyyət həyata keçirilib. Bu problem hazırda da aktualdır və gələcəkdə də aktual olacaq.

– Təbiət vahid bir sistemdir və onun optimal fəaliyyəti bu sistemin bütün elementlərinin qorunması üçün müvafiq şərait yaradılmasını tələb edir. Ətraf mühitin idarə edilməsi tarixən bu prinsipə əsaslanıb. İdeoloji baxımdan bu prinsip heç zaman dəyişməyib və qədim vaxtlardan başlayaraq hazırkı dövrə qədər davam etdirilməkdədir. Bu istiqamətdə baş vermiş dəyişikliklər, əsasən, elmi və texnoloji tərəqqi, bu sahədə qazanılmış nailiyyətlərin təbiətin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə yönəldilməsi ilə əlaqəlidir. Başqa sözlə, ətraf mühitin insan potensialına əsaslanan

inkişaf naminə idarə edilməsi prosesində zamanla dəyişən, əsasən, bu məqsədlərə xidmət edən texnologiyaların təkmilləşməsidir.

– Təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ətraf mühitin idarə edilməsinin əsas prinsiplərindəndir. Buna misal olaraq, israfçılığın yolverilməzliyinə və hər bir faydalı qazıntının və ya bitki və heyvan mənşəli xammalın səmərəli istifadəsinə aid məlumatları göstərmək olar. Məsələn, dünyanın müxtəlif ölkələrində qorunan əlyazmalarda dərman əhəmiyyətli bitki, heyvan və mineralların müxtəlif məqsədlərlə istifadəsinə aid tövsiyələr mövcuddur. Tarixən toplanmış milli biliklər həmin təbii ehtiyatlardan əsas məqsəd üçün istifadə etdikdən sonra onun qalıqlarından faydalanmanın ən səmərəli yollarını da göstərir.

– Qədim dövrlərdən ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadənin təşkilində geniş kütlələrin bu problemlər və onların həlli yolları haqqında məlumatlandırılmasına böyük əhəmiyyət verilirdi. Bu məqsədlər üçün dini mənbələrlə yanaşı, folklor nümunələri də istifadə edilirdi.

Bir daha qeyd etmək lazımdır ki, təbii ehtiyatlardan səmərəli istifadə insan inkişafının ən vacib göstəricilərindəndir. Bu istiqamətdə həm ənənəvi, tarixən toplanmış təcrübənin, həm də müasir elmin və texnologiyaların ən son nailiyyətlərinin əhəmiyyəti olduqca böyükdür. Tullantıların minimuma endirilməsi, qaçılmaz əmələ gələn tullantıların isə idarə edilməsi, onların təkrar istifadəsi də bu istiqamətə aiddir.

Ətraf mühitin idarə edilməsi üçün onun vəziyyəti haqqında məlumatların toplanması, keyfiyyətinin qiymətləndirilməsi vacib şərtlərdən biridir. Bu biliklər ekoloji siyasətin planlaşdırılması və idarə edilməsi üçün zəruridir. Eyni zamanda göstərilən məlumatlar hər hansı yeni iqtisadi layihənin ətraf mühitə ola biləcək təsirinin qiymətləndirilməsinə və bu qiymətləndirmənin nəticəsindən asılı olaraq onun həyata keçirilməsinin zəruriyyəti barədə qərar qəbul edilməsinə də aiddir.

### *7.6. Təbii mühitə təsirlərin qiymətləndirilməsi*

Cəmiyyətin inkişafının müasir mərhələsində ətraf mühitə insanın hər hansı bir iqtisadi fəaliyyətinin təsirinin qiymətləndirilməsi təşəb-

büsü və buna aid qanun ilk dəfə ABŞ-da 1960-cı illərin sonunda qəbul edilmişdir. Qanunun qəbul edilməsi insan fəaliyyətinin ətraf təbii mühitə getdikcə daha çox təsir göstərməsi və bu təsirin mənfi fəsadlarının təbii yolla, öz-özünə aradan qalxması ehtimalının azalmasından irəli gəlirdi. ABŞ-da qəbul edilmiş həmin qanuna görə, hər hansı bir orta və ya iri miqyaslı iqtisadi layihəni həyata keçirmək üçün müvafiq razılaşmaların əldə edilməsi məqsədilə «Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi» (ƏMTQ) adlı sənəd hazırlanmalı idi.




***Şəkil 7.23.*** *İqtisadi fəaliyyətin ətraf mühitə təsirlərinin qiymətləndirilməsi*

Bu hüquqi aktın gündəmə gəlməsi bir tərəfdən ictimaiyyətin təzyiqləri, digər tərəfdən isə müasir idarəetmədə sosial məsuliyyətli fəaliyyətin ön plana çıxması ilə bağlı idi. Nəticədə ƏMTQ sənədində konkret bir layihənin ətraf mühitə göstərə biləcəyi təsirlər və mümkün olan mənfi fəsadların aradan qaldırılması üçün nəzərdə tutulan tədbirlər təsvir edilirdi. Bu sənəd layihənin maliyyələşdirilməsi üçün də vacibdir. ƏMTQ olmadığı və yaxud həmin layihənin ətraf mühitə təsiri qəbulolunmaz səviyyədə olduğu hallarda banklar və yaxud digər maliyyə qurumları təklif edilən layihənin təsdiqindən və maliyyələşdirilməsindən imtina edirlər.

Həmin qanuna görə, dövlətin rəsmi qurumlarının razılığı, maliyyə təşkilatlarının müsbət qərarı ilə yanaşı, yeni iqtisadi və ya sosial layihə barəsində qərarın qəbul edilməsində ictimai rəy də əhəmiyyətlidir. Bu rəyin formalaşması üçün ictimai müzakirələr keçirilir. Əgər ictimai mü-

zakirələrin və ictimaiyyətin qənaətinə görə, planlaşdırılan iqtisadi və yaxud sosial layihənin ətraf mühitə mənfi təsirinin nəticələrini aradan qaldırmaq üçün imkanlar yoxdursa və yaxud onun səmərəliliyi ehtimalı azdırsa, layihə təsdiq edilmir. İctimaiyyətin rəyi nəzərə alınır, milli və yaxud yerli idarəetmə təşkilatları, banklar və yaxud başqa maliyyə qurumları layihənin həyata keçirilməsinə icazə vermir və vəsait ayırmır. Bu, müasir dövlət idarəetmə prosesində vətəndaş cəmiyyətinin əhəmiyyətli rolunu bir daha təsdiq edir.

### *7.7. Sosial mühitə təsirlərin qiymətləndirilməsi*

İnsan inkişafı üçün əhəmiyyətli olan ƏMTQ müasir dövrdə ətraf təbii mühitə təsirlərin qiymətləndirilməsi üçün tətbiq edilmiş ilk hüquqi akt idi. XX əsrin 90-cı illərində ətraf mühitə təsirlərin qiymətləndirilməsinə tələblər sərtləşdi və o zamana qədər tətbiq edilən qanunun təkmilləşməsi zərurəti yarandı. Bununla əlaqədar ƏMTQ aid hüquqi akt digəri ilə əvəz edildi. Nəticədə sənəd daha da təkmilləşdirildi və Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) adlandırıldı. Göründüyü kimi, artıq layihənin həyata keçirilməsi üçün onun ətraf təbii mühitə mənfi təsirlərinin olmaması və yaxud bu təsirlərin aradan qaldırılmasının mümkünlüyü yetərli deyil. Təklif edilən iqtisadi və yaxud infrastruktur layihəsi, məsələn, hər hansı bir müəssisənin yaradılması və yaxud yeni infrastruktur xətlərinin salınması təbii ətraf mühitə mənfi təsir göstərməməklə yanaşı, eyni zamanda sosial mühiti də yaxşılaşdırmalıdır.

Qeyd etmək lazımdır ki, son illərdə dünyada həyata keçirilən bütün miqyaslı layihələr üçün belə sənədlər milli və beynəlxalq təşkilatlar tərəfindən hazırlanır. Tətbiq edilən bütün iqtisadi layihələrin həyata keçirilməsindən əvvəl ətraf təbii və sosial mühitə təsirlərin qiymətləndirilmələrinə aid tədqiqatlar aparılır və müvafiq sənədlər, yəni ƏMTQ və ƏMSSTQ işlənir.

İqtisadi fəaliyyətin ətraf mühitə təsirinin qiymətləndirilməsinə tələbatlar daim təkmilləşməkdədir. Beynəlxalq inkişaf və maliyyə təşkilatları, o cümlədən Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı hazırda yeni bir yanaşmanın və daha təkmilləşmiş ekoloji və sosial təhlükəsizliyə aid sənədin hazırlanmasının vacibliyini müzakirə edirlər.

Beynəlxalq maliyyə və inkişaf təşkilatları tərəfindən təklif edilən yeni sənəd Davamlı İnkişafa Təsirin Qiymətləndirilməsi (DİTQ) adlandırılır. ƏMTQ və ƏMSSTQ-nin bu sənədlə əvəzolunma ehtimalı çox yüksəkdir. Bu yolla inkişaf proseslərinə təsirlərin qiymətləndirilməsi üçün bir sıra yeni göstəricilərin, o cümlədən insan inkişafı əmsallarının, bərpa olunan və bərpa olunmayan təbii ehtiyatlarının idarəedilməsi və digər davamlı inkişaf göstəricilərinin istifadəsi də təklif edilməkdədir. Qeyd edilməlidir ki, BMT-nin təklifi ilə 2015-ci ildən sonrakı dövrdə qlobal prioritet kimi davamlı inkişaf müəyyən edilmişdir.

### *7.8. İnsan inkişafının ekoloji indikatorları*

Beynəlxalq statistikada insan inkişafı üçün əhəmiyyətli olan bir sıra ekoloji göstərici məlumdur. Bu göstəricilərin təhlili hər hansı bir qurumda dövlət idarəçiliyində insan inkişafının təmin edilməsinə yönəldilmiş fəaliyyətin səmərəliliyini əks etdirir. Onlardan biri xüsusi mühafizə olunan təbii ərazilərin, o cümlədən qoruqların, yasaqlıqların, milli parkların və digər müvafiq statusa malik ərazilər və onların ölkənin ümumi ərazisindəki payıdır. Təbii qorunan ərazilərin mövcudluğu, onların ölkə ərazisində payının yüksək olması ətraf mühitin keyfiyyətinə müsbət təsir göstərir, biomüxtəlifliyin mühafizəsi üçün böyük əhəmiyyət daşıyır, insanların sağlamlıq və uzunömürlüyünün təminatçısı kimi çıxış edir. Eyni zamanda qorunan ərazilər insan inkişafının təminatında mühüm rol oynayır, yoxsulluq ilə mübarizə üçün olduqca əhəmiyyətlidir. Yeni qorunan ərazilərin yaradılması, mövcud olan qoruqların, milli parkların, yasaqlıqların sahələrinin genişləndirilməsi Dünya Sammitində qəbul edilmiş Minilliyin Məqsədlərinin yerinə yetirilməsi kimi qəbul edilməkdədir. Müasir baxışlara görə, qorunan təbiət əraziləri ətraf mühitin mühafizəsinə xidmət etməklə yanaşı, eyni zamanda insan inkişafı prinsipinə arxalanan iqtisadi fəaliyyət, əhalinin məşğulluğu üçün vacib amillərdəndir. Bu xüsusiyyətlər 2015-ci ildən sonra Minilliyin İnkişaf Məqsədlərinə həsr olunmuş sənəddə də müzakirə edilməkdədir.

Məsələn, xüsusi qorunan təbii sahələr Gürcüstanda ölkənin 3,9 faizini, Ukraynada 3,6 faizini, Yunanıstanda isə 5,9 faizini təşkil edir. Ən yüksək göstəricilərindən biri isə Danimarkada qeydə alınmışdır. Bu ölkənin ümumi sahəsinin 31,8 faizini xüsusi qorunan ərazilər təşkil edir.

*Cədvəl 7.17. Müxtəlif ölkələrdə qorunan ərazilər ölkə ərazisinin payı kimi, %*

| Ölkə | 1990 | 2000 | 2012 |
|---|---|---|---|
| Ukrayna | 1,98 | 3,59 | 3,60 |
| Gürcüstan | 2,55 | 3,39 | 3,39 |
| Türkmənistan | 2,99 | 2,99 | 2,99 |
| Rusiya Federasiyası | 4,78 | 9,09 | 9,19 |
| Türkiyə | 1,78 | 1,94 | 1,94 |
| Yunanıstan | 3,32 | 5,01 | 5,90 |
| ABŞ | 13,05 | 13,49 | 13,66 |
| **Azərbaycan** | **6,20** | **6,75** | **10,1 *** |

** - 2014-cü il*

İnsan inkişafının səviyyəsini səciyyələndirən digər göstəricilər enerjinin istehsalı və istehlakı ilə əlaqədardır. Bunlara adambaşına enerjinin istehsalı və istehlakına aid ümumi məlumatlarla yanaşı, bir sıra digər göstəricilər aiddir. Onlardan biri və çox əhəmiyyətlisi bərpa olunan enerjinin istehsal olunan ümumi enerjidə payıdır. Bərpa olunan enerji dedikdə, həm ənənəvi istifadə olunan enerji, məsələn, odun və eyni zamanda, günəş, külək, yeraltı termal sular, dəniz və okean sularının səviyyəsinin ritmik dəyişmələri (qabarması) hesabına alınan enerji nəzərdə tutulur. Bərpa olunan enerji mənbələrinə məişət və kənd təsərrüfatı tullantılarının xüsusi şəraitdə çürüməsi nəticəsində bioqaz və bitkilərdən alınan spirt və bitki yağları əsaslı avtomobil yanacaqları da aiddir. Xüsusi şəraitdə saxlandıqdan və emal edildikdən sonra, yaxud ***biokonversiya*** prosesi nəticəsində tullantılardan alınan qaz məişət və istehsalatda istifadə edilən adi metan qazından çox az fərqlənir. Dünyada bioqazın alınması getdikcə genişlənməkdədir. Bioqazın istehsalı, eyni zamanda məişət və istehsalat tullantılarının miqdarını azaldır, onların zərərsizləşdirilməsinə və səmərəli istifadəsinə xidmət edir. Dünyada bioqaz almaq üçün bir sıra ölkələrdə xüsusi proqramlar yerinə yetirilməkdədir. Bu proqramlar meşələrin çox olduğu ərazilər üçün xüsusi əhəmiyyət daşıyır. Tullantılardan, o cümlədən mal və quş peyinindən bioqazın alınması həmin yerlərdə meşənin qırılmasının qarşısını alır və onların qorunmasına xidmət edir.




***Şəkil 7.24.*** *Müxtəlif ölkələrdə istehlak olunan enerjidə bərpa olunan enerjinin payı, %*

*Mənbə: Human Development Report, UNDP, New York, 2015.*

Müxtəlif ölkələrdə bərpa olunan enerjidən istifadə səviyyəsi fərqlidir. BMT-nin 2015-ci ildə dərc etdiyi məlumatlara əsasən, bərpa olunan mənbələrdən alınan enerji dünyanın ümumi enerji balansında 18,6 faiz təşkil edir. Lakin bir sıra ölkələrdə, o cümlədən inkişafda yüksək nəticələr əldə etmiş və bərpa olunan enerji mənbələrinə malik olan ölkələrdə bu göstərici daha yüksəkdir (şəkil 7.24.). Şəkildən göründüyü kimi, bəzi ölkələrdə bərpa olunan enerji mənbələrinin payı nisbətən yüksəkdir. Bu ondan irəli gəlir ki, həmən ölkələrdə insan inkişafının səviyyəsi yüksək olmaqla yanaşı, təbii enerji mənbələri də daha zəngindir.

Bir daha qeyd edilməlidir ki, inkişafda yüksək nəticələrə nail olmuş ölkələrdə istehlak edilən enerjidə bərpa olunan mənbələrin payının əhəmiyyətli dərəcədə yüksək olması onların XXI əsrin 2015-ci ildən sonrakı dövrün ən vacib problemi olan və 2025-ci ilin əsas hədəfi kimi seçilən davamlı inkişafın müvəffəqiyyətli planlaşdırılması və səmərəli idarəedilməsi baxımından vacibdir.

Şəkil 7.24.-dən göründüyü kimi, zəngin neft və qaz yataqlarına malik olan və bu enerji daşıyıcılarını ixrac edən Norveçdə ənənəvi və bərpa olunan enerjidən geniş istifadə edilməsinə xüsusi diqqət yetirilir. Ətraf

mühitə minimal dərəcədə mənfi təsir göstərən və təbii sərvətlərin qənaətlə istifadəsini təmin edən bu siyasət Norveçdə 20 ildən çoxdur ki, ardıcıllıqla həyata keçirilir. Bu müddət ərzində ölkədə bərpa olunan enerjinin istehsalı və istehlakı bir neçə dəfə artmışdır. Norveçin bir çox yaşayış məntəqələri okean və dəniz sahillərində yerləşir. Ona görə Norveçdə dəniz və okean qabarmalarının enerjisindən geniş istifadə edilir və bu sahədə bir sıra yeni texnologiyalar yaradılmışdır və tətbiq edilir. Bu nailiyyətlərin əldə edilməsində ölkədə insan inkişafına yönəldilmiş uğurlu siyasətin rolu böyükdür.

Bərpa olunan mənbələrdən alınan enerjinin istehsalı və istehlakında nəzərəçarpan artım bir sıra ölkələrdə, o cümlədən ABŞ, Braziliya, Yaponiya və digərlərində də müşahidə olunmaqdadır. Son illərdə neft və neft məhsullarının qiymətlərinin yüksək olması, atom elektrik stansiyalarında baş verən qəzalar təbii mənşəli bərpa olunan yeni enerji mənbələrinin axtarılmasına diqqəti xeyli artırmışdır. Bəzi ölkələrdə müxtəlif nəqliyyat vasitələri üçün yanacaq kimi istifadə olunan neft məhsulları tam, ya qismən bitkilərdən alınan spirt və bitki yağları ilə əvəz edilir. Bitki mənşəli enerji daşıyıcılarına ***bioyanacaq*** deyirlər. Qeyd etmək lazımdır ki, bioyanacaqla işləyən nəqliyyat vasitələrinin ətraf mühitə təsiri də çox azdır. Bu səbəbdən artıq bir sıra inkişaf etmiş ölkələrdə şəhərdaxili nəqliyyatın bir hissəsi tamamilə bioyanacağa keçirilmişdir. Bu təşəbbüs, eyni zamanda ətraf mühitin atmosferinin qorunmasına xidmət edir. Qeyd edildiyi kimi, hazırda bioyanacağın avtonəqliyyat və kənd təsərrüfatı texnikası üçün ən geniş istifadəsi Braziliyada müşahidə edilir.

Son zamanlar enerjinin qənaətli istifadəsini təmin edən müasir texnologiya və qurğuların yaradılmasına və istifadəsinə diqqət artmaqdadır. Buna misal olaraq, ən son texnoloji nailiyyət kimi hibrid yanacaqdan, yəni adi benzin və dizel ilə yanaşı, spirt və bitki yağlarından və elektrik enerjisindən istifadə edən avtomobilləri göstərmək olar. Bu avtomobillərin mühərrikləri çox səmərəli işləyir. Həmin mühərriklərin istifadəsi bərpa olunmayan enerji daşıyıcılarının qənaətli istifadəsini təmin edir. Məişətdə də enerjinin qənaətli istifadəsi üçün imkanlar genişdir. Məsələn, hazırda satışda olan müasir elektrik lampaları, sənaye və məişət avadanlıqları eyni səmərəni versələr də, ənənəvi cihazlardan daha az enerji sərf edirlər. Hazırda qənaətlə işləyən sənaye və məişət cihazlarının istifadəsi də genişlənməkdədir.




***Şəkil 7.25.*** *Ətraf mühitin keyfiyyətinin insan inkişafı naminə idarəedilməsinə kompleks yanaşma*

Enerjinin nə dərəcədə səmərəli istifadə edilməsini səciyyələndirmək üçün beynəlxalq təşkilatlar digər bir göstəricidən də istifadə edirlər. Bu ikinci bölmədə təqdim edilmiş və hər bir enerji vahidinin istifadəsi nəticəsində istehsal olunan məhsulun dəyəridir. Göstəricini hesablayarkən enerji vahidi kimi 1 kq neftdə olan enerji götürülür. Məhsulun və ya xidmətin dəyəri isə ABŞ dolları ilə hesablanır. Ölkələr arasında bu göstərici kəskin surətdə fərqlənir. Azərbaycanda enerjinin istifadəsinin iqtisadi səmərəliliyi daim artmaqdadır. Bu artımın əsasında ölkədə həyata keçirilən regionların inkişafı proqramları, ümumi iqtisadiyyatda qeyri-neft sektorunun payının artırılmasına yönəldilmiş tədbirlər və biliyə əsaslanan yeni texnoloji nailiyyətlərin tətbiqi durur.

İnsan inkişafı naminə ətraf mühitin idarə edilməsi çox zaman, əsasən, təbii ətraf mühitin mühafizəsi kimi qəbul edilir. Əslində insanın inkişafı üçün əlverişli mühitin yaradılması bu problemə kompleks şəkildə yanaşmanı tələb edir (şəkil 7.25).

İnsan inkişafının vacib şərtlərindən olan ətraf mühitin qorunması və səmərəli istifadəsi sahəsində bir sıra beynəlxalq razılaşmalar və konvensiyalar mövcuddur ki, onların hamısı insan potensialına əsaslanan davamlı inkişaf üçün olduqca əhəmiyyətlidir.

## *7.9. Xərclərin strukturu insan inkişafının göstəricisi kimi*

Beynəlxalq statistikada insan inkişafı ilə əlaqədar vəziyyəti qiymətləndirmək məqsədilə xüsusi bir göstəricidən də istifadə olunur. Bu göstərici hər hansı bir fərdin və yaxud ev təsərrüfatının xərclərinin strukturu ilə bağlıdır. Hər iki halda, yəni bir fərd, yaxud bir ev təsərrüfatının, o cümlədən ailənin, ümumi büdcəsindən qida məhsullarının alınmasına ayrılan xərclər əsas götürülür. Hesab edilir ki, bu istiqamətə həddən artıq vəsaitin xərclənməsi insan inkişafı üçün önəmli olan digər sahələrə ayrılan vəsaitləri məcburən azaldır. Belə şərait hər hansı bir fərdin şəxsi biliklərini, dünyagörüşünü artırmaq imkanlarını məhdudlaşdırır və insan potensialının inkişafına mənfi təsir göstərir.

Bunu nəzərə alaraq, milli və beynəlxalq səviyyələrdə ümumi xərclər arasında qida məhsullarının alınmasına yönəldilən xərclərin dəyişmə dinamikası təhlil olunur. Göstərilən yanaşmanın əsasında ***Engel qanunu*** durur. Bu yolla ölkələrin insan potensialına əsaslanan inkişaf imkanları, sözügedən istiqamətdə gerçəkləşdirilən idarəetmə prosesləri dəyərləndirilir. Ehtiyac olduğu halda, beynəlxalq təşkilatlar bu göstəricini təkmilləşdirmək, hər hansı bir ölkəyə dəstək vermək məqsədilə onlara maddi və yaxud texniki yardım ayırır. Bu istiqamətdə fəaliyyətin həyata keçirilməsi BMT-nin təşəbbüsü ilə Dünya Sammitində 2000-ci ildə qəbul edilmiş və 2015-ci ilə qədər müddəti əhatə edən Minilliyin İnkişaf Məqsədləri adlanan sənədində nəzərdə tutulmuş idi. Bir sıra nailiyyətlərin əldə edilməsinə baxmayaraq, hazırda yoxsulluq və aclığın tam aradan qaldırılmasına nail olunmamışdır. Bu səbəbdən 2015-ci ildə davamlı inkişafa həsr olunmuş Dünya Sammitində yoxsulluq və aclıq ilə mübarizə yaxın 15 il üçün hədəflənmiş ən əsas qlobal problemlər sırasındadır. Bu məqsədə nail olmaq və qida məhsullarının alınması üçün sərf edilən vəsaitlərin azalması insan inkişafına yönəldilmiş digər xərclərin, o cümlədən insan inkişafına xidmət edən xərclərin payının artması deməkdir. İnsan inkişafı baxımından bilik və sağlamlıq üçün xərclərin payının artması insan inkişafına yönəldilmiş siyasətin həyata keçirilməsindən xəbər verir.

Beynəlxalq statistikaya görə, müxtəlif ölkələrdə qidalanmaya xərclənən vəsaitlər ailə və ya ev təsərrüfatlarının ümumi gəlirinin müxtəlif

payını təşkil edir. BMT-nin məlumatlarına əsasən, bəzi ölkələrdə bu rəqəm 90 faizdən çox olur və hətta bu halda da fizioloji baxımdan normal qidalanmanı təmin etmir. Əksinə, ən yüksək inkişaf etmiş, əhalisinin gəlirləri çox, qida bazarı isə zəngin olan ölkələrdə bu rəqəm 17–30 faiz təşkil edir. Azərbaycan Respublikasının sürətli inkişafı, əhalinin gəlirlərinin artması göstərir ki, bu istiqamətdədə yeni nailiyyətlər əldə olunacaq. Bu isə insan inkişafı sahəsində yeni zirvələrin fəthini vəd edir.

## *7.10. Özümüzü sınayırıq:*

### 7.10.1. Özümüzü sınayırıq suallar:

1. Texnoloji tərəqqi təbii ətraf mühitə və insan inkişafına necə təsir edir?
2. Ətraf mühitin optimal idarə edilməsinin tarixinə aid hansı baxışlar mövcuddur?
3. Ətraf təbii mühitə təsirlərin qiymətləndirilməsi necə aparılır?
4. İqtisadi fəaliyyətin sosial sahəyə təsirləri necə qiymətləndirilir?
5. Xərclərin strukturu ilə insan inkişafı arasında hansı əlaqə mövcuddur?

### 7.10.2. Özümüzü sınayırıq cavablar:

**1. Texnoloji tərəqqi təbii ətraf mühitə və insan inkişafına necə təsir edir?**

Bəzi hallarda texnoloji inkişaf bu prosesin mənfi fəsadları ilə eyniləşdirilir. Lakin nəzərə almaq lazımdır ki, məhz elmi-texniki tərəqqinin nəticəsində insan bir çox nailiyyətlər əldə etmişdir. Elmi biliklərin toplanması və tətbiqi, rabitə və nəqliyyatın inkişafı, məlumat alınması və ötürülməsi sahələrindəki uğurlar, cəmiyyətin demokratik yolla inkişafı və əhalinin qərar qəbuletmə prosesində geniş iştirakı üçün şəraitin yaradılması bu nailiyyətlərə aiddir. Elmi-texniki tərəqqinin insan həyatına müsbət təsirinin misalı kimi insanın orta ömür müddətinin son yüz ildə az qala 2 dəfə artmasını da göstərmək olar.

Əhalinin sosial durumunun il-ildən yaxşılaşmasının bir səbəbi də idarəetmə proseslərində müasir elmi yanaşmaların tətbiqidir. Bu isə gə-

ləcəkdə biliklərin artması və tətbiqi nəticəsində ömür müddətinin artacağını proqnozlaşdırmağa əsas verir. Bu onu göstərir ki, insan inkişafına müsbət təsir göstərən elmi-texniki tərəqqi onun arzuolunmaz fəsadları ilə eyniləşdirilə bilməz. Lakin bu fəsadların baş verməsi, ekoloji problemlərin yaranması arzuolunmazdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, elmi-texniki tərəqqinin mənfi fəsadı olan ətraf mühitin çirklənməsi və pozulması insan inkişafı proseslərinə mənfi təsir göstərir. Bu, torpaqların korlanması və iqlim dəyişmələrinin fəsadları kimi kənd təsərrüfatının istehsal potensialının azalması və istehsal imkanlarının məhdudlaşması, ərzaq məhsullarının keyfiyyətinin aşağı düşməsində öz təzahürünü tapır. Ətraf mühitin çirklənməsi və pozulması, eyni zamanda biomüxtəlifliyə, yəni bitki və heyvan növlərinin mühafizəsinə mənfi təsir göstərir. Bu o deməkdir ki, bu mənfi proseslərin qarşısının alınması və yaxud zəifləndirilməsi idarəetmə və istehsal texnologiyalarında ən müasir elmi-texnoloji nailiyyətlərin tətbiqi hesabına həyata keçirilə bilər.

**2. Ətraf mühitin optimal idarə edilməsinin tarixinə aid hansı baxışlar mövcuddur?**

Ətraf mühitin idarəedilməsində təbii ehtiyatların səmərəli istifadəsinə və biomüxtəlifliyin qorunmasına hər zaman diqqət ayrılmışdır. Beş min ildən artıq tarixi olan Nuh rəvayəti bunun bir sübutu kimi qəbul edilə bilər. Mövcud olan məlumatların təhlili göstərir ki, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə tarixən bir neçə təməl prinsiplərə əsaslanıb. Bunlara təbiətin vahid bir sistem olması və onun optimal fəaliyyəti üçün bütün elementlərinin mühafizəsinin vacibliyi, bunun üçün müvafiq şəraitin yaradılması aiddir. Bu problem hazırda da aktualdır və gələcəkdə də aktual olacaq. Ətraf mühitin davamlı insan inkişafı naminə idarə edilməsi prosesində zamanla dəyişən, əsasən, bu məqsədlərə xidmət edən texnologiyaların təkmilləşməsidir. Qədim dövrlərdən ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadəsinin təşkilində geniş kütlələrin bu problemlər və onların həlli yolları haqqında məlumatlandırılmasına böyük əhəmiyyət verilirdi. Bu məqsədlər üçün dini mənbələrlə yanaşı, folklor nümunələri də istifadə edilirdi. Bir daha qeyd edilməlidir ki, ətraf mühitin mühafizəsi və təbii ehtiyatların səmərəli istifadəsinin əsasında eyni prinsiplər durur. Tari-

xən dəyişən yalnız bu məqsədlərə xidmət edən texnologiyaların müasirləşməsidir.

**3. Ətraf təbii mühitə təsirlərin qiymətləndirilməsi necə aparılır?**

İnsanın fəaliyyəti hər zaman təbii ətraf mühitə təsir göstərib. Dünyada əhalinin sayı artıqca, insanların ətraf mühitə təsir imkanları texnoloji baxımından artdıqca bu təsirlər güclənmiş, onların təbii yolla bərpa olunması ehtimalı azalmışdır. Bununla əlaqədar təbii mühitə təsirlərin qiymətləndirilməsi zərurəti yaranmışdır. Cəmiyyətin inkişafının müasir mərhələsində ətraf mühitə insanın hər hansı bir təsərrüfat fəaliyyətinin təsirinin dəyərləndirilməsi təşəbbüsü və buna aid qanun ilk dəfə ABŞ-da 1960-cı ildə qəbul edilmişdir. Həmin qanuna görə, hər hansı bir iqtisadi layihəni həyata keçirmək üçün müvafiq razılaşmaların əldə edilməsi məqsədilə «Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi» (ƏMTQ) adlı sənəd hazırlanmalı idi. Bu hüquqi aktın gündəmə gəlməsi bir tərəfdən ictimaiyyətin təzyiqləri, digər tərəfdən isə müasir idarəetmədə məsuliyyətli menecmentin ön plana çıxması ilə bağlı idi. Nəticədə ƏMTQ sənədində konkret bir layihənin ətraf mühitə göstərə biləcəyi təsirlər və mümkün olan mənfi fəsadların aradan qaldırılması üçün nəzərdə tutulan tədbirlər təsvir edilirdi. Bu sənəd layihənin maliyyələşdirilməsinin vacib şərtidir. ƏMTQ olmadığı və yaxud həmin layihənin ətraf mühitə təsiri qəbulolunmaz səviyyədə olduğu hallarda banklar və yaxud digər maliyyə qurumları təklif edilən layihənin təsdiqindən və maliyyələşdirilməsindən imtina edir. Eyni zamanda layihənin icrası yalnız ƏMTQ-nin ictimaiyyət tərfindən müzakirəsi və qəbul edilməsindən sonra icra edilə bilər.

**4. İqtisadi fəaliyyətin sosial sahəyə təsirləri necə qiymətləndirilir?**

Ətraf mühitə təsirlərin qiymətləndirilməsinə yönəldilmiş tələblər daim sərtləşməkdədir. XX əsrin 90-cı illərində ətraf mühitə təsirlərin qiymətləndirilməsinə tələblər sərtləşdi və o zamana qədər tətbiq edilən qanunun təkmilləşməsi zərurəti yarandı. Artıq layihənin həyata keçirilməsi üçün onun ətraf təbii mühitə mənfi təsirlərinin olmaması yetərli deyil. Təklif edilən iqtisadi və yaxud infrastruktur layihəsi təbii ətraf mühitə mənfi təsir göstərməməklə yanaşı, eyni zamanda sosial mühiti

də yaxşılaşdırmalıdır. Bununla əlaqədar ƏMTQ aid hüquqi akt digəri ilə əvəz edildi. Bu sənəd Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) adlandırıldı. Dünyada həyata keçirilən bütün miqyaslı layihələr üçün belə sənədlər milli və beynəlxalq təşkilatlar tərəfindən hazırlanır. ƏMSSTQ ictimaiyyət tərəfindən müzakirə edilir və təsdiq ediləndən sonra icraata qəbul edilir.

Müasir dövrdə ətraf mühitə təsirlərin qiymətləndirilməsinə aid yeni sənədin qəbul edilməsi təklif edilmişdir. Beynəlxalq inkişaf və maliyyə təşkilatları, o cümlədən Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı hazırda yeni bir yanaşmanın və daha təkmilləşmiş ekoloji və sosial təhlükəsizliyə aid sənədin hazırlanmasının vacibliyini müzakirə edirlər. Beynəlxalq maliyyə və inkişaf təşkilatları tərəfindən təklif edilən yeni sənəd Davamlı İnkişafa Təsirin Qiymətləndirilməsi (DİTQ) adlandırılır. ƏMTQ və ƏMSSTQ-nin bu sənədlə əvəzolunma ehtimalı çox yüksəkdir. Bu yolla inkişaf proseslərinə təsirlərin qiymətləndirilməsi üçün bir sıra yeni göstəricilərin, o cümlədən insan inkişafı əmsallarının, bərpa olunan və bərpa olunmayan təbii ehtiyatlarının idarəedilməsi və digər davamlı inkişaf göstəricilərinin istifadəsi də təklif edilməkdədir. Qeyd edilməlidir ki, BMT-nin təklifi ilə 2015-ci ildən sonrakı dövrdə qlobal prioritet kimi davamlı inkişaf müəyyən edilmişdir.

**5. Xərclərin strukturu ilə insan inkişafı arasında hansı əlaqə mövcuddur?**

Artıq bəllidir ki, insan inkişafı prosesinə, onun davamlılığına bir sıra amillər müsbət və yaxud mənfi təsir göstərə bilər. Yoxsulluq, xüsusən ***mütləq yoxsulluq*** insan inkişafını məhdudlaşdıran amillərdəndir. Yoxsulluğun bir təzahürü olan aclıq da eyni dərəcədə insan potensialının inkişaf prosesini məhdudlaşdıran amildir. Belə bir məhrumiyyətlərin göstəricilərindən biri ərzaq məhsullarına sərf edilən vəsaitlərin fərd, ailə və yaxud ev təsərrüfatında qidalanma üçün sərf olunan vəsaitlərin ümumi xərclərdə payıdır. Əgər ərzaq üçün sərf edilən vəsaitlər ümumi xərclərin əhəmiyyətli hissəsini təşkil edirsə, o halda insan inkişafı üçün əhəmiyyətli olan təhsil və sağlamlıq üçün vəsaitlərin payı azalmış olur.

Beynəlxalq statistikada insan potensialına əsaslanan inkişaf ilə əlaqədar vəziyyəti qiymətləndirmək məqsədilə hər hansı bir fərdin və

yaxud ev təsərrüfatının xərclərinin strukturunda qida məhsullarının alınmasına ayrılan xərclər əsas götürülür. Hesab edilir ki, bu istiqamətə həddən artıq vəsaitin xərclənməsi insan inkişafı üçün önəmli olan digər sahələrə ayrılan vəsaitləri məcburən azaldır. Belə şərait hər hansı bir fərdin şəxsi biliklərini, dünyagörüşünü artırmaq imkanlarını məhdudlaşdırır və insan potensialının inkişafına mənfi təsir göstərir.

Bunu nəzərə alaraq, milli və beynəlxalq səviyyələrdə ümumi xərclər arasında qida məhsullarının alınmasına yönəldilən xərclərin dəyişmə dinamikası təhlil olunur. Göstərilən yanaşmanın əsasında ***Engel qanunu*** durur. Bu yolla ölkələrin insan potensialına əsaslanan inkişaf imkanları, sözügedən istiqamətdə gerçəkləşdirilən idarəetmə prosesləri dəyərləndirilir. Ehtiyac olduğu halda, beynəlxalq təşkilatlar bu göstəricini təkmilləşdirmək, hər hansı bir ölkəyə dəstək vermək məqsədilə onlara maddi və yaxud texniki yardım ayırır. Ərzaq məhsullarının alınması üçün xərclənən vəsaitin ümumi büdcənin əhəmiyyətli hissəsini təşkil etməsi yoxsulluğun göstəricisi kimi qiymətləndirilir. Bu səbəbdən 2015-ci ildə davamlı inkişafa həsr olunmuş və BMT-nin təşəbbüsü ilə çağırılmış Dünya Sammitində yoxsulluq və aclıq ilə mübarizə 2030-cu ilə qədər hədəflənmiş ən əsas qlobal problemlər sırasındadır. Bu məqsədə nail olmaq və ərzaq məhsullarının alınması üçün sərf edilən vəsaitlərin azalması insan inkişafına yönəldilmiş digər xərclərin, o cümlədən insan inkişafına xidmət edən vəsaitlərin artması deməkdir. İnsan inkişafı baxımından bilik və sağlamlıq üçün xərclərin payının artması insan inkişafına yönəldilmiş siyasətin həyata keçirilməsindən xəbər verir.

Beynəlxalq statistikaya görə, müxtəlif ölkələrdə qidalanmaya xərclənən vəsaitlər ailə və ya ev təsərrüfatlarının ümumi gəlirinin müxtəlif payını təşkil edir. BMT-nin məlumatlarına əsasən, bəzi ölkələrdə bu rəqəm 90 faizdən çox olur və hətta bu halda da fizioloji baxımdan normal qidalanmanı təmin etmir. Əksinə, ən yüksək inkişaf etmiş, əhalisinin gəlirləri çox, qida bazarı isə zəngin olan ölkələrdə bu rəqəm 17–30 faiz təşkil edir. Azərbaycan Respublikasının sürətli inkişafı, əhalinin gəlirlərinin artması göstərir ki, bu istiqamətdə də yeni nailiyyətlər əldə olunacaq. Bu isə davamlı insan inkişafı sahəsində yeni zirvələrin fəthini vəd edir.

# 8. İNSAN İNKİŞAFI VƏ İNSAN HÜQUQLARI

*Davamlı inkişaf məqsədləri və insan hüquqları. İnsan hüquqları insan inkişafı baxımından. Qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin edilməsi. İnsan təhlükəsizliyi və insan hüquqları. İnsan inkişafına təsir göstərən insan azadlıqları. Davamlı inkişaf gələcək nəsillərin insan hüquqlarının tərkib hissəsi kimi. Korporativ sosial məsuliyyətli siyasət və insan hüquqları.*

**Mündəricat:**


8.1. Bölmənin məqsədi
8.2. Açar anlayışlar
8.3. İnsan inkişafı və insan hüquqları
8.4. İnsan hüquqları insan inkişafı baxımından
8.5. Qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin edilməsi
8.6. İnsan təhlükəsizliyi və insan hüquqları
8.7. İnsan inkişafı sahəsində insan hüquqları tarixi rakursda
8.8. BMT və insan hüquqları
8.9. Korporativ sosial məsuliyyətli siyasət və insan hüquqları


## *8.1. Bölmənin məqsədi*

İnsan inkişafı onun bu sahədə hüquqlarının təmin edilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Bəlli olduğu kimi insan inkişafının uğurlu təmini hər bir şəxs üçün təhsil, sağlamlıq və bu amillərə əsaslanan iqtisadi fəaliyyət üçün imkanlar yaratmaqdan keçir. Hazırkı bölmə insanların bu sahədə hüquqlarının təmin edilməsinə həsr olunmuşdur. Bölmənin məqsədi insan inkişafı ilə insan hüquqları arasında əlaqələr haqqında biliklərin formalaşması və bu sahənin planlaşdırılması və idarəedilməsi sahəsində bacarıqların təkmilləşməsidir. Bölmədə insan inkişafı sahəsində xüsusi qayğıya ehtiyacı olan qrupların da insan inkişafı hüquqlarının təmin edilməsinə diqqət ayrılır. Bu qrupa qaçqın və məcburi köçkünlər də aid edilə bilər. Qaçqın və məcburi köçkünlər problemi

ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır, hazırda isə dünyada böhran səviyyəsinə çatmışdır. Bölmədə eyni zamanda insan inkişafı sahəsində hüquqların təmin edilməsində sosial məsuliyyət məsələləri haqqında biliklər təqdim edilir. Təqdim olunmuş məlumatlar insan inkişafı sahəsində hüquqların təmin edilməsi istiqamətində bilik və bacarıqların formalaşması üçün əhəmiyyətlidir.

### *8.2. Açar anlayışlar (bax: Terminlər lüğəti)*

*– İnsan hüquqları (əsas konvensiyalar); – Qaçqın; – Məcburi köçkün; – Sosial məsuliyyət.*

### *8.3. İnsan inkişafı və insan hüquqları*

BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən Baş Assambleyası və eyni tarixdə Nyu-Yorkda baş tutmuş Dünya Sammiti hazırkı nəsillərin rifahını təmin edən və gələcək nəsillərin tərəqqi imkanlarını məhdudlaşdırmayan davamlı inkişafı gələcək 15 il üçün əsas qlobal prioritet kimi müəyyən etmişlər. Dövlət başçıları, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti, biznes nümayəndələrini bir araya gətirən bu forumların qərarlarına əsasən, 2030-cu ilə qədər dünyada davamlı inkişaf məqsədlərinə nail olmaq üçün 17 müxtəlif hədəf müəyyən edilmişdir. Bütün bu hədəflərin yerinə yetirilməsi insan potensialının inkişafına əsaslanır və bu sahədə insan hüquqlarının təmin edilməsini nəzərdə tutur (şəkil 8.26).

Dünya Sammitində 2030-cu il üçün müəyyənləşdirilmiş hədəflər cəmiyyət həyatının müxtəlif önəmli istiqamətlərini əhatə etsə də, onları vahid bir məqsəd birləşdirir – qlobal miqyasda insan potensialının inkişafını təmin etmək və bunun əsasında cəmiyyətin davamlı tərəqqisinə nail olmaq. Bunun üçün insanların bütün növ məhrumiyyətlərdən azad olunması, təhsil və sağlamlıq sahəsində hüquqlarının təmin edilməsi, qeyribərabərliyin aradan qaldırılması nəzərdə tutulmuşdur. Məlum olduğu kimi, 2000-ci ildə keçirilmiş Dünya Sammitində qəbul edilmiş və minilliyin məqsədlərinə həsr olunmuş sənəddə də 2015-ci il üçün bu sahədə insan hüquqlarının təmin edilməsi prioritet kimi göstərilib. İnsan hüquqlarının təmin edilməsi, insan inkişafı məqsədlərinə nail olmaq, inkişaf hədəflərini tələb olunan yüksək səviyyəyə qaldırmaq üçün ən əsas şərtlərdəndir.




***Şəkil 8.26.*** *Davamlı inkişaf məqsədlərinin insan inkişafına təsiri*

İnsan inkişafına yönəlmiş fəaliyyətin planlaşdırılması və idarə edilməsi prosesində insan hüquqları amili mütləq nəzərə alınır və bu istiqamətdə uğurların qazanılmasının vacib şərtidir. BMT-nin 2015-ci ildə Nyu-Yorkda keçirilmiş Baş Assambleyasında insan hüquqlarının davamlı insan potensialına əsaslanan inkişafının təmin edilməsində xüsusi əhəmiyyəti bir daha vurğulanıb. Baş Assambleya iştirakçıları insan hüquqlarının qorunmasında ümumbəşəri dəyərlərin, o cümlədən azadlıqların, bərabərliyin, həmrəyliyin, dözümlülüyün, gələcək üçün birgə məsuliyyətin paylaşdırılmasının böyük önəm daşıdığını bəyan ediblər. Eyni zamanda kəskin qeyri-bərabərliyin aradan götürülməsi, təmiz təbii mühitin və əlverişli iqtisadi şəraitin təmin edilməsi də insan hüquqlarını şərtləndirən əsas amillərdəndir.

Qeyd etmək lazımdır ki, insan inkişafı prinsipləri və bu istiqamətdə insan hüquqlarının təmin edilməsi Azərbaycan Respublikası dövlət siyasətinin əsas prioritetlərindəndir. İnsan potensialına əsaslanan inkişafın təmin edilməsi istiqamətində ölkənin əldə etdiyi nailiyyətlər bir çox

beynəlxalq təşkilatlar tərəfindən tanınıb və qazanılmış uğurlar beynəlxalq inkişaf qurumlarının rəsmi sənədlərində öz əksini tapıb. Ölkənin bir çox yüksək səviyyəli beynəlxalq toplantıların, o cümlədən humanitar, mədəniyyətlərarası və dinlərarası forumların, digər qlobal miqyaslı önəmli toplantıların təşəbbüskarı və əsas təşkilatçısı kimi çıxış etməsi bu ümumbəşəri problemlərə milli səviyyədə böyük diqqət ayrılmasından xəbər verir. Eyni zamanda bu tədbirlərin Azərbaycanda keçirilməsi ölkənin göstərilən istiqamətdə böyük beynəlxalq nüfuza və etimada malik olmasının göstəricisidir.

Davamlı inkişaf baxımından xüsusi əhəmiyyət daşıyan insan potensialının inkişafı, bu tükənməz tərəqqi mənbəyinin innovativ inkişaf üçün səfərbər edilməsi istiqamətində ölkədə uğurlu strategiya həyata keçirilməkdədir. İnsan hüquqlarının təmin edilməsinə yönəlik tədbirlər bu strategiyanın ayrılmaz hissəsidir. İnsan inkişafı və insan hüquqlarının təmin edilməsi istiqamətində fəaliyyət həm dövlət təşkilatları, həm də ölkədə geniş təmsil olunmuş ictimai qurumlar tərəfindən həyata keçirilir. Ölkədə ombudsman institutu fəaliyyət göstərir və bu fəaliyyətin səmərəliliyi olduqca yüksəkdir.

### *8.4. İnsan hüquqları insan inkişafı baxımından*

Qeyd edildiyi kimi, insan inkişafı konsepsiyasının əsas mahiyyəti ondadır ki, hər bir şəxsin fərdi potensialının inkişafı üçün şərait yaradılsın. İnsan hüquqlarının tam şəkildə həyata keçirilməsi və bu hüquqların daim qorunması hər bir tərəqqi prosesinin əsasını təşkil edir. İnsan potensialına əsaslanan inkişafın başlıca prinsipini insanların həyatının yaxşılaşdırılması və hər bir fərdin seçim imkanlarının genişləndirilməsi təşkil edir. İnsanın hüquqlarını tam həcmdə təmin etmədən bu prinsiplərin tətbiqi mümkün deyil. İnsanın hüquq və azadlığına, onun şəxsi ləyaqətinə münasibət insan inkişafının əsasını təşkil etməklə, eyni zamanda hər bir cəmiyyət və sivilizasiyanın inkişaf səviyyəsini xarakterizə edən bir göstəricidir.

Çox zaman insan hüquqları siyasi hüquqlar və azadlıqlarla eyniləşdirilir. Sözsüz ki, siyasi hüquqlar ən əsas insan hüquqlarından biridir. Siyasi hüquqların təmin olunmaması və yaxud məhdudlaşdırılması şəraitində digər sahələrdə də insan hüquqlarının məhdudlaşdırılması

ehtimalı artır. Lakin insan hüquqları tək siyasi hüquqlar demək deyil. Müasir dövrdə BMT-nin təsnifatına əsasən insan inkişafı baxımından onun hüquqlarının təmin edilməsi daha geniş bir anlayışdır və aşağıdakı azadlıqları əhatə edir:

– Hər cür diskriminasiyadan, o cümlədən irqi, cinsi, milli və yaxud dini diskriminasiyalardan azadlıq;
– Qorxudan azadlıq: şəxsi təhlükəsizlik üçün qorxudan, səbəbsiz azadlıqdan məhrum edilməkdən, işgəncə və digər zorakılıqdan azadlıq;
– Fikir və söz azadlığı, qərar qəbul etmə prosesində iştirak və birliklər yaratmaq hüququ;
– Yoxsulluqdan azadlıq, layiqli həyat sürmək hüququ;
– İnsan potensialının optimal səviyyədə inkişafı və onu həyata keçirmək üçün azadlıq;
– Ədalətsizlikdən və qanun pozuntusu ilə rastlaşmaqdan azadlıq;
– İstismar olunmadan layiqli çalışmaq hüququ.

Müasir dövrdə insan hüquqları anlayışının bu tərzdə genişlənməsi insanların öz azadlıqları uğrunda apardığı mübarizənin nəticəsidir. İnsan hüquqlarının tam şəkildə həyata keçirilməsi insan inkişafının vacib bir amilidir. Digər tərəfdən insan inkişafı insan hüquqlarının genişlənməsinə və daha dolğun həyata keçirilməsinə xidmət edir.

### *8.5. Qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin edilməsi*

İnsan inkişafını təmin etmək üçün onun hüquqlarının qorunması bütün vətəndaşlar üçün olduqca vacibdir. Bu sahədə fəaliyyət vətəndaşların müxtəlif istiqamətlərdə hüquqlarının təmin edilməsinə yönəldilə bilər. Şərait, zaman, məkan və konkret vəziyyətdən asılı olaraq, insanların müxtəlif sahələrdə hüquqlarının qorunmasına daha çox zərurət yarana bilər. Bu hüquqlar sırasında siyasi, əmlak və ya müəlliflik hüquqları, sağlam ətraf mühitdə yaşamaq hüququ, qorxusuz yaşamaq hüququ və digərləri daha böyük üstünlük təşkil edir. Məkan və bu məkanda müşahidə edilən şəraitdən asılı olaraq, hər hansı bir şəxs və yaxud ümumi maraq və ya qayğıları olan qruplar üçün bu və ya digər istiqamətdə hüquqlarının qorunması daha aktual xarakter daşıya bilər.

Şübhəsiz, insan hüquqlarının qorunması ilə bağlı fəaliyyətin fərqli istiqamətlərə yönəldilmə ehtimalı var. Lakin bəzi hallarda insan hüquqlarının qorunması, hüquqlar pozulduğu halda onların bərpa olunması bir və yaxud iki istiqamətlə məhdudlaşmır. Qaçqın və məcburi köçkünlər əhalinin elə bir qrupunu təşkil edir ki, onların, demək olar ki, bütün hüquqları, bəzilərinin hətta yaşamaq hüququ belə pozulmuşdur. Bir sıra Asiya və Afrika ölkələrində hazırda xüsusi ilə şiddətlənmiş hərbi münaqişələr və bununla əlaqədar olan humanitar fəlakətlərin nəticəsi kimi bu bölmənin yazıldığı zaman inkişaf etmiş Avropa ölkələrində qaçqınlar problemi xeyli aktuallaşıb.

Məlum olduğu kimi, Azərbaycan–Ermənistan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunub, bir milyona yaxın qaçqın və məcburi köçkün ordusu yaranıb. İşğal olunmuş ərazilərdən qovulmuş əhali şəxsi mülkiyyəti ilə yanaşı, eyni zamanda təhsil, səhiyyə, mədəniyyət və idman qurumlarından və onlardan istifadə etmək hüquqlarından məhrum olublar. Bu, insan hüquqlarının pozulmasının ən ifrat növünə aid edilə bilər. Belə ki, insan inkişafı üçün vacib şərt təhsil alma və sağlamlığın təmin edilməsidir. Qaçqın və məcburi köçkünlər isə bu hüquqlarından məhrum ediliblər. Bununla yanaşı, onların mənəvi hüquqları da pozulub və onlar hətta yaxın adamlarının məzarlarını belə ziyarət edə bilmirlər. Yaranmış vəziyyət qəbuledilməzdir. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmalı, işğal olunmuş ərazilərin qeyd-şərtsiz boşaldılması barədə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi yerinə yetirilməlidir. Beynəlxalq təşkilatlar, o cümlədən insan hüquqları üzrə ixtisaslaşmış qurumlar bu istiqamətdə öz fəaliyyətlərini gücləndirməlidir.

Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir çox vacib işlər görülmüş, önəmli tədbir və layihələr həyata keçirilmişdir. Bu istiqamətdə dövlət tərəfindən həyata keçirilən fəaliyyət nəticəsində ölkənin didərgin düşmüş vətəndaşları üçün qəsəbələr salınır, evlər tikilir, yeni iş yerləri açılır. Lakin tamamilə aydındır ki, problemin köklü və tammiqyaslı həlli, qaçqın və məcburi köçkünlərin bu sahədə hüquqlarının təmin edilməsi yalnız işğal olunmuş ərazilər azad ediləndən və didərginlər doğma yurdlarına qayıdandan sonra mümkündür.

## *8.6. İnsan təhlükəsizliyi və insan hüquqları*

İnsan inkişafı konsepsiyasının əsasını hər bir şəxsin fərdi potensialının inkişaf etdirilməsi və bu potensialın realizə olunması üçün şərait yaradılması təşkil edir. Bu proses insan təhlükəsizliyi ilə birbaşa bağlıdır. İnsan inkişafı konsepsiyasının təşəbbüskarı olan BMT aşağıdakı təhlükələri insan inkişafı üçün risk törədə bilən amil kimi qiymətləndirir:

**İqtisadi təhlükəsizlik.** İnsan inkişafı və bu prosesin davamlı olması üçün vacib şərtdir. Gəlirlərin müvafiq səviyyədə olması və zəruri tələblərin təmin edilməsi insan inkişafı üçün vacib amilidir. Vəsaitin zəruri həcmdə olmaması insan inkişafına mənfi təsir göstərir və bu səbəbdən onların hüquqlarının pozulması kimi qiymətləndirilə bilər. Gəlirlərin əhali arasında ədalətli bölünməsi iqtisadi təhlükəsizliyin vacib şərtidir.

**Ərzaq təhlükəsizliyi.** İnsan inkişafını təmin etmək üçün miqdarca kifayət və tərkibinə görə dolğun, sağlamlığı təmin edə bilən qidalanma imkanı. Sağlamlıq insan inkişafının vacib amilidir və bu səbəbdən miqdar və keyfiyyət baxımından qənaətbəxş olmayan qidalanma hər hansı bir şəxsiyyətin inkişaf imkanlarına mənfi təsir göstərən amil kimi qəbul edilir.

**Qida təhlükəsizliyi.** Müasir zamanda qidanın kəmiyyət baxımdan qənaətbəxş olması insan sağlamlığı və uzunömürlülüyünü təmin etmək üçün kifayət hesab edilmir. Qida məhsullarında bitkiçilik və heyvandarlıqda istifadə olunan maddələrin qalıqları, genetik modifikasiya olunmuş məhsullar, insanlarda bədən kütləsinin artmasına təsir göstərən, onlarda bədxassəli şişlərin əmələ gəlməsi risklərini, ürək-damar xəstəliklərinin əmələgəlmə etimalını artıran amillər qida təhlükəsizliyini aktuallaşdırır.

**Ekoloji təhlükəsizlik.** Sağlamlıq, uzunömürlülük üçün təhlükə yaratmayan, təbii müxtəlifliyin qorunmasına yol açan ətraf mühitin mövcudluğu ilə müəyyənləşdirilir. Ətraf təbii mühitin tarazlığının pozulmasının sağlamlığa mənfi təsir göstərməsi məlumdur. Sağlamlığın kifayət dərəcədə qorunmaması eyni zamanda bilik və bacarıqların qazanılmasını əngəlləyir. Bu səbəbdən tarazlığı pozulmuş və çirklənmiş ətraf təbii mühit insanın sağlam və yaradıcı ömür sürmək hüququna və insan inkişafına mənfi təsir göstərə bilər.

**İqlim dəyişmələri.** Bilavasitə qlobal ekoloji problem olmasına baxmayaraq, öz fəsadlarına görə miqrasiya proseslərini gücləndirməklə de-

moqrafik problemlərin, iqtisadi və sosial sarsıntıların səbəbi kimi çıxış edə bilər. İqlim dəyişmələrinin qarşısının alınması ilə əlaqədar həyata keçirilən beynəlxalq tədbirlər eyni zamanda fundamental insan hüquqlarının mühafizəsi üçün əhəmiyyətlidir.

### *8.7. İnsan inkişafı sahəsində insan hüquqlarına tarixi baxış*

Qeyd etmək lazımdır ki, insan hüquqları tarixən ümumbəşəri dəyər və insan inkişafı üçün çox önəmli bir amil kimi qiymətləndirilmişdir. Müxtəlif dinlərə aid olan müqəddəs mənbələr bunu təsdiq edir. Min illər bundan əvvəl yaradılmış dini kitablar, o cümlədən Quran insanların bərabərliyi və insan ləyaqətinin qorunmasının, onun inkişafı, imkanlarının genişləndirilməsi üçün müvafiq şəraitin yaradılmasının vacibliyindən bəhs etmişlər. Bu universal yanaşmalar eyni zamanda yəhudi, xristian, buddist və digər din və təriqətlərdə öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, BMT-nin insan hüquqlarına dair tarixi araşdırmasında və buna aid xüsusi hesabatında Azərbaycana aid məlumatlara da rast gəlinir. Məsələn, BMT-nin 2000-ci ildə Nyu-Yorkda dərc edilmiş və insan azadlıqlarına həsr olunmuş hesabatında görkəmli mütəfəkkirimiz Mirzə Fətəli Axundovun adı çəkilir və onun insan hüquqlarının təmin edilməsi sahəsində fəaliyyəti xüsusi qeyd olunur. BMT-nin sənədində göstərilir ki, Mirzə Fətəli Axundov hələ XIX əsrin ortalarında insan hüquqlarının vacib bir hissəsi olan qadınların kişilərlə bərabərhüquqlu olması naminə fəaliyyət göstərmişdir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasında qadınlara seçki hüquqları XX əsrin əvvəlində verilmişdir. Daha bir neçə onilliklər tələb olundu ki, bu demokratik addım ABŞ, Fransa, İtaliya, Türkiyə və bir sıra digər inkişaf etmiş ölkələr tərəfindən atılsın.

Müasir dövrdə insan hüquqları ilə insan inkişafının bir-biri ilə çox sıx əlaqədə olması dərindən dərk edilir. İqtisadi, təbii və sosial mühitin davamlı insan inkişafı naminə idarə edilməsi insan hüquqlarının təmin edilməsinə xidmət edir. Davamlı inkişaf, təbii sərvətlərin qənaətli istifadəsi və ətraf mühitin qorunması, eyni zamanda bunun üçün iqtisadi əsas yaratmaq, gələcək nəsillərin hüquqlarının qorunması deməkdir. Bu prinsiplər bəşəriyyətin tarixində hər zaman müşahidə edilmişdir. Müxtəlif xalqların folklor nümunələri, toplanmış və hazırda müxtəlif

kitabxana və muzeylərdə saxlanılan qədim və orta əsrlərə aid əlyazmaları, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda qorunan və tədqiq edilən əlyazmaları bunu sübut edir.

### *8.8. BMT və insan hüquqları*

Bəşər sivilizasiyasında XX əsr insan hüquqlarının təmin edilməsi və müdafiəsi istiqamətində böyük nailiyyətlərin əldə olunduğu bir dövrdür. Məhz bu dövrdə, xüsusən də XX əsrdə – İkinci Dünya müharibəsindən sonra fərdin hüquq və azadlıqlarına diqqət cəmiyyətdə sülhün başlıca şərti kimi qəbul edilmişdir. İnsan hüquq və azadlıqlarının məna və məzmun etibarilə genişlənməsi, onların nəzəriyyə dairəsindən çıxaraq, səmərəli müdafiə mexanizmləri vasitəsilə qorunması ildən-ilə təkmilləşir. Beynəlxalq aktlara uyğun olaraq, insan hüquqları universaldır və həmin hüquqlardan heç bir diskriminasiyaya yol verilmədən bütün insanlar istifadə edə bilər. BMT və onun ixtisaslaşmış qurumları, regional beynəlxalq təşkilatlar, beynəlxalq konqreslər, konfranslar və digər forumların qəbul etdiyi və insan hüquqlarının prinsiplərinin açıldığı sənədlər müxtəlif statusa malikdir. Bunlara bəyannamə, prinsip, rəhbər qaydalar, əsasnamələr, standartlar və tövsiyələri misal çəkmək olar. Onların əksəriyyəti məcburi qüvvəyə malik olmasa da, onların böyük əxlaqi siyasi təsiri vardır. Sözügedən sənədlər dövlətlər üçün praktiki təlimat rolu oynaya bilər. Bu sənədlərin dəyəri onların çoxlu sayda dövlətlər tərəfindən qəbul olunmasıdır.

İnsan hüquqlarının təmin edilməsi istiqamətində həyata keçirilən siyasət və praktiki tədbirlər BMT-nin fəaliyyətində xüsusi yer tutur. İnsan Hüquqlarına dair Ümumi Bəyannamənin BMT tərəfindən 1948-ci ildə qəbul edilməsi insan azadlıqları sahəsində atılan ən əhəmiyyətli addımlardan biri olmuşdur. İkinci Dünya müharibəsi gedişində insan hüquqlarının misilsiz miqyasda pozulması, mülki vətəndaşlara qarşı törədilmiş genosid və vəhşiliklər belə bir bəyannamənin qəbulunu zərurətə çevirdi. İkinci Dünya müharibəsindən sonra insanlığa qarşı cinayətlərə yol vermiş hərbi cinayətkarların məhkum edilməsinə baxmayaraq, belə halların gələcəkdə baş verməməsi üçün dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar müvafiq tədbirlər görməli idi. Bəyannamənin dünya ölkələri tərəfindən dəstəklənməsi belə addımlardan idi.

Bəyannamənin qəbulundan sonra dünya ictimaiyyəti insan hüquqlarını ümumbəşəri dəyər kimi qəbul etməyə başladı. Bir çox ölkələrdə müvafiq siyasətin işlənilməsi və həyata keçirilməsi istiqamətində fəaliyyət güclənmişdir. Bu siyasətə insan hüquqlarının müdafiəsinə dair milli qanunvericiliyin təkmilləşdirilməsi, göstərilən istiqamətdə ictimaiyyətin rolunun artırılması aid edilə bilər. İnsan hüquqlarının təmin edilməsində insan inkişafı sahəsində maarifləndirmənin də böyük önəmi var.

Qeyd edilməlidir ki, bəyannamə və daha sonralar qəbul edilmiş digər sənədlərə əsasən hər hansı bir ölkədə insan hüquqları ilə əlaqədar vəziyyət həmin ölkənin daxili işi kimi qəbul edilmir. Artıq bir çox illərdir ki, insan hüquqları sahəsində problemlər beynəlxalq əhəmiyyət daşımağa başlamışdır. İctimai hərəkat ilə yanaşı, insan hüquqları sahəsində beynəlxalq əməkdaşlıq yeni bir mərhələyə qədəm qoyub.

Bunu son illərə aid olan bir sıra misallarla səciyyələndirmək olar. Onlardan biri kimi keçmiş Yuqoslaviyada insan hüquqlarının ifrat şəkildə pozulması və bunun nəticəsi kimi baş vermiş hadisələr ilə əlaqədar beynəlxalq tribunalın yaradılmasını göstərmək olar. Tribunal Yuqoslaviyanın bir hissəsi olmuş Bosniya və Hersoqovinada on minlərlə dinc əhalinin, o cümlədən uşaq və yaşlıların, milli və dini mənsubiyyətinə görə qətlə yetirilməsi ilə əlaqədar cinayətləri araşdırıb. Bu cinayətdə şübhəli bilinən Yuqoslaviyanın bir sıra yüksək rütbəli ölkə rəhbərləri və məmurları həbs edilib. XX əsrin sonunda Avropanın mərkəzində kütləvi şəkildə baş vermiş bu cinayətlər bir daha göstərir ki, insan hüquqlarının qorunmasına hər zaman diqqət ayrılmalıdır və bu istiqamətdə fəaliyyət fasiləsiz həyata keçirilməlidir.

İnsan hüquqlarının ifrat şəkildə pozulması ilə əlaqədar digər belə bir tribunal Afrika qitəsində, Ruandada təşkil edilmişdir. Bu ölkədə beynəlxalq tribunal yalnız 1996-cı ildə bir milyona yaxın mülki vətəndaşın, o cümlədən uşaq, yaşlıların, qadınların yalnız milli mənsubiyyətə görə qətli ilə əlaqədar yaradılmışdı. Tribunalda sübuta yetirilmişdi ki, bir çox hallarda mülki vətəndaşların qətlləri işgəncələrlə həyata keçirilmişdir. Cinayətkarlar Ruandada cəzalandırılsalar da, bunun nəticələri hamı üçün önəmli olmalıdır.

Bəlli olduğu kimi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərində də erməni hərbi birləşmələri tərəfindən misli görünməmiş soyqırım aktı gerçəkləşdirilmişdir. Xocalı faciəsi XX əsrin ən dəhşətli və

ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur. Xankəndi şəhərindən 14 km şimal-şərqdə yerləşən Xocalıda 1992-ci ilin qanlı faciəsinə kimi 7 min əhali yaşayırdı. Məlum hadisələr dövründə burada Ermənistandan, qonşu Xankəndindən ermənilər tərəfindən didərgin salınmış xeyli azərbaycanlı və 1989-cu ildə Fərqanədən qovulmuş axısqa türkləri də məskunlaşmışdılar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etmişlər. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edilmiş, şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərə məruz qalmışdır. 150 nəfərin taleyi hələ də məlum deyildir. Bu əsl soyqırım idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qoca insanlardı. Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmışdır. Ermənilər hətta meyitləri də təhqir etmişlər. Azərbaycan xalqı Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1 mart 1994-cü ildə bu haqda xüsusi Fərman vermişdir. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral «Xocalı soyqırımı və milli matəm günü» elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. Qeyd edilməlidir ki, Xocalı soyqırımı ilə əlaqədar hadisələrin dünya ictimaiyyətinə çatdırılmasında dövlət qurumları ilə yanaşı, ictimai birliklər və vətəndaş cəmiyyətinin rolu böyükdür. Bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə müxtəlif ölkələrdə həyata keçirilən "Xocalıya ədalət" kampaniyası bu soyqırım haqqında dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların məlumatlandırılması üçün olduqca əhəmiyyətlidir. Eyni zamanda bu fəaliyyət buna bənzər faciələrin hər hansı bir yerdə bir daha təkrarlanmasının qarşısının alınması üçün olduqca əhəmiyyətlidir.

Keçmiş Yuqoslaviya və Ruandada baş vermiş hadisələrlə əlaqədar yaradılmış tribunallar göstərdi ki, genosid, hərbi cinayətlər və insanlığa qarşı cinayət işlərinin baxılması üçün daim fəaliyyətdə olan müstəqil məhkəmənin yaradılmasına zərurət var. 1998-ci ilin iyulunda BMT-nin Baş Assambleyası beynəlxalq cinayətlərə görə məhkəmənin yaradılması barədə konvensiya qəbul etmişdi. Konvensiyanın qüvvəyə minməsi üçün bu sənədi ən azı 60 ölkə ratifikasiya etməli idi. Bu proses 2002-ci ilin aprel ayına qədər uzanmışdır. 1 iyul 2002-ci ildə sözügedən razılaşma qüvvəyə minmişdir. Hazırda isə Romada imzalanmış razılaşmaya əsasən, yaradılmış İnsan Hüquqları üzrə Avropa Məhkəməsi fəaliyyət göstərir. İnsan hüquqlarının ciddi pozulmaları ilə əlaqədar müxtəlif ölkələrin vətəndaşları bu məhkəməyə müraciət edirlər.

İnsan haqları üzrə Ümumi Bəyannamə insanların bərabər olmasını və eyni hüquqlara malik olmasını qeyd edir. Bu bəyannaməyə görə hər bir insan, «tibbi və sosial xidmətlər daxil olmaqla, elə bir yaşayış səviyyəsinə malik olmalıdır ki, bu şərait onun və onun ailəsinin sağlamlığını təmin etsin». Beləliklə, insan inkişafının vacib amillərindən olan sağlamlıq insan hüquqlarının vacib elementi kimi çıxış edir. Bu prinsip bir sıra beynəlxalq konvensiyalarda və digər sənədlərdə öz əksini tapmışdır. Sağlamlıq üçün şəraitin yaradılması insanın əsas hüquqlarına aiddir.

İnsan hüquqlarını təmin etmək üçün bir sıra digər konvensiyalar və hüquqi sənədlər qəbul edilmişdir. Bu beynəlxalq sənədlərin bəziləri xüsusi əhəmiyyət daşıyır. Onlara irqi diskriminasiyanın bütün formalarını ləğv edən beynəlxalq konvensiya, vətəndaş və siyasi hüquqlara dair beynəlxalq pakt, uşaq hüquqları haqqında konvensiya və bir sıra başqaları aiddir. Qeyd edilməlidir ki, irqçiliklə əlaqədar insan hüquqlarının pozulması hətta XXI əsrin ikinci onilliyində də müşahidə olunur. Məsələn, 2013-cü ilin iyul ayında İtaliyanın qaradərili nazirinə qarşı irqçilik hərəkətinə yol verilmişdir. Bu bir daha göstərir ki, insan hüquqlarının pozulması müasir dövrdə və inkişaf etmiş ölkədə də baş verə bilər.

Azərbaycan Respublikası bir çox konvensiyaların və beynəlxalq razılaşmaların, o cümlədən vətəndaşların siyasi, iqtisadi, sosial və mədəni hüquqlarına aid beynəlxalq paktların, qadınlara qarşı diskriminasiyanın hər hansı bir formasının ləğvinə aid və bir sıra digər beynəlxalq pakt və konvensiyaların iştirakçısıdır.

İnsan hüquqlarının təmin edilməsinin vacib bir şərti cəmiyyətin davamlı inkişaf prinsipləri əsasında idarə edilməsidir. Davamlı inkişafın əsas xüsusiyyətlərindən olan ətraf mühitin qorunması, təbii ehtiyatların səmərəli istifadəsi, insan potensialının inkişaf etdirilməsi gələcək nəsillərin insan hüquqları kimi çıxış edir.

Tərəqqi prosesində mənfi bir proses olan gələcəksiz inkişaf ilə yanaşı, beynəlxalq təşkilatlar təsnifata görə inkişaf prosesində digər bir neqativ meylin ehtimal olunduğunu da müəyyənləşdirmişdir. Bu, BMT-nin tərifinə görə, qeyri-bərabər inkişaf təhlükəsidir. İnkişafda qeyri-bərabərlik həm bir ölkənin daxilində, həm də daha böyük miqyasda, yəni dünya üzrə müşahidə oluna bilər. Belə fərqlər Qərblə Şərq, Cənubla Şimal, inkişaf etmiş və inkişafda olan ölkələr arasında müşahidə olunur. Təsadüfi deyil ki, 2015-ci ilin sentyabr ayında keçirilmiş BMT-nin Baş Assambleyası və eyni zamanda baş tutmuş Dünya Sammitində 2030-cu il üçün planlaşdırılmış hədəflər arasında dünyada müşahidə olunan kəskin qeyri-bərabərliyin aradan götürülməsi və ya kəskin azaldılması nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, insan hüquqlarının təmin edilməsində sosial baxımdan məsuliyyətli fəaliyyət və həyat tərzi olduqca önəmlidir. Fərdi sektorda sosial məsuliyyətli korporativ siyasət nisbətən yeni bir anlayışdır və son zamanlar formalaşıb. Bu siyasətin mahiyyəti ondan ibarətdir ki, fərdi sektorda iqtisadi fəaliyyətlə məşğul olan hər bir şirkət, müəssisə və yaxud birlik gələcək nəsillərin insan hüquqlarının əsasını təşkil edən davamlı inkişafı və insan potensialının formalaşmasını nəzərə almalıdır. Hazırda bu siyasət Azərbaycan Respublikasının əsas prioritetidir. Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" proqramı insan potensialına əsaslanan inkişafın yeni mərhələsidir.

### *8.9. Korporativ sosial məsuliyyətli siyasət və insan hüquqları*

İnsan potensialına əsaslanan davamlı inkişaf sahəsində 2015–2030-cu illər üçün irəli sürülən məqsədlərin yerinə yetirilməsi bu prosesin bütün iştirakçılarından hər bir sahədə, o cümlədən insan hüquqlarının təmin olunmasını tələb edir. Vətəndaş cəmiyyətinin əhəmiyyətli iştirakçıların-

dan olan fərdi sektorun insan inkişafında rolu çox böyükdür. Artıq məlum olduğu kimi, Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi və Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi üzrə sənədlərin tərtibi bütün iqtisadi sahədə fəaliyyət göstərən və ya bu fəaliyyəti planlaşdıran korporativ qurumlar, o cümlədən müxtəlif idarə və təşkilatların həyata keçirdiyi layihələr üçün zəruridir. Bu zərurət qanunlarla tənzim edilir. Lakin bununla yanaşı, fərdi sektorda fəaliyyət göstərən hər hansı bir şirkət və yaxud başqa bir təsərrüfat qurumu könüllü olaraq öz üzərinə bir sıra əlavə öhdəliklər də götürə bilər. Sözügedən öhdəliklər özəl bölmədə fəaliyyət göstərən qurumun siyasəti və yaxud korporativ siyasət adlandırılır. Bu siyasətin bir istiqaməti kimi son illərdə "korporativ sosial məsuliyyətli fəaliyyət" anlayışı formalaşmışdır.

Qeyd etmək lazımdır ki, korporativ siyasətin sosial məsuliyyətli olması həm hüquqi, həm də etik baxımdan vacibdir. Düzgün müəyyən edilmiş korporativ siyasət və onun hədəfləri eyni zamanda rəqabətdə üstünlük təmin edən önəmli iqtisadi amil kimi çıxış edir. Korporasiya və şirkətlərin sosial baxımdan məsuliyyətli fəaliyyəti idarəetmənin ən müasir istiqamətlərindəndir və davamlı inkişafı təmin edən amildir. Sözügedən fəaliyyətin planlaşdırılması və həyata keçirilməsi insan potensialına əsaslanır və davamlı inkişaf sahəsində təhsilin vacib elementidir.

Korporativ sosial məsuliyyət, ilk növbədə, hər bir fəaliyyətin etik formada aparılmasını nəzərdə tutur. Bu isə öz növbəsində təbii və sosial mühitə təsir edən və yaxud edə bilən fəaliyyətin inkişaf etmiş cəmiyyətdə qəbul olunmuş normalar əsasında həyata keçirilməsinə əsaslanır. Korporativ sosial məsuliyyətli fəaliyyət hər hansı bir təşkilat, şirkət, onların daxilində və xaricində insan hüquqlarının vacib tərkib hissəsi olan əlverişli təbii və sosial mühitin yaradılmasını və qorunmasını bir məqsəd kimi qarşıya qoyur və bu məqsədi gəlir götürməkdən daha üstün tutur. İqtisadiyyatın hər hansı bir sahəsi, təşkilat və hətta şirkət səviyyəsində tətbiq edilən müasir idarəetmə texnologiyaları sosial məsuliyyətli fəaliyyəti birinci, iqtisadi səmərəliliyi, gəlir əldə edilməsini isə ikinci yerə qoyur. Elə fəaliyyət ən optimal hesab edilir ki, hər iki istiqamətdə uğura nail olunsun: fəaliyyət həm sosial məsuliyyətli, həm də iqtisadi baxımdan gəlirli olsun. Bu səviyyədə idarəçiliyin təmin olunması yüksək bilik, bacarıq və biliklərin fasiləsiz yenilənməsini tələb edir.

İqtisadi və sosial, fərdi və ictimai maraqlar arasında tarazlığın təmin edilməsi korporativ sosial məsuliyyətli siyasətin planlaşdırılmasının və idarə olunmasının əsas prinsipidir. Bu prinsipin təmin edilməsi xeyli çətin olsa da, hər bir milli və yaxud transmilli korporasiyanın və yaxud şirkətin tanınması və şöhrətlənməsi, ictimaiyyət ilə əlaqələr qurulması üçün olduqca önəmlidir. Bu isə öz növbəsində sosial məsuliyyətli idarəetmə prinsiplərini tətbiq edən qurumların şöhrətini artırır, onlara azad rəqabətdə əlavə imtiyazlar yaradır. Göstərilən amillərin təsiri nəticəsində korporasiya və yaxud şirkət daha da güclənir, onun iqtisadi imkanları artır, onun sosial məsuliyyətli fəaliyyətinin daha da gücləndirilməsi üçün əlavə imkanlar yaranır.

Hər hansı bir toplumun fəaliyyətinə, onun inkişafına dair qərar qəbuletmə prosesində hər bir fərdin fəal iştirakı onun şəxsi haqqıdır və ümumi insan hüquqlarının vacib tərkib hissəsidir. Bu istiqamətdə uğurlu fəaliyyət vətəndaşların ictimai birliklərinin yaradılması yolu ilə də həyata keçirilə bilər. Hazırkı dövrdə davamlı insan inkişafına dair ictimai birliklərin yaradılması və onların fəaliyyəti demokratiya və idarəetmədə iştirakın ən müasir istiqamətlərindən biridir. Qərarların qəbulu zamanı insan hüquqlarının təmin olunmasına, davamlı insan inkişafına yönəldilmiş korporativ sosial məsuliyyətli siyasətin həyata keçirilməsi bu proseslərin təşkilatlanması üçün xüsusi qurumların yaradılması və yaxud mövcud qurumların fəaliyyət istiqamətlərinin genişləndirilməsi zərurətini gündəmə gətirdi. Yaşayış yerlərində qeyri-hökumət təşkilatlarının yaradılması, onların insan inkişafı istiqamətindəki fəaliyyəti eyni zamanda insan hüquqlarının təmin edilməsinə də xidmət edir.

## *8.10. Özümüzü sınayırıq*

### 8.10.1. Özümüzü sınayırıq suallar:

1. İnsan inkişafı və insan hüquqları arasında əlaqə necə səciyyələndirilə bilər?
2. Qaçqın və məcburi köçkünlərin hüquqları necə təmin edilir?
3. İnsan inkişafı naminə insan hüquqlarına dair beynəlxalq təşkilatların fəaliyyəti necə səciyyələndirilə bilər?

4. İnsan inkişafına xidmət edən insan hüquqlarına tarixi baxış necə səciyyələndirilə bilər?
5. İnsan inkişafının korporativ sosial məsuliyyətli siyasətlə əlaqəsi necədir?

**8.10.2. Özümüzü sınayırıq cavablar:**

**1. İnsan inkişafı və insan hüquqları arasında əlaqə necə səciyyələndirilə bilər?**

Bəlli olduğu kimi, insan inkişafı konsepsiyasının əsasında hər bir şəxs üçün öz fərdi potensialını tam şəkildə üzə çıxarmaq imkanın yaradılması durur. Eyni zamanda məlumdur ki, insan inkişafının vəziyyətini səciyyələndirən İnsan İnkişafı Əmsalı üç göstərici: sağlamlıq, təhsil və gəlir əsasında müəyyən edilir. Deməli, insan inkişafı prosesi və onun bu sahədə hüquqlarının təmin edilməsi arasında əlaqə göstərilən istiqamətlərdə hər bir vətəndaşın hüquqlarının təmin edilməsindən asılıdır. İnsan inkişafını əngəlləyən bir sıra amillər də məlumdur ki, bunların arasında yoxsulluq, qeyri-bərabərlik, o cümlədən gender qeyri-bərabərliyi də çox əhəmiyyətlidir. Bu məhrumiyyətlərin aradan qaldırılması insan inkişafı sahəsində insan hüquqlarının təmin edilməsi üçün çox əhəmiyyətlidir.

Göstərilən səbəblərdən insan inkişafına yönəlmiş fəaliyyətin planlaşdırılması və idarə edilməsi prosesində insan hüquqları amili mütləq nəzərə alınır və bu istiqamətdə uğurların qazanılması üçün vacib şərtdir. BMT-nin 2015-ci ildə Nyu-Yorkda keçirilmiş Baş Assambleyasında insan hüquqlarının davamlı insan potensialına əsaslanan inkişafının təmin edilməsində xüsusi əhəmiyyəti bir daha vurğulanıb. Baş Assambleya iştirakçıları insan hüquqlarının qorunmasında ümumbəşəri dəyərlərin, o cümlədən azadlıqların, bərabərliyin, həmrəyliyin, dözümlülüyün, gələcək üçün birgə məsuliyyətin paylaşdırılmasının böyük önəm daşıdığını bəyan ediblər. Eyni zamanda kəskin qeyri-bərabərliyin aradan götürülməsi, təmiz təbii mühitin və əlverişli iqtisadi şəraitin təmin edilməsi də insan hüquqlarının təmin edilməsinin əsas şərtləri kimi müəyyən edilmişdir.

İnsan inkişafı prinsipləri və bu istiqamətdə insan hüquqlarının təmin edilməsi Azərbaycan Respublikası dövlət siyasətinin əsas prioritetlərindəndir. Davamlı insan potensialına əsaslanan inkişafın təmin edilməsi istiqamətində ölkənin əldə etdiyi nailiyyətlər bir çox beynəlxalq təşkilatlar tərəfindən tanınıb və qazanılmış uğurlar beynəlxalq inkişaf qurumlarının rəsmi sənədlərində öz əksini tapıb. Bu siyasətin nəticəsi kimi BMT-nin təsnifatına əsasən Azərbaycan Respublikası 2010-cu ildən insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil edilmişdir. O zamana qədər ölkə orta nəticələr əldə etmiş ölkələr qrupuna aid edilirdi. Ölkənin bir çox yüksək səviyyəli beynəlxalq toplantıların, o cümlədən humanitar, mədəniyyətlərarası və dinlərarası forumların, digər qlobal miqyaslı önəmli toplantıların təşəbbüskarı və əsas təşkilatçısı kimi çıxış etməsi bu ümumbəşəri problemlərə milli səviyyədə böyük diqqət ayrılmasından xəbər verir. Eyni zamanda insan inkişafı üçün çox önəmli olan bu tədbirlərin Azərbaycanda keçirilməsi ölkənin göstərilən istiqamətdə böyük beynəlxalq nüfuza və etimada malik olmasının göstəricisidir.

Bir sıra hallarda insan hüquqları deyəndə, əsasən, insanların siyasi hüquqları nəzərdə tutulur. Sözsüz ki, siyasi hüquqlar ən əsas insan hüquqlarındandır. Siyasi hüquqların təmin olunmaması və yaxud məhdudlaşdırılması şəraitində digər sahələrdə də insan hüquqlarının məhdudlaşdırılması ehtimalı artır. Lakin insan hüquqları tək siyasi hüquqlar demək deyil. Müasir dövrdə BMT-nin təsnifatına əsasən insan inkişafı baxımından onun hüquqlarının təmin edilməsi daha geniş bir anlayışdır və o cümlədən hər cür diskriminasiyadan, qorxudan, yoxsulluqdan, istismardan azadlıq deməkdir. Müasir dövrdə insan hüquqları anlayışının bu tərzdə genişlənməsi insanların öz azadlıqları uğrunda apardığı mübarizənin nəticəsidir. İnsan hüquqlarının tam şəkildə həyata keçirilməsi insan inkişafının vacib bir amilidir. Digər tərəfdən insan inkişafı insan hüquqlarının genişlənməsinə və daha dolğun həyata keçirilməsinə xidmət edir. İnsan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələrdə, bir qayda olaraq, insan hüquqları yüksək səviyyədə təmin olunur.

### 2. Qaçqın və məcburi köçkünlərin hüquqları necə təmin edilir?

Hər bir cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan qruplar mövcuddur ki, onlara uşaqlar, yaşlılar, sağlamlıq göstəricilərinə görə xüsusi münasibət

tələb edən şəxslər və bəzi digərləri aid edilə bilər. Bu qruplara daxil olan vətəndaşların hüquqlarının qorunması olduqca vacibdir və xüsusi münasibət tələb edir. Bu sahələrdə vətəndaşların hüquqlarının təmin edilməsi müxtəlif istiqamətlərdə fəaliyyətlərin həyata keçirilməsini tələb edə bilər. Şərait, zaman, məkan və konkret vəziyyətdən asılı olaraq, insanların müxtəlif sahələrdə hüquqlarının qorunmasına daha çox zərurət yarana bilər. Hazırkı mərhələdə qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi olduqca vacibdir. Bu onunla əlaqədardır ki, 2015-ci ilin sonu və 2016-cı ilin birinci yarısında Yaxın Şərq, Afrika və Avropa ölkələrində qaçqınlarla əlaqədar olan böhranlar yaşanır və şiddətləndirilir. Bir sıra Asiya və Afrika ölkələrində hazırda xüsusi ilə genişlənmiş hərbi münaqişələr insanların hətta yaşamaq hüququnu da təhlükə qarşısında qoyur. Rəsmi beynəlxalq statistikaya görə, son 35 ildə dünyada qaçqın və məcburi köçkünlərin sayı iki dəfə artıb və hazırda 175 milyon adam təşkil edir.

Azərbaycan Respublikası da kəskin qaçqın və köçkün problemi ilə üzləşmişdir. Azərbaycan–Ermənistan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunub, bir milyona yaxın qaçqın və məcburi köçkün ordusu yaranıb. İşğal olunmuş ərazilərdən qovulmuş əhali şəxsi mülkiyyəti ilə yanaşı, eyni zamanda təhsil, səhiyyə, mədəniyyət və idman qurumlarından və onlardan istifadə etmək hüquqlarından məhrum olublar. Bu insan hüquqlarının pozulmasının ən ifrat növünə aid edilə bilər. Bəllidir ki, insan inkişafı üçün təhsil və sağlamlıq vacib şərtdir. Lakin bir çox hallarda qaçqın və məcburi köçkünlər bu hüquqlarından məhrum edilirlər. Bununla yanaşı, onların mənəvi hüquqları da pozulub və onlar hətta yaxın adamlarının məzarlarını belə ziyarət edə bilmirlər. Yaranmış vəziyyət dünya ictimaiyyəti tərəfindən dözülməz kimi qəbul edilməkdədir. Bu bütün qaçqın və köçkünlərə aiddir. Azərbaycan Respublikasının ərazi bütovlüyü bərpa olunmalı, işğal olunmuş ərazilərin qeyd-şərtsiz boşaldılması barədə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsi yerinə yetirilməlidir. Beynəlxalq təşkilatlar, o cümlədən insan hüquqları üzrə ixtisaslaşmış qurumlar bu istiqamətdə öz fəaliyyətlərini gücləndirməlidir.

Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir çox vacib işlər görülmüş, önəmli tədbir və layihələr həyata keçirilmişdir. Bu istiqamətdə dövlət tərəfindən həyata keçirilən fəaliyyət nəticəsində ölkənin didərgin düş-

müş vətəndaşları üçün qəsəbələr salınır, evlər tikilir, yeni iş yerləri açılır. Lakin tamamilə aydındır ki, problemin köklü və tammiqyaslı həlli, qaçqın və məcburi köçkünlərin bu sahədə hüquqlarının təmin edilməsi yalnız işğal olunmuş ərazilər azad ediləndən və didərginlər doğma yurdlarına qayıdandan sonra mümkündür.

**3. İnsan inkişafı naminə insan hüquqlarına dair beynəlxalq təşkilatların fəaliyyəti necə səciyyələndirilə bilər?**

İnsan hüquqlarının təmin edilməsi hər zaman gündəmdə olmuşdur. Lakin XX əsrdə, xüsusən XX əsrin ortalarında və ikinci yarısında insan hüquqlarına diqqət xüsusi ilə artmışdır. Bunun bir səbəbi də ondadır ki, İkinci Dünya müharibəsi zamanı insan hüquqları kütləvi surətdə və kobud şəkildə pozulmuşdur. Buna bir reaksiya olaraq, hər bir fərdin hüquq və azadlıqlarına diqqət cəmiyyətdə sülhün başlıca şərti kimi qəbul edilmişdir. İnsan hüquq və azadlıqlarının məna və məzmun etibarilə genişlənməsi, onların nəzəriyyə dairəsindən çıxaraq, səmərəli müdafiə mexanizmləri vasitəsilə qorunması ildən-ilə təkmilləşir.

Beynəlxalq praktikaya əsasən insan hüquqları universaldır və həmin hüquqlardan heç bir diskriminasiyaya yol vermədən bütün insanlar istifadə edə bilər. BMT və onun ixtisaslaşmış qurumları tərəfindən qəbul edilən və insan hüquqlarına aid qərarlar müxtəlif statusa malikdir. Bunlara bəyannamə, prinsip, rəhbər qaydalar, əsasnamələr, standartlar və tövsiyələri misal kimi göstərmək olar. Bu sənədlərin əksəriyyəti məcburi qüvvəyə malik olmasa da, onların böyük siyasi təsiri vardır. BMT tərəfindən hazırlanan və insan hüquqlarına aid olan sənədlərin əksəriyyətində öz əksini tapmış qərar və tövsiyələr bir çox dövlətlər tərəfindən qəbul olunmalıdır və bu səbəbdən universal xarakter daşıyırlar.

İnsan hüquqlarının təmin edilməsi istiqamətində həyata keçirilən siyasət və praktiki tədbirlər BMT-nin fəaliyyətində xüsusi yer tutur. İnsan Hüquqlarına dair Ümumi Bəyannamənin BMT tərəfindən 1948-ci ildə qəbul edilməsi insan azadlıqları sahəsində atılan ən əhəmiyyətli addımlardan biri olmuşdur. Qeyd edildiyi kimi, İkinci Dünya müharibəsi gedişində insan hüquqlarının misilsiz miqyasda pozulması, mülki vətəndaşlara qarşı törədilmiş genosid və vəhşiliklər belə bir bəyannamənin qəbulunu zərurətə çevirdi. İkinci Dünya müharibəsindən sonra insanlığa qarşı cinayətlərə yol vermiş hərbi cinayətkarların məhkum edilməsinə baxma-

yaraq, belə halların gələcəkdə baş verməməsi üçün dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar müvafiq tədbirlər görməli idi. Bəyannamənin dünya ölkələri tərəfindən dəstəklənməsi belə addımlardan idi. Bəyannamənin qəbulundan sonra dünya ictimaiyyəti insan hüquqlarını ümumbəşəri dəyər kimi qəbul etməyə başladı. Bu isə artıq insan hüquqlarının təmin olunmasının insan inkişafının vacib şərti kimi tanınmasına yol açmışdır.

Bəyannamə və daha sonralar qəbul edilmiş digər sənədlərə əsasən hər hansı bir ölkədə insan hüquqları ilə əlaqədar vəziyyət həmin ölkənin daxili işi kimi qəbul edilmir. Artıq bir çox illərdir ki, insan hüquqları sahəsində problemlər beynəlxalq əhəmiyyət daşımağa başlamışdır. İctimai hərəkat ilə yanaşı, insan hüquqları sahəsində beynəlxalq əməkdaşlıq yeni bir mərhələyə qədəm qoyub. Bunu son illərə aid olan bir sıra misallarla səciyyələndirmək olar. Onlardan biri kimi keçmiş Yuqoslaviyada insan hüquqlarının ifrat şəkildə pozulması və bunun nəticəsi kimi baş vermiş hadisələr ilə əlaqədar beynəlxalq tribunalın yaradılmasını göstərmək olar. Bu tribunal Yuqoslaviyanın bir hissəsi olmuş Bosniya və Hersoqovinada on minlərlə dinc əhalinin, o cümlədən uşaq və yaşlıların, milli və dini mənsubiyyətinə görə qətlə yetirilməsi ilə əlaqədar cinayətləri araşdırıb. Bu cinayətdə şübhəli bilinən Yuqoslaviyanın bir sıra yüksək rütbəli ölkə rəhbərləri və məmurları həbs edilib. XX əsrin sonunda Avropanın mərkəzində kütləvi şəkildə baş vermiş bu cinayətlər bir daha göstərir ki, insan hüquqların qorunmasına hər zaman diqqət ayrılmalıdır və bu istiqamətdə fəaliyyət fasiləsiz həyata keçirilməlidir.

İnsan hüquqlarının ifrat şəkildə pozulması ilə əlaqədar digər belə bir tribunal Afrika qitəsində, Ruandada təşkil edilmişdir. Bu ölkədə beynəlxalq tribunal yalnız 1996-cı ildə bir milyona yaxın mülki vətəndaşın, o cümlədən uşaq, yaşlıların, qadınların yalnız milli mənsubiyyətə görə qətli ilə əlaqədar yaradılmışdı. Tribunalda sübuta yetirilmişdi ki, bir çox hallarda mülki vətəndaşların qətlləri işgəncələrlə həyata keçirilmişdir. Cinayətkarlar Ruandada cəzalandırılsalar da, bunun nəticələri hamı üçün önəmli olmalıdır.

Bəlli olduğu kimi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xocalı şəhərində də erməni hərbi birləşmələri tərəfindən misli görünməmiş soyqırım aktı gerçəkləşdirilmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etmişlər. Bir gecənin içərisində qədim Xocalı

yerlə-yeksan edilmiş, 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərə məruz qalmışdır. 150 nəfərin taleyi hələ də məlum deyildir. Bu əsl soyqırım idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qoca insanlardı. Bu cinayəti törədənlərin beynəlxalq məhkəmə qarşısına çıxarılması olduqca vacibdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1 mart 1994-cü ildə bu haqda xüsusi Fərman vermişdir. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral «Xocalı soyqırımı və milli matəm günü» elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. Qeyd edilməlidir ki, Xocalı soyqırımı ilə əlaqədar hadisələrin dünya ictimaiyyətinə çatdırılmasında dövlət qurumları ilə yanaşı, ictimai birliklər və vətəndaş cəmiyyətinin rolu böyükdür. Bu istiqamətdə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə müxtəlif ölkələrdə həyata keçirilən "Xocalıya ədalət" kampaniyası bu soyqırım haqqında dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların məlumatlandırılması üçün olduqca əhəmiyyətlidir. Eyni zamanda bu fəaliyyət buna bənzər faciələrin hər hansı bir yerdə bir daha təkrarlanmasının qarşısının alınması üçün olduqca əhəmiyyətlidir.

İnsan inkişafı üçün önəmli olan insan haqları üzrə Ümumi Bəyannamə insanların bərabər olmasını və eyni hüquqlara malik olmasını qeyd edir. Bu bəyannaməyə görə hər bir insan, «tibbi və sosial xidmətlər daxil olmaqla, elə bir yaşayış səviyyəsinə malik olmalıdır ki, bu şərait onun və onun ailəsinin sağlamlığını təmin etsin». Beləliklə, insan inkişafının vacib amillərindən olan sağlamlıq insan hüquqlarının vacib elementi kimi çıxış edir.

İnsan hüquqlarını təmin etmək üçün bir sıra digər konvensiyalar və hüquqi sənədlər qəbul edilmişdir. Bu beynəlxalq sənədlərin bəziləri xüsusi əhəmiyyət daşıyır. Onlara irqi diskriminasiyanın bütün formalarını ləğv edən beynəlxalq konvensiya, vətəndaş və siyasi hüquqlara dair beynəlxalq pakt, uşaq hüquqları haqqında konvensiya və bir sıra başqaları aiddir.

Azərbaycan Respublikası bir çox konvensiyaların və beynəlxalq razılaşmaların, o cümlədən vətəndaşların siyasi, iqtisadi, sosial və mədəni hüquqlarına aid beynəlxalq paktların, qadınlara qarşı diskriminasiyanın hər hansı bir formasının ləğvinə aid və bir sıra digər beynəlxalq pakt və konvensiyaların iştirakçısıdır.

**4. İnsan inkişafına xidmət edən insan hüquqlarına tarixi baxış necə səciyyələndirilə bilər?**

İnsan potensialının inkişafına xidmət edən insan hüquqları tarixən ümumbəşəri dəyər kimi qiymətləndirilmişdir. Bunu, ilk növbədə, müxtəlif dinlərə aid olan müqəddəs kitablar təsdiq edir. Min illər bundan əvvəl yaradılmış dini kitablar, o cümlədən Quran, İncil, Tövrat insanların bərabərliyi və insan ləyaqətinin qorunmasının, onun inkişafı, imkanlarının genişləndirilməsi üçün müvafiq şəraitin yaradılmasının vacibliyindən bəhs etmişlər. Eyni zamanda XXI əsrdə beynəlxalq təşkilatlar tərəfindən 2030-cu il üçün inkişafın strateji məqsədi kimi hədəflənmiş qeyri-bərabərlik ilə mübarizə, bu məqsədlə xeyriyyəçiliyin vacibliyi bir çox dini kitablarda öz əksini tapmışdır. İnsan inkişafı üçün önəmli olan bu yanaşmalar universal xarakter daşıyır və eyni zamanda islam, yəhudi, xristian, buddist və digər din və təriqətlərdə rast gəlinir.

Qeyd etmək lazımdır ki, BMT-nin insan hüquqlarına dair tarixi baxışların araşdırmasına aid sənədlərdə və buna aid xüsusi beynəlxalq hesabatlarda Azərbaycana aid məlumatlara da rast gəlinir. Məsələn, BMT-nin 2000-ci ildə Nyu-Yorkda dərc edilmiş və insan azadlıqlarına həsr olunmuş hesabatında görkəmli mütəfəkkirimiz Mirzə Fətəli Axundzadənin adı çəkilir və onun insan hüquqlarının təmin edilməsi sahəsində fəaliyyəti xüsusi qeyd olunur. BMT-nin sənədində göstərilir ki, Mirzə Fətəli Axundzadə hələ XIX əsrin ortalarında insan hüquqlarının vacib bir hissəsi olan qadınların kişilərlə bərabərhüquqlu olması naminə fəaliyyət göstərmişdir. Bu fəaliyyətin sonrakı inkişafa da öz təsiri olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan Respublikasında qadınlara seçki hüquqları XX əsrin əvvəlində verilmişdir. Bu insan inkişafı üçün əhəmiyyətli olan təşəbbüs dünya üçün də yeni idi. Daha bir neçə onilliklər tələb olundu ki, bu demokratik addım ABŞ, Fransa, İtaliya, Türkiyə və bir sıra digər inkişaf etmiş ölkələr tərəfindən atılsın.

Hazırkı mərhələdə insan hüquqları ilə davamlı insan inkişafının bir-biri ilə çox sıx əlaqədə olması dərindən dərk edilir. İqtisadi, təbii və sosial mühitin davamlı insan inkişafı naminə idarə edilməsi insan hüquqlarının təmin edilməsinə xidmət edir. Davamlı inkişaf, təbii sərvətlərin qənaətli istifadəsi və ətraf mühitin qorunması, eyni zamanda bunun üçün iqtisadi əsas yaratmaq, gələcək nəsillərin hüquqlarının qorunması deməkdir. Bu prinsiplər bəşəriyyətin tarixində hər zaman müşahidə edilmişdir.

Müxtəlif xalqların folklor nümunələri, toplanmış və hazırda müxtəlif kitabxana və muzeylərdə saxlanılan qədim və orta əsrlərə aid əlyazmaları, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda qorunan və tədqiq edilən əlyazmaları bunu sübut edir.

**5. İnsan inkişafının korporativ sosial məsuliyyətli siyasətlə əlaqəsi necədir?**

Azərbaycan Respublikasının davamlı insan potensialına əsaslanan inkişafda yüksək nailiyyətlərinin əldə edilməsi haqqında məlumatlar BMT, Dünya Bankı və digər beynəlxalq təşkilatların 2015 və 2016-cı illərdə dərc edilmiş hesabatlarında öz əksini tapmışdır. Qazanılmış nailiyyətlərin kökündə ölkədə tətbiq edilən müasir idarəetmə texnologiyaları durur. Bu texnologiyalar inkişaf prosesinin planlaşdırılması və idarəedilməsinə ictimai təşkilatların və fərdi biznesin cəlb edilməsini nəzərdə tutur. Hazırda 2015–2030-cu illər üçün irəli sürülən məqsədlərin yerinə yetirilməsi vətəndaş cəmiyyətinin əhəmiyyətli iştirakçılarından olan fərdi sektorun insan inkişafında rolunu aktuallaşdırıb. Bu isə ilk növbədə, sosial məsuliyyətli fəaliyyətə əsaslanır. Sosial məsuliyyətli fəaliyyət hər hansı bir şirkət və yaxud iqtisadi fəaliyyətin digər iştirakçısı tərəfindən könüllü olaraq öz üzərinə bir sıra əlavə, cəmiyyət üçün faydalı, lakin bir çox hallarda iqtisadi fəaliyyət üçün heç bir gəlir gətirməyən öhdəliklərin götürülməsi deməkdir. Bu siyasətin bir istiqaməti kimi son illərdə “korporativ sosial məsuliyyətli fəaliyyət” anlayışı formalaşmışdır.

Qeyd etmək lazımdır ki, korporativ siyasətin sosial məsuliyyətli olması həm hüquqi, həm də etik baxımdan vacibdir. Düzgün müəyyən edilmiş korporativ siyasət və onun hədəfləri eyni zamanda rəqabətdə üstünlük təmin edən önəmli iqtisadi amil kimi çıxış edir. Korporasiya və şirkətlərin sosial baxımdan məsuliyyətli fəaliyyəti idarəetmənin ən müasir istiqamətlərindəndir və insan inkişafını təmin edən amildir. Sözügedən fəaliyyətin planlaşdırılması və həyata keçirilməsi insan potensialına arxalanır və davamlı inkişaf sahəsində təhsilin vacib elementidir.

Korporativ sosial məsuliyyət, ilk növbədə, hər bir fəaliyyətin etik formada aparılmasını nəzərdə tutur. Bu isə öz növbəsində təbii və sosial mühitə təsir edən və yaxud edə bilən fəaliyyətin inkişaf etmiş cəmiyyətdə qəbul olunmuş normalar əsasında həyata keçirilməsinə əsaslanır.

Korporativ sosial məsuliyyətli fəaliyyət hər hansı bir təşkilat, şirkət, onların daxilində və xaricində insan hüquqlarının vacib tərkib hissəsi olan əlverişli təbii və sosial mühitin yaradılmasını və qorunmasını bir məqsəd kimi qarşıya qoyur və bu məqsədi gəlir götürməkdən daha üstün tutur. İqtisadiyyatın hər hansı bir sahəsi, təşkilat və hətta şirkət səviyyəsində tətbiq edilən müasir idarəetmə texnologiyaları sosial məsuliyyətli fəaliyyəti birinci, iqtisadi səmərəliliyi, gəlir əldə edilməsini isə ikinci yerə qoyur. Elə fəaliyyət ən optimal hesab edilir ki, hər iki istiqamətdə uğura nail olunsun: fəaliyyət həm sosial məsuliyyətli, həm də iqtisadi baxımdan gəlirli olsun. Bu səviyyədə idarəçiliyin təmin olunması yüksək bilik, bacarıq və hətta eyni istiqamətdə biliklərin fasiləsiz yenilənməsini tələb edir.

İqtisadi və sosial, fərdi və ictimai maraqlar arasında tarazlığın təmin edilməsi korporativ sosial məsuliyyətli siyasətin planlaşdırılmasının və idarə olunmasının əsas prinsipidir. Bu prinsipin təmin edilməsi xeyli çətin olsa da, hər bir milli və yaxud transmilli korporasiyanın və yaxud şirkətin tanınması və şöhrətlənməsi, ictimaiyyətlə əlaqələr qurulması üçün olduqca önəmlidir. Bu isə öz növbəsində sosial məsuliyyətli idarəetmə prinsiplərini tətbiq edən qurumların şöhrətini artırır, onlara azad rəqabətdə əlavə imtiyazlar yaradır. Göstərilən amillərin təsiri nəticəsində korporasiya və yaxud şirkət daha da güclənir, onun iqtisadi imkanları artır, onun sosial məsuliyyətli fəaliyyətinin daha da gücləndirilməsi üçün əlavə imkanlar yaranır.

Hər hansı bir toplumun fəaliyyətinə, onun inkişafına dair qərar qəbuletmə prosesində hər bir fərdin fəal iştirakı onun şəxsi haqqıdır və ümumi insan hüquqlarının vacib tərkib hissəsidir. Bu istiqamətdə uğurlu fəaliyyət vətəndaşların ictimai birliklərinin yaradılması yolu ilə də həyata keçirilə bilər. Hazırkı dövrdə davamlı insan inkişafına dair ictmai birliklərin yaradılması və onların fəaliyyəti demokratiya və idarəetmədə iştirakın ən müasir istiqamətlərindən biridir. Qərarların qəbulu zamanı insan hüquqlarının təmin olunmasına, davamlı insan inkişafına yönəldilmiş korporativ sosial məsuliyyətli siyasətin həyata keçirilməsi bu proseslərin təşkilatlanması üçün xüsusi qurumların yaradılması və yaxud mövcud qurumların fəaliyyət istiqamətlərinin genişləndirilməsi zərurətini gündəmə gətirdi. Yaşayış yerlərində qeyri-hökumət təşkilatlarının yaradılması, onların insan inkişafı istiqamətindəki fəaliyyəti eyni zamanda insan hüquqlarının təmin edilməsinə də xidmət edir.

# 9. AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFI

*İnsan inkişafı ölkənin prioriteti kimi. BMT-nin Azərbaycan Respublikasında İnsan inkişafı haqqında hesabatları. İnsan inkişafı haqqında hesabatların əsas mövzuları və onların insan inkişafına təsiri. "Qara qızıl"ın insan potensialına çevrilməsi siyasəti. Kreativ millətin formalaşmasında insan potensialının rolu. İnsan potensialı və "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası.*

**Mündəricat:**

**9.1.** Bölmənin məqsədi
**9.2.** Açar anlayışlar
**9.3.** İnsan inkişafı ölkənin prioriteti kimi

## *9.1. Bölmənin məqsədi*

Hazırkı kitabın öncəki bölmələrində təqdim olunmuş məlumatlardan aydın olur ki, qlobal, ölkə və fərdi səviyyələrdə qazanılmış uğurların arxasında insan inkişafının səviyyəsi, onun bilik və bacarığı durur. Azərbaycan Respublikasında insan potensialının inkişafı hər zaman ölkənin əsas prioritetini təşkil etmişdir. Azərbaycan Respublikasında insan inkişafının monitorinqi müstəqillik qazanıldıqdan sonra başlamışdır. Bu proses sahəni təhlil edən milli hesabatların hazırlanması ilə həyata keçirilirdi. Müxtəlif illərdə dərc edilmiş milli hesabatlar, onlarda təqdim olunmuş təhlil və təkliflər ölkədə insan potensialının inkişafına müsbət təsir göstərmişdir. Bölmədə "qara qızılın" "insan qızılına" çevrilməsi, kreativ millətin formalaşması konsepsiyaları və onların tətbiqi ölkədə qazanılmış uğurların əsası kimi təqdim edilir.

## *9.2. Açar anlayışlar (bax: Terminlər lüğəti)*

*– Kreativlik.*

### *9.3. İnsan inkişafı ölkənin prioriteti kimi*

Öncəki fəsillərdə göstərildiyi kimi, müasir dövrdə strateji önəm daşıyan tükənməyən və daim təkmilləşən təbii sərvətlər arasında ən böyük əhəmiyyətə malik olanı və ən dəyərlisi insan potensialıdır. İnsan amili hər zaman inkişafın həlledici amili kimi çıxış edib və etməkdədir. Təqdim edilmiş təhlillər əsasında aydın olur ki, son zamanlar ölkələrin inkişafı, əhalinin həyat səviyyəsi və rifahı cəmiyyətdə əhalinin bilik və bacarıqlarından asılıdır. Bu da insan amilinin vacibliyini bir daha ön plana çıxarıb. Elə inkişafda yüksək nəticələr əldə etmiş ölkələrin təcrübəsinin təhlili əsasında da eyni qənaətə gəlmək olar.

Bəllidir ki, idarəetmə və istehsal sahələrində qazanılmış nailiyyətlər, ölkənin nüfuzu və rəqabət qabiliyyəti istifadə edilən elmi yanaşmalardan və tətbiq olunan müasir texnologiyalardan asılıdır. Bu bilik və texnologiyaların yaradıcısı, onları təkmilləşdirən və tətbiq edən isə insandır. Eyni səbəbdən dünyada insanı inkişafın mərkəzinə qoymaq, bu prosesi insana doğru yönləndirmək, göstərilən istiqamətdə mövcud olan problemləri aşmaq və mənəvi təkmilləşməyə yol açmaq prioritetdir.

Xüsusi ilə qeyd edilməlidir ki, vaxtilə ümummilli lider Heydər Əliyev də insan potensialını bütün sahələrdə və hər zaman inkişafın aparıcı lokomotivi, mərkəzi və həlledici amili kimi müəyyənləşdirib. Onun təşəbbüsü ilə hələ keçən əsrin 70-ci illərindən başlayaraq hər il minlərlə azərbaycanlı gəncin keçmiş Sovet İttifaqının aparıcı ali mülki və hərbi məktəblərinə göndərilməsi bunun bariz təsdiqidir. O zaman həmin gənclərin ixtisas seçiminə də xüsusi diqqət yetirilirdi. Azərbaycandan olan gənclər müxtəlif, o cümlədən ən müasir istiqamətli və ən nüfuzlu ali məktəblərə göndərilirdi. Təhsil almaq üçün göndərilmiş tələbələr hər zaman diqqət mərkəzindədirlər.

Müasir dövrdə bu siyasət uğurla davam və inkişaf etdirilir. Ölkə Prezidenti İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət nəticəsində ölkədə təhsilin səviyyəsinin yüksəlməsi ilə yanaşı, gənclərimizin xaricdə təhsil imkanları daha da genişlənmişdir. Bu, ilk növbədə, seçim imkanlarının genişlənməsi ilə əlaqədardır. Sovet İttifaqı dövründən fərqli olaraq, hazırda gənclərimiz ölkə, ali məktəb, ixtisas seçimində daha geniş imkanlara malikdirlər və bundan bəhrələnirlər.

## *9.4. BMT-nin Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında hesabatları*

Müstəqillik qazanmış Azərbaycan Respublikasında müasir anlamda insan inkişafı ilə bağlı vəziyyətin fasiləsiz monitorinqinin aparılması, təhlil və qiymətləndirmələr əsasında insan inkişafı prosesinin idarə edilməsi ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Onun təşəbbüsü ilə Azərbaycan Respublikasında BMT-nin İnkişaf Proqramı ilə birlikdə insan inkişafı haqqında ilk hesabatlar hazırlanmışdır. Bu layihə əsasında insan potensialının inkişafının ölkədəki vəziyyətinin təhlilinə 1994-cü ildən başlanmışdır. Ölkə və BMT-nin rəhbərliyinin qərarı ilə bu layihənin həyata keçirilməsi hazırkı kitabın müəllifinə tapşırılmışdı.

Qeyd etmək lazımdır ki, bu layihə həm qlobal miqyasda, həm də milli səviyyədə yeni idi. İnsan inkişafı konsepsiyası nəzəri cəhətdən işlənilirdi və onun praktiki tətbiqi üçün yeni anlayışlar və yeni terminlər formalaşırdı. Yeni terminologiya ilk dəfə ingilis dilində yaransa da, aydın idi ki, onun digər dillərdə qarşılamaları yaradılmalıydı. Bu isə elə bir şəraitdə mümkün idi ki, ölkə əhalisi və ilk növbədə, qərar qəbul edənlər və mütəxəssislər insan inkişafı konsepsiyasının fəlsəfəsi və mahiyyəti barəsində məlumatlı olsunlar. Ümumiyyətlə, bütün əhalinin bu sahədə məlumatlandırılması da layihənin uğurlu tətbiqinin vacib bir amili kimi qəbul edilirdi. İnsan inkişafına dair terminologiyanın müzakirəsində və təkliflərin hazırlanmasında hökumət nümayəndələri ilə yanaşı, müxtəlif ekspertlər iştirak edirdilər. Onlar Milli Elmlər Akademiyasını, ali və orta məktəbləri, jurnalist və digər yazarlar qurumlarını, iqtisadiyyatın müxtəlif sahələrini təmsil edirdilər. Eyni zamanda QHT təmsilçilərinin, bu sahəni bilən müstəqil ekspertlərin fikirləri də öyrənilirdi və nəzərə alınırdı. Hazırda davamlı insan inkişafına dair istifadə olunan terminologiyanın əsası məhz o zaman qoyulmuşdur.

İnsan inkişafına dair ölkədə ilk hesabatın hazırlanmasının təşkili məqsədilə birinci mərhələ kimi qərar qəbul edənlər və mütəxəssislər üçün xüsusi təlimat, seminar və treninqlərin keçirilməsi zərurəti yaranmışdı. Təlimlər və göstərilən istiqamətlərdə digər fəaliyyətin həyata keçirilməsi BMT tərəfindən təşkil edilmişdi. Təlim və seminarların gedişində bu yeni sahədə mövcud bilgilər, hesabatların hazırlanma texno-

logiyaları və digər önəmli məsələlərin izahı dünyada tanınmış mütəxəssislər və milli ekspertlər tərəfindən həyata keçirilirdi. İnsan inkişafının qiymətləndirilməsi üçün istifadə edilən əmsallar haqqında məlumatlar, onların yerinə yetirilməsi texnologiyaları da təlimlərin bir istiqaməti idi. Paralel olaraq əhalinin insan inkişafı sahəsində məlumatlandırılması məqsədilə geniş təbliğat işlərinə başlanılmışdır. Vətəndaş cəmiyyətinin bu prosesdə böyük əhəmiyyət daşıdığını nəzərə alaraq, qeyri-hökumət təşkilatları (QHT-lər) da bu prosesin fəal iştirakçılarına çevrilmişdilər. İnsan inkişafında gender bərabərliyinə xüsusi diqqət əlaməti kimi QHT-lər arasında bu prosesə, ilk növbədə, qadın təşkilatları, gənclər və ətraf mühitlə bağlı qurumların təmsilçiləri cəlb edilmişdi. Göründüyü kimi, Azərbaycan Respublikasında 1994-cü ildən insan inkişafı ilə bağlı bilik və bacarıqların formalaşması prosesi artıq start götürmüşdü.

Azərbaycan Respublikasının BMT ilə birgə hazırladığı bu hesabatın ilk olması onun mövzusunu müəyyənləşdirmişdi. Birinci hesabat, ilk növbədə, yeni inkişaf konsepsiyasının mahiyyətinin izah və təhlilinə həsr edilmişdi. Belə yanaşmanın nəticəsi kimi ölkənin üzləşdiyi konseptual və strateji məsələlər hesabatda təhlil və şərh edilirdi. İqtisadi və sosial sahələrdə qarşıda duran məsələlərlə yanaşı, hesabatda Azərbaycan ərazisinin 20 faizinin erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi, ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkünlərin olması, onların vəziyyəti haqqında məlumatlar dərc edilib beynəlxalq ictimaiyyətə çatdırılırdı. Qeyd etmək lazımdır ki, bu mövzu Azərbaycan Respublikasının insan inkişafına həsr edilmiş bütün hesabatlarında hər zaman xüsusi yer tutmuşdur. BMT-nin Azərbaycanda insan inkişafına aid ilk milli hesabatı 1995-ci ildə dərc edilmişdir. Onun ölkə ictimaiyyəti və beynəlxalq təşkilatlara təqdimatı ümummilli lider Heydər Əliyev tərəfindən şəxsən həyata keçirilmişdir.

Qeyd edilməlidir ki, insan potensialının formalaşdırılmasının təşkili və idarə edilməsi sahəsində müstəsna bilik, bacarıq və təcrübəyə malik olan, bu sahədə hələ Sovet İttifaqı dövründə olduqca önəmli işlər görən ümummilli lider Heydər Əliyev yenicə müstəqillik qazanmış ölkədə gerçəkləşdirilən bu beynəlxalq əhəmiyyətli layihəyə xüsusi diqqət ayırırdı. Bunun nəticəsində BMT-nin Azərbaycanda İnsan İnkişafına dair 1996-cı il hesabatı dünyada ən uğurlu, inkişaf prosesinin nəzəriyyəsi və praktikasına yenilik gətirən hesabatlar sırasına daxil edilmişdir. O za-

mandan Azərbaycanda insan potensialının zənginləşdirilməsi ölkə inkişafının əsas prioritetinə çevrilib. Elə bu səbəbdən də ölkədə insan potensialı inkişafının göstəricisi olan insan inkişafı indeksi ilbəil artmaqdadır. Artıq BMT tərəfindən qəbul olunmuş təsnifata əsasən, Azərbaycan Respublikası 2010-cu ildən insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil edilib. Həmin zamana qədər ölkə beynəlxalq təşkilatlar tərəfindən insan inkişafı sahəsində orta göstəricilərə nail olmuş ölkələr qrupuna aid edilirdi.

BMT-nin 2015-ci ildə dərc etmiş hesabatına əsasən Azərbaycanda İnsan İnkişafı Əmsalının artımı dünya və insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələrdən daha sürətli olmuşdur (şəkil 9.27).




***Şəkil 9.27.*** *İnsan İnkişafı Əmsalının artımı, 2000–2014. 1 – Azərbaycan Respublikası, 2 – dünya (orta), 3 – insan inkişafında yüksək nəticələr əldə etmiş ölkələr (orta)*

*Mənbə: Human Development Report, UNDP, New York, 2015.*

Şəkil 9.27.-dən göründüyü kimi, 2000-ci ildə BMT-nin qiymətləndirmələrinə əsasən Azərbaycan Respublikasında İnsan İnkişafı Əmsalı həm dünya, həm də insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələrin orta göstəricilərindən aşağı idi. Lakin ölkədə insan inkişafına

yönəldilmiş siyasətin keçirilməsi nəticəsində artıq 2010-cu ildə Azərbaycanın göstəriciləri həm dünyanın, həm də aid olduğu insan inkişafında yüksək nəticələr əldə etmiş ölkələrin orta göstəricilərindən yuxarı olmuşdur. Bu tendensiya bu gün də müşahidə edilməkdədir.

İnsan inkişafı sahəsində əldə edilmiş yüksək nəticələr ölkədə həyata keçirilən müasir təhsil strategiyası ilə bağlıdır. Artıq qeyd edilmişdir ki, ölkənin təhsil strategiyasına görə, Azərbaycan Respublikasında davamlı insan inkişafı fənninin orta ümumtəhsil məktəblərinin proqramlarına daxil edilməsi prosesinə 2001-ci ildə start verilib. 2003-cü ildən ölkənin Təhsil Nazirliyinin 175 və 688 nömrəli əmrləri əsasında orta məktəblər üçün davamlı insan inkişafına dair dünyada ilk tədris proqramı və dərs vəsaiti dərc edilib. Bu sahədə Azərbaycanın birinciliyi barədə məlumat BMT-nin Baş Qərargahı (Nyu-York) tərəfindən 19 dekabr 2005-ci ildə dünyaya yayılıb. Qlobal miqyasda isə bu prosesə 4 il sonra – 2005-ci il martın 1-də BMT Baş katibi Kofi Annan və UNESCO-nun Baş direktoru Koişiro Matsuura arasında imzalanan sənədlə təkan verilib.

Qeyd etmək lazımdır ki, insan potensialının inkişafına əsaslanan innovativ tərəqqi bu gün də ölkənin əsas prioritetidir. Azərbaycan Respublikası bu sahədə qabaqlayıcı siyasəti uğurla həyata keçirməkdədir. Buna misal olaraq 2015-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Nazirlər Kabinetinin qərarı ilə ölkədə ali təhsilin bakalavr və magistr səviyyələrində yeni ixtisasın – "davamlı inkişafın idarəedilməsi"nin daxil olunmasını göstərmək mümkündür. Bu, dünyada ilk təşəbbüsdür və BMT-nin 2015-ci ilin sentyabr ayında baş tutmuş Baş Assambleyasının toplantısından və eyni zamanda keçirilmiş Dünya Sammitindən öncə baş vermişdir.

### *9.5. İnsan inkişafı haqqında hesabatların əsas mövzuları və onların inkişafa təsiri*

Azərbaycanda İnsan İnkişafı Haqqında Hesabatlar müxtəlif illərdə fərqli sahələrin təhlilinə, onların vəziyyətinin qiymətləndirilməsi və inkişaf potensialının müəyyənləşdirilməsinə yönəldilmişdir. Məsələn, 1996-cı il BMT tərəfindən dünyada yaşayış yerləri ili elan edilmişdi. Bu səbəbdən müxtəlif ölkələrdə hazırlanmış milli hesabatlar yaşayış yerlərinə və onların insan potensialının inkişafına təsirinə həsr olunmuşdu.

Azərbaycan Respublikasının hesabatında, ilk növbədə, qaçqın və məcburi köçkünlərin düşdüyü vəziyyət təhlil edilirdi və BMT-nin bu istiqamətdə qərarlarının qeyd-şərtsiz yerinə yetirilməsi tövsiyə olunurdu. Bununla yanaşı, yaşayış məskənlərinin inkişafının insan potensialından asılılığı diqqətə çatdırılırdı. Hesabatdan sonra BMT-nin terminologiyasına bir neçə yeni termin daxil edildi. Onlardan biri "texnoloji geriləmə ilə inkişaf" idi. Bu, gələcəksiz inkişafın bir istiqamətidir və onun mahiyyəti əvvəlki bölmələrdə izah olunmuşdur. Digər termin isə "gen axını" idi. Bu terminin bəzi hallarda "beyin axını" termininin yerinə işlədilməsi təklif edilmişdi.

2002-ci ilin hesabatı yoxsulluğa həsr edilmişdi. Ölkə ərazisinin 20 %-nin işğal altında olduğunu, bir milyona yaxın vətəndaşın qaçqın və məcburi köçkün statusu daşıdığını əks etdirən bu hesabatda eyni zamanda ölkədə yoxsulluq ilə mübarizə sahəsində həyata keçirilən siyasət barədə geniş materiallar təqdim edilmişdi. Sözügedən siyasətin uğurları artıq göz qabağındadır. Beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə, yoxsulluq 2001-ci ildə 49,6 faizdən 2015-ci ildə 5 faizə enib. Eyni zamanda ***Enqelin qanununa*** uyğun olaraq, fərd, ailə, ümumiyyətlə, ev təsərrüfatlarının ümumi xərclərində ərzaq məhsulları üçün ayrılan vəsaitin payının kəskin azalması ölkədə əhalinin maddi durumunun durmadan artmasından xəbər verir. Məlum olduğu kimi, ümumi xərclər arasında ərzaq məhsulları üçün sərfiyyatın ümumi xərclər arasında payının yüksək olması yoxsulluq və maddi məhrumiyyətlərin göstəricisidir. Bu nailiyyətlərin qazanılmasında ölkədə insan potensialının inkişafına ayrılan diqqət xüsusi əhəmiyyət daşıyır.

Yoxsulluqla mübarizə beynəlxalq səviyyədə əsas məqsədlərdəndir. Təsadüfi deyil ki, XX əsrin başlanğıcında qəbul edilmiş Minilliyin İnkişaf Məqsədlərində, indi isə 2015–2030-cu illər üçün gündəlikdə duran məsələlər arasında yoxsulluqla mübarizə ən aktual problem kimi qalmaqdadır. Azərbaycan Respublikasında bu istiqamətdə qazanılmış nailiyyətlər bu sahədə aparılan siyasətin nə dərəcədə uğurlu olmasından xəbər verir. BMT-nin hesabatlarında təqdim olunmuş və ölkə tərəfindən ardıcıllıqla həyata keçirilən siyasət beynəlxalq səviyyədə örnək ola bilər.

Digər bir misal informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı və tətbiqi ilə əlaqədardır. Azərbaycan Respublikasının BMT ilə birgə hazırladığı 2003-cü ilə aid İnsan İnkişafı haqqında hesabat İKT-yə,

bu istiqamətin ölkənin inkişafına təsirinə həsr edilmişdir. Ölkə rəhbərliyinin bu sahədə həyata keçirdiyi ardıcıl siyasət göstərilən istiqamətin böyük əhəmiyyət daşıdığını bir daha sübut etdi. Buna misal kimi ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə 2013-cü ilin İKT ili elan edilməsi, Azərbaycanın ilk milli peykinin orbitə çıxarılması, məktəblərin sürətli kompüterləşdirilməsi və s. göstərmək olar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının həyata keçirdiyi strateji siyasət bir də onunla əlaqədardır ki, dövlətin inkişaf proqramları milli proqramlara çevrilir və onların icrasında həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti və fərdi sektor iştirak edir. İdarəetməyə belə müasir yanaşma hər hansı bir layihənin uğurunu təmin edir. Bu istiqamətdə Heydər Əliyev Fondu, onun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın fəaliyyəti xüsusi qeyd edilməlidir. Məsələn, "Yeniləşmiş Azərbaycana yeni məktəb" proqramı, görmə qabiliyyətinə görə xüsusi qayğıya ehtiyacı olan tələbə və gənclər üçün İKT-dən istifadə imkanlarının yaradılması təşəbbüsü də diqqətəlayiqdir. Ümumiyyətlə qeyd edilməlidir ki, Heydər Əliyev Fondu Azərbaycanın dünya miqyasında tanıdılması sahəsində misilsiz başlanğıclara və önəmli layihələrə imza atmışdır.

### *9.6. Azərbaycan Respublikasında "qara qızıl"ın insan potensialına çevrilməsi siyasəti*

Son illər respublikamızda həyat sürətlə dəyişir, insanların rifahı yaxşılaşır, yeni-yeni iqtisadi və sosial layihələr həyata keçirilir, paytaxtda, bölgələrdə genişmiqyaslı tikinti-abadlıq işləri aparılır. Yeni yaranan sənaye, aqrar və xidmət müəssisələri, tikilən binalar, nəhəng körpülər, rahat yollar müstəqil Azərbaycanın getdikcə artan iqtisadi qüdrətindən xəbər verir. Bütün ölkə boyu elm, təhsil, sağlamlıq, o cümlədən idman müəssisələrinin yaradılması, onların fəaliyyətinin yeni səviyyədə təşkili iqtisadi imkanların ölkənin uzunmüddətli inkişafına hədəflənməsini, dövlət siyasətinin innovativ əsasda qurulmasını və sosialyönümli olmasını göstərir. Bu gün Azərbaycan Respublikası müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatlarını uğurla davam etdirir. Azərbaycanın XXI əsrdə innovativ modernləşmə mərhələsinə keçidini, cəmiyyətin zamanın

ruhuna uyğun olan yeni duruma transformasiyasını daha da sürətləndirəcək istiqamətlər və prioritetlər müəyyənləşdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu idarəetmə strategiyasının nəticəsidir ki, hazırda dünyada baş vermiş böhran şəraitində də ölkə stabil inkişaf edir.

İnsan potensialının inkişafı baxımından təhsil ilə yanaşı, əmək bazarının formalaşması və məşğulluğun təşkili də olduqca əhəmiyyətlidir. Azərbaycan Respublikasında bu istiqamətdə həyata keçirilən siyasətin əsas istiqamətləri şəkil 9.28.-də təqdim olunub.




***Şəkil 9.28.*** *İnsan inkişafında məşğulluğun və əməyin təşkili: Azərbaycan Respublikasının təcrübəsi*

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında məşğulluq və əmək bazarının təşkili sahəsində həyata keçirilən siyasət eyni zamanda 2015-ci ildə BMT Baş Assambleyası və Dünya Sammitində 2030-cu il üçün hədəflənmiş Davamlı İnkişaf Məqsədlərinə nail olmaq baxımından olduqca əhəmiyyətlidir.

Göründüyü kimi, Azərbaycan Republikasıınn son illərdə insan inkişafı sahəsində qazandığı uğurların əsasında müasir və innovativ idarəetmə texnologiyalarının tətbiqi durur. Davamlı insan inkişafı naminə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və fərdi sektorun vahid milli proqramlar və layihələr çərçivəsində birgə fəaliyyət göstərməsi əldə edilmiş və gələcək uğurların təminatçısıdır. Ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" proqramı davamlı inkişafın təmin edilməsində vacib yeni mərhələdir.

### *9.7. Kreativ millətin formalaşdırılmasında insan inkişafının rolu*

Uğurlu inkişafın əsasında insan faktoru durur və bu amil hər zaman cəmiyyətin tərəqqisini innovasiyalar ilə təmin edən əsas və əvəzsiz amildir. Yer kürəsində əhalinin sayı sürətlə artır, adambaşı istehlak isə yüksəlməkdədir. Eyni zamanda insanların tələbatını ödəmək üçün təbii ehtiyatlar da olduqca məhduddur. Belə bir şəraitdə inkişafın davamlılığı və onun yüksək səviyyədə təmin edilməsi yalnız kreativlik hesabına təmin edilə bilər. Bu isə yeni ideyaların formalaşması, onların elmi əsaslarının tədqiqi və praktikada istifadə yollarını müəyyən etməkdən keçir. 2015-ci ildə BMT-nin Baş Assambleyası və Davamlı İnkişaf Sammitində 2030-cu il üçün hədəflənmiş məqsədlərə yalnız yüksək kreativlik şəraitində nail olmaq mümkündür.

İnnovativ inkişafın planlaşdırılması və idarəedilməsi baxımından akademik Ramiz Mehdiyevin "XXI əsrdə Azərbaycan ideyası kreativ insanlar milləti kontekstində" fundamental əsəri olduqca əhəmiyyətlidir. Bu əsərdə göstərilir ki, hər hansı bir sosial-iqtisadi modelin yaradılmasından asılı olmayaraq, insan potensialının istifadəsi ilə bağlı planlaşdırma böyük əhəmiyyət daşıyır. Əsərdə qeyd olunur ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu strategiya, Prezident İlham Əliyevin siyasi kursu Azərbaycanın XXI əsrdə innovativ modernləşmə mərhələsinə keçidini, cəmiyyətin zamanın ruhuna uyğun olan yeni duruma transformasiyasını

daha da sürətləndirəcək istiqamətlər və prioritetləri müəyyənləşdirib. Müəllifin fikrincə, uğurlu inkişafa başlıca hərəkətverici qüvvə insan potensialının inkişaf səviyyəsi və insanların kreativliyidir. Bu zaman yeni bilik bazasında yeni praktik formaların yaradılması ən əhəmiyyətli məqsədlərdəndir. Onun fikrincə, Azərbaycan dövləti qarşısında duran ən vacib həll edilməli məsələ ölkənin modernləşməsi və rəqabət qabiliyyətinin artırılması üçün zəruri insan kapitalı yaratmaqdan ibarətdir. Əslində, «İnsan kapitalı» prinsipinin bütün dünyada geniş tətbiq olunduğu bir dövrdə bütün sahələrdə, xüsusilə də dövlət idarəçiliyində güclü milli kadr ehtiyatlarının olmasının zəruriliyi və bu sahədə peşəkar insan ehtiyatının hər bir ölkənin sərvəti hesab edilməsi faktdır. Bu baxımdan düzgün aparılan kadr siyasəti həm də bir növ ölkənin strateji ehtiyatlarının idarə edilməsi deməkdir. Təsadüfi deyil ki, idarəetmədə zəngin biliyi və təcrübəsi olan ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki islahatlarının vacib bir istiqamətini də müstəqil dövlətin qarşıya qoyduğu vəzifələri həyata keçirə biləcək kadrların hazırlanması təşkil edirdi.

Azərbaycan dövlətinin həyatında keyfiyyətcə yeni mərhələyə yol açan cənab Prezident İlham Əliyevin "qara qızılı" "insan qızılına" çevirək konsepsiyası innovativ inkişafın və sosial rifahın təminatçısıdır. Hazırda qara qızılın – neftin dünyada qiymətlərinin kəskin azalması şəraitində kreativlik olduqca böyük əhəmiyyət daşıyır. İnnovativ inkişaf ölkənin prioriteti olduğundan bu gün dünyada baş verən iqtisadi böhranların Azərbaycan Respublikasına təsiri nisbətən az olmuşdur. İnsan inkişafı vasitəsi ilə cəmiyyətin kreativliyinin artırılması ölkənin davamlı inkişafının təminatçısı kimi çıxış edir. Ölkədə həyata keçirilən inkişaf konsepsiyası, 2030-cu il üçün planlaşdırılmış "Davamlı inkişaf Məqsədləri" sənədlərində nəzərdə tutulmuş məqsədlərə nail olunması prosesi kreativ cəmiyyətin formalaşması ilə bilavasitə əlaqədardır.

## *9.8. Özümüzü sınayırıq*

**9.8.1. Özümüzü sınayırıq suallar:**

1. İnsan inkişafının ölkənin prioriteti olmasının əsasında hansı proseslər durur?
2. Azərbaycan Respublikasında BMT-nin İnsan İnkişafı haqqında hesabatlarının hazırlanması necə təşkil edilib?

3. Azərbaycan Respublikasında İnsan İnkişafı göstəriciləri necə dəyişib?
4. Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında hesabatlar ölkənin inkişafına necə təsir göstərib?
5. İnsan potensialının inkişafı kreativ inkişafa necə təsir göstərə bilir?

**9.8.2. Özümüzü sınayırıq cavablar:**

**1. İnsan inkişafının ölkənin prioriteti olmasının əsasında hansı proseslər durur?**

Artıq məlumdur ki, uğurlu inkişafın əsasında insan potensialı durur. Öncəki bölmələrdə təqdim olunmuş məlumatlardan aydın olur ki, nə ölkənin qədim tarixi və yaxud zəngin təbii ehtiyatları uğurlu inkişafın təminatçısı kimi çıxış edə bilməzlər. Müxtəlif tarixə, fərqli təbii ehtiyatlara malik olan ölkələrin inkişaf göstəricilərinin müqayisəsi bunu sübut edir. Dini, milli, irqi və yaxud hər hansı bir digər amil inkişafı təmin etmir. İnkişaf yalnız insan potensialının yüksək səviyyədə olması şəraitində mümkündür.

Bəlli olduğu kimi, insan inkişafının əhəmiyyəti bir elmi konsepsiya kimi XX əsrin son onilliklərində formalaşmışdır. İnsan inkişafının tərəqqidə həlledici rol oynamasına dair qlobal miqyaslı hesabatların hazırlanması BMT tərəfindən XXI əsrin son onilliyində baş tutmuşdur. ABŞ-da BMT üçün çalışan Pakistan mənşəli alim ***Məhbub ul-Haqqın*** rəhbərliyi ilə dünyada qlobal miqyasda ilk İnsan İnkişafı haqqında Hesabat dərc edilmişdir.

Azərbaycanda hələ bu tarixdən öncə həyata keçirilən siyasət ona əsaslanırdı ki, idarəetmə və istehsal sahələrində qazanılmış nailiyyətlər, ölkənin nüfuzu və rəqabət qabiliyyəti istifadə edilən elmi yanaşmalardan və tətbiq olunan müasir texnologiyalardan asılıdır. Eyni zamanda aydındır ki, bu bilik və texnologiyaların yaradıcısı, onları təkmilləşdirən və tətbiq edən də insanlardır. Eyni səbəbdən dünyada insanı inkişafın mərkəzinə qoymaq, bu prosesi insana doğru yönləndirmək, göstərilən istiqamətdə mövcud olan problemləri aşmaq və mənəvi dirçəlişə yol açmaq ölkənin hər zaman prioriteti olmuşdur. Ümummilli lider Heydər Əliyev insan potensialını bütün sahələrdə və hər zaman inkişafın aparıcı lokomotivi, mərkəzi və həlledici amili kimi müəyyənləşdirib. Onun təşəbbüsü ilə hələ keçən əsrin 70-ci illərindən başlayaraq hər il minlərlə

azərbaycanlı gəncin keçmiş Sovet İttifaqının aparıcı ali mülki və hərbi məktəblərinə göndərilməsi bunun bariz təsdiqidir. O zaman həmin gənclərin ixtisas seçiminə də xüsusi diqqət yetirilirdi. Azərbaycandan olan gənclər müxtəlif, o cümlədən ən müasir istiqamətli və ən nüfuzlu ali məktəblərə göndərilirdi. Xaricdə oxumağa göndərilmiş tələbələr hər zaman diqqət mərkəzində olurdular. Ulu öndər Heydər Əliyev öz səfərləri zamanı onlarla mütəmadi görüşlər keçirirdi və onların qayğıları ilə maraqlanıb, müvafiq tədbirlər həyata keçirirdi. Bu uzaqgörən siyasətin nəticələri göz qarşısındadır.

Müasir dövrdə bu siyasət uğurla davam və inkişaf etdirilir. Ölkə Prezidenti İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasət nəticəsində ölkədə təhsilin səviyyəsinin yüksəlməsi ilə yanaşı, gənclərimizin xaricdə təhsil imkanları daha da genişlənmişdir. Bu, ilk növbədə, seçim imkanlarının genişlənməsi ilə əlaqədardır. Sovet İttifaqı dövründən fərqli olaraq, hazırda gənclərimiz ölkə, ali məktəb, ixtisas seçimində daha geniş imkanlara malikdirlər və bundan bəhrələnirlər. İnsan potensialının inkişafının milli səviyyədə prioritet olması bu prosesdə ictimai təşkilatların geniş iştirakı ilə təsdiqlənir. Bu sahədə Heydər Əliyev Fondunun, fondun prezidenti UNESCO və ISESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın rolu xüsusi qeyd edilməlidir. Azərbaycan Respublikasında insan potensialının inkişafı sahəsində bu gün əldə edilən yüksək nailiyyətlər bu siyasətin həyata keçirilməsinin nəticəsidir.

**2. Azərbaycan Respublikasında BMT-nin İnsan İnkişafı haqqında hesabatlarının hazırlanması necə təşkil edilib?**

İnsan potensialının inkişafı sahəsində təcrübəyə malik olmasına baxmayaraq, Azərbaycan Respublikasında inkişafın qiymətləndirilməsi zamanı insan inkişafı göstəricilərdən istifadə etmək təcrübəsi mövcud deyildi. Məlum olduğu kimi, ölkənin inkişafda qazandığı nailiyyətləri qiymətləndirmək üçün bir sıra yeni göstəricilərin istifadə edilməsi təklif edilmişdi. İnsan inkişafı əmsalı, gender inkişafı əmsalları, yoxsulluq və digər məhrumiyyətləri səciyyələndirən göstəricilər yeni idi. İnsan inkişafı göstəricilərinin istifadəsi və onun praktiki tətbiqi üçün yeni anlayışlar və yeni terminlər formalaşırdı. Yeni terminologiya ilk dəfə ingilis dilində yaransa da, aydın idi ki, onun digər dillərdə, o cümlədən Azər-

baycan dilində də qarşılamaları yaradılmalıydı. Bu isə elə bir şəraitdə mümkün idi ki, ölkə əhalisi və ilk növbədə, qərar qəbul edənlər və mütəxəssislər insan inkişafı konsepsiyasının fəlsəfəsi və mahiyyəti barəsində məlumatlı olsunlar. İnsan inkişafına dair terminologiya, onların mahiyyətinin müzakirəsində və təkliflərin hazırlanmasında hökumət nümayəndələri ilə yanaşı, müxtəlif ekspertlər iştirak edirdilər. Onlar Milli Elmlər Akademiyasını, ali və orta məktəbləri, jurnalist və digər yazarlar qurumlarını, iqtisadiyyatın müxtəlif sahələrini təmsil edirdilər. Eyni zamanda QHT təmsilçilərinin, bu sahəni bilən müstəqil ekspertlərin fikirləri də öyrənilirdi və nəzərə alınırdı. Hazırda davamlı insan inkişafına dair istifadə olunan terminologiyanın əsası məhz o zaman qoyulmuşdur. Bunun nəticəsində Azərbaycan Respublikasında 1994-cü ildən insan inkişafı ilə bağlı bilik və bacarıqların formalaşması prosesi artıq əsasən bitmiş idi.

BMT-nin Azərbaycanda insan inkişafına aid ilk milli hesabatı 1995-ci ildə dərc edilmişdir. Onun ölkə ictimaiyyəti və beynəlxalq təşkilatlara təqdimatı ümummilli lider Heydər Əliyev tərəfindən şəxsən həyata keçirilmişdir. BMT-nin Azərbaycanda İnsan İnkişafına dair 1996-cı il üçün hazırlanmış hesabatı dünyada ən uğurlu, inkişaf prosesinin nəzəriyyəsi və praktikasına yenilik gətirən hesabatlar sırasına daxil edilmişdir. O zamandan Azərbaycanda insan potensialının zənginləşdirilməsi ölkə inkişafının əsas prioritetinə çevrilib. Elə bu səbəbdən də ölkədə insan potensialı inkişafının göstəricisi olan insan inkişafı indeksi ilbəil artmaqdadır. Artıq BMT tərəfindən qəbul olunmuş təsnifata əsasən, Azərbaycan Respublikası 2010-cu ildən insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil edilib. Həmin zamana qədər ölkə beynəlxalq təşkilatlar tərəfindən insan inkişafı sahəsində orta göstəricilərə nail olmuş ölkələr qrupuna aid edilirdi.

### 3. Azərbaycan Respublikasında İnsan İnkişafı göstəriciləri necə dəyişib?

Artıq qeyd edildiyi kimi, Azəbaycan Respublikası insan inkişafı sahəsində əldə etdiyi nailiyyətlərə görə, 2010-cu ildə bu sahədə yüksək nəticələr əldə etmiş ölkələr qrupuna daxil olmuşdur. O zamana qədər ölkə insan inkişafı sahəsində orta nəticələr əldə etmiş ölkələr qrupuna aid idi. Bu nailiyyətin əldə edilməsində Azərbaycan Respublikasında

insan potensialının inkişafı sahəsində həyata keçirilən uğurlu siyasət durur. Lakin insan inkişafı sahəsində Azərbaycan Respublikasının nailiyyətləri XX əsrin 90-cı illərində nisbətən aşağıydı. Belə ki, 2000-ci ildə BMT-nin statistikasına əsasən, Azərbaycan Respublikasında insan inkişafı göstəriciləri həm orta dünya göstəricilərindən, həm də aid olduğu insan inkişafında yüksək nəticələr əldə etmiş ölkələrin orta göstəricisindən aşağı idi. 2000–2010-cu illər arasında ölkədə insan potensialının inkişafı sahəsində ardıcıl uğurlu siyasət aparılmışdır. Bəlli olduğu kimi, insan inkişafını səciyyələndirən əmsalların hesablanması zamanı sağlamlıq, təhsil və gəlirlərin vəziyyəti nəzərə alınır. Göstərilən onillikdə Azərbaycan Respublikasında təhsil müəssisələrinin yeniləşməsi prosesi geniş vüsət alıb. Eyni zamanda sağlamlıq üçün əhəmiyyətli olan müasir idman və sağlamlıq obyektləri yaradılıb, iqtisadiyyat uğurla inkişaf etdirilib. Azərbaycan Respublikasında bu istiqamətdə həyata keçirilən islahatlar və quruculuq işləri həm ümumdünya, həm də insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələrdən daha sürətli olub. Bunun nəticəsində insan inkişafı göstəriciləri yüksəkdir. Qeyd etmək lazımdır ki, ölkədə uğurlu sosial siyasət həyata keçirilir. Bunun yekunu kimi yoxsulluğun səviyyəsi aşağı düşmüşdür. Əhali arasında gəlirlərin ədalətli bölünməsi sahəsində də ölkə yüksək nəticələr əldə etmişdir. ***Cini əmsalı*** və ***Quintil*** əmsalına görə, Azərbaycan Respublikası bir sıra inkişaf etmiş "böyük yeddilik" (G7) və "böyük iyirmilik" (G20) qruplarına aid olan ölkələri geridə qoymuşdur.

### 4. Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında hesabatlar ölkənin inkişafına necə təsir göstərib?

Müxtəlif illərdə Azerbaycan Respublikasında insan inkişafı barəsində hesabatlar fərqli mövzulara həsr olunmuşdur. Mövzuların seçilməsi hesabatın hazırlanması zamanı hər hansı bir problemin həm dünya, həm də Azərbaycan Respublikası üçün aktuallığı ilə əlaqədar olurdu. Yalnız Azərbaycan–Ermənistan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizə qarşı təcavüz və işğal olunmuş torpaqlarımızın qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurasının qərarları, bu hadisə ilə əlaqədar olan qaçqın və məcburi köçkün problemləri bütün illik hesabatlarda müzakirə edilirdi. Qalan mövzular isə ilbəil fərqlənirdi. Məsələn, 1996-cı il BMT tərəfindən dünyada yaşayış məskənləri ili elan edilmişdi. Bu

səbəbdən müxtəlif ölkələrdə hazırlanmış milli hesabatlar yaşayış yerlərinə və onların insan potensialının inkişafına təsirinə həsr olunmuşdu. Bununla yanaşı, yaşayış məskənlərinin inkişafının insan potensialından asılılığı diqqətə çatdırılırdı. Azərbaycanda hazırlanmış hesabatdan sonra BMT-nin terminologiyasına bir neçə yeni termin daxil edildi. Onlardan biri "texnoloji geriləmə ilə inkişaf" idi. Bu, gələcəksiz inkişafın bir istiqamətidir və onun mahiyyəti əvvəlki bölmələrdə izah olunmuşdur. Digər termin isə "gen axını" idi. Bu terminin bəzi hallarda "beyin axını" termininin yerinə işlədilməsi təklif edilmişdi.

2002-ci ilin hesabatı yoxsulluğa həsr edilmişdi. Ölkə ərazisinin 20 %-nin işğal altında olduğunu, bir milyona yaxın vətəndaşın qaçqın və məcburi köçkün statusu daşıdığını əks etdirən bu hesabatda eyni zamanda ölkədə yoxsulluq ilə mübarizə sahəsində həyata keçirilən siyasət barədə geniş məlumatlar təqdim edilmişdi. Sözügedən siyasətin uğurları artıq göz qabağındadır. Beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə, yoxsulluq 2001-ci ildə 49,6 faizdən 2015-ci ildə 5 faizə enib. Eyni zamanda ***Enqelin qanununa*** uyğun olaraq, fərd, ailə, ümumiyyətlə, ev təsərrüfatlarının ümumi xərclərində ərzaq məhsulları üçün ayrılan vəsaitin payının nəzərəçarpan dərəcədə azalması ölkədə əhalinin maddi durumunun durmadan artmasından xəbər verir. Bu nailiyyətlərin qazanılmasında ölkədə insan potensialının inkişafına ayrılan diqqət xüsusi əhəmiyyət daşıyır.

Yoxsulluqla mübarizə beynəlxalq səviyyədə qəbul edilmiş əsas qlobal məqsədlərdəndir. Təsadüfi deyil ki, XX əsrin başlanğıcında qəbul edilmiş Minilliyin İnkişaf Məqsədlərində, indi isə 2015–2030-cu illər üçün gündəlikdə duran məsələlər arasında yoxsulluqla mübarizə ən aktual problem kimi qalmaqdadır. Azərbaycan Respublikasında bu istiqamətdə qazanılmış nailiyyətlər bu sahədə aparılan siyasətin nə dərəcədə uğurlu olmasından xəbər verir. BMT-nin hesabatlarında təqdim olunmuş və ölkə tərəfindən ardıcıllıqla həyata keçirilən siyasət beynəlxalq səviyyədə örnək ola bilər.

Digər bir misal informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı və tətbiqi ilə əlaqədardır. Azərbaycan Respublikasının BMT ilə birgə hazırladığı 2003-cü ilə aid İnsan İnkişafı haqqında hesabat İKT-yə, bu istiqamətin ölkənin inkişafına təsirinə həsr edilmişdir. Ölkə rəhbərliyinin bu sahədə həyata keçirdiyi ardıcıl siyasət göstərilən istiqa-

mətin böyük əhəmiyyət daşıdığını bir daha sübut etdi. Buna misal kimi ölkədə 2013-cü ilin İKT ili elan edilməsini, Azərbaycanın ilk milli peykinin orbitə çıxarılmasını, məktəblərin sürətli kompüterləşdirilməsini və s. göstərmək olar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının həyata keçirdiyi strateji siyasət bir də onunla əlaqədardır ki, dövlətin inkişaf proqramları milli proqramlara çevrilir və onların icrasında həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti və fərdi sektor iştirak edir. İdarəetməyə belə müasir yanaşma hər hansı bir layihənin uğurunu təmin edir. Bu istiqamətdə Heydər Əliyev Fondu, onun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın fəaliyyəti xüsusi qeyd edilməlidir. Məsələn, "Yeniləşmiş Azərbaycana yeni məktəb" proqramı, görmə qabiliyyətinə görə xüsusi qayğıya ehtiyacı olan tələbə və gənclər üçün İKT-dən istifadə imkanlarının yaradılması təşəbbüsü də diqqətəlayiqdir. Ümumiyyətlə qeyd edilməlidir ki, Heydər Əliyev Fondu Azərbaycanın dünya miqyasında tanıdılması sahəsində misilsiz başlanğıclara və önəmli layihələrə imza atmışdır. Vətəndaş cəmiyyətinin davamlı inkişafda oynadığı əhəmiyyətli rolu haqqında məlumatlar insan inkişafına həsr olmuş bütün milli hesabatlarda hər zaman diqqət mərkəzində olmuşdur.

**5. İnsan potensialının inkişafı kreativ inkişafa necə təsir göstərə bilir?**

Uğurlu inkişafın əsasında insan faktoru durur və bu amil hər zaman cəmiyyətin tərəqqisini innovasiyalar ilə təmin edən əsas və əvəzsiz amildir. Yer kürəsində əhalinin sayı sürətlə artır, adambaşı istehlak isə yüksəlməkdədir. Eyni zamanda insanların tələbatını ödəmək üçün təbii ehtiyatlar da olduqca məhduddur. Belə bir şəraitdə inkişafın davamlılığı və onun yüksək səviyyədə təmin edilməsi yalnız kreativlik hesabına təmin edilə bilər. Bu isə yeni ideyaların formalaşması, onların elmi əsaslarının tədqiqi və praktikada istifadə yollarını müəyyən etməkdən keçir. 2015-ci ildə BMT-nin Baş Assambleyası və Davamlı İnkişaf Sammitində 2030-cu il üçün hədəflənmiş məqsədlərə yalnız yüksək kreativlik şəraitində nail olmaq mümkündür.

İnnovativ inkişafın planlaşdırılması və idarəedilməsi baxımından akademik Ramiz Mehdiyevin "XXI əsrdə Azərbaycan ideyası kreativ

insanlar milləti kontekstində" fundamental əsəri olduqca əhəmiyyətlidir. Bu dəyərli əsərdə göstərilir ki, hər hansı bir sosial-iqtisadi modelin yaradılmasından asılı olmayaraq, insan potensialının istifadəsi ilə bağlı planlaşdırma böyük əhəmiyyət daşıyır. Əsərdə qeyd olunur ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu strategiya, Prezident İlham Əliyevin bugünkü və gələcək siyasi kursu Azərbaycanın XXI əsrdə innovativ modernləşmə mərhələsinə keçidini, cəmiyyətin zamanın ruhuna uyğun olan yeni duruma transformasiyasını daha da sürətləndirəcək istiqamətlər və prioritetləri müəyyənləşdirib. Müəllifin fikrincə, uğurlu inkişafa başlıca hərəkətverici qüvvə insan potensialının inkişaf səviyyəsi və insanların kreativliyidir. Bu zaman yeni bilik bazasında yeni praktik formaların yaradılması ən əhəmiyyətli məqsədlərdəndir. Onun fikrincə, Azərbaycan dövləti qarşısında duran ən vacib həll edilməli məsələ ölkənin modernləşməsi və rəqabət qabiliyyətinin artırılması üçün zəruri insan kapitalı yaratmaqdan ibarətdir. Əslində, «İnsan kapitalı» prinsipinin bütün dünyada geniş tətbiq olunduğu bir dövrdə bütün sahələrdə, xüsusilə də dövlət idarəçiliyində güclü milli kadr ehtiyatlarının olmasının zəruriliyi və bu sahədə peşəkar insan ehtiyatının hər bir ölkənin sərvəti hesab edilməsi faktdır. Bu baxımdan düzgün aparılan kadr siyasəti həm də bir növ ölkənin strateji ehtiyatlarının idarə edilməsi deməkdir. Azərbaycan dövlətinin həyatında keyfiyyətcə yeni mərhələyə yol açan cənab Prezident İlham Əliyevin "qara qızılı" "insan qızılına" çevirək konsepsiyası innovativ inkişafın və sosial rifahın təminatçısıdır. Hazırda qara qızılın – neftin dünyada qiymətlərinin kəskin azalması şəraitində kreativlik olduqca böyük əhəmiyyət daşıyır. İnnovativ inkişaf ölkənin prioriteti olduğundan bu gün dünyada baş verən iqtisadi böhranların Azərbaycan Respublikasına təsiri nisbətən az olmuşdur. İnsan inkişafı vasitəsi ilə cəmiyyətin kreativliyinin artırılması ölkənin davamlı inkişafının təminatçısı kimi çıxış edir.

# 10. TERMİNLƏR LÜĞƏTİ

**Alıcılıq Qabiliyyəti Pariteti (AQP)** (*Purchasing Power Parity, PPP)* – Müxtəlif ölkələrdə eyni mal və xidmətlərin qiymətlərində olan fərqi əks etdirir və müvafiq əmsalla göstərilir. AQP əmsalı Dünya Bankı tərəfindən qəbul edilmiş 500-dən çox mal və xidmətlərin cəmi olan istehlak səbətinin müxtəlif ölkələrdə qiymətlərinin müqayisəsi əsasında hesablanır. Məsələn, bəzi Asiya və Afrika ölkələrində 1 ABŞ dollarına başa gələn mal və xidmət ABŞ-da 15 dollara, Qərbi Avropada isə 20 ABŞ dollarına istehsal olunur. Ölkələrdə adambaşına düşən gəlir beynəlxalq sənədlərdə, bir qayda olaraq, AQP nəzərə alınmaqla verilir. AQP nəzərə almaqla təqdim edilən ABŞ dolları bəzən "beynəlxalq ABŞ dolları" kimi təqdim edilir. Beynəlxalq təşkilatların hesabatlarında gəlirlər, o cümlədən adambaşına gəlirlər, əsasən, ABŞ dolları və AQP-ni nəzərə almaq ilə verilir. Belə standartlaşmış yanaşma beynəlxalq müqayisələri həyata keçirmək və ölkədə əhalinin real iqtisadi vəziyyəti haqqında məlumat almaq imkanı üçün əhəmiyyətlidir.

**Ali məktəblərdə təbiət elmləri, riyaziyyat, texniki elmlər və mühəndisliyi öyrənən tələbələr** *(Science, math and engineering, tertiary students in)* – Ali məktəblərdə riyaziyyat, biologiya, kimya, fizika, digər təbii və tətbiqi elmlər, mühəndislik, memarlıq, kənd təsərrüfatı, aqronomluq, zootexniya, meşəçilik, balıqçılıq sahəsində ali təhsil alan tələbələrin ümumi tələbələrə görə faizi. İnnovativ inkişafın göstəricisi olan ***Texnoloji Nailiyyətlər Əmsalının (TNƏ)*** hesablanmasında və müxtəlif ölkələrdə bu istiqamətdə əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi və müqayisəsi üçün istifadə edilir. Eyni zamanda ali təhsilin effektiv təşkili və gələcək əmək bazarının tələblərinə cavab verməsi üçün əhəmiyyətlidir. Təhsilə dövlət və vətəndaşlar tərəfindən ayrılan xərclərin optimal idarəedilməsinə xidmət edir.

**Antirisk amilləri – qida təhlükəsizliyi** *(ant-risk – nutritional security)* – Sağlamlıq üçün hər hansı ekoloji, peşə və digər risklərin azaldılmasına yönəldilmiş amillər. Risklərin azalması sağlam həyat tərzi, o cümlədən sağlam qidalanma hesabına həyata keçirilə bilər.

**Aşağı çəkidə anadan olmuşlar** *(birth – weight infants with low)* – Anadan olduqda çəkisi 2500 qramdan aşağı olan uşaqlar. Ümumi doğulmuş uşaqlar arasında onların faizi qeyd edilir. Bu göstərici orta statistik gös-

təricilərdən kəskin fərqlənən zaman nəzərə alınır. Yoxsulluğun qiymətləndirilməsi zamanı istifadə olunan göstəricilərə aiddir.

**Beş yaşına qədər aşağı çəkili uşaqların faizi** *(Underweight children under age five)* – Orta və kəskin formada natamam çəkili beş yaşına qədər uşaqların faizi. Qeyri-qənaətbəxş qidalanmanın əlamətidir. İnkişafda olan ölkələrdə yoxsulluğun qiymətləndirilməsi zamanı istifadə olunur.

**Bərpa olunan enerji** *(Renewable energy)* – Bəzi hallarda *"regenerativ" və "yaşıl enerji"* kimi səciyyələnir və qısa müddətdə bərpa olunan, bilavasitə günəş şüalanması (istilik, fotokimyəvi və fotoelektrik enerji) və ya günəş şüalanmasının dolayı təsiri (külək enerjisi, su enerjisi, fotosintez) nəticəsində yaranan hər hansı enerji növü nəzərdə tutulur. Fərqli mənbələrə əsaslanan məlumatlara görə, dünyada istehlak olunan enerjinin 18 faizdən 21 faizə qədəri bərpa olunan mənbələrdən alınır. İstehsalçı və istehlakçı tərəfindən də bərpa olunan enerjidən istifadəni stimullaşdırmaq məqsədi ilə beynəlxalq və milli səviyyələrdə bu istiqamətdə fəaliyyət üçün xüsusi, o cümlədən iqtisadi imtiyazlar mövcuddur.

**Biokonversiya** (*Bioconversion)* – Üzvi tullantılar, o cümlədən bitki və heyvan qalıqları, məişət tullantılarından canlı orqanizmlər (mikroorqanizmlər, yağış soxulcanı və s.) vasitəsi ilə faydalı məhsullar, o cümlədən enerji mənbəyi olan bioqaz və digər faydalı məhsulların almağa imkan verən proses. Biokonversiya eyni zamanda sənaye, kənd təsərrüfatı və məişət tullantılarının zərərsizləşdirilməsinə və səmərəli idarəedilməsinə, ətraf təbii mühitin mühafizəsinə xidmət edir.

**Biomüxtəliflik** *(Biodiversity)* – Müxtəlif mühitlərdə (su, hava, torpaq, yer səthi və s.) yaşayan canlıların bütün növləri nəzərdə tutulur. Biomüxtəliflik termini beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş rəsmi termindir. BMT-nin və digər qlobal miqyasda inkişafa dəstək verən təşkilatların hazırladığı biomüxtəlifliyə aid sənədlərdə, o cümlədən beynəlxalq konvensiyalarda canlı aləmin bütün nümayəndələrinin qorunması praktiki cəhətdən və eyni zamanda etik və estetik baxımdan da vacib hesab edilir.

**Bioyanacaq** *(Biofuels)* – Bitki və ya heyvan mənşəli mənbələrdən və ya sənaye tullantılarından alınan və əsasən, mühərriklər üçün istifadə edilən yanacaq. Bir sıra ölkələrdə bioyanacaqdan avtomobil, traktor və digər nəqliyyat vasitələri üçün geniş istifadə olunmaqdadır. Hazırda bioyanacaqdan ən geniş istifadə edən ölkə Braziliyadır.

**Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, BMTİP** *(United Nations Development Program, UNDP)* – BMT-nin dəyişiklikləri dəstəkləyən və insanların daha yaxşı həyat tərzi qurmalarına yardım etmək məqsədilə ölkələr üçün müvafiq bilik, təcrübə və vəsaitlərdən istifadə imkanı yaradan qlobal inkişaf şəbəkəsidir.

**Cini İndeksi** *(Gini Index)* – Ölkə daxilində gəlirlərin ayrı-ayrı şəxslər və yaxud ev təsərrüfatları arasında ədalətli paylanmasını xarakterizə edir. Bu əmsalın qiyməti 0 (gəlirlərin paylanmasında tam bərabərlik) 100 (gəlirlərin paylanmasında kəskin qeyri-bərabərlik) arasında dəyişə bilər.

**Çoxölçülü Yoxsulluq Əmsalı,** ÇYƏ (*Multidimensional Poverty Index-MPI*) – BMT İnkişaf Proqramı çərçivəsində dünya ölkələrində yoxsulluğun səviyyəsini müəyyən etmək üçün 2010-cu ildə Oksford Yoxsulluq və İnsan İnkişafı Təşəbbüsü Mərkəzi tərəfindən hazırlanmış göstəricidir. Bu əmsalın əsas məqsədi fərdin təkcə maddi-iqtisadi cəhətdən deyil, digər göstəricilər üzrə yoxsul olmasını göstərməkdir. Onun İnsan İnkişafı Əmsalından (İİƏ) əsas fərqi ondan ibarətdir ki, İİƏ fərdin nələrə malik olduğunu, ÇYƏ isə fərdin nələrdən məhrum olduğunu göstərir.

**Davamlı inkişaf** *(Sustainable Development)* – Çağdaş nəsillərin rifahını təmin edən və gələcək nəsillərin imkanlarını məhdudlaşdırmayan inkişaf yolu. Ətraf təbii, iqtisadi, sosial, mədəni və siyasi mühitlərin planlaşdırılmasını, idarə edilməsini və monitorinqini nəzərdə tutur. İnsan potensialı və yeni biliklərin səfərbər edilməsi davamlı inkişafın əsas şərtlərindəndir. Digər tərifə görə, davamlı inkişaf iqtisadiyyatın artımının, onun optimal səviyyədə saxlanılmasının, insan fəaliyyətinin idarə edilməsinin elə bir üsuludur ki, o, çağdaş nəsillərin tələblərini ödəməyə qadirdir və eyni zamanda gələcək nəsillərin də öz tələbatlarını ödəməsi üçün əngəllər yaratmır. Bərpa olunan ehtiyatlardan, o cümlədən enerji mənbələrindən istifadənin artırılması, onların ümumi enerji və xammal dövriyyəsində payının daim çoxalması bu tələblərə cavab verir.

**Davamlı İnkişaf Məqsədləri** *(Sustainable Development Goals)* – 2015-ci ilin sentyabrında BMT Baş Assambleyası və Dünya Sammitində qəbul edilmişdir. Bu sənəddə 2030-cu ilədək yoxsulluğun və qeyri-bərabərliyin ləğvi, təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin mühafizəsi kimi problemlərin həlli, bunun üçün insan potensialının formalaşdırılması, bilik və texnologiyaların intensiv ötürülməsi və digər 17 məqsəd müəyyən edilib.

**Ekoloji sivilizasiya – Ekosivil** *(Ecological civilization – Ecocivil)* – 1998-ci ildə bu kitabın müəllifi tərəfindən irəli sürülmüş yeni konsepsiyadır, demoqrafik proseslərin və istehlak mədəniyyətinin, o cümlədən yaşıl həyat tərzinə əsaslanan yeni istehlak mədəniyyətinin formalaşmasına əsaslanır. Ekosivilin bir məqsədi də məhdudiyyətsiz istehlak cəmiyyətindən şüurlu istehlak cəmiyyətinə keçməkdir. Ekoloji sivilizasiya konsepsiya (ekosivil) anlayışı və termin dünyada ilk dəfə Azərbaycan Respublikasında 1998-ci ildə yaradılmışdır.

**Elmi-tədqiqat və layihə-konstruktor fəaliyyəti ilə məşğul olanlar** *(Researchers in research and design)* – Elmi-tədqiqat və layihə-konstruktor fəaliyyəti ilə məşğul olanların və bu məqsədlə müvafiq təhsil alanların sayı. Əksər hallarda bu fəaliyyətlə məşğul olmaq üçün ali savad tələb olunur. Kəmiyyət göstəricisi kimi bu fəaliyyətlə məşğul olanların bir milyon əhaliyə düşən sayı nəzərə alınır. Müxtəlif ölkələrdə bu rəqəm 5287 (Yaponiya) və 30 (bir sıra Afrika ölkələri) arasında dəyişir.

**Elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə ayrılan xərclər** *(Research and development expenditures)* – Yeni biliklərin toplanılmasına yönəldilmiş yaradıcı və sistematik fəaliyyət üçün ayrılan vəsait. Fundamental və tətbiqi tədqiqatlar, yeni məhsul və proseslərin yaradılması üçün aparılan təcrübə-konstruktor işləri daxil edilməklə.

**Enerjidən istifadə ÜDM vahidinə görə** *(energy use, GDP per unit of)* – Hər bir enerji vahidinin istifadəsi nəticəsində yaranmış ÜDM-in həcmi. Enerjidən nə dərəcədə səmərəli istifadə olunmasını əks etdirir. Adətən, enerji mənbələrindən asılı olmayaraq, onun vahidi kimi miqdarca 1 kq neftdə olan enerji götürülür. ÜDM vahidi kimi ABŞ dolları götürülür. Bu təhlillər zamanı əksər halda həmin il üçün 1 kq neftin orta qiyməti (həcminə görə 1 barrel neftin orta çəkisi 136 kq qəbul edilir) və adambaşı ÜDM (Ümumdaxili Məhsul) Alıcılıq Qabiliyyəti Pariteti (AQP) nəzərə alınır.

**Enqel qanunu** *(Engel's Law)* – Gəlirlərin paylanması qanunudur. Bu qanuna görə, ümumi xərclər arasında ərzaq məhsullarının alınması üçün sərf edilən vəsaitin payı fərd, ailə, ümumiyyətlə, ev təsərrüfatının maddi durumundan xəbər verə bilər. Mütləq yoxsulluq şəraitində ərzaq məhsullarına xərclənən vəsaitin payı daha yüksək olur. Gəlirlər yüksəldikcə ümumi xərclər arasında ərzaq məhsullarının alınmasına xərclənən vəsaitin payı azalır.

**Əhalinin Yoxsulluq Əmsalı (ƏYƏ)** *(Human Poverty Index)* – İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün müxtəlif göstəricilər əsasında müvafiq olaraq ƏYƏ – 1 və ƏYƏ – 2 hesablanır. ƏYƏ – 1 hesablanarkən inkişaf etməkdə olan ölkələr üçün iqtisadi göstəricilər, sağlamlıq, məsələn 40 yaşa çatmaq ehtimalı olmayan əhalinin, çəkisi və boyu geri qalan uşaqların faizi, təmiz suya əli çatmayan əhalinin faizi, savadsızlığın səviyyəsi və s. nəzərə alınır. ƏYƏ – 2 insan inkişafı sahəsində yüksək göstəricilərə nail olmuş ölkələr üçün hesablanır. ƏYƏ – 2 hesablananda 60 yaşına çata bilməyən, yoxsulluq həddindən aşağı yaşayan əhalinin faizi, uzunmüddətli işsizlik və eləcə də funksional savadsızlıq göstəriciləri nəzərə alınır.

**Əmək bazarı** *(Labor market)* – İşçi qüvvəsinə təklif və tələbatın formalaşdığı yerdir. Burada işçi qüvvəsinin müəyyən müddətə satışı gerçəkləşdirilir. Əmək bazarı – işçi qüvvəsinin normal və fasiləsiz təkrar istehsalı prosesini və əməyin effektli istifadəsini təmin edən norma və institutlar, cəmiyyətdə sosial-iqtisadi və hüquqi münasibətlər sistemidir.

**Fərdi inkişaf** *(Ontogenesis)* – Hər hansı bir canlının, o cümlədən insanın bir bioloji obyekt və fərd kimi inkişafıdır. İnsanın fərdi inkişafı rüşeym dövrü ilə başlayır və körpəlik, uşaqlıq, gənclik, cavanlıq, yetkinlik, qocalıq mərhələlərini əhatə etməklə, ölüm ilə bitir.

**Funksional savadsızlığın səviyyəsi** *(functional unliteracy rate)* – İlk mərhələdə 16–65 yaş arasında olan və oxuduğu standart mətnlərin mahiyyətini dərk edə bilməyən əhalinin faizi. İnkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsinin qiymətləndirilməsi zamanı istifadə olunur. Son dövrlərdə təhsil haqqında formal sənədlərə malik olan, lakin həmin sənədlərdə nəzərdə tutulmuş fəaliyyət növlərini yerinə yetirə bilməyən və yaxud lazımi səviyyədə təmin etməyə qadir olmayanlara şamil edilə bilir.

**Gender** (Gender) – Bu anlayış XX əsrin sonlarında formalaşıb, sosial cins kimi xarakterizə olunur. Gender problemi məhz qadın və kişilərin cəmiyyətdə oynadığı rolu, onların həmin toplumda tutduğu mövqeyi xarakterizə edən və bu sahədə eyni imkanların yaradılmasına xidmət edən bir yanaşmadır.

**Gender İnkişafı Əmsalı** (GİƏ) *(Gender Development Index, GDİ)* – Qadınlar üçün insan inkişafı əmsalı ayrıca hesablanması əsasında müəyyən edilir. Alınmış nəticə ölkə və yaxud hər hansı bir ərazi üçün ümumi əhali üçün hesablanmış İİƏ ilə müqayisə edilir. İİƏ və GİƏ arasında fərqlərin

olmaması və ya az olması uğurlu gender siyasətindən xəbər verir. Fərqlərin çox olması gender siyasətinin qeyri-qənaətbəxş olmasının göstəricisidir.

**Gender qeyri-bərabərliyi** *(Gender inequaility)* – Cəmiyyətdə müxtəlif qruplar, o cümlədən qadın və kişilərin fərqli, müxtəlif baxımdan qeyri-bərabər sosial statusa malik olmalarını xarakterizə edir. Bu vəziyyət bəzi hallarda qadın və kişilərin cəmiyyətdəki imkanlarının qeyri-bərabər olması kimi qiymətləndirilir. ***Gender İnkişafı Əmsalı*** və ***Gender Qeyri-bərabərliyi Əmsalının*** hesablanmaları bu fərqin aşkarlanmasına xidmət edir, ***Qadınların İmkanlarının Genişləndirilməsi Əmsalının*** hesablanması isə bu fərqlərin aradan götürülməsi imkanlarını səciyyələndirir.

**Gender qeyri-bərabərliyi əmsalı** (*Gender Inequality Index*) — Kişi və qadınlar arasında üç göstərici – reproduktiv sağlamlıq, imkanların genişlənməsi və əmək bazarındakı imkanlar əsasında müəyyən edilir. BMT-nin təklifi ilə beynəlxalq statistikaya daxil edilmişdir və 2010-cu ildən istifadə olunmaqdadır.

**Gender statistikası** *(Gender statistics)* – Qadın və kişilərə aid əhali, ailə, sağlamlıq, təhsil, siyasət və insan hüquqlarına dair statistik məlumatlardır. Gender statistikasına aid məlumatların toplanılması istiqamətində fəaliyyətin gücləndirilməsi zərurəti qadınların vəziyyətinə həsr olunmuş 4-cü Dünya Konfransında (Pekin, 1995) irəli sürülmüşdür. Bu məlumatların toplanılması gender bərabərliyinin optimal planlaşdırılması və idarəedilməsi məqsədinə xidmət edir.

**Gələcəksiz inkişaf** *(Development without future)* – Anlayış ilk dəfə BMT tərəfindən təklif edilib və inkişaf prosesində müşahidə edilə bilən mənfi tendensiyaları səciyyələndirir və onların qarşısının alınmasına xidmət edir. Davamlı inkişafdan fərqli olaraq, gələcəksiz inkişaf planlaşdırma və idarəetmənin elə bir üsuludur ki, o, əsasən, çağdaş nəsillərin maraqlarına xidmət edir, onların tələblərinin təmin olunmasını nəzərdə tutur. Bu arada gələcək nəsillərin imkanları məhdudlaşır. Belə qüsurlu planlaşdırma və idarəetmə prinsipləri bir çox hallarda nəinki gələcək nəsilləri, hətta çağdaş nəsillərin inkişaf perspektivlərini də risk altına alır.

**Gübrələrin istifadəsi** *(Fertilizer consumption)* – Bir il ərzində bir hektar əkin sahəsi üçün istifadə olunan azot, fosfor və kalium gübrələrinin miqdarı. Davamlı inkişaf prinsiplərinə əsaslanan kənd təsərrüfatı məhsuldarlığının təşkili ilə yanaşı, ətraf mühitin və istehsal olunan qida

məhsullarının keyfiyyətinin planlaşdırılması və idarəedilməsi baxımından önəmlidir.

**Xroniki işsizlik** *(long-term unemployment)* – 12 aydan artıq müddətdə işsiz qalan əhalinin sayı və faizi. İnkişaf etmiş ölkələrdə yoxsulluq səviyyəsinin qiymətləndirilməsi prosesində istifadə olunan bir göstəricidir.

**İqtisadi azadlıqlar əmsalı** *(Economical freedom index)* – İqtisadi azadlıq hökumətlərin məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakı prosesinə qarışmaması kimi qəbul edilir. Bu qaydadan müstəsna kimi vətəndaşların müdafiəsi naminə bu prosesə qarışması müşahidə edilə bilər. Əmsal 0-dan 100-ə (maksimum azadlıq) dəyişə bilər.

**İqtisadi fəal əhali** *(economically active population)* – Hər hansı bir ölkə və yaxud fərqli ərazidə öz əməyi nəticəsində mal və xidmət yaradan və müvafiq yaşda olan əhalinin sayı və faizi.

**İnkişaf** *(Development)* – İnkişaf prosesi çox zaman obyektlərin maddi və mənəvi təkmilləşməyə yönəldilən dəyişiklikləri kimi anlaşılır və müsbət bir proses kimi qəbul edilir. Əslində, inkişaf yalnız təkmilləşmə ilə məhdudlaşmır və bəzi hallarda bu proses mənfi istiqamətə də yönələ və yaxud yönəldilə bilər. Məsələn, canlılarda xəstəliklər, cəmiyyətdə isə müxtəlif böhranlar, o cümlədən hərbi münaqişələr inkişaf edə bilər ki, bunlar müsbətə yönəldilmiş təkmilləşmə kimi qiymətləndirilə bilməzlər. Cəmiyyətdə ***Gələcəksiz inkişaf*** tendensiyaları da bu hadisələr sırasına aiddir. Bu səbədən inkişaf hər hansı bir obyektin müxtəlif istiqamətdə maddi və mənəvi dəyişikliklərə uğraması prosesi kimi qəbul olunmaqdadır.

**İnsan hüquqları (əsas konvensiyalar)** *(Human rights (principial convenants)* – İnsan hüquqlarına dair əsas konvensiyalara bir sıra mənbələrdə ən çox aid edilənlər:

Vətəndaş və siyasi hüquqlara dair konvensiya (International Convenant on Civil and Human Rights) – Bu konvensiyaya qoşulmuş hər bir ölkə ərazisində 10 dekabr 1948-ci ildə BMT Baş Assambleyasında qəbul edilmiş İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin və bir sıra əlavə öhdəliklərin yerinə yetirilməsini öz üzərinə götürür.

İqtisadi, sosial və mədəni hüquqlara dair beynəlxalq konvensiya (International Convenant on Economical, Social and Cultural Rights) – Konvensiya 10 dekabr 1948-ci ildə BMT Baş Assambleyasında qəbul edilmiş İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin bəndlərini

izah və şərh edir. Konvensiyada əmək şəraitinə, həmkarlar və digər peşə birliklərinin yaradılması və fəaliyyətinə aid, mədəniyyət, sağlamlıq, elm, təhsil və digər sahələrdə insan hüquqlarına dair dövlətlərin öhdəlikləri öz əksini tapmışdır.

**İnsan inkişafı** *(Human Development)* – BMT tərəfindən XX əsrin sonunda istifadə üçün təklif edilmiş yeni anlayışdır. İnsanın cəmiyyətdə vəziyyətini səciyyələndirir. İnsan İnkişafı Əmsalı onun kəmiyyət göstəricisidir. Təhsil, sağlamlıq və gəlirlər əsasında xüsusi düsturlarla hesablanır.

**İnsan İnkişafı Əmsalı (İİƏ)** *(Human Development İndex)* – İnsan potensialının inkişafı əmsalı (İİƏ) kimi də məlumdur. Bu anlayış və termin 1990-cı ildə Pakistan alimi ***Məhbub ül Həq*** və onun rərbərlik etdiyi ekspertlər qrupu tərəfindən təklif edilmişdir. Həmin ildən BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dünyanın müxtəlif qitə və ölkələrində inkişafın səviyyəsini müqayisəli qiymətləndirmək üçün istifadə olunur. İİƏ inkişafı insan amilinə əsaslanaraq qiymətləndirməyə imkan verir. Əmsalın hesablanması zamanı üç qrup göstəricidən istifadə olunur: sağlamlıq, təhsil və bilik. Əmsalın qiyməti 0-dan başlayır və maksimum 1 olur. BMT-nin hesabatlarına əsasən, 2015-ci ildə dünya üzrə İİƏ-nin maksimal səviyyəsi Norveçdə (0,944), minimal səviyyəsi isə Nigerdə qeydə alınmışdır (0,348). Dünya üzrə bu rəqəm orta hesabla 0,711 təşkil edir. Həmin hesabatda göstərilir ki, Azərbaycanda bu rəqəm 0,751-ə bərabərdir. Azərbaycan Respublikası insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş ölkələr qrupuna aiddir, dünya reytinqində 76-cı yerdədir.

**İstixana effekti** *(Greenhouse effect)* – Planet atmosferinin aşağı qatlarında günəş istiliyinin saxlanma qabiliyyəti. İstixana effekti yaradan qazların atmosferə atılmasının artması və meşəsizləşdirilmənin təsiri nəticəsində atmosferdə $CO_2$ miqdarının çoxalması temperaturun xeyli yüksəlməsinə səbəb olur. Bu isə gözlənilməz iqlim və ekoloji dəyişikliklərə, bunlarla əlaqədar olan iqtisadi və sosial fəsadlara yol açır.

**İşsizlik** *(unemployment)* – Müvafiq yaşa çatmış və ödənişli işlə təmin olunmayanların sayı və faizi. İşsizlik iqtisadi fəal yaşa çatmış bütün əhali arasında müəyyən edilir. Eyni zamanda işsizlik iqtisadi fəal əhalinin fərqli qrupları arasında da təhlil edilə bilər. Belə qrupların birini gənclər təşkil edir. Məsələn, Beynəlxalq təşkilatların 2013-cü ildə dərc olunmuş

məlumatlarına görə, Cənubi Avropanın bəzi ölkələrində gənclər arasında işsizlik 50 faizə yaxındır.

**Korporativ idarəetmə** *(Corporate governance)* – İnkişaf prosesinin idarə edilməsində iqtisadi və sosial, fərdi və ictimai məqsəd və maraqlar arasında balansın təmin edilməsidir.

**Korporativ sosial məsuliyyət** *(Corporate social responsibility)* – Hər hansı bir şirkət, peşə qrupu, digər korporativ qurumun daxilində və xaricində insanların rifahının hər zaman yüksəlməsini əsas məqsəd kimi qəbul edir və bu prinsipi gəlir əldə etmək və qrupdaxili maraqlardan üstün tutur. Bir çox hallarda bu qəbul olunmuş öhdəliklər və bu istiqamətdə həyata keçirilən fəaliyyət korporativ siyasət adlanan sənəd əsasında həyata keçirilir.

**Kreativlik** *(creativity)* – Ənənəvi ideya və yanaşmalardan fərqlənən yeni ideyaları yaratmaq və qəbul etmək qabiliyyəti. Kreativliyin dəstəklənməsi və bu istiqamətdə siyasətin həyata keçirilməsi cəmiyyətin innovativ inkişafı üçün olduqca əhəmiyyətli amildir.

**Kvintil gəlir əmsalı** *(Quintile income ratio)* – Kvintil əmsalı (latın sözü *quinta* – beşdə bir sözündən əmələ gəlir) hər hansı bir ölkə və ya ərazidə 20 % ən zəngin sakinlərin və ya ev təsərrüfatlarının orta gəlirinin 20 % ən yoxsul sakinlər qrupunun və ya ev təsərrüfatlarının orta gəlirinə nisbətidir. Sosial vəziyyətin göstəricisidir. Rəqəmlərin aşağı olması güclü sosial siyasətdən xəbər verir. Beynəlxalq təşkilatlar tərəfindən hazırda dünyada ən aşağı rəqəmlər Şimalı Avropa ölkələrində, ən yüksək rəqəmlər isə Afrika və Cənubi Amerika ölkələrində qeydə alınmışdır.

**Qaçqınlar** *(refugees)* – İrqi, milli, dini mənsubiyyətinə, müəyyən sosial qrupa məxsus olmasına və yaxud siyasi baxışlarına görə təqib olunan və ya əsaslı olaraq təqib olunmaq təhlükəsi ilə üzləşməkdən çəkinərək digər ölkə ərazisində məskunlaşmış, vətənə qayıtmaq imkanı olmayan və yaxud bundan imtina edən şəxslər.

**Qadın hərəkatı** (*Women's movement*) – İqtisadi, ictimai-siyasi və mədəni sahələrdə qadınların kişilərlə eyni hüquqları qazanması naminə hərəkat. Əsası XİX əsrin ikinci yarısında İngiltərədə qoyulmuşdur. Hazırda daha çox gender bərabərliyinə yönəldilmiş fəaliyyət kimi formalaşıb.

**Qadınların imkanlarının genişləndirilməsi əmsalı (QİGƏ)** – *Gender Empowerment Index (GEI)* – Anlayış və onun kəmiyyət göstəricisi BMT tərəfindən ilk dəfə 1995-ci ildə dünya üzrə hazırlanmış insan inkişafı

haqqında hesabatda təqdim edilmişdir. Məqsədi qadın və kişilərin siyasi və iqtisadi sahələrdə fəaliyyətlərinin balanslaşdırılmış səviyyədə həyata keçirilməsidir. Bu əmsalın hesablanmasında qadınların parlamentlərdə, qərar qəbul edənlər və mütəxəssislər arasında payı da nəzərə alınır.

**Qadınların parlamentdə təmsil olunması** *(Seats in parliament held by women)* – Qadınların ölkə parlamentində faizi ölkədə gender siyasətinin vəziyyətindən xəbər verir. Beynəlxalq təşkilatların ən son məlumatlarına görə, bu göstərici dünyada orta hesabla 21,8 faiz təşkil edir. Müxtəlif ölkələrdə fərqlidir və 1,5 faizdən (minimum) 50 faizə qədər (maksimum) dəyişir. Azərbaycan Respublikasının parlament (Milli Məclis) üzvlərinin 16,9 %-ni qadınlar təşkil edir.

**Qeyri-hökumət təşkilatları** *(Non-governmental Organizations)* – Hökumətdən asılı olmayan ictimai birlik və ya fond. Cəmiyyətdə üçüncü sektora aid edilir. Bu təsnifata görə birinci sektora dövlət təşkilatları, ikinci sektora isə kommersiya təşkilatları aiddir.

**Qlobal rəqabət qabiliyyəti əmsalı** *(Qlobal competitive index)* – Hər hansı bir ölkənin öz vətəndaşları üçün yüksək həyat səviyyəsini təmin etmək qabiliyyətini səciyyələndirir. İlk növbədə, bu, mövcud olan ehtiyatların nə dərəcədə səmərəli istifadəsinə əsaslanır, əmək məhsuldarlığının artırılmasını, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsini nəzərdə tutur.

**Median gəlir** *(income median)* – Median gəlir (əməkhaqqı) əhali və ya ev təsərrüfatlarının gəlirlərini iki eyni sayda qruplara bölən bir göstəricidir. Ölkə, ərazi və yaxud hansısa peşə sahibləri üçün hesablana bilər. Məsələn, hər hansı bir peşə sahiblərinin median gəliri hər hansı bir valyutada 500-ə bərabərdirsə, bu o deməkdir ki, həmin peşə sahiblərinin tam yarısı bu məbləğdən çox, yarısı isə bu məbləğdən az gəlir əldə edir. Eyni üsulla hər hansı bir ölkə və ya ərazidə əldə edilən median gəlir müəyyən edilir. Bu statistik göstəricinin istifadəsi orta gəlir (əməkhaqqının) vəziyyətinin tam reallıqla əks etdirilməsi səbəbindən təklif edilmişdir.

**Median yaş** *(Median age)* – Median yaş hər hansı bir ölkə və ya ərazidə əhalini yaşına görə iki eyni sayda qruplara bölən bir göstəricidir. Məsələn, hər hansı bir ölkə və ya ərazi üçün median yaş 40-a bərabərdirsə, bu o deməkdir ki, həmin ölkə və ya ərazi sakinlərinin tam yarısı bu yaşdan yuxarı, yarısı isə bu yaşdan aşağıdır. Bu statistik göstərici ölkə və ya ərazidə demoqrafik vəziyyəti səciyyələndirir.

**Məcburi köçkün (daxili)** *(Internally displaced persons)* – Daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçən şəxslər və ya başqa ölkədə daimi yaşayış yerini tərk etməyə məcbur olan vətəndaşlar "məcburi köçkün" sayılır.

**Meşəsizləşmə** *(Deforestation)* – Meşə sahələrinin kənd təsərrüfatının ehtiyacları üçün istifadəsi və yaxud yaşayış məskənlərinin salınması üçün qırılması. Bura planlaşdırılmış meşə tədarükü aid deyil.

**Məhbub ül Həq** (Mahbub Ul Haqq) – Karaçi (Pakistan) və Kolumbiya (Columbia University, ABŞ, Nyu-York) Universitetlərinin professoru, insan inkişafı nəzəriyyəsinin yaradıcısı və BMT-də İnsan İnkişafına dair ilk məruzənin və bu sahədə dərc edilmiş ilk hesabatın müəlliflərindəndir. Müxtəlif ölkələrdə insan inkişafını ölçən və geniş istifadə edilən göstəricinin – İnsan İnkişafı Əmsalının müəllifidir.

**Məhsul və xidmətlərin ixracı** *(Exports of goods and services)* – Xarici ölkələrə ixrac edilən bütün məhsul və pullu xidmətlərin cəmi. Bura inşaat, rabitə, maliyyə, məlumat, biznes və digər xidmətlər də aiddir.

**Minilliyin inkişaf məqsədləri** *(Millenium Development Goals)* – BMT-nin üzvü olan 193 ölkə və ən azı 23 beynəlxalq təşkilat tərəfindən 2000-ci ildə Dünya Sammitində qəbul olunmuş və 2015-ci il üçün həlli nəzərdə tutulan 8 əsas hədəfdir. Bunlara kəskin yoxsulluğun və uşaq ölümünün azaldılması, inkişaf naminə beynəlxalq əməkdaşlığın genişləndirilməsi, yoluxucu xəstəliklərlə mübarizə, gender bərabərliyinin təmin edilməsi və digər məqsədlər aiddir. Bu istiqamətdə müəyyən irəliləyişlər əldə edilsə də, bütün hədəflərin həllinə tam nail olunmayıb. Bu səbəbdən BMT-nin təklifi ilə "2015-ci ildən sonrakı gündəlik" sənədi müzakirəyə çıxarılıb və yeni hədəflər müəyyənləşdirilir. Aparılan müzakirələr göstərir ki, 2015-ci ildən sonrakı və 2025-ci ili də əhatə edən dövr üçün dünyada davamlı inkişaf əsas hədəf kimi seçilmişdir.

**Mütləq yoxsulluq** *(Absolute poverty, abject poverty)* – Bir neçə tərifi məlumdur. Ən müasir və daha çox yayılmış tərifə görə mütləq yoxsulluq insanların əsas tələbatlarının təmin olunmaması, o cümlədən qida, təmiz içməli su, tibbi xidmət, təhsil və məlumat almaq imkanlarından məhrum olunmasıdır. Müasir anlamda yoxsulluq yalnız gəlirlərin az olması deyil, eyni zamanda bəzi əsas xidmətlərə əlçatmazlıq deməkdir.

**Nisbi yoxsulluq** *(Relative poverty)* – Hər hansı bir ərazi, fərd və yaxud fərdlər qrupu üçün səciyyəvi həyat standartının həmin qrupa aid olan

fərd və yaxud fərdlərin təmin edilməsinin mümkün olmaması. Hər hansı bir ölkə və yaxud ərazidə ondan yuxarı və ondan aşağı gəlir əldə edən əhalinin və ya işçilərin sayı eynidir. Median gəlirlərin dörddə birindən az gəlirləri olan fərd, işçi və ya ev təsərrüfatı nisbi yoxsul hesab edilir.

**Orqanik kənd təsərrüfatı** *(Organic agriculture)* – Kənd təsərrüfatının idarəedilməsinin elə bir üsuludur ki, onun tətbiqi nəticəsində şüurlu olaraq kimyəvi gübrə, bitki və heyvanların məhsuldarlığını tənzim edən süni kimyəvi maddələr və oxşar fəaliyyətlərdən imtina edilir.

**Orta gəlir** *(İncome average)* – Orta gəlir (əməkhaqqı) hər bir məşğul olana və yaxud ev təsərrüfatına düşən gəlir və yaxud əməkhaqqı. Gəlir və yaxud əməkhaqqının ümumi məbləğinin onu alanların sayına bölmək vasitəsi ilə müəyyən edilir. Ölkə, ərazi, müəssisə və yaxud hansısa peşə sahibləri üçün hesablana bilər. Gəlir və əməkhaqlarının kəskin fərqlənməsi şəraitində əhalinin və ya ev təsərrüfatının orta gəlir və orta əməkhaqqı göstəriciləri real vəziyyəti tam səciyyələndirmir. ***Median gəlirin*** (əməkhaqqının) hesablanması və Cini Əmsalı gəlirlərin bölünməsində real vəziyyəti daha dəqiq göstərir.

**Ozon qatı** *(Ozone layer)* – Yer kürəsinin tərkibində ozonun sıxlığı yüksək olan stratosfer qatıdır. Ozon qatı ultrabənövşəyi şüalanmanın böyük hissəsini yer səthinə buraxmır.

**Real iqtisadiyyat və ya iqtisadiyyatın real sektoru** *(Real economy)* – İqtisadiyyatın məhsul və xidmətlər istehsal edən sahələri. İqtisadiyyatın maliyyə vasitələrinin alqı-satqısı ilə məşğul olan sahələrindən fərqlidir.

**Sosial məsuliyyətli fəaliyyət** *(Sosial reasponsible activities)* – Qanun və rəsmi qaydalar ilə nəzərdə tutulmamış, lakin hər bir fərd və yaxud insanlar qrupu, təşkilat tərəfindən könüllü olaraq qəbul edilmiş və sosial baxımdan əhəmiyyətli fəaliyyətin həyata keçirilməsi. Məsələn, xüsusi qayğıya ehtiyacı olan qruplara (uşaq, yaşlı, qaçqınlar, sağlamlıq baxımından problemləri olan, yoxsullar) bu və ya digər şəkildə həyata keçirilən dəstək sosial məsuliyyətli fəaliyyət kimi dəyərləndirilir.

**Subyektiv yoxsulluq** *(Subjective poverty)* – Yoxsulluğun bu konsepsiyası o qənaətə əsaslanır ki, hər bir fərd yoxsul olub-olmadığını özü müəyyən edə bilər. Subyektiv yoxsulluq səviyyəsini müəyyənləşdirmək üçün bir çox yanaşmalar mövcuddur: nə qədər insanın özünü və yaxud ətrafındakıları yoxsul saydıqlarını aşkarlamaq olar. Eyni zamanda

ictimai rəyə əsaslanaraq subyektiv mütləq yoxsulluq həddini müəyyən etmək və əhalinin gəlirləri ilə müqayisə etmək olar.

**Texnoloji geriləmə ilə inkişaf** *(Development with technology lag)* – Elə bir halı səciyyələndirir ki, o zaman hər hansı bir ölkə və ya region üçün yeni texnologiyalar tətbiq edilir, həmin texnologiyalar bu məkan üçün yenidir, lakin perspektivdə yüksək rəqabət qabiliyyətinə malik deyillər. Texnoloji geriləmə ilə inkişaf bu istiqamətdə yüksək nəticələr əldə etmiş və inkişaf etməkdə olan ölkələr arasında fərqlərin aradan qaldırılmasını əngəlləyən amillərdəndir. Bu növ gələcəksiz inkişafın qarşısının alınmasında elm, texnologiyalar və bu məqsədlərə xidmət edən insan potensialı xüsusi əhəmiyyət daşıyır. Termin ilk dəfə Azərbaycan Respublikasında yaradılıb və 1996-cı ilin insan inkişafına həsr olunmuş hesabatda dərc edilib.

**Texnoloji Nailiyyətlər Əmsalı, TNƏ** *(Technological Achievement Index, TAI)* – Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən XXI əsrin ilk illərində təklif edilib. Ölkə və yaxud hər hansı bir ərazidə inkişafın biliyə əsaslanmasını və müasir elmi-texniki nailiyyətlər əsasında həyata keçirilməsini nümayiş etdirən göstəricidir. TNƏ-nin hesablanmasında bir sıra göstəricilər, o cümlədən ölkədə yaradılmış ixtiralar və onların xaricdə istifadəsinə görə ölkəyə daxil olan gəlir, yüksəkixtisaslı kadrların sayı, təbiət və texniki elmləri, mühəndisliyi öyrənən tələbələrin ictimai elmləri öyrənən tələbələrə nisbəti və s. nəzərə alınır. TNƏ-yə görə ölkələr 4 qrupa bölünürlər: liderlər, potensial liderlər, elmi-texniki nailiyyətlərdən fəal istifadə edənlər və bu sahədə geri qalanlar.

**Təhsilə dövlət xərcləri** *(Education expenditure, public)* – Təhsilə, o cümlədən tədris və köməkçi bina və qurğuların inşasına, yenidənqurulması və təmirinə, avadanlıq və ləvazimatların, kitabların və tədris vəsaitlərinin alınmasına yönəldilən bütün xərclər. Bura, eyni zamanda təhsil işçilərinin əməkhaqları, onların bütün imtiyazları ilə əlaqədar xərclər, ezamiyyə xərcləri və sığortalar, nəqliyyat və rabitə xərcləri, kirayələrin dəyəri və s. aiddir.

**Təkamül** *(Evolution)* – Tədricən baş verən keyfiyyət dəyişiklikləri ilə səciyyələnən inkişaf. Hər hansı bir canlı növünün, o cümlədən insanın tarixi inkişafına aid edilə bilər. İnsanın tarixi inkişafı (təkamülü) eyni zamanda antropogenez kimi səciyyələndirilir.

**Tərəqqinin Həqiqi Göstəricisi (THG)** *(Genuine progress indicator)* – Ümumi iqtisadiyyatda "yaşıl iqtisadiyyatın" payını nəzərə alan inkişaf

göstəricisidir. Qeyd olunan göstəricinin tətbiqinin tərəfdarları elə hesab edirlər ki, ekoloji amilləri və ətraf təbii mühitə təsirləri nəzərə almayan və davamlı inkişaf prinsiplərinə tam cavab verməyən iqtisadi artım cəmiyyət üçün nəinki faydalı deyil, hətta mənfi nəticələrə də gətirib çıxara bilər.

**Ümumi Daxili Məhsul (ÜDM)** *(Gross Domestic Product, GDP)* – Ölkədə vətəndaşlar və qeyri-vətəndaşlar tərəfindən yaradılmış, daxili və xarici tələbatların ödənilməsinə yönəldilmiş məhsul və xidmətlərin məcmusu. Bir il ərzində hər hansı bir ölkədə adambaşına düşən ÜDM iqtisadi inkişaf səviyyəsinin göstəricisi kimi beynəlxalq statistikada istifadə olunmaqdadır.

**Ümummilli gəlir (ÜMG)** *(Gross National İncome, GNİ)* – Ölkədə həm vətəndaşlar, həm də qeyri-vətəndaşlar tərəfindən yaradılmış, daxildə və xaricdə olan tələbatların ödənilməsinə yönəldilmiş məhsul və xidmətlərin ümumi həcmi (ÜDM), üstəgəl ölkə vətəndaşlarının xaricdə aldığı gəlirlər və çıx qeyri-vətəndaşların ölkədən çıxardığı gəlirlər.

**Ümummilli məhsul** *(Gross National Product, GNP)* – Ölkə daxilində və onun hüdudlarından kənarda milli iqtisadiyyata mənsub iqdisadi vahidlərdə bir il ərzində istehsal edilmiş son məhsul və xidmətlərin bazar dəyərinin toplusudur. Məlum olduğu kimi, bir sıra ölkələr digər ölkələrə yatırımlar edir və həmin ölkələrdə iqtisadi fəaliyyət gerçəkləşdirir. Bu müəssisələrin istehsal etdiyi məhsul və xidmətlərin dəyəri Ümummilli Məhsula (ÜMM) daxildir. Beynəlxalq statistikada ölkələrin inkişaf səviyyəsinin göstəricisi kimi istifadə edilməkdədir.

**Üzvi qida və qida əlavələri** *(Organic food and organic food additives)* – Ekoloji baxımdan təmiz qida məhsulları və qida əlavələri. Üzvi kənd təsərrüfatı, üzvi qida məhsulları istehsalı və istehlakı dünya iqtisadiyyatının prioritet istiqamətlərindəndir. Ekoloji sivilizasiyanın vacib elementidir.

**Vanderford-Rileyin Rifahın Planlaşdırılması və Həyatın Keyfiyyəti Əmsalı** *(Vanderford-Riley well-being schedule)* – Tam məşğulluğun səviyyəsini, ölkədə və yaxud bölgədə sahibkarlar və sahibkar olmayanlar arasında nisbəti, bir sıra digər göstəriciləri nəzərə alır. Bu göstəricilər bir sıra iqtisadi və sosial layihələrin planlaşdırılması və idarə edilməsində istifadə olunur.

**Vətəndaş cəmiyyəti** *(Civil society)* – Müasir anlamda vətəndaş cəmiyyəti dedikdə, əsasən, müstəqil vətəndaşlar, ümumi məqsəd və məramlar

əsasında onların formalaşdırdığı könüllü birliklər nəzərdə tutulur. İnkişaf etmiş vətəndaş cəmiyyəti müasir dövlətlərin vacib atributlarındandır.

**Yaşıl həyat tərzi və davranış** *(Green life style and green behaviour)* – Davamlı inkişaf və ekoloji sivilizasiya tələblərinə cavab verən həyat tərzi. İnsan və ya insan qrupu könüllü qəbul edir. İqtisadi fəaliyyətə və həyat tərzinə aiddir. Ətraf mühitin mühafizəsi və təbii ehtiyatların səmərəli istifadəsini nəzərdə tutur. Dünyada genişlənən yaşıl hərəkatın bir hissəsidir.

**Yaşıl iqtisadiyyat** – Son 20 ildə iqtisadiyyat və cəmiyyətin idarə edilməsi elmi çərçivəsində formalaşmış istiqamətdir. Bu istiqamətin təmsilçilərinə görə, iqtisadiyyat təbii mühitin komponentidir, onun hüdudlarında mövcuddur və ayrılmaz tərkib hissəsidir. Yaşıl iqtisadiyyat konsepsiyası iqtisad və fəlsəfə elmlərinin bir çox başqa istiqamətlərinin ideyalarını özündə cəmləşdirib. Yaşıl iqtisadiyyat nəzəriyyəsi 3 aksioma əsaslanır:

- Məhdud məkanda təsir dairəsini sonsuza qədər genişləndirmək mümkün deyil;
- Resursların məhdudluğu şəraitində daim artan tələbatların təmin olunmasını tələb etmək mümkün deyil;
- Yer səthində hər şey əlaqəlidir.

**Yoxsulluq həddi** *(Poverty line)* – Gəlirlərin və yaxud istehlakın elə bir səviyyəsidir ki, ondan aşağı olan fərdlər və yaxud ev təsərrüfatları yoxsul hesab edilir. Yoxsulluq həddi, eyni zamanda həyati tələblərin təmin edilməsi üçün və sairin çatışmaması kimi təqdim edilə bilər. Statistikada ölkə və ya hər hansı bir ərazidə yoxsulluq həddindən aşağı səviyyədə təmin olunanların faizi kimi təqdim edilir.

**Yüksək texnologiya məhsullarının ixracı** *(Exports, high technology)* – Yüksək elmi-tədqiqat və texnoloji işləmələrin nəticəsində yaranan məhsulların ixracı. Yüksək texnologiya məhsullarına aviasiya-kosmik, kompüter, farmakoloji, elmi cihazların, bəzi elektrik avadanlıqlarının istehsalı və ixracı aiddir.

**Urkhan Alakbarov**

## BASIC HUMAN DEVELOPMENT

*(Textbook for tertiary schools)*

***Executive summary***

**Chapter 1.** Indicators of development

The first section is dedicated to the indicators of siciety's development. Planning and management of development processes at various levels, including national and regional, envisages the need to assess the factors that are most likely to ensure effective progress. This chapter discusses the criteria used to assess development and the dependence of these processes on different contributing factors: historical, geographical, natural, ethnic, etc. Based on the analysis of development gains in countries characterized by a variety of contributing factors and human potential indicators, it is shown that the human factors are most important in improving the welfare of the population. Development, based on the potential of the people, their knowledge and skills, is the most effective way in ensuring the development of countries and regions, and improving the well-being of the population. This chapter provides information about the technological achievement index and others as the knowledge based development indicators.

**Chapter 2.** The formation of human potential

This section coversissues related to the formation of human potential. The term human development and the concept itself are relatively new. This chapter describes the process of human development, including the human evolution and human individual development. Among the negative development practices several specific topics such as development without future, development without equality and development with a technological lag are described. Effective methods of management of human development processes for prevention of the development without future and development without equality are discussed. The chapter assesses the role of human factors and consumer culture in sustainable development and human security.

**Chapter 3.** Human development as an indicator of progress

This sectiondescribes the indicators that are used to assess the human development process. The date presented reviews also the main trends that are used in the evaluation of human development and provides information about the coefficients and indicators are used in the practice of evaluation of planning and management processes of human development. This chapter contains specific information on the data to be used in the calculation of the various human development indicators in the areas of health, education and economic status. This chapter reviews the concept of purchasing power parity as well as different indicesare used in the assessment of the human development processes.

**Chapter 4.** Gender and development

The UN General Assembly and World Summit identified the gender equality as a principial problem to be solved for 2030. This chapter provides information about the history of the women's movement and the development of the concept of gender as a factor ensuring social equality between the sexes. The chapter contains information on how to assess gender–oriented development programs planning and management. The comparison of the national gender development indicators with other countries is made. It is shown that in the Republic of Azerbaijan women gained the right to vote earlier than in many countries of Europe and America, including USA, France, İtaly, Turkey, Spain, etc. Special attention is paid to increases in the participation of women in governance and decision making, implementation of recommendations of the UN and other international organizations.

**Chapter 5.** Poverty as a factor impeding human development

Poverty reduction is one of the major tasks for human development. Therefore this Section of the textbookanalyzes the causes and forms of poverty and state of the poverty reduction strategy in different countries. Information is provided about the concepts of poverty and average of median income, as factors that characterize the level of income and its distribution. The Section provides information on how to measure

poverty in developed and in developing countries through the use of economic performance data, health and education standards. Special attention is given to poverty among refugees and internally displaced persons. Overall global progress in poverty reduction in the context of MilleniumDevelopment Goals and Sustainable Development Goals for 2015–2030 is provided. The chapter pays special attention to the successes achieved in the Republic of Azerbaijan in the poverty reduction.

**Chapter 6.** Human development for ecological civilization

This Section deals with the problems that are currently observed in a number of countries and are associated with irrational consumption. It is shown that the rapid growth in the number of inhabitants on the planet, the changing age structure of the population and increasing per capita consumption are imposing pressure that requires changes to the planning and management of the processes of economical and social development. As such a "model of ecological civilization (ekotsivila)" is proposed to be adopted as a central goal of human development. Key elements of "ekotsivil" are described as access to family planning, promoting an effective consumer culture and the development of a green economy. The Section provides information on how to assess the readiness to move towards "ekotsivil" society through a specific quantification formula. The concept of ecological civilization and this term was proposed by the author of this for the first time in the world in 1998.

**Chapter 7.** Environmental management for human development

This Section takes an innovative view of the environment as an integrated system consisting of several key contributing factors such as the natural environment, the economical environment, the social environment, political environment, etc. A successful approach to management of the environment for human development involves the need to assess the quality of the key components of the environment, as well as the potential effects on it emanating from human activity. The Section discusses the approach to be utilized to conduct comprehensive assessment of the quality of the environment for sustainable human

development. Within this context the policy of the Azerbaijan Republic in the environmental planning and management is a subject for a special consideration.

**Chapter 8.** Human development and human rights

This Chapter reviews the role of human rights in the creation of enabling environment for human development. Specific attention is paid to the needs of refuges and internally displaced persons. Sustainability of human development process is analyzed as the main way to ensure the human rights of future generations. Specific attention is paid to corporate social responsibility as an important factor in expanding human development oriented programs and ensuring the protection of the human rights of current and future generations.

**Chapter 9.** Human Development in Republic of Azerbaijan

This Section is dedicated to the human capacity development in Republic of Azerbaijan implemented at a public policy level. The information presented in this Section have demonstrated which specific policies and programs implemented in last two decades have placed human capacity development in the Azerbaijan Republic as the main national priority. According to the data provided by international organizations and based on analysis of rapidly growing indicators of human development, Azerbaijan quickly moved into the group of countries that have achieved high performance in human development. Azerbaijan polices have been successful in addressing the current task of transformation of rich natural resources into human capacity and moving towards dynamic and creative society.

## INFORMATION ABOUT AUTHOR

***Urkhan Alakbarov, Academician, Prof., Dr.,*** Rector of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan. Dr. U. Alakbarov has a distinguished career as a scientist and development expert, with specific focus on integration of natural, economic, social and political components into the overall approach to environmental management. The author of the concept of ecological civilization (1998), based on the "green" mentality (integrating demography, and culture of consumption), and a "green" economy. With an academic background in this field, Professor Alakbarov served as a vice-president and director of institutes of the National Academy of Sciences of Azerbaijan. He also has a long record of working in various capacities with UN agencies (UNESCO, UNDP, and UNICEF) since 1985. Dr. U. Alakbarov is a member of various international committees, advisory councils, steering committees and editorial boards of journals, based in USA, Great Britain, Netherlands, France, Turkey and other countries. He presented lectures and seminars on sustainable development and ecological civilization planning and management in various international development institutions including UNDP (New York), the World Bank (Washington), EBRD (London) and universities around the world: Michigan University, Kansas University, Rutgers University, Jackson State University, Lehigh University, Columbia University, Texas University (USA), Stockholm University (Sweden), Anadolu University, Chukurova University (Turkey), Greifswald University (Germany), Tel-Aviv University (Israel) and many others. Professor Alakbarov has published over 330 articles and scientific works and authored 30 books, including world's first textbooks on sustainable human development for secondary schools. Quotes by academician UrkhanAlakbarov about the processes happening around the world, are published regularly together with quotes from Mahatma Gandhi, Bill Gates; Barak Obama, Jimmy Carter, Ban Ki-Moon and other known people.

# MÜNDƏRİCAT

**Giriş** ....................................................................................3

**1. İnkişaf göstəriciləri**....................................................................5
1.1. Bölmənin məqsədi ........................................................................5
1.2. Açar anlayışlar ............................................................................6
1.3. İnkişaf anlayışı. Ölkə və ərazilərin inkişaf göstəricilərinin qiymətləndirilməsi ..........................................................................6
1.4. İnkişaf sahəsində əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsində insan amili....................................................10
1.5. Tərəqqi göstəriciləri və milli xoşbəxtlik əmsalı ..............................14
1.6. İnsan potensialı inkişafın əsas amili kimi.......................................16
1.7. Biliyə əsaslanan inkişaf və texnoloji nailiyyətlərin qiymətləndirilməsi ..........................................................................23
1.8. İnsan potensialının formalaşdırılması siyasəti və əmək bazarı ....29
1.9. Özümüzü sınayırıq ......................................................................34

**2. İnsan potensialının formalaşdırılması** .............................................41
2.1. Bölmənin məqsədi ........................................................................42
2.2. Açar anlayışlar ............................................................................42
2.3. İnsan inkişafı anlayışı ...................................................................43
2.4. İnsanın tarixi inkişafı .................................................................... 45
2.5. İnsanın fərdi inkişafı......................................................................47
2.6. Davamlı inkişafın mahiyyəti .........................................................47
2.7. Davamlı inkişafın əsas indikatorları ...............................................51
2.8. Davamlı inkişafın idarə edilməsində enerji effektivliyi .................53
2.9. Dünyada enerji effektivliyinin dəyişmə dinamikasında insan inkişafının rolu .......................................................................63
2.10. Bərpa olunan enerji mənbələri və insan inkişafı ..........................66
2.11. İnsan inkişafı gələcəksiz inkişafa qarşı ........................................67
2.12. İnsan inkişafı haqqında maarifləndirmə və məlumatlandırma ............................................74
2.13. İnsan inkişafında insan təhlükəsizliyi və sosial məsuliyyət ..........................................................................78
2.14. Özümüzü sınayırıq ......................................................................80

**3. İnsan inkişafı tərəqqinin göstəricisi kimi** ........ 87
3.1. Bölmənin məqsədi ........ 87
3.2. Açar anlayışlar ........ 88
3.3. İnsan inkişafının qiymətləndirilməsi ........ 88
3.4. İnsan inkişafında sağlamlıq göstəriciləri ........ 92
3.5. İnsan inkişafında təhsil göstəriciləri ........ 100
3.6. İnsan inkişafının iqtisadi göstəriciləri ........ 105
3.7. İnsan inkişafı əmsallarının hesablanması ........ 108
3.8. Özümüzü sınayırıq ........ 113

**4. İnsan inkişafı və gender** ........ 121
4.1. Bölmənin məqsədi ........ 121
4.2. Açar anlayışlar ........ 122
4.3. Gender anlayışı ........ 122
4.4. Gender probleminə müxtəlif baxışlar ........ 124
4.5. Qadınların cəmiyyətdə rolunun artırılması ........ 125
4.6. Gender və insan inkişafı ........ 126
4.7. Gender inkişafının qiymətləndirilməsi ........ 127
4.8. Qadınların imkanlarının genişləndirilməsi ........ 132
4.9. Gender inkişafı BMT-nin sənədlərində ........ 134
4.10. Özümüzü sınayırıq ........ 139

**5. İnsan inkişafına mane olan amillər: yoxsulluq** ........ 145
5.1. Bölmənin məqsədi ........ 145
5.2. Açar anlayışlar ........ 146
5.3. Yoxsulluğun mahiyyəti ........ 146
5.4. Yoxsulluğun səbəbləri ........ 152
5.5. Yoxsulluq insan inkişafı baxımından ........ 157
5.6. Yoxsulluqdan ən çox əziyyət çəkən əhali qrupları ........ 161
5.7. Yoxsulluğun qiymətləndirilməsinin ümumi prinsipləri ........ 162
5.8. Yoxsulluğun inkişafda olan ölkələrdə qiymətləndirilməsi ........ 164
5.9. Yoxsulluğun inkişaf etmiş ölkələrdə qiymətləndirilməsi ........ 166
5.10. Özümüzü sınayırıq ........ 168

**6. İnsan inkişafı və ekoloji sivilizasiya** ........ 175
6.1. Bölmənin məqsədi ........ 175
6.2. Açar anlayışlar ........ 176
6.3. İstehlak cəmiyyəti və insan inkişafı ........ 176
6.4. Demoqrafik tendensiyalar və istehlak xüsusiyyətlərinin insan inkişafına təsiri ........ 178
6.5. Ekoloji sivilizasiya və onun xüsusiyyətləri ........ 181
6.6. Özümüzü sınayırıq ........ 188

**7. İnsan inkişafı naminə ətraf mühitin idarə edilməsi**.....................193
7.1. Bölmənin məqsədi .....................................................................193
7.2. Açar anlayışlar...........................................................................194
7.3. İnsan inkişafının təbii mühitdən asılılığı..........................................194
7.4. Texnoloji tərəqqinin insan inkişafına təsiri ....................................195
7.5. Ətraf mühitin idarə edilməsinə tarixi baxış ....................................198
7.6. Təbii mühitə təsirlərin qiymətləndirilməsi ......................................201
7.7. Sosial mühitə təsirlərin qiymətləndirilməsi.....................................203
7.8. İnsan inkişafının ekoloji indikatorları...............................................204
7.9. Xərclərin strukturu insan inkişafının göstəricisi kimi .......................209
7.10. Özümüzü sınayırıq ...................................................................210

**8. İnsan inkişafı və insan hüquqları** ...................................................215
8.1. Bölmənin məqsədi .....................................................................215
8.2. Açar anlayışlar...........................................................................216
8.3. İnsan inkişafı və insan hüquqları ...................................................216
8.4. İnsan hüquqları insan inkişafı baxımından .....................................218
8.5. Qaçqın və məcburi köçkünlərin hüquqlarının təmin edilməsi ...219
8.6. İnsan təhlükəsizliyi və insan hüquqları..........................................221
8.7. İnsan inkişafı sahəsində insan hüquqlarına tarixi baxış ..............222
8.8. BMT və insan hüquqları...............................................................223
8.9. Korporativ sosial məsuliyyətli siyasət və insan hüquqları.........227
8.10. Özümüzü sınayırıq....................................................................229

**9. Azərbaycan Respublikasında davamlı insan inkişafı**..................239
9.1. Bölmənin məqsədi .....................................................................239
9.2. Açar anlayışlar...........................................................................239
9.3. İnsan inkişafı ölkənin prioriteti kimi..............................................240
9.4. BMT-nin Azərbaycan Respublikasında
İnsan İnkişafı haqqında hesabatları ................................................241
9.5. İnsan İnkişafı haqqında hesabatların əsas mövzuları və
onların inkişafa təsiri .....................................................................244
9.6. Azərbaycan Respublikasında "qara qızıl"ın
insan potensialına çevrilməsi siyasəti ............................................246
9.7. Kreativ millətin formalaşdırılmasında
insan inkişafının rolu ....................................................................248
9.8. Özümüzü sınayırıq . ....................................................................249

Terminlər lüğəti ...................................................................................257
Basic Human Development.................................................................272
Information about author .....................................................................276

*Urxan Kazım oğlu Ələkbərov*

**İNSAN İNKİŞAFININ ƏSASLARI**

*(Ali məktəblər üçün dərslik)*

Bakı, «Aspoliqraf», 2016

---

Kompüter tərtibatçıları ***Səbinə Məmmədova, Təhmasib Mehdiyev***
Korrektoru ***Ülkər Tağıyeva***

Çapa imzalanıb 04.07.2016. Kağız formatı 70x100 $^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 17,5. Sifariş 47. Tiraj 500.

«Aspoliqraf LTD» MMC
Bakı, AZ 1052, F.Xoyski küç., 121$^{B}$
Tel: (+99412) 567 81 28/29
E-mail: aspoligraf.ltd@gmail.com